İqtisadi inkişafı təmin edən başlıca şərtlərdən biri ölkədə əlverişli investisiya mühitinin yaradılmasıdır. Məlumdur ki, bazar investisiya mühiti yarada bilməz.Deməli, investisiya fəaliyyətinin canlandırılması və səmərəli investisiya siyasətinin həyata keçirilməsində dövlətin xüsusi rolu vardır. Iqtisadiyyatın transformasiyası dövründə bu xüsusilə zəruridir. Ölkə iqtisadiyyatına investorları cəlb etmək üçün Azərbaycan hökumətinin bu sahədə fəaliyyətinin prioritet istiqamətlərindən biri sabit investisiya qanunvericiliyi bazasının formalaşdırılması olmuşdur. Investisiya qanunvericiliyi əlverişli investisiya mühitini müəyyən edən əsas amillərdən biri olmaqla investorların maraqlarının etibarlı müdafiəsinə xidmət edir. Dünya təcrübəsindən məlumdur ki, investisiya qanunvericiyini işləyib hazırlayarkən yol verilən səhvlər potensial investorların uzun müddət dövlət inamının itirilməsinə gətirib çıxarır. Dövlətin bu məsələyə diqqətlə yanaşması nəticəsində ölkədə investisiya münasibətlərinin inkişafı və tənzimlənməsinin daha səmərəli reъimini formalaşdırmağa imkan verən mükəmməl qanunvericilik bazası və onların çevik və işlək mexanizmi hazırlanmışdır. Bununla yanaşı əlverişli investisiya mühitinin formalaşdırılması məqsədilə infrastrukturun yenidən qurulması, sosial mühitin sağlamlaşdırılması, vergi və gömrük sisteminin optimallaşdırılması, milli valyutanın sabitliyinə nail olunması da əsas fəaliyyət istiqamətləri kimi seçilmişdir. Hökumətin bu sahədəki siyasəti həm kapitalın dəyərinə və daxil olma mənbələrinə, həm də onun yerləşdirilməsi həyata keçirilən bazara əhəmiyyətli təsir göstərmişdir.

Dövlət bir növ investisiya prosesi oyununun dövlət investisiya prosesində həm birbaşa, həm də dolayı iştirak edir.Birbaşa iştirak zamanı dövlət investisiyaları respublika və yerli dövlət hakimiyyət və idarəetmə orqanları idarə edirlər.Dövlətin investisiyalarının aşağıdaki tərkibdə keçirilən investisiyalr:

1. Birbaşa dövlət tərəfindən həyata keçirilən investisiyalar
2. Dövlət maliyyə yardımı və iştirakı ilə həyata keçirilən investisiyalar
3. Dövlət tərəfindən yaradılan və idarə olunan kredit idarələrinin (müəssisələrinin) həyata keçirildiklərə əməliyyatlar yolu ilə reallaşdırılan investisiyalar

Dövlət norma və standartlarının müəyyənləşdirilməsində investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin əsas meyarlarından investisiya fəaliyyatinin biri olduğu göstərilir.

Standartlaşdırma obyekti elm və texnika, sənaye və kənd təsərrüfatı istehsalı, tikinti, nəqliyyat, mədəniyyət səhiyyə və iqtisadiyyatın bu və ya digər sahələri, həmçinin beynəlxalq ticarətdə istifadə olunan və gələcəkdə dəfələrlə tətbiq edilə bilən konkret məhsul, metod, tələb, termin işarə və s. ola bilər.

Standartlaşdırma istehsalın keyfiyyət artımına, ekoloji təmizliyə riayət edilməsinə imkan verir ki, bu da son nəticədə ölkə vətəndaşlarının maddi və mənəvi rifah halının yaxşılaşdırılmasına səbəb olur.

Antiinhisar tədbirlərinin aparılması da dövlətin diqqət mərkəzində olan məsələlərdən biridir.İnvestisiya prosesinin tənzimlənməsində antiinhisar tədbirlərinin həyata keçirilməsi vacib məsələlərdəndir.İnhisarçılıq istehsalçıların qanuni maraq və mənafelərinə zidd olduğu üçün onların seçim qabiliyyətini zəiflətdiyi məhsula (işə, xidmətə) dəyərindən artıq məbləğ ödədikləri üçün bu məsələ dövlət tərəfindən tənzimlənir.

Azərbaycan Respublikası «Antiinhisar» fəaliyyəti haqqında qanuna görə hər hansı bir sferada inhisarçılığa yol verilmir. (söhbət təbii inhisarçılıqdan gedir). Bunun investisiya prosesi ilə bağlılığı müəssisələrin böyüməsi, habelə iki, üç və daha artıq firma və müəssisələrin birləşməsindədir.Respublikada qanunvericilik ilə göstərilir ki, hər hansı bir sahədə hər hansı bir müəssisənin payı 33%-i keçərsə artıq o, inhisarçı müəssisə sayılır.İnvestisiya fəaliyyətini tənzimləmək üçün dövlətin əlində kifayət qədər metod və vəsaitlər vardır.

Dövlət cəmiyyətin və vətəndaşların maraqlarına uyğun olaraq bu metod və vəsaitlərdən səmərəli istifadə etməlidir.

Azərbaycanda yaradılmış sosial-iqtisadi potensial davamlı iqtisadi inkişafı və makroiqtisadi sabitliyi təmin etmişdir. Bu strategiyanın həyata keçirilməsi nəticəsində iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuşdur. Ölkə başçısının müəyyən etdiyi siyasətin həyata keçirilməsi gələcək illər üçün dayanıqlı inkişafın möhkəm təməlinin yaradılmasına, Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsinə, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına imkan vermişdir.

Ölkədə iqtisadi sosial inkişafın əsas makro-iqtisadi göstəricilərinin getdikcə yüksəldilməsi əhalinin maddi-mənəvi həyat səviyyəsinin yüksəldilməsi, iqtisadiyyatın artım tempi ilə bağlıdır.Ümumi daxili milli məhsulun strukturunda aparıcı sahələrin rolu və əhəmiyyəti getdikcə artmaqdadır.Bu baxımdan investisiya qoyuluşlarının başlıca cəhətlərindən biri maddi istehsal sahələrində münasib proporsionallıq təmin edilməli və bu əsasda sənaye məhsullarının ümumi daxili məhsuldakı xüsusi çəkisi getdikcə artırılmalıdır.

Məlum olduğu kimi şəxsi vəsaitin həcmi səviyyəsindən asılıdır.Hər hansı bir obyektə şəxsi vəsaitlər hesabına investisiya qoyuluşları həyata keçirən zaman investor bir sıra məsələləri nəzərə almalıdır.Məsələn: istehsalatla məşğul olan firma

1. Əmtəə material ehtiyatlarının səviyyəsi;
2. Debitor borcları və
3. Kreditor borclarının səviyyəsi diqqət mərkəzində olmalıdır.

Əmtəə və material ehtiyatlarının müəyyən dövr ərzində sifarişçilərin və yaxud geniş səviyyədən artıq olmalı nəticədə pul vəsaitlərinin qıtlığına gətirib çıxara bilər və yaxud bu səviyyənin azalması istehsalatda müəyyən pozuntuların baş verməsinə, məsələn: işçilərin boş dayanmalarına səbəb ola bilər

İkinci məsələ kimi götürdüyümüz debitor borclarının səviyyəsi və ondan istifadə problemi də minimum məsələdən biridir.Bazar iqtisadiyyatı şəraitində müştərilərin borc öhdəliyini yerinə yetirməsi halını tam nimimuma endirməyi üçün bir sıra vəsaitlər vardır.Məsələn iri sövdələşmələr həyata keçirilərkən elektron sistemlə hesablaşmalar və ya faktor firmalarla əməkdaşlıq və s.

Üçüncü isə göstərdiyimiz kimi kreditin borcları məsələsidir.İqtisadi baxımdan həmişə qısa müddəti öhdəliklərlə cari aktivlərin səviyyəsi bərabər olmalıdır.Nə qədər ki bu bərabərlik pozulur (qısa müddətli öhdəliklərin xeyrinə) onların arasındakı tarazlığı təmin etmək üçün kreditor borclarından istifadə edilir.

1. İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsinin növbəti mənbəyi investisiyaların cəlb edilmiş maliyyə vəsaitidir.

Burada söhbət əmək kollektivinin vətəndaşların hüquqi şəxslərin payları və digər haqqlarındann, səhimləri satışdan əldə olunan vəsaitlərdən gedir.Səhimdar kapitalının cəlb etmək üçün səhim buraxılışı (elmi siyası) həyata keçirilir.

1. Adi və ya sadə
2. İmtiyazlı

Sadı səhim öz sahibinə mülkiyyətin idarə edilməsində iştirak hüququ verir.Adi səhim sahibləri kreditor və imtiyazlı səhim sahiblərinə ödəmələr həyata keçirildiyindən sonra yerdə qalan vəsaitlərdən özlərinə çatacaq hissəni əlavə edə bilərlər.

Adi səhim sahibləri icrasının ortaqlarındandır, daha doğrusu fikrimizi bir azda aydınlaşdırsaq onlar səhimdarların illik yığıncağında iştirak etmək və direktorlar şurasına və ya idarə heyyətinə seçkilərdə iştirak etmək hüququna malikdirlər.İmtiyazlı səhimlər adətən mənfəətdən asılı olmayaraq sahibinə divident gətirir, lakin bu səhim sahiblərinin səs vermədə iştirak hüquqları yoxdur və maniəlidir.

Səhimdar cəmiyyətlər səhimlərin hansı dairədə yayıla bilər olmasından asılı olaraq acıq tipli səhimdar cəmiyyətlərə bölünürlər.Səhimdar cəmiyyətlər səhimlərinin açıq yolla satılmasının bir sıra üstünlükləri vardır:

1. Maliyyə vəziyyətini yaxşılaşdırmağın asanlığı.Belə ki, şirkətin və ya cəmiyyətin səhimlərinin acıq bazarda satılması aşağı faizli kifayət qədər kütləsinin bundan başqa səhimlərin ilkin bazarda satışı müvəfəqiyyətlidirsə, yəni müvəfəqiyyət qazanarsa, ikinci bazarda onların kursu minimum haqqda sabit olacaq.Buda şirkətə imkan verəcək ki, hətta əvvəlindən də, əlverişli şərtlərlə əlavə səhim emisyasını həyata keçirsin və daha asan faizlə əlavə kapital cəlb etsin.
2. Şirkəti nüfuzunun artması acıq şəraitdə fəaliyyət göstərmək cəmiyyətə və xidmətlər bazarında tanınmaq üçün əlveriçli şanslar verir.Məsələn: kütləvi informasiya vasitələrindən səmərəli istifadə.Bu uğurla həyata keçirilərsə sözü gedən kompaniya biznes dünyasında tapılan, investisiyalara məlm olur.Bu zaman belə cəmiyyətlərdə əməkdaşlıq tapılar, investisiyalara məlum olur. Bu zaman belə cəmiyyətlərlə əməkdaşlıq, investisiyalara məlum olur.Bu zaman belə cəmiyyətlərlə əməkdaşlıq etmək istəyən məşhur şirkətlərində sayı artır.
3. Reallaşdırmanın asanlığını təmin olunması.Bu o deməkdir ki, qiymətli kağızlara (söhbət yuxarıda göstərilən şəraitdə fəaliyyət göstərilən müəssisələrdən gedir) malik olan səhimdarlar onu açıq birjada sərbəst olaraq sata bilərlər.
4. Açıq bazarda satılan səhimlərin qiymətlərinin artan istiqamətdə olması bazarda, satılan daha doğrusu ilkin açıq bazarda satılan səhimlərin qiymətləri adətən getdikcə artmağa istiqamətlənir.Bu əsasən aşağıdakı üç səbəblər ilə baş verir:

1) Belə səhmlərin alanlarla sata bilən arasında asılılığ
2) Təcrübə və kamilliyin açıq cəmiyyətlərin atributu sayılmalı.
3) Kompaniya haqqında çox informasiya əldə edə bilmək imkanının olması.

Açıq tipli səhimdar cəmiyyətlərin müsbət tərəflərin olmasıda bunu bəzi çatışmamazlığları vardır:

a) Müstəqilliyin itə bilməsi təhlükəsi.
b) Menecerlərin hərəkətlərinin azad iş görmələrinin məhdudlaşmasının olması.
v) Şirkət üzərində nəzarətin itə bilmək təhlükəsi və s. Səhimlərin qapalı bölüşdürülməsi halında maliyyə vəsaitlərinin kkifayət qədər toplanması bir qədər əngəlli olsada yuxarıdaki səhimlər investisiyaların bu açıq cəmiyyətdən yaxşıdır.Səhimdar investisiyaların qoyuluşları avadanlıqlar texnologiyalar intelektual sərvətlər ola bilər.

z) İnovasiya borc maliyyə vəsaiti hesablna investisiya fəaliyyətinin maliyyələşdirilməsi.Biznesin inkişaf etdirilməsi üçün ənənəvi kreditləşməsi.Biznesin inkişaf etdirilməsi üçün ənənəvi

kreditləşdirmə mənbəyi kimi banklar çıxış edir.Bu gün xarici ölkələrin özlərində banklar əksər müəssisələrin səhim paketlərinə sahibdirlər.

Bununla da onlar həmin müəssisələrin yenidən qurma, genişləndir mə və texniki silahlandırma üzrə bu və ya digər investisiya proqramlarında iştirak edirlər.

İnvestisiya layihələrinin maliyyələşdirilməsi həm birbaşa, həm də portfel ola bilər.Borc əməliyyatlarının məzmunu bankın təcili geri qaytarmaq və məbləğə görə müəyyən faiz faiz ödəmək şərti ilə etdiyi vəsaitlərin təklifidir.

Borcları müxtəlif formada təsnifləşdirmək olar:

1. Məqsəd xarakterinə görə:
a) Konkret əməliyyatların
b) Maliyyə əlamətlərinə görə
2. İstifadə məsələlərinə görə:
a) Bank kommersiya krediti,
b) əsas və ya dövriyyə fondlarının kreditlər,
c) istehlakçı kreditləri.
3. Müddətinə görə:
a) Qısamüddətli,
b) Orta müddətli
c) Uzunmüddətli

Bank vəsaitlərində istifadə üçün müddətli kreditlər – bunlar əsas fondların formalaşdırılması üçün götürülür.Çünki məlum olduğu kimi əsas fondlar daha qiymətli olurlar və bunun da daxili mənbələri hesabına (firma nöqteyi nəzərdən) olmaqda problemlər yaratmır.Ortamüddətli kreditlərə gəldikdə isə kreditlər əsasən dövriyyə kapitalın artırılmasına və istehsal güclərinin genişləndirilməsinə görə alınır.

Kreditlər verilərkən və ya alınarkən həmişə kreditləşmə obyekti müəyyənləşdirilməlidir.Bütün kreditləri kreditləşdirmə obyektlərinə görə iki qrupa bölmək olar:

1. İstehlak qaydaları
2. İstehlak məqsədləri üçün kreditlər

Banklar və borc alanlar aşağıdakı münasibətlər kredit münasıbətləri habelə təsərrüfat hüquqi və mülki hüququn rəhbər başlanğıcları ümumi və mülki hüququn rəhbər başlanğıcları ümumi prinsipləri ilə tənzimlənir.

Kredit müqaviləsi məbləğin geriyə qaytarılmasına təminat verən bir sənəddir.İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələrdən biri də büdcə vəsaitləridir.Kapital qoyuluşlarının dövlət tərəfindən maliyyələşdirilməsi mənbəsi kimi büdcə vəsaitləri çıxış edir.Burada söhbət milli-sosial-iqtisadi proqramların maliyyələşdirilməsindən gedir.

Ümumiyyətlə dövlət investisiyaları qeyri-qanuni olduqda aşağıdakılar nəzərdə tutulur:

1. Birbaşa dövlət tərəfindən yaradılan və idarə olunan kredit təşkilatlarının həyata keçirdiklərə kredit əməliyyatları və açdıqları yolu ilə həyata keçirilən investisiyalar
2. Birbaşa dövlət tərəfindən həyata keçirilən investisiyalar
3. Dövlətin köməyi və vəsaitləri ilə həyata keçirilən investisiyalar
4. Müəyyən fəaliyyətin törətdiyi dağıntıların aradan qaldırılması üçün dövlətin ayırdığı vəsaitlər.Qeyd etmək lazımdır ki, dövlətin investisiya xərcləri hər il onun həmin il üçün təsdiq olunmuş dövlətin büdcəsində öz əksini tapmalıdır.Azərbaycan Respublikasının büdcəsində dövlətin investisiya xərcləri 148 milyard manat nəzərdə tutulmuşdur.Buda keçən il üçün ayrılmış məbləödən müvafiq olaraq 35 milyard manat çoxdur.Həmin məbləğin 8,4 milyard manatı nəqliyyat və rabitə kimi infrastrukturların inkişafına 13 milyard manatı islahatların həyata keçirilməsinə və s.ayrılmışdır.

5.İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsinin əsas mənbələrdən biri də xarici investisiyalardır.Xarici investisiyalardan danışarkən hər şeydən əvvəl xarici dövlət və xarici xüsusi investisiyalardan ayırmq lazımdır.Xarici dövlət investisiyaları dedikdə biz dövlətin və ya dövlətlər qrupunun digər dövlətə borc, kredit verməsidir.Bu halda söhbət dövlətlərarası münasibətlərdən kreditlə həmin münasibətlər ilə beynəlxalq hüquqi normalarının əsasının beynəlxalq münasibətlərdə tənzimlənir.

Xarici investisiyalar adı altında isə hər bir ölkənin vətəndaşlarının və ya müstəqil hər hansı bir koompaniyanın digər ölkə ərazisində həyata keçirdiyi qoyuluşlar başa düşülür.

Xarici investorlar Azərbaycan Respublikası ərazisində investisiya qoyuluşlarını aşağıdakı yollarla həyata keçirə bilərlər:

a) Birgə müəssisələrin yaradılması yolu ilə

b) Tamamilə xarici investotrlara məxsus olan müəssisələrin yaradılması yolu ilə

c) Bunların əldə edilməsi ayrı-ayrı müəssisələrin qiymətli kağızlarının və Azərbaycan Respublikası qanunvericiliyi ilə xarici investorlara qadağa edilmiş əmlakların əldə edilməsi ilə

d) Torpaq və digər təbii resurslardan istifadə hüquqi və digər əmlak hüquqlarının əldə edilməsi və s.

İnvestisiya kreditləri yalnız investisiya qoyuluşlarının maliyyələşdirilməsi məqsədi ilə verilir.İnvestisiya kreditləri əsasən kredit layihələri əsasında verilir və adətə uzunmüddətli olur.

İnvestisiya kreditini dövlət özü almaqla yanaşı hər hansı bir müəssisə, şirkət üçün zəmanətdə verə bilər.Hər iki halda alınan kreditlər dövlətin xarici borclarına aid edilir.Lakin hər hansı xüsusi müəssisələr müstəqil olaraq (dövlət zəmanəti alması və ya digər ölkədən banklardan, müəssisələrdən) borc aldıqda bu borc dövlət borclarına aid edilir.İnvestisiyanın maliyyələşdirilməsi mənbəyi kimi əhalinin şəxsi vəsaitlər heç də az əhəmiyyətə malik deyildir.

Muasir şəraitdə investisiyanın maliyyələşdirilməsi mənbələri tərkibində xarici investisiya qoyuluşları böyük xüsusi çəkiyə malikdir.

Makroiqtisadi sabitliyin və iqtisadi artımın təmin olunmasında, iqtisadi təhlükəsizlik, milli iqtisadiyyatın rəqabət qabiliyyətini təmin edilməsində, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında, bir çox sosial-iqtisadi problemlərin həllində ölkədəki investisiya durumu, investisiyaların innovasiya yönümlü olması vacib şərtlərdən biridir. İqtisadi artımı və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə investisiyaları iqtisadiyyatın prioritet sahələrinə yönəltmək, iqtisadiyyatın quruluşunda elm tutumlu sahələrin payını artırmaq zəruridir. Lakin bəzi hallarda investisiya resurslarının məhdudluğu iqtisadiyyatın texnoloji bazasının təzələnməsinə, müasir tələblərə cavab verməsinə imkan vermir, bu da iqtisadi geriləməyə gətirir. İnvestisiya imkanlarının, xüsusilə də innovasiya yönümlü investisiyaların artması istehsalın strukturunun dəyişən bazar konyunkturasına müvafiq olmasını təmin edir.

Azərbaycan Respublikası müstəqilliyini əldə edəndən sonra keçid dövrünün ilk illərində böhranla bağlı ölkə daxilində investisiya resursları, demək olardı ki, yox səviyyəsində idi. İqtisadi əlaqələrin qırılması nəticəsində sənaye müəssisələri dərin tənəzzül vəziyyətinə düşmüşdülər. Yaranan vəziyyətdə istehsal müəssisələri gəlir əldə edə bilmirdi, milli valyutanın dəyərdən düşməsi və yüksək inflyasiya templəri müəssisələrin amortizasiya fondlarının, əhalinin əmanət və yığımlarının dəyərdən düşməsi ilə nəticələnmişdir. Beləliklə, daxili investisiya resurslarının çatışmaması fonunda iqtisadiyyatın böhrandan çıxması üçün xarici investisiya mənbələrinə üstünlük verilməsini qaçılmaz etdi. Bu səbəbdən ölkədə birinci növbədə 1992-ci ildə «Xarici investisiyaların fəaliyyəti haqqında», sonra isə 1995-ci ildə «İnvestisiya fəaliyyətinin qorunması haqqında» AR Qanunları qəbul edilmişdir.

Müasir dünyada ölkənin davamlı iqtisadi inkişafın əsaslanan strategiyaların formalaşması və reallaşdırılması istiqamətində tədbirlər görünməsi müşahidə olunur. Davamlı iqtisadi inkişafın əsas təminatı kimi isə innovasiyaların tətbiqinin artırılması çıxış edir.

İmkanların tədqiq edilməsi kifayət qədər ümumi xarakterə malikdir.Başlıca olaraq ümumiləşdirilmiş qiymətləndirilməyə əsaslanır.

Konkret layihələrin imkanlarının tədqiq edilməsi investisiya qoyuluşunun ümumi imkanlarını aşkara çıxarılması və investisiya layihəsinin ümumi göstəricilərinin təhlilidir.Bu göstəricilərə daxildir:

- Daxili və xarici bazarlarda konkret məhsula olan tələbatın həcmi, xammal və materiallar, tikinti meydançalarının yerləşdiyi ərazi təxmini istehsal gücü və texnoloji resursların xarakteri, kadrlara tələbat, layihənin həyata keçirilməsi müddəti layihənin kommersiya rentabelliyi və onun reallaşdırılmasında milli-iqtisadi səmərə və s.

Mövcud müəssisələr üzrə həmçinin istehsal olunan məhsulun nomenklaturası, onun sertifikatlaşdırılması və buraxılışın həcmi eləcə də bütünlükdə müəssisənin fəaliyyətinə təsir edən müsbət və mənfi amillər, texnologiyanın səviyyəsi və mövcud avadanlıqların xarakteristikası haqqında bir sıra göstəricilər təhlil edir.Beləliklə investisiya imkanlarının tədqiqatının nəticələri üzrə yekun xülasə çıxarılır.

İlkin texniki-iqtisadi tədqiqat mərhələsində mümkün iqtisadi alternativlər öyrənilir.Bunlara daxildir: bazar və müəssisənin gücü (tələb və bazarın martengin, istehsal proqramı və istehsal güclərinin tədqiq edilməsi); material məsrəfləri; müəssisənin yerləşdiyi meydançası, layihənin texniki aspektləri (texnologiya və avadanlıqlar, mülki tikinti obyektlərinin tərkibi) əlavə xərclər (ümumi zavod inzibati və kommersiya); kadrlar (fəhlələr, İTR xidmətçiləri); layihənin həyata keçirilmə müddəti; maliyyə aspekti (investisiya xərcləri layihənin maliyyələşdirmə mənbələri, istehsal xərcləri və kommersiya mənfəəti). Bu zaman tədqiqatın icraçısı investisiya layihəsinin məlum ümumi göstəriciləri öyrənməkdən əvvəl sifarişçi ilə birlikdə layihənin səmərəliliyini və təhlil edilməsini həyata keçirir.

Əgər təkrar təhlil zamanı həmin layihə yenə də qeyri-rentabelli olarsa, onda bu qənaət (nəticə) tədqiqatın son və həlledici nəticəsi olacaq.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# İNVESTİSİYA MƏSƏLƏSİNDƏ İNTERVAL EHTİMALLARLA QƏRAR QƏBULETMƏ

**A.İ.Cabbarova**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakl, İstiqlaliyyət küçəsi,6
e-mail: stat_aynur@ mail.ru

***Açar sözlər:*** qərar qəbuletmə, qeyri-dəqiq ehtimal, interval ehtimal, interval nəticə.
***Key words:*** decision making, imprecise probability, interval probability, interval outcome.
***Ключевые слова:*** принятие решений, неточная вероятность, интервальные вероятности, интервальные исходы.

Son onilliklərin tədqiqatı göstərir ki, klassik ehtimala əsaslanan qərar qəbuletmə nəzəriyyəsi real həyat hadisələrinə tətbiq oluna bilmir. Bu onunla əlaqədardır ki, dəqiq ehtimalları müəyyən etmək mümkün olmur,qeyri-dəqiq qiymətlərdən istifadə etmək lazım gəlir.Bu məqalədə biz,investisiya məsələsində interval ehtimallarla qərar qəbuletmə məsələsinə baxmışıq. Araşdırdığımız bu üsul interval hesabına əsaslanır. Alternativlərin ranqlaşması interval müqayiyisəsi ilə həyata keçirilir.

## 1.Giriş

İnvestisiya –iqtisadiyyatın müxtəlif sahə və sferalarına,həmçinin sahibkarlıq fəaliyyətinə vəsait qoyuluşudur.Stabil iqtisadi inkişaf investisiya mühitinin canlanmasına səbəb olur.Belə vəziyyət təkcə uzunmüddətli investisiyalarin artmasına deyil,həmçinin rəqabət qabiliyyətini artırmaq üçün investisiya fəaliyyətinə qabaqcıl idarəetmə metodlarının tətbiq olunmasına səbəb olur[1]. İnvestisiya proseslərinin əsas məqsədi yeniliklərin alınması və kommersiyalaşdırılnasını nəzərə almaqla elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən sahələrdə və istiqamətlərdə maliyyə ehtiyatlarının cəmlənməsindən ibarətdir [2].

İntervallarla çoxmeyarlı qərar qəbuletmə halında üstünlük dərəcəsi ilə alternativlərin rasional və təbii ranjirləşdirmə üsulu zamanı ,intervalların aşağı və yuxarı sərhədləri ilə yanaşı,genişliyi də nəzərə alınır[3]. [4]. -də qərar qəbuletmə məsələsində qeyri-dəqiq intervallar tətbiq olunmuşdur. Müxtəlif vəziyyətlər üçün $p_1 + p_2 + ...p_n$ ehtimallarını bildikdə, elə $A_i$ həllini seçmək olar ki,onun üçün $C_i = p_1C_{i1} + ... + p_nC_{in}$ gözlənilən faydası ən çox olsun.Burada, $C_{ij}$-nin qiyməti $S_j$ vəziyyətində $A_i$ həllinə şərait yaradır.Real həyat vəziyyətlərində biz dəqiq $p_j$ ehtimalları deyil, $p_j = \left[p_j^-, p^+_j\right]$ ehtimal intervalları verilir.

Bu məqalədə biz qərar qəbuletmə mühitindəki informasiyanın qeyri-dəqiq ədədlərlə ,daha doğrusu interval ədədlər şəklində verilmiş halına baxırıq.

## 2.Təriflər

**Tərif 1.İnterval ehtimallar** [5].

$P$ ehtimal intervalı dedikdə, biz $\boldsymbol{p} = \left[p^-, p^+\right] \subseteq [0,1]$ -nı nəzərdə tuturuq.

**Tərif 2.İnterval ehtimalların uyğunluğu** [4].

Əgər $p_1 \in \boldsymbol{p_1},...,p_n \in \boldsymbol{p_n}$ qiymətləri mövcuddursa, onda biz ehtimal ardıcıllığını $p_1,...,p_n$ götururük.

$p_1 + ... + p_n = 1$.

Orada ehtimallar intervallarının ortalaması ilə bir əməliyyat aparılır.Bu əməliyyat aşağıdakı kimi həyata keçirilir: $C\left(\left\langle\left[p_1^-, p_1^+\right], c_1\right\rangle, ..., \left\langle\left[p_n^-, p_n^+\right], c_n\right\rangle\right) = \tilde{I}$ (1)

Harada ki,

$$\tilde{I}_j = \frac{\sum^+ - 1}{\sum^+ - \sum^-} \cdot p_j^- + \frac{1 - \sum^-}{\sum^+ - \sum^-} \cdot p_j^+ \quad (2)$$

$\sum^- = p_1^- + ... + p_n^-$ (3)

və $\sum^+ = p_1^+ + ... + p_n^+$ (4)

**Tərif 3. İntervallarin üstünlük dərəcələri** [5].

$\boldsymbol{d(I,J)}$ intervallarının müqayisəsi və üstünlüyünü qiymətləndirmək üçün

$$d(I,J) = \begin{cases} \dfrac{\bar{I} - \bar{J}}{\left|(\bar{I} - \bar{J}) + (\underline{I} - \underline{J})\right|} & \bar{I} > \bar{J}, \underline{J} > \underline{I} \\ 1 & \bar{I} = \bar{J}, \underline{I} > \underline{J} \\ & \bar{I} > \bar{J}, \underline{I} \geq \underline{J} \\ & \bar{I} > \bar{J}, \underline{I} \geq \underline{J} \\ 1 - d(J,I) & \end{cases}$$

istifadə olunur.

**3.İnvestisiya məsələsinin qoyuluşu və həlli.**

Şirkət öz sərmayəsini 4 istiqamətdə:

$A_1$ - kənd təsərrüfatı məhsullari istehsalına,

$A_2$ - turizm sektoruna

$A_3$ - nəqliyyat kompleksinə ,

$A_4$ - kiçik biznesin inkişafına qoymağı planlaşdırır.Hər bir alternativ 3 meyarla xarakterizə olunur :risklilik dərəcəsi, gəlirin həcmi və ətraf mühitə təsir .Hər bir alternativ üçün meyarların qiymətləri verilmişdir və onlar da müəyyən ehtimal aralıqları ilə (məs.60 %-dən 80 %-ə qədər ) verilir.Məqsədimiz, alternativlər arasından hər 3 meyarla daha səmərəlisini seçməkdir.

Əgər bir neçə $A_i$ alternativi varsa, biz bilirik ki, hər bir alternativin hər bir $s_j$ vəziyyətində fayda - $C_{ij}$ , $P_j = \left[p^-_j, \bar{p}_j^+\right]$ isə interval ehtimalıdır.

Biz məsləhət gururuk ki, $A_i$ üçün $C_i = \tilde{I}$ ... $_i$ həllini seçmək lazımdır.

(5) və $\tilde{I}_j$ -nı tapmaq üçün (1) və (2) düsturlarından istifadə olunur.

Cədvəl 1.Meyarların gücü və əhəmiyyətliyinin intervalları

| | C1 | C2 | C3 |
|---|---|---|---|
| A 1 | 0,5[0,6 – 0,7] | 0,3 [0,1 – 0,2] | 0,4[0,1 – 0,3] |
| A2 | 0,6 [0,6 – 0,7] | 0,5[0,1 – 0,2] | 0,1[0,1 – 0,3] |
| A3 | 0,5 [0,6 – 0,7] | 0,4[0,1 – 0,2] | 0,4[0,1 – 0,3] |
| A4 | 0,4 [0,6 – 0,7] | 0,3[0,1 – 0,2] | 0,6[0,1 – 0,3] |

Bu problem araşdırarkən biz iki yanaşmadan istifadə etmişik.(3) və (4) düsturlarına əsaslanaraq hər bir alternativ üçün intervalların sağ və sol tərəflərini,(1) və (2) –dən istifadə edərək isə $\tilde{p}_i$ -ləri hesablayırıq.

- turizm sektoru üçün:

sol [0,6 + 0,1 + 0,1] = 0,8 sağ [0,7 + 0,2 + 0,3] =1,2

$$\tilde{p}_1 = \frac{1,2-1}{1,2-0,8}*0,6+\frac{1-0,8}{1,2-0,8}*0,7=0,65$$

$$\tilde{p}_2 = \frac{1,2-1}{1,2-0,8}*0,1+\frac{1-0,8}{1,2-0,8}*0,2=0,15$$

$$\tilde{p}_3 = \frac{1,2-1}{1,2-0,8}*0,1+\frac{1-0,8}{1,2-0,8}*0,3=0,2$$

Bütün alternativlər üçün aşağıdakı qiymətləri alarıq:
A1 üçün: 0,6*0,65+0,5*0,15+0,1*0,2=0,485
A2 üçün: 0,5*0,65+0,3*0,15+0,4*0,2=0,450
A3 üçün: 0,5*0,65+0,4*0,15+0,4*0,2=0,465
A4 üçün: 0,4*0,65+0,3*0,15+0,6*0,2=0,425
Aparılmış hesablamalar nəticəsində A1 –in daha yaxşı olması qənaətinə gəlirik(0,485).
Növbəti yanaşmanı araşdıraq.

Meyar qiymətlərindən istifadə etməklə , hər bir alternativ üçün məqsəd funksiyasını hesablamaq üçün müəyyən şərtlər ödənilməlidir.

A1 alternativi üçün : $0,6p_1+0,5p_2+0,1p_3 \to \min,\max$ alırıq. Daxil edilmiş məhdudiyyətlər

$$p_1 \le 0,7 \qquad p_1 \ge 0,6$$
$$p_2 \le 0,2 \qquad p_2 \ge 0,1$$
$$p_3 \le 0,3 \qquad p_3 \ge 0,1$$

$p_1+p_2+p_3=1$ kimidir.

Funksiyanın minimumunu hesablayarkən $p$ -nin tapılan qiymətləri:0,6;0,1;0,3
Maksimunu hesablayarkən tapılan qiymətlər də müvafiq olaraq:0,7;0,2;0,1-ə bərabərdir.

A2 alternativi üçün: $0,5p_1+0,3p_2+0,4p_3 \to \min,\max$

Məhdudiyyət şərtləri hər 4 alternativ üçün eynidir.Minimum üçün tapılan qiymətlər:0,6;0,1;0,3
Maksimum üçün:0,7;0,2;0,1

A3 alternativi üçün: $0,5p_1+0,4p_2+0,4p_3 \to \min,\max$

Minimum üçün :0,6;0,2;0,2
Maksimum üçün:0,7;0,2;0,1

A4 alternativi üçün: : $0,4p_1+0,3p_2+0,6p_3 \to \min,\max$

Minimum üçün:0,7;0,2;0,1
Maksimum üçün:0,6;0,2;0,2 alınır.

Alternativlər üçün məqsəd funksiyalarının minimal və maksimal qiymətlərindən intervallar təşkil edək:

$[0,44-0,53]$

$[0,44-0,46]$

$[0,46-0,47]$

$[0,40-0,45]$

(5) düsturundan istifadə edərək, A1 və A2 arasında $d(I,J)=1$,

A1 və A3 arasında $d(I,J)=0,75$,

A1 və A4 arasında isə $d(I,J)=1$ alınır.

İntervalların müqayisəsi nəticəsində birinci intervalın (turizm sektoru) daha səmərəli olması qənaətinə gəlirik.

## 4.Nəticə

3 meyarlı 4 alternativli investisiya baxılmışdır.Ehtiyatlar və nəticələr interval şəklində verilmişdir.Faydalılıq funksiyası hər bir alternativ üzrə hesablanmışdır.İntervalların ranqlaşdırılması əsasında qərar qəbul olunmuşdur.

## 5.Ədəbiyyat

1. Ятчук Г.С. Вопросы формирования современной системы управления инвестиционной деятельностью на предприятии Российское предпринимательство №4 2008.

2.Анжелес В.Р. Захаров В.А. Об оптимизации управленческих решений в области инвестиций Сборник научных статей.Институт бизнеса и права .2011

3.Шарп У.Ф.Александер Г.Дж.,Бейли Дж.Инвестиции. М.Инфра-М.1997

4. .Ronald R.Yager and Vladik Kreinovich. Decision Making Under Interval Probabilities.USA

5 .Tanja Magoc, Martine Ceberio, and Francois Modave. Interval-based Multi-Criteria Decision Making Strategies to Order Interval.s.University of Texas at El Paso

6.Peijun Guo,HideonTanaka Decision making with interval probabilities.European Journal of operational Research.Volume 203,issue 2,1june 2010,pages 444-454

7.Yan Wang Woodruff of Mechanical Engineering Georgia Institute of Technology ,GA 30332, J. Reliability and Safety

# ПРИНЯТИЕ РЕШЕНИЙ С ИНТЕРВАЛЬНЫМИ ВЕРОЯТНОСТЯМИ В ЗАДАЧЕ ПО ИНВЕСТИРОВАНИЮ

**А.И.Джаббарова**

**РЕЗЮМЕ**

Исследования последних десятилетий показали, что теория принятия решений с классическими вероятностями не может применяться в реальных жизненных ситуациях. Это связано с тем, что точные вероятности определить не удается, и приходится использовать неточные оценки. В этой статье мы рассматриваем принятие решений с интервальными вероятностями в задаче по инвестированию. Предлагаемые исследования основаны на интервальных вычислениях. Ранжирование альтернатив проводится при помощи сравнения интервалов.

# INVESTMENT DECISION MAKING WITH INTERVAL PROBABILITIES.

**A.I.Jabbarova**

**SUMMARY**

The research of the last decades shows that the theory of decision making based on classical probability can't be applied to real-world problems. The issue is that it is not possible to obtain precise probabilities but only imprecise estimations can be used. In this paper we consider investment decision making with interval probabilities. The suggested research is based on interval computations. Ranking of alternatives is based on comparison of intervals. This illustrated example shows validity of the suggested method.

2016 - № 44

# AZƏRBAYCAN RESPUBLİKASININ BANK SİSTEMİNDƏ TƏTBİQ EDİLMİŞ ANTİ-BÖHRAN MEXANİZMLƏRİ

**B.M.Mübariz, B.M.Orxan**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakl, İstiqlaliyyət küçəsi,6
e-mail: ayten1984@bk.ru

***Açar sözlər:*** Anti-böhran mexanizmi, monetar siyasət, inflyasiyanın hədəflənməsi, valyuta səbəti mexanizmi.
***Key Words***: Anti-crisis mechanism, monetary policy, inflation targeting, currency basket mechanism
***Ключевые слова***: антикризисный механизм, денежно-кредитная политика, таргетирование инфляции, механизм валютный корзины.

Son dövrlərdə neftin qiymətinin kəskin azalması neft ixracatcısı olan ölkə olaraq respublikamızın iqtisadiyyatına bir başa təsir etmişdir. Qeyri-neft sektorunun son dövrlərdə inkşaf etməsinə baxmayaraq, neft sektoru iqtisadiyyatımızin əsasını təşkil etməkdə davam edir. Buna gorə də, baş verə biləcək maliyyə böhranın qarşısısnın alınması məqsədilə Mərkəzi Bank anti-böhran tədbirləri həyata keçirmişdir. Bu tədbirlərə devalvasiyanın tətbiqi və monetar siyasətin məzənnənin hədəflənməsi rejimindən inflyasiyanın hədəflənməsi rejiminə (İHR) keçidi aiddir.

2008-ci il qlobal iqtisadi böhranından sonra dünya ölkələrində gedən iqtisadi proseslər onu göstərdi ki, monetar siyasətin istiqamətləri içərisində İHR ən səmərəlisidir. Beynəlxalq Valyuta Fondunun hesabatına görə bu rejimi tətbiq edən ölkələr böhranın neqativ təsirlərinə qarşı daha çox müqavimət potensialına malik olmuşdur. İHR rejimi zamanı pul siyasətinin əsas hədəfi mərkəzi bank tərəfindən elan edilmiş inflyasiya həddinin təmin edilməsindən ibarətdir. Mərkəzi Bank elan edilmiş inflyasiya göstəricisini əldə etməklə ölkədə qiymətlərin stabilliyinə nail olmağa calışır. Mərkəzi Bankın inflasiya həddini elan etməsi biznes dairələri, ev təsərrüfatları və dövlət sektorunda inflyasiya gözləntilərini formalaşdırır və onlar öz qərarlarını müəyyən edilmiş inflyasiya həddinə uyğun olaraq verirlər. Elan olunmuş inflayisya həddinə nail olmaq üçün Mərkəzi Bank pul siyasəti alətləri, transmissiya kanalları vasitəsilə bank və maliyyə sektorlarına təsir edərək məcmu tələbi müəyyən edilmiş inflyasiya həddinə uyğun olaraq formalaşdırır (1). Monetar siyasətin digər istiqamətləri ilə müqayisədə İHR-nin bir sira üstünlükləri vardır. Bu üstünlüklərə aşağıdakıları aid etmək olar.

*Məcmu buraxılış kəsirinin azaldılması.* İHR tətbiq edən ölkələrdə ÜDM daha sürətlə artımı müşahidə edilmişdir. ÜDM-in artımı, inflyasiya gözləntilərinin aşağı düşməsi ölkə iqtisadiyyatına etimadın yüksəlməsinə və nəticədə investisiya qoyuluşunun artmasına səbəb olur.

*Məşğulluğun artımı.* Artur Ouken qanununa əsasən deyə bilər ki, əgər İHR tətbiq edən ölkələrdə ÜDM-un daha sürətli artımı müşahidə olunduğu üçün məşğulluq səviyyəsi də paralel olaraq artır.

*Antiinflyasiya tədbirlərinin neqativ nəticələrinin müşahidə edilməməsi.* Bir çox hallarda antiinflyasiya tədbirləri qiymətlərin sabitliyini təmin etsə də işsizliyin artması, iqtisadi aktivliyin azalması, investisiya mühitinin pisləşməsi, ölkədən kənara kapital axınının sürətlənməsi kimi neqativ hallarla nəticələnir. Lakin, İHR-in tətbiqi bu kimi neqativ halların baş verməsinin qarşısını alır.




*Mərkəzi Bankın fəaliyyətinin müstəqilliyinin təmin olunması.* İHR-in əsas xüsusiyyətlərindən biri də Mərkəzi Bankın müstəqil fəaliyyətinin təmin edilməsidir. Buna görə də, İHR-in tətbiqi zamanı ölkədə yürüdülən pul-kredit siyasəti siyasi dividentlərin qazanılmasına yönəlmiş elementlərdən tamamilə sığortalanmış olur. Bu da öz növbəsində zaman ziddiyyəti (time-inconsistensy) probleminin aradan qalxmasına səbəb olur.

*Mərkəzi Bankın fəaliyyətnin şəffaflığı yüksəlir.* İHR-in tətbiqi zamanı Mərkəzi Bank ictimaiyyətlə daha sıx münasibətlər qurmağa “məhkum” olduğundan onun fəaliyyəti daha şəffaf xarakter alır nəticədə ölkənin iqtisadi sisteminə etimad artır.

*Dövlət orqanları arasında koordinasiyanın daha da güclənməsi.* İHR-in tətbiqi zamanı digər dövlət orqanları İHR-in səmərəliliyinə zərər vura biləcək qərarların qəbulundan yayınmaq məqsədilə Mərkəzi Bank ilə məsləhətləşmələr aparırlar.

İEOÖ-də İHR-nin tətbiqi bir sıra ilkin şərtlərin mövcudluğunu tələb edir. Bu şərtlərə aşağıdakılar aiddir:

*Üzən məzənnə rejiminin tətbiqi.* Bu rejimin tətbiqi  məzənnənin ötürücülüyünü yüksəldir, ölkənin strateji valyuta ehtiyatlarını spekulyativ hücumlardan qoruyur, eyni zamanda daxili maliyyə bazarının inkişafını stimullaşdırır ki, bu da İHR-nin tətbiqinin digər əsas şərti hesab edilir. Respublikamızda bu ilin fevral ayından etibarən məzənnə siyasətində ikivalyutalı səbət mexanizminin tətbiqi İHR-nə kecid üçün ilk addımlardan biri oldu və üzən valyuta rejiminin tətbiq edilməsi şərti ödənmiş oldu.

*Kapital adekvatlılığının təmin edilməsi.* Bunun üçün makroprudensial çərçivə müasirləşdirilməli, bank sistemində kapital adekvatlılığının tələb olunan həddi təmin edilməli, risklərin adekvat idarəedilməsi, sistemin xarici şoklara qarşı dayanıqlığının artırılması təmin edilməlidir. Bu şərtdə

respublikamızda tam odənmişdir, belə ki, kapital adekvatlığı 2014-cü ildə normadan 6.7% çox yəni 18.7% təşkil etmişdir(2).
*Mərkəzi Bankların müstəqilliyinin artırılması.* Bu şərt Mərkəzi Bankın müstəqilliyini ölçməyə imkan verən indekslərin təkmilləşdirilməsini eks etdirir. Mərkəzi Bankın müstəqilliyinin artırılması onun səmərəliliyinin yüksəlməsinə birbaşa təsir etdiyindən bu tələbin təmin edilməsi rejimin tətbiqi üçün əhəmiyyətli şərt hesab edilir. Mərkəzi Bankın GMT (Grilli, Masciandaro, and Tabellini) indeksi üzrə müstəqilliyi 12 bal qiymətləndirilmişdir ki, bu da Mərkəzi Bankın müstəqilliyinin tam təmin olunduğunu göstərir (1).
*Fiskal dominantlığın aradan qaldırılması.* Fiskal dominantlıq şəraitində Mərkəzi Bankın müstəqilliyi zəifləyir, iqtisadi proseslərə müdaxilə potensialı azalır. Eyni zamanda bu halda inflyasiyanın əmələ gəlməsinə fiskal təsirlər daha güclü olur ki, bunu da monetar kanallar vasitəsilə kompensasiya etmək mümkün olmur. Bu baxımdan fiskal xərcləmələrdə orta müddətli xərc strategiyasının tətbiqi və gəlirlərin formalaşdırılmasında daimi gəlir (permanent income) prinsipinin tətbiq olunması fiskal dominantlığın reallaşmasına imkan verməməklə, makroiqtisadi sabitliyin dayanıqlığının təmin edilməsinə pozitiv təsir göstərir (1). Son illər Respublikamızda bank sektorunun aktivlərinin artaraq maliyyə əməliyyatlarında rolunun güclənməsi, bank sektorunun ÜDM-da payının artması, strateji valyuta ehtiyatlarının artımı fiskal dominantlığın aradan qaldırıldığını göstərir.
*İxracin diverfikasiyası.* Xüsusilə ixracı daha az sektorlar üzrə konsentrasiya olmuş ölkələrdə İHR-in səmərəli tətbiq edilməsində ixracın diversifikasiyası xüsusi əhəmiyyət daşıyır. İxracın diverfikasiyası xarici valyuta idxalı kanallarını artırır, strateji valyuta ehtiyatlarının artımını və akkumlyasiya kanallarının diversifikasiyasını stimullaşdırır və nəticədə xarici şoklara qarşı dayanıqlığı artırmış olur. Son illər Respublikamızda qeyri-neft sektorunun sürətlə inkşafı və ÜDM-da payının artması ixracın diverfikasiyası prosesinin sürətlə getdiyini göstərir.

Respublikamızın iqtisadi potensialı və qeyd olunan şərtlərin ödənməsi Mərkəzi Banka İHR-nə keçidə imkan yaradır. Buda öz növbəsində Azərbaycanın iqtisadiyyatının baş verə biləcək maliyə böhranlarına qarşı tam dayanıqlı olacağını göstərir.

Mərkəzi Bank tərəfindənhəyata keçirilən digər anti-böhran tədbiri isə devalvasiyanın tətbiqi oldu. Valyuta bazarında yaranmış vəziyyəti nəzərə alaraq, AMB-nın İdarə Heyətinin qərarı ilə 21 fevral 2015-ci il tarixinə ABŞ dollarının manata qarşı məzənnəsi 1.05 AZN səviyyəsində müəyyən edildi. Bu qərar milli iqtisadiyyatın şaxələndirilməsinə əlavə stimullar yaratmaq, onun beynəlxalq rəqabət qabiliyyətini və ixrac potensialını daha da gücləndirmək, bu əsasda tədiyə balansının və ölkənin beynəlxalq ödəmə qabiliyyətinin strateji dayanıqlığını təmin etmək məqsədilə qəbul edilmişdir (3). Bu qərarın qəbulunun əsas səbəblərindın biri də manatın bahalaşması idi. Belə ki, 2014-cü ilin əvvəlindən 2015-ci ilin fevral ayının ortalarınadək manat ticarət tərəfdaşlarının valyutalarına nəzərən orta çəkili hesabla 30% bahalaşmışdı. Bu dövrdə ABŞ dollarına nəzərən Rus rublu 86%, Avro 20%, Qazax təngəsi 20%, Türkmən manatı 22%, Moldovaleyi 17%, Belarus rublu 52%, Ukrayna qrivnası 169%, Turk lirəsi 13%, İran realı 12%, Gürcü larisi 31% dəyərdən düşmüşdü.Yaranmış bu vəziyyət həyata keçirilmiş devalvasiyanı zəruri etdi. Devalvasiya nəticəsində məzənnənin 33.55% korreksiyası manatın qeyd olunan valyutalara qarşı baş vermiş orta çəkili bahalaşmasını neytrallaşdıra bildi.(3). Bu qərarın qəbulunun digər məqsədi isə neftin ixracından gələn gəlirlərin azaldığı bir dövrdə valyuta ehtiyatlarının tükənməsinin qarşısını almaq idi. Belə ki, dekabr və yanvar aylarında Mərkəzi Bank manatın sabit saxlanılmasına 2.3 milyard dollar sərf etdi. Bu isə valyuta ehtiyatının 15%-nə bərabər idi (4). Valyuta bazarında yaranmış vəziyyətlə əlaqədar olaraq Mərkəzi Bank eyni zamanda cari ildə məzənnə siyasətinin əməliyyat çərçivəsində dəyişiklik edərək ikitərəfli məzənnədən ABŞ dolları və Avronun daxil olduğu iki valyutalı, dəyəri tənzimlənən səbət mexanizminə keçidi reallaşdırdı. Səbət mexanizmi valyuta bazarında baş verən dəyişikliklərin iqtisadiyyatımıza neqativ təsirlərini aradan qaldırmağa imkan verir, çünki dünya bazarında Avro/dollar məzənnəsindəki dəyişiklik qismən Dollar/Manat və Avro/Manat məzənnələri

arasında bölüşdürülür. Dəyəri tənzimlənən səbət mexanizmi Milli Bankın valyutanı tənzimləmə imkanlarını genişləndirərək valyuta bazarındakı vəziyyətə, inflyasiyaya və digər bazar amillərinə uyğun olaraq valyutanın dəyərini məqsədyönlü şəkildə idarə etməyə imkan yaradır, eyni zamanda Mərkəzi Bankın pul kütləsi və faiz dərəcələrinə təsir imkanlarınıda artırır. Bu rejimdə Mərkəzi Bank valyuta bazarına müdaxilələri müdaxilə dəhlizi çərçivəsində (satış və alış məzənnəsi arasında diapazon) həyata keçirir. Nəticə etibarilə I rübün sonuna manatın əksər partnyor ölkələrin valyutalarına nəzərən nominal ikitərəfli məzənnəsi ucuzlaşmışdır. Manatın nominal ikitərəfli məzənnələrinin dinamikası real ikitərəfli məzənnələrin dəyişməsinə də təsir göstərmişdir.Manatın real ikitərəfli məzənnəsi ABŞ dollarına qarşı 21.1%, Avroya qarşı 10.7%, Türkiyə lirəsinə qarşı 13.2%, Rus rubluna qarşı 21.1% ucuzlaşmış, Belarusiya rubluna qarşı isə 2.5% bahalaşmışdır. 2015-ci ildə real effektiv məzənnə (qeyri-neft ticarət çəkili) 15.9% ucuzlaşmışdır. Bu nominal effektiv məzənnənin 17.3% ucuzlaşması hesabına baş vermişdir (3).

**Xülasə**

Məqalədə son dövrlərdə neft gəlirlərinin azaldığına görə maliyyə-bank sistemində yarana biləcək təhlükələrin qarşısını almaq üçün tətbiq edilmiş anti-böhran mexanizmlərindən danışılır. İlk olaraq, monetar siyasətin məzənnənin hədəflənməsi rejimindən inflyasiyanın hədəflənməsi rejiminə keçidindən bəhs edilir və bu rejimin hansı vasitələrlə Mərkəzi Bankın tərəfindən həyata keçirildiyi, bu monetar siyasətin hansı üstünlüklərə malik olduğu, bu rejimə keçid üçün hansı ilkin şərtlərin tələb olunduğu və Azərbaycanda bu şərtlərtin hansı səviyyyədə ödəndiyi qeyd edilir. Daha sonra tətbiq edilmiş digər anti-böhran mexanizmi olan devalvasiyanın tətbiqindən danışılır və manatın devalvasiyasının nə üçün tətbiq edildiyi, bunun Azərbaycan üçün faydalılığı, eyni zamanda dəyəri tənzimlənən səbət mexanizminə keçid və onun üstünlüklərindən bəhs edilir.

**Resume**

This article is about the applied anti-crisis mechanisms, in order to prevent possible vulnerabilities that could happen in finance and banking system as result of reduced oil income. Firstly, shift of monetary policy from exchange rate targeting to inflation targeting was mentioned and the methods used by Central Bank for implementation of this policy, advantages, required preliminary conditions, to which extent Azerbaijan meets this conditions was noted. Then, other applied ant-crisis mechanisms, devaluation of exchange rate and currency basket mechanism were mentioned and why devaluation applied, advantageousness of devalution and currency basket was noted.

**Резюме**

В статье рассматривается антикризисных механизмы для предотвращение рисков в финансовой и банковской системе которые могут возникнуть из за снижение доходов от продажи нефти в последние годы. В первую очередь, обсуждается переход от режима таргетирования обменного курса в режим таргетирования инфляции в денежно-кредитной политике и какими средствами этот режим осуществляться Центральным банком, какие преимущества имеет такая денежно-кредитная политика, какие предпосылки требуется для перехода к этому режиму, и отмечается в каком уровне отвечают требование в Азербайджане. Также рассматривается введение девальвации как другой антикризисный механизм и почему девальвация маната была применена, какие пользы могут принести Азербайджану, в то же время обсуждается переход к механизму в который валютный стоимость корзины регулируется.

## Ədəbiyyat siyahısı

1) Namiq Nağdəliyev, "İnflyasiyanin hədəflənməsi rejiminin nəzəri əsaslari və Azərbaycan Respublikasinda tətbiq edilməsi imkanlari", Bakı 2011.
2) İqtisadi göstəricilər
http://www.helgilibrary.com/
3) Pulsiyasətiicmali (Yanvar – Mart 2015)
http://www.cbar.az/assets/3771/PSI_2015.pdf
4) Azərbaycanda maliyyə böhranı: Nə etməli?!
http://pia.az/m/news.php?id=79944#.Vyc4KtR97s0

2016 - № 44

# MÜƏSSİSƏNİN MALİYƏ DAYANIQLIĞININ TƏKMİLLƏŞDİRİLMƏSİ

**Ə.M.Şəhla**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakl, İstiqlaliyyət küçəsi,6
e-mail: shahla.musaqizi@gmail.com

***Açar sözlər:*** maliyyə dayanıqlığı, ödəmə qabiliyyəti, kapital
***Ключевые слова:*** финансовая устойчивость, платежеспособность, капитал
***Keywords:*** financial stability, solvency, capital

Maliyyə-iqtisadi böhran şəraitində kommersiya təşkilatları tədarükçü və sifarişçilər ilə bağlanılan müqavilələr üzrə qarşıya qoyulan şərtlərin yenidən baxılması məcburiyyəti ilə üzləşir; təşkilat rəhbərliyinin diqqəti tam olaraq xərclərin azaldılması ehtiyatlarının axtarışına yönəlir. Maliyyə-iqtisadi böhranı kommersiya təşkilatları üçün spesifik «imtahandır»: böhran şəraitində yalnız rəhbərliyi dəyişən makro- və mikroiqtisadi göstəricilərə uyğunlaşa bilən təsərrüfat subyektləri fəaliyyət göstərə biləcəklər. Böhran zamanı ödəmə qabiliyyətinin itirilməsi və iflas prosedurlarının tətbiq olunma hallarının sayı artır. Bununla bağlı olaraq əksər təşkilatlar daimi sifarişçi və tədarükçülərini itirir. Fəaliyyət göstərmək üçün təşkilatlar digər, qeyri-qanuni kontragentlər ilə müxbir əlaqələr qurmağa məcbur olur.

Biznes üzrə potensial tərəfdaşlar ilə qarşılıqlı işgüzar əlaqələri qurmaqdan öncə onların maliyyə dayanıqlığı dərəcəsini müəyyən etmək olduqca zəruridir.

İstənilən təşkilat aşağıda göstərilmiş səciyyəvi xüsusiyyətlərə malik olan açıq sosial-iqtisadi sistemə aiddir:

– Sosial-iqtisadi sistem zaman çərçivəsində fəaliyyət göstərir, xarici mühit ilə təmasda olur və hər an həyat dövrü əyrisi tərəfindən öncədən müəyyən olunmuş vəziyyətlərdən birində ola bilər;

– «Sistemin girişinə» resurslar daxil olur, «sistemin çıxışında» isə nəticələr əmələ gəlir (hasilat, işlər, xidmətlər);

– Sistem daxilində istifadə olunan texnologiyaların əsasında daxil olan vəsaitlər nəticələrə çevrilir;

– Sistemin bir vəziyyətdən digər vəziyyətə keçidini müəyyən edən amillər rolunda çıxış edən və sistemin giriş və çıxış parametrlərinin uyğunlaşmasına (adaptasiyasına) gətirib çıxaran verilmiş inkişaf göstəricilərinin kənarlaşması xarici mühitin təsiri nəticəsində baş verir;

– Adaptasiya baş verdikdən sonra sistem dayanıqlı inkişafını qorumaq qabiliyyətinə malik olur;

– Dayanıqlı inkişaf dedikdə, sosial-iqtisadi sistemin verilmiş və faktiki xarakteristikaları arasında minimal fərqin əldə olunmasına nail olan (bu cür dayanıqlı inkişafın təmin olunmasına minimal xərclərin sərf olunması şərti ilə) inkişaf nəzərdə tutulur.

Beləliklə, təşkilat dayanıqlığın təmin olunması şərti ilə inkişaf edir; əks təqdirdə, o, dayanıqlı inkişaf fazasından növbəti kənarlaşmanın (böhranın) öhdəsindən gəlməyə bilər. Dayanıqlıq sistemin inkişaf amili qismində çıxış edir.

Maliyyə dayanıqlığı təşkilatın maliyyə vəziyyətini təsvir edən xarakteristikalardan ən mühümü sayılır. Həm yerli, həm əcnəbi müəlliflərin elmi işlərində «maliyyə dayanıqlığı» məfhumunun təşkilata məxsus aktivlərin növləri (daxili strukturu nəzər alaraq, dövriyyə və dövriyyədənkənar aktivlər) və onların maliyyələşdirmə mənbələri (şəxsi və kənardan cəlb olunmuş vəsaitlər) arasında optimal nisbətə əsaslandığı göstərilir.

Bazar iqtisadiyyatı çərçivəsində fəaliyyət göstərən təşkilatın dayanıqlığı onun rəqabətqabiliyyətliliyinin qiymətləndirməsində istifadə olunan ən mühüm amillərdən biridir.

Maliyyə dayanıqlığı həm iqtisadi mühitin sabitliyi ilə, həm də adıçəkilən mühitin fəaliyyət nəticələri, onun daxili və xarici amillərinin dəyişməsinə fəal və effektiv reaksiyası ilə şərtləndirilir. Müəssisənin maliyyə durumuna təsir göstərən amillər daxili və xarici amillər kimi təsnif olunur. Təşkilatın qeyri-müvəffəq durumunu törədən səbəblərə misal olaraq ilk öncə sistem makroiqtisadi səbəbləri göstərmək olar (ələlxüsus tədqiq olunan xarici amilləri qaydaya salmağa və onları müqayisəyə gələn hala çevirməyə imkan yaradan qiymətləndirilmənin kəmiyyət üsulunun istifadəsini praktiki olaraq qeyri-mümkün edən qeyri-sabit iqtisadi şəraitdə meydana gələn səbəbləri vurğulamaq mümkündür). Buna görə də (xarici amillərin tədqiq olunmasını nəzərə alaraq) təşkilatın maliyyə dayanıqlığının formalaşması barədə hər hansı bir dəqiq proqnozları ərsəyə gətirmək demək olar ki, qeyri-mümkündür. Bu səbəbdən onlar idarə olunmayanlar kateqoriyasına aid edilir. Bununla belə, xarici amillər daxili amillərə təsir göstərirlər və daxili amillərin kəmiyyətcə ifadəsini dəyişərək, özlərini onların vasitəsilə büruzə verirlər. Əlbəttə ki, bir çox müəssisələr bir çox xarici amillər ilə mübarizə aparmaq üçün yetərincə imkana malik deyildir, lakin cari vəziyyəti nəzərə alaraq, onlara yalnız istehsalatın ümumi tənəzzülünün mənfi nəticələrini yüngülləşdirə biləcək xüsusi strategiyaları həyata keçirmək qalır.

Müəssisənin idarə edə bilmədiyi xarici amillər və müəssisənin fəaliyyətindən asılı olan daxili amillər mənşəyə görə təsnif olunur. Bazar iqtisadiyyatı üçün təşkilat rəhbərliyinin həm xarici, həm daxili amillərin dəyişməsinə aktiv reaksiyası səciyyəvi və mütləqdir.

Bütövlükdə demək olar ki, maliyyə dayanıqlığı kompleks bir məfhumdur və öz növbəsində, xarici təzahür formalarına malikdir; bu formalar müxtəlif amillərin təsiri altında olan maliyyə-təsərrüfat fəaliyyəti prosesi ərzində əmələ gəlir.

Müəssisənin maliyyə dayanıqlığı dedikdə, mümkün risk səviyyəsi hüdudlarında ödəmə və kredit qaytarma qabiliyyətlərinin saxlanılması şərti ilə, gəlir və aktiv artımı əsasında müəssisə inkişafını təmin edən maliyyə resurslarının durumu, bölgüsü və istifadəsi başa düşülür. Qeyri-kafi maliyyə dayanıqlığının müəssisənin borcu ödəyə bilməməsinə və istehsal artımı üçün lazımi vəsaitlərin yoxluğuna gətirib çıxara biləcəyini, ifrat maliyyə dayanıqlığının isə müəssisənin inkişafına əngəl yaradacağını və artıq ehtiyatlar ilə xərcləri artıracağını nəzərə alaraq qeyd etmək lazımdır ki, maliyyə resurslarının durumu bazar tələblərinə və müəssisənin inkişaf ehtiyaclarına cavab verməlidir. Beləliklə, maliyyə dayanıqlığının mahiyyəti maliyyə resurslarının səmərəli formalaşması, bölgüsü və istifadəsindən ibarətdir. Bazar şəraitində müəssisənin «fəaliyyətini» təmin etmək üçün idarəetmə personalı müəssisə inkişafının mümkün və məqsədəuyğun templərini maliyyə təminatı nöqteyi-nəzərindən qiymətlədirməli, mümkün vəsait mənbələrini müəyyən etməli və nəticə etibarilə, təsərrüfat subyektlərinin dayanıqlı vəziyyətinə və inkişafına yol verməlidir. Kommersiya münasibətlərinin gələcək inkişafı üzrə dayanıqlığın müəyyən olunması tək təşkilatlar üçün yox, həm də sifarişçi və ya

müştəri stabilliyi, maliyyə rifahı və etibarlılığı haqqında məlumat əldə etmək istəyən tərəfdaşlar üçün də zəruridir. Buna görə də konkret təşkilatın dayanıqlığının qiymətləndirilməsində iştirak etmək istəyən kontragentlərin sayı daima artmaqdadır.

Maliyyə dayanıqlığının tədqiq olunması təşkilatın müntəzəm maliyyə-təsərrüfat prosesini təmin etmək qabiliyyətini və öz mənbələri tərəfindən aktivlərə qoyulan vəsaitlərin özünü ödəmə dərəcəsini qiymətləndirmək imkanını yaradır.

Müəssisənin maliyyə durumu, onun dayanıqlığı və sabitliyi birbaşa müəssisənin istehsal, kommersiya və maliyyə fəaliyyətinin nəticələrindən asılıdır. Hasilat və maliyyə planlarının müvəffəqiyyətlə yerinə yetirilməsi müəssisənin maliyyə durumuna müsbət təsir göstərir. Əksinə, istehsal və satış həcminin azalması nəticəsində onların maya dəyəri artır, gəlir və mənfəət azalır və nəticədə, müəssisənin maliyyə durumu və ödəmə qabiliyyəti pisləşir. Beləliklə, dayanıqlı maliyyə durumu heç də xoş təsadüf deyil – o, müəssisənin təsərrüfat fəaliyyətinin nəticələrini müəyyən edən amil toplusunun savad və bacarıq ilə idarə olunmasının bir nəticəsidir.

Dayanıqlı maliyyə durumu, öz növbəsində, hasilat planlarının yerinə yetirilməsinə və istehsalat ehtiyaclarının lazımi resurslar ilə ödənilməsinə müsbət təsir göstərir. Bu səbəbdən maliyyə fəaliyyəti, təsərrüfat fəaliyyətinin tərkib hissəsi olaraq, pul vəsaitlərinin müntəzəm daxilolmalarının və xərclənmələrinin təmin olunması, maliyyə intizamının yerinə yetirilməsi, şəxsi və borc kapitallarının rasional nisbətlərinin əldə olunması və onların ən səmərəli şəkildə istifadə olunmasına yönəlməlidir.

Bazar iqtisadiyyatına keçid şəraitində maliyyə dayanıqlığı hüdudlarının müəyyən olunması ən mühüm iqtisadi problemlərdən biridir; buna səbəb – qeyri-kafi maliyyə dayanıqlığının müəssisənin borcu ödəyə bilməməsinə və istehsal artımı üçün lazımi vəsaitlərin yoxluğuna gətirib çıxara bilməsi, ifrat maliyyə dayanıqlığının isə müəssisənin inkişafına əngəl yaratması və artıq ehtiyatlar ilə xərclərin artrmasıdır. Beləliklə, maliyyə dayanıqlığı maliyyə resurslarının bazar tələblərinə və müəssisənin inkişaf ehtiyaclarına cavab verən durumu ilə xarakterizə olunmalıdır.

Maliyyə dayanıqlığı müəssisənin ümumi dayanıqlığının əsas komponentidir. Müəssisənin maliyyə dayanıqlığının qiymətləndirilməsi üçün maliyyə resurslarının yaranması, bölgüsü və istifadəsi ilə ifadə olunan maliyyə durumunun təhlili lazımdır. Bu «ardıcıllıq» təhlilin məntiqi gedişatını da müəyyən edir: maliyyə resurslarının mövcudluğu, formalaşması, bölgüsü və istifadəsi ilə bağlı olan bütün proseslərin mərhələli şəkildə nəzərdən keçirilməsi.

Maliyyə dayanıqlığının təşkili və idarə olunması müəssisənin maliyyə-iqtisadi vəzifəsinin nəzərdə tutduğu işin ən mühüm aspektidir və özündə planlaşdırma, operativ idarəetmə və müəssisə və onun bölmələrində çevik təşkilati strukturun yaradılmasını əks etdirən bir sıra təşkilati tədbirləri birləşdirir.

Beləliklə, maliyyə dayanıqlığı bazar iqtisadiyyatı şəraitində işləyən müəssisənin maliyyə-iqtisadi fəaliyyətinin ən əhəmiyyətli xarakteristikasıdır. Müəssisə maliyyə baxımından dayanıqlıdırsa, o, eyni investisiya profilinə sahib olan digər müəssisələr ilə müqayisədə kreditin alınması və tədarükçülərin və ixtisaslı kadrların seçimi sahələrində üstünlüyə malikdir. Və nəhayət, həmin müəssisə büdcəyə – vergiləri, sosial fondlara – müvafiq ödəniş və haqqları, işçi və xidmətçilərə – əmək haqlarını, səhmdarlara – dividentləri, banklara – kredit və kredit üzrə faiz ödənişlərini vaxtı-vaxtında köçürməklə dövlət və cəmiyyət ilə münaqişəyə girmir.

Maliyyə dayanıqlığının qiymətləndirilməsi təkcə maliyyə durumu təhlilinin bir hissəsi deyil; o, həm də müəssisənin əmlak vəziyyəti, likvidlik, ödəmə qabiliyyəti, krediti qaytarma qabiliyyəti və rentabellik məsələlərini aydınlaşdırır. Bundan əlavə, maliyyə

dayanıqlığının təhlili mövcud nöqsanları aşkarlayır və onları aradan qaldırmaq üçün istifadə oluna biləcək vasitələri müəyyən etməkdə yardımçı olur.

Maliyyə dayanıqlığının müsbət amili ehtiyatların formalaşma mənbələrinin mövcudluğu, mənfi amili isə ehtiyat həcmi olduğunu nəzərə alaraq, dayanıqsız və böhranlı maliyyə durumundan əsas çıxış yolları – ehtiyatların formalaşma mənbələrinin artırılması, onlara xas olan strukturun optimallaşdırılması və həmçinin ehtiyat dərəcəsinin əsaslandırılmış şəkildə endirilməsidir.

Ehtiyatların formalaşma mənbələrinin artırılması üçün ən risksiz üsul – bölüşdürülməmiş mənfəətin yığımı və yaxud vergitutmadan sonra mənfəətin yığım fondlarına yönəldilməsi (həmin fondların dövriyyədənkənar aktivlərə qoyulmamış hissəsinin böyüməsi şərti ilə) hesabına real şəxsi kapitalın artımıdır. Ehtiyat dərəcəsinin endirilməsi ehtiyat qalıqlarının planlaşdırılması və istifadə olunmamış maddi-əmtəə dəyərlərin reallaşdırılması nəticəsində baş verir. Ehtiyat durumunun əsaslı təhlilinin mühasibat hesabatlarında öz əksini tapmayan analitik uçot məlumatlarının istifadəsini tələb etməsi səbəbindən o, maliyyə durumunun daxili təhlilinin əsas tərkib hissəsi rolunda çıxış edir.

Maliyyə dayanıqlığının proqnozlaşdırılması ilk öncə pul vəsaitlərinin daxilolma mənbələrinin və istifadə istiqamətlərinin əlaqələndirilməsi üçün labüddür.

Hal-hazırda tək müəssisənin maliyyə durumunu təhlil etmək deyil, həm də maliyyə dayanıqlığını proqnozlaşdırmaq və cari maliyyə durumunun yaxşılaşdırılması üçün tədbirlər planı tərtib etmək zəruridir.

Müəssisənin maliyyə dayanıqlığının gücləndirilməsinə yönəlmiş tədbirlər:

1. Ümumi və xalis mənfəətdən ehtiyatların yaradılması, daxili effekt – əmlak dəyərində şəxsi kapital payının çoxalması, şəxsi dövriyyə vəsaitlərinin mənbəələrinin kəmiyyətcə artması.

2. Debitor borclarının geri alınmasına yönəlmiş tədbirlərin gücləndirilməsi, daxili effekt – pul vəsaitləri payının çoxalması, dövriyyə vəsaitlərinin dövr etmə sürətinin artımı, şəxsi dövriyyə vəsaitləri ilə təmin olunma dərəcəsinin artması.

3. İstehsal xərclərinin azaldılması, daxili effekt – ehtiyat dəyərinin və xərclərin azalması, reallaşdırma rentabelliyinin artması.

Maliyyə dayanıqlığının gücləndirilməsinə yönəlmiş tədbirlər:

| Tədbir | İstiqamət |
|---|---|
| Debitor borclarına nəzarətin və təhlilin gücləndirilməsi | Sifarişçilərə kommersiya kreditlərinin verilməsi və pul vəsaitlərinin inkassasiyası üzrə effektiv metodikanın hazırlanması |
| Faktorinq əməliyyatları | Debitor borclarının dövr etmə və inkassasiya sürətinin artması |
| Spontan maliyyələşdirmə | Göstərilmiş xidmətlər üzrə ödənişlərin həyata keçirilməsi üçün sifarişçilərin stimullaşdırılması, yeni müştərilərin cəlb olunması |
| Şübhəli borclar üzrə ehtiyatların yaradılması | Müştərilərin yaşadığı maddi çətinliklərin nəticəsində yarana bilən itkilərin qabaqlanması, mənfəət vergisinin ödənilməməsi yolu ilə qənaət |
| Bölüşdürülməmiş mənfəətin hesabına qısamüddətli maliyyə qoyuluşlarının həyata keçirilməsi | Əlavə mənfəətin əldə olunması |

Yuxarıda qeyd olunduğu kimi, müəssisənin maliyyə dayanıqlığının gücləndirilməsi üçün debitor borclarına ciddi nəzarət tətbiq etmək, onları idarə etmək və sadalanmış tədbirlərin keyfiyyətini tənzimləmək zəruridir.

Debitor borcları müəssisənin kredit borcunun ödənilməsi üçün istifadə olunan mənbələrdən biridir. Müəssisə alıcı və sifarişçilərin hesablarında yerləşən cari məbləğləri dondursa, maliyyə vəsaitlərin kəskin kəsiri ilə üzləşə bilər. Bu isə kredit üzrə borcun artması və büdcə və qeyri-büdcə fondlarına köçürüləcək ödənişlər, sosial ehtiyaclar üzrə gəlirdən çıxmalar, əmək haqqı üzrə öhdəliklər və digər ödənişlər üzrə təyin olunmuş vaxtın ötürülməsi ilə nəticələnə bilər. Bu hal, öz növbəsində, müvafiq cərimələrin tətbiqinə gətirib çıxaracaq.

Müqavilə üzrə öhdəliklərin pozulması və tədarükçülər ilə vaxtsız-vədəsiz hesablaşmalar firmanın işgüzar nüfuzunun itirilməsinə və nəticə etibarilə, müəssisənin qeyri-likvidliyi və iflasına gətirəcək.

Debitor borcunun təhlili və idarə olunması ilk öncə hesablamalarda vəsait dövriyyəsinə nəzarət olunmasını fərz edir. Vəsait dövriyyəsinin sürətlənməsi müsbət tendensiya kimi qiymətləndirlir.

Debitor borcuna nəzarət sxemi bir qayda olaraq özündə bir neçə mərhələni əks etdirir:

1-ci mərhələ. Debitor borcunun ifrat dərəcəsi müəyyən olunur; borca aid olan və ifrat dərəcəsini keçən bütün hesablaşma sənədləri mütləq şəkildə yoxlanılır.

2-ci mərhələ. Qalan hesablaşma sənədlərindən seçmə yoxlama yığımı tərtib olunur.

3-cü mərhələ. Seçilmiş sənədlərdə debitor borcu məbləğlərinin reallıq dərəcəsi yoxlanılır. Xüsusilə kontragentlərə özündə uçotda olan və yaxud sənəddə təqdim olunan məbləğin reallığa nə dərəcədə uyğun olmasını yoxlamaq xahişini ehtiva edən məktubların göndərilməsi mümkündür.

Bu gün istənilən müəssisənin üzləşdiyi əsas problemlərdən biri pul vəsaitlərinin (yüksək likvidli aktivlərin) kifayət qədər olmamasıdır. Bu, müştərilərə kommersiya kreditlərinin fəallıqla təqdim olunması, verilmiş kommersiya kreditlərinin inkassasiyası üzrə ciddi nəzarətin olmaması və debitor borcunun dövr etmə müddətinin uzanması ilə şərtləndirilir.

Debitor borclarını daha səmərəli şəkildə idarə etməyə və əlavə dövriyyə vəsaitləri əldə etməyə imkan verən xeyli sayda daxili ehtiyatlar və mexanizmlər mövcuddur.

Debitor borcunun effektiv idarə olunması üçün müəssisə növbəti tövsiyələri həyata keçirməlidir:

1. Müştərilər ilə hesablaşmaların vəziyyətinə nəzarət etmək və iddia ərizələrini vaxtı-vaxtında təqdim etmək;
2. Bir və ya bir neçə iri istehlakçının yarada bildiyi ödəmə qabiliyyətinin olmaması riskinin azaldılması məqsədilə mümkün qədər yüksək müştəri sayına istiqamət almaq;
3. Kreditor və debitor borcları arasında uyğunluğu gözləmək.

Debitor borcları probleminin həlli özündə borcun geri qaytarılmasına yönəlmiş ciddi tədbirlərin və həmçinin daimi müştərilərin stimullaşdırılmasını nəzərdə tutan üsulların ahəngini əks etdirir. Təcrübədə bu ahəngə nail olmaq üçün *spontan maliyyələşdirmə* üsulu (hesablaşma müddətinin qısaldılması müqabilində alıcılara xüsusi endirimlərin təqdim olunması) istifadə olunur.

Alıcıya ödəniş möhlətini təklif edərək, satıcı həmin an etibarilə tərəfdaşına kredit təqdim etmiş olur; lakin həmin kredit satıcının yatırılmış mənfəət məbləğinə əlavə oluna bilən bank faizinə bərabər qazancı əldən verməsi (zərərə getməsi) səbəbindən aqibətsiz sayılmır.

Spontan maliyyələşdirmə həm tədarükçü, həm də sifarişçi üçün əlverişli sayılır. Bundan əlavə, maliyyələşdirmənin bu tipi bir sıra dolayı imtiyazları əldə etməyə imkan yaradır: balans likvidliyi daxil olmaqla, müəssisə fəaliyyətinin bütün maliyyə-iqtisadi göstəricilərində inkişaf müşahidə olunur və müəssisə haqqında «müştərilərə qayğı göstərən bir təşkilat» kimi müsbət təəssürat yaranır. Maliyyə menecmentinin üsullarından biri olaraq, spontan maliyyələşdirmə debitor borcunun azalmasına da gətirib çıxarır.

Spontan maliyyələşdirmə nəinki debitorların vaxtından əvvəl borclarını bağlamaqda maraqlı olmalarına səbəb olur; o, həm də işgüzar fəallığı, müəssisəyə aid aktivlərin gəlirliliyini və eləcə də ümumi mənfəəti artıran hesablaşma müddətinin qısalması ilə də nəticələnir.

Tədqiqatın gedişatında maliyyə dayanıqlığının (maliyyə axınlarının tənasüblülüyü, müəyyən vaxt kəsiyi ərzində müəssisə fəaliyyətini təmin etməyə imkan verən vəsaitlərin mövcudluğu) müəssisənin ümumi dayanıqlığının tərkib hissəsi olduğu məlum olmuşdur. İstehsal sisteminin yüksək məhsuldarlığa malik olması üçün müəssisə menecmenti maliyyə-iqtisadi dayanıqlıq ilə əlaqəli olan düzgün strategiyanı tətbiq etməlidir. İqtisadi vahidin strateji idarə olunması prosesinin ayrılmaz hissəsi həmin vahidin cari fəaliyyətinin təhlili və gələcək inkişaf perspektivlərinin qiymətləndirilməsidir.

Təsərrüfat təcrübəsi maliyyə menecmenti nəzəriyyəsinin və, ilk öncə, müəssisənin maliyyə dayanıqlığının qiymətləndirmə metodikasının təhlil keyfiyyətinin artırılması istiqamətində təkmilləşdirilməsini tələb edir.

Maliyyə dayanıqlığı maliyyələşdirmə mənbələri strukturunun aktivlərin strukturu ilə uyğun olmasını təyin edən xarakteristikalardan biridir. Müəssisənin qısamüddətli öhdəliklərini və dövriyyə aktivlərini qiymətləndirən ödəmə qabiliyyətindən fərqli olaraq,

maliyyə dayanıqlığı maliyyələşdirmə mənbələrinin müxtəlif növləri və maliyyələşdirmənin aktivlər strukturuna əlaqəsi arasında mövcud olan nisbət əsasında təyin olunur.

Aparılmış təhlil nəticəsində müəssisənin maliyyə dayanıqlığını gücləndirmək məqsədilə rəhbərliyin növbəti tədbirləri həyata keçirməli olduğu məlum olmuşdur:

- Debitor borcuna nəzarəti, habelə həmin borcun təhlilini və inkassasiyasını gücləndirmək;
- Şübhəli borclar üzrə ehtiyatlar yaratmaq;
- Qısamüddətli maliyyə qoyuluşlarını həyata keçirmək.

Debitor borcunun səmərəli şəkildə idarə olunması üçün müəssisə aşağıdakı tövsiyələrə əməl etməlidir:

1. (ödəniş möhləti verilmiş) alıcılar ilə hesablaşmaların vəziyyətini nəzarət altında saxlamaq və iddia ərizələrini vaxtı-vaxtında təqdim etmək;
2. Faktorinq əməliyyatlarını və spontan maliyyələşdirməni həyata keçirmək;
3. Şübhəli borclar üzrə ehtiyat yaratmaq.

Əlavə mənfəət əldə etmək üçün qısamüddətli maliyyə qoyuluşları həyata keçirmək məsləhət görülür.

Bu günümüzdə müəssisənin tək maliyyə durumunun təhlili yox, həm də maliyyə dayanıqlığının proqnozlaşdırılması və cari maliyyə durumunun islahı üçün tədbirlər planının tərtib olunması böyük əhəmiyyət kəsb edir.

Bununla bağlı olaraq müəssisənin maliyyə dayanıqlığının gücləndirilməsinə yönəlmiş bir sıra təkliflər hazırlanmışdır.

Maliyyə dayanıqlığının müsbət amili ehtiyatların formalaşma mənbələrinin mövcudluğu, mənfi amili isə ehtiyat həcmi olduğunu nəzərə alaraq, dayanıqsız və böhranlı maliyyə durumundan əsas çıxış yolları – ehtiyatların formalaşma mənbələrinin artırılması, onlara xas olan strukturun optimallaşdırılması və həmçinin ehtiyat dərəcəsinin əsaslandırılmış endirilməsidir. Bu nəticələrə aşağıdakı üsulların köməyi ilə nail olmaq mümkündür:

- Nizamnamə fondunun artırılması və həmçinin bölüşdürülməmiş mənfəətin yığımı hesabına real şəxsi kapitalın artımı (müəssisin təhlil olunan dövr üzrə ödənilməmiş ziyana sahib olmaması şərti ilə; əks təqdirdə bu üsul elə bir nəticə verməyəcək);
- Müəssisəyə həm qısamüddətli, həm uzunmüddətli borc vəsaitlərinin cəlb olunmasında yardımçı olacaq və şəxsi kapital və borc kapitalı arasında optimal mütənasibliyi təmin edəcək düzgün strategiyanın hazırlanması;
- Gün, həftə və ay üçün anbarda saxlanılan hasilat ehtiyatının orta həcminin təkrar gözdən keçirilməsi. Ehtiyat dərəcəsinin enməsi ehtiyat qalıqlarının planlaşdırılması və istifadə olunmayan maddi-əmtəə dəyərlərin reallaşdırılması nəticəsində baş verir. Həqiqi dəyərindən artıq olan ehtiyat dərəcəsi kreditor borcuna təsir göstərir; bu isə, öz növbəsində, müəssisə üçün əlverişsiz hal hesab olunur.

Debitor borclarının geri alınmasına yönəlmiş tədbirlərin gücləndirilməsi (bu addımın nəticəsində pul vəsaitlərinin payı, dövriyyə vəsaitlərinin dövr etmə sürəti, eləcə də şəxsi dövriyyə vəsaitləri ilə təminat dərəcəsi artır), debitor borcları dövriyyəsinin sürətləndirilməsi və nəticə etibarilə, debitorlar tərəfindən ödənilən vəsaitlərin daha ritmik şəkildə daxil olması, həmçinin ödəmə qabiliyyəti göstəriciləri üzrə «davamlılıq ehtiyatının» artırılması və d. üsullar da maliyyə dayanıqlığının qüvvətləndirilməsinə müsbət təsir göstərir.

Beləcə, maliyyə dayanıqlığını artırmaq üçün müəssisə öz mənbələrinin yığım templərini sürətləndirən və maddi dövriyyə vəsaitlərini öz mənbələri ilə təmin edən ehtiyatları araşdırmalıdır. Bundan əlavə, müəssisənin pul vəsaitlərini azad surətdə idarə edərək və onları səmərəli şəkildə istifadə edərək hasilatın fasiləsiz istehsal və reallaşdırma prosesini təmin etməsi üçün şərait yaradan maliyyə resurslarının ən optimal nisbətini və həmçinin müəssisənin genişlənmə və yenilənmə məsrəflərini tapmaq lüzumludur.

Müəssisə fəaliyyətinin real şərtləri təsərrüfat əməliyyatlarının obyektiv və hərtərəfli maliyyə təhlilinin labüdlüyünə səbəb olur. Bu təhlil müəssisə fəaliyyətinin xüsusiyyətlərini, iş prosesində müşahidə olunan nöqsanların özlərini və onların yaranma səbəbini müəyyən etməkdə, habelə əldə olunan nəticələrin əsasında fəaliyyətin optimallaşdırılmasına dair müəyyən tövsiyələrin işlənib hazırlanmasında yardımçı olur. Müəssisənin maliyyə durumu onun istehsal sahəsində rəqabətqabiliyyətliliyini (ödəmə qabiliyyətini) və beləliklə, qoyulmuş şəxsi kapitalın istifadə səmərəliliyini təcəssüm etdirir.

Müəssisə fəaliyyətinin maliyyə nəticələri istehsalatın rentabelliyindən, hasilatın istehsal və satış prosesinin təşkilindən və şəxsi dövriyyə resursları ilə təmin olunma dərəcəsindən asılıdır. Təcrübə göstərir ki, maliyyə təhlilinin mövcud üsulları təkmilləşdirilməyə ehtiyac duyur. Bu ehtiyacı müəssisədə təsdiq olunmuş mühasibat uçotu sisteminin tətbiqi əsasında ödəmək mümkündür. Aparılan təhlil ilk öncə müəssisənin malik olduğu bütün vəsaitlərin və onların təsərrüfat fəaliyyəti çərçivəsində istifadə olunması nəticələrinin uçotunu formalaşdıran, təcrübədə qəbul olunmuş mühasibat uçotunun formallaşdırılmış prinsiplərinə əsaslanmalıdır. Maliyyə təhlilin aparılması üçün özündə müəssisənin konkret fəaliyyətinin nəticələrini əks etdirən mühasibat hesabatlarından və həmçinin adıçəkilən hesabatlara əsaslanan hesablaşma göstəriciləri sistemindən istifadə olunur.

Müəssisələrin fəaliyyət göstəricilərinə həm iqtisadi, həm də təşkilati amillər təsir göstərir. Bundan əlavə, təsərrüfat fəaliyyətinin müstəqil iqtisadi subyektləri olan müəssisələr fəaliyyət nəticələrinin (mənfəətin) əks etdirmək hüququna malikdir və tərəfdaş seçimində azaddırlar. Tərəfdaşları seçərkən, müəssisələr qərarlarını iqtisadi məqsədyönlük və şəxsi mənfəət motivləri ilə əsaslandırır. Müasir şəraitdə bu subyektlərin təsərrüfatçılığı üçün zəruri element – istehsal prosesinin xammal ilə təchizatda, şəxsi heyətin komplektləşdirilməsində, istehsal olunmuş məhsulların sərəncamında, eləcə də kapital qoyuluşlarının maliyyələşdirilməsi və müəssisənin dövriyyə vəsaitləri ilə təmin olunmasında və digər tipik məsələlərin həllində təsərrüfat fəaliyyətinin həyata keçirilməsinin perspektivlərinə əsaslanan müstəqillikdir. İstənilən müəssisənin sərbəst fəaliyyətini yuxarıda göstərilən elementlər təşkil edir və maliyyə təhlilinin sistemi məhz onların uçotu əsasında qurulur.

Maliyyə durumunun dayanıqlığını (dövlət, tədarükçülər və digər kreditorlar ilə vaxtı-vaxtında hesablaşmaq qabiliyyəti) təmin etmək məqsədilə müəssisələr likvidlik səviyyələrini və ödəmə qabiliyyətlərini eyni dərəcədə saxlamaq üçün böyük səylər göstərirlər. Lakin, məlum olduğu kimi, müəssisələrin maliyyə dayanıqlığı tək daxili yox, həm də xarici amillərin təsiri ilə müəyyən olunur. Daxili amillər özündə müəssisənin malik olduğu aktivlərin vəziyyətini, onların dövriyyə qabiliyyətini və formalaşma mənbələrinin strukturunu ehtiva edir (yəni, müəssisənin təsir göstərməyə qadir və məcbur olduğu amillər). Müəssisə fəaliyyətinin səmərəliyini artırmaq məqsədilə tədbirlər toplusunun hazırlanması üçün ötən illər ərzində qazanılmış təcrübəni və aparılmış maliyyə təhlilinin nəticələrini nəzərə almaqla, müəssisənin təsərrüfat fəaliyyəti ərzində üzləşdiyi çətinlikləri aydın şəkildə təsvir etmək lazımdır. Dayanıqsız və böhranlı maliyyə durumundan çıxış yollarından biri ehtiyat dərəcəsinin əsaslandırılmış şəkildə endirilməsidir. Ehtiyat dərəcəsinin endirilməsi ehtiyat qalıqlarının planlaşdırılması, onların istifadəsinə nəzarətin

gücləndirilməsi, istifadə olunmamış maddi-əmtəə dəyərlərin reallaşdırılması və d. halların nəticəsində baş verir.

Debitor borclarının hərəkət (artıb-əskilməsi) və tərkibinin optimallaşdırılmasına istiqamətləndirilmiş tədbirlər növbəti şəkildə əkz oluna bilər:

- debitor borcları üzrə cari vəziyyətin təhlili;
- ödənmə müddəti baxımından debitor borcunun tərkibi və strukturu, müəssisənin debitor borcunu xarakterizə edən göstəricilərin hesablanması;
- debitor borclarının idarə olunmasına imkan yaradan analitik informasiyanın formalaşması;
- ödənmə müddəti üzrə hesab təsnifatını nəzərə almaqla alıcılar və sifarişçilər ilə aparılan hesablaşmaları özündə əks etdirən uçot cədvəlinin və jurnal-orderin tətbiqi.

Təşkilatın maliyyə durumu, likvidliyi və ödəmə qabiliyyəti bilavasitə aktivlərə qoyulmuş vəsaitlərin real pula çevrilməsi sürətindən asılıdır. Bu tip təsir işlək kapitalın tələb olunan minimum dəyəri və onunla əlaqəli olan pul vəsaitlərinin ödənişləri (kredit faizləri, səhmlər üzrə dividentlər və s.), əlavə maliyyələşdirmə mənbələrinə ehtiyac (və onlar üzrə ödəmələr), maddi-əmtəə dəyərlərin əldə olunması və saxlanması ilə bağlı çəkilən məsrəf məbləği, təşkilatın hesablarında yerləşən pul vəsaitlərinin məbləğ dəyəri və ödənilən vergi məbləğlərinin aktivlərin dövr etmə sürəti ilə bağlı olmaları faktı ilə izah olunur.

Pul vəsaitlərinin cari xərclənmələri və daxilolmaları bir qayda olaraq, vaxt baxımından üst-üstə düşmür; nəticə etibarilə, təşkilat ödəniş qabiliyyətini eyni səviyyədə saxlamaq məqsədini güdərək maliyyələşdirmənin nisbətən çox və ya nisbətən az həcminə ehtiyac duymağa başlayır. Dövriyyə aktivlərinin sürəti nə qədər az olsa, maliyyələşdirməyə ehtiyac bir o qədər yüksək olur.

Xarici maliyyələşdirmə baha başa gəlir və müəyyən məhdudiyyətlərə malikdir. Kapital artımının öz mənbələri mənfəət qazanmaq qabiliyyəti ilə məhdudlaşdırılır. Beləliklə, müəssisə dövriyyə aktivlərini idarə edərək öz likvidliyini artırmaq imkanını əldə edir. Dövriyyə aktivlərinin səmərəli idarə olunmasının kapitala qarşı yaranan tələbatın ödənilmə üsullarından biri kimi nəzərdə tutulması təsadüfi deyil. İstehsal effektivliyinin qaldırılması iqtisadi artımın əsas qeyd-şərtidir. Bazar şəraitində bu prosesi idarə etmək üçün bütün iqtisadi artım mənbələrindən istifadə imkanını əks etdirən və elmi cəhətdən əsaslandırılmış göstəricilər sisteminə və eləcə də müəssisədə istehsal səmərəliliyini və hasilatın reallaşdırılmasını təhlil edən modelə malik olmaq lazımdır. İstehsal effektivliyi göstəriciləri sisteminin təkmilləşdirilməsi nəzəri əhəmiyyətdən daha çox praktiki məna daşıyır: bu sistem nə qədər mükəmməl olsa, səmərəliliyin artımını təmin edən ehtiyatların axtarışı bir o qədər dəqiq olar. Debitor və kreditor borclarının azaldılması üsullarından biri faktorinq əməliyyatının tətbiqi ola bilər.

Müəssisənin maliyyə dayanıqlığı – təsərrüfat subyektinin fəaliyyət göstərmək və inkişaf etmək, eləcə də dəyişkən xarakterli daxili və xarici mühitdə həmin subyektin mümkün risk səviyyəsi hüdudlarında investisiya cəlbediciliyini və daimi ödəmə qabiliyyətini təmin edən aktiv və passivlərin tarazlığını saxlamaq qabiliyyətidir. Maliyyə dayanıqlığına bir çox amillər təsir göstərir: xarici (əmlak vəziyyəti, maliyyə resurslarının durumu, şəxsi dövriyyə vəsaitləri və d.) və daxili (ümumi sabitlik, dinamika, tələbin ödəmə qabiliyyətinin dəyişməsi və s.).

Müəssisənin maliyyə dayanıqlığının xarici təzahürü onun ödəmə qabiliyyətidir. Müəssisənin malik olduğu pul vəsaitləri, qısamüddətli maliyyə qoyuluşları (qiymətli kağızlar, digər müəssisələrə göstərilən müvəqqəti maliyyə yardımı) və aktiv hesablaşmaları (debitorlar ilə hesablaşmalar) qısamüddətli öhdəliklərini ödəyirsə, həmin müəssisə ödəmə

qabiliyyətinə malik iqtisadi vahid sayılır. Beləliklə, ödəmə qabiliyyəti – müəssisənin əsas və dövriyyə istehsal fondları üzrə hesablaşmaq qabiliyyətidir.

Rentabellik istehsalın iqtisadi effektivliyinin göstəricisidir və müəyyən dövr üzrə əldə olunan mənfəət və çəkilən xərclərin nisbətini xarakterizə edir. Təhlilin gedişatında daxili və xarici istifadəçilər satışların və bütövlükdə təşkilatın rentabelliyi, şəxsi və borc kapitalının və həmçinin əsas və dövriyyə kapitalının rentabelliyi kimi göstəricilərin dəyişmə dinamikasını tədqiq edir. Rentabellik göstəricilərinin əsasında satışlardan əldə olunan mənfəət, eləcə də əsas istehsal fəaliyyətindən gələn mənfəət və bütün xərclərin (digər gəlir və məsrəflər və həmçinin mənfəət vergisi daxil olmaqla) arasında olan fərq şəklində hesablanan təşkilatın xalis mənfəəti durur. Təhlil üçün əsas məlumat mənbələri qismində isə mühasibat balansı və təşkilatın təqdim etdiyi hesabatlar çıxış edir.

Hal-hazırda təşkilatların borc mənbələrindən asılılığı artmaqdadır. Cari vəziyyətin ifrat dərəcəyə çatmamasına baxmayaraq, bu gedişat ilə təşkilatın müflis olma riskinin yüksək olması səbəbindən təsvir olunmuş tendensiyaya son qoymaq lazımdır. Müəssisənin qarşısında duran mühüm məsələlərdən biri vəsaitlərin xərclənməsində qənaət rejiminə ciddi əməl olunması və həmin vəsaitlərin maksimal səmərəli şəkildə istifadə olunması yolu ilə minimum xərclərlə mənfəətin qazanılmasıdır.

Müəssisənin maliyyə durumunda yaşanan problemlərin səbəblərindən biri fəaliyyət nəticələrinin (maliyyənin) qeyri-rasional idarə olunmasıdır. Müəssisənin maliyyə dayanıqlığının optimallaşdırılması məqsədilə həm qısamüddətli, həm uzunmüddətli perspektivə hesablanmış tədbirləri həyata keçirmək zəruridir. Müəssisənin maliyyə durumu müəssisə rifahına təsir göstərən bir sıra amildən asılıdır. Maliyyə durumunun yaxşılaşdırılması üçün həmin amilləri kompleks şəkildə tədqiq etmək və onların törədə biləcəyi mənfi təsirinin qarşısını almaq labüddür. Yaranmış vəziyyətdə rəhbərlik müəssisə rentabelliyini və likvidliyini artırmaq üçün satış şəbəkəsini genişləndirərək, şəxsi kapital payını artıraraq və həmçinin maliyyə göstəriciləri üzərində tam nəzarəti təmin etmək üçün müəssisənin təşkilati strukturunu optimallaşdıraraq, yüksək mənfəətin əldə olunması məqsədini güdməlidir.

Pul vəsaiti yığımının əsas forması qismində çıxış edən mənfəət əmtəənin satış və alış qiymətlərinin arasında yaranan fərqdir. Beləcə, mənfəət artımının əsas mənbələri əmtəə dövriyyəsinin genişləndirilməsi, dövriyyə xərclərinin azaldılması və hasilat çeşidinin optimallaşdırılmasıdır. Sahibkarlıq fəaliyyətinin inkişafı şəraitində göstərilmiş amillərin həyata keçirilməsini üçün zəmin yaradan ilkin şərtlər meydana gəlir. Pul vəsaitləri yığımının əsas mənbəyi əmtəələrin reallaşdırılmasından əldə olunan gəlirdir (ələlxüsus hasilatın əldə olunması və sonrakı reallaşdırılmasına sərf olunan maddi, əmək haqqı və pul xərcləri çıxıldıqdan sonra gəlirin qalan hissəsidir). Müəssisənin mühüm vəzifələrindən biri – vəsaitlərin xərclənməsində qənaət rejiminə ciddi əməl olunması və həmin vəsaitlərin ən effektiv şəkildə istifadə olunması yolu ilə minimum xərclərlə mənfəətin qazanılmasıdır. Mənfəətin stabil artımını təmin etmək üçün isə mənfəət artımı ehtiyatlarını daima araşdırmaq lazımdır. Mənfəət artımı ehtiyatları əlavə mənfəətin kəmiyyətcə ölçülə bilən əldə olunma imkanlarıdır. Həmin imkanlar həm planlaşdırma, həm də planların icrası mərhələlərində aşkar olunur.

Maliyyə dayanıqlığının qiymətləndirilməsi təhlilin xarici subyektləri üçün uzunmüddətli perspektivdə təşkilatın maliyyə imkanlarının müəyyən olunmasında yardımçı olur.

*Maliyyə dayanıqlığı təhlilinin məqsədi* – müəssisənin uzunmüddətli perspektivdə öz öhdəliklərini ödəmək və mülkiyyət hüquqlarını qoruyub saxlamaq qabiliyyətinə qiymət verməkdir. Bu zaman növbəti məsələlərin həll edilməsi zəruridir:

– Maliyyə dayanıqlığının obyektiv qiymətləndirilməsi;

– Maliyyə dayanıqlığına təsir göstərən amillərin müəyyən olunması;
– Maliyyə dayanıqlığının gücləndirilməsinə yönəlmiş konkret idarəetmə qərarları variantlarının hazırlanması.

İqtisadiyyat və cəmiyyət üçün xüsusilə təsərrüfat subyektlərinin maliyyə dayanıqlığının mahiyyəti bu sistemin hər bir elementi üçün vacib olan əhəmiyyəti aşağıdakılardan ibarətdir:

– Vergi orqanları və digər analoji qurumlar ilə təmsil olunan dövlət üçün – vergi və müvafiq haqların vaxtı-vaxtında tam olaraq dövlət büdcəsinin müxtəlif səviyyələrinə köçürülməsidir. Büdcənin mədaxil hissəsinin istifadəsi və həmçinin dövlət və regional səviyyədə fərqli mənfi nəticələrə gətirib çıxara bilən funksiyaların tamamən reallaşdırılması və öhdəliklərin bütövlüklə yerinə yetirilməsi imkanları məhz bu prosesdən asılıdır;

– Dövlət himayəsi altında yaradılan büdcədənkənar fondlar üçün – həmin fondlara müvafiq ödəniş və haqların vaxtı-vaxtında tam olaraq köçürülməsidir. Müəssisə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsə, fəaliyyətində pozuntuların baş verməsini (ələlxüsus pensiya ödənişlərinin, işsizlik və uşağa qulluğa görə müavinətlərin və s. ödənilməsi sahələrində) müşahidə edə bilər;

– Müəssisədə çalışan işçilər və digər maraqlı şəxslər üçün - əmək haqqının vaxt-vaxtında ödənilməsi və əlavə iş yerlərinin təmin olunmasıdır. Bundan başqa, müəssisə gəlirlərinin artımı istehlak fondlarının genişlənməsinə səbəb olur və nəticə etibarilə həmin müəssisədə çalışan işçilərinin maddi rifahının yüksəlməsinə gətirir;

– Tədarükçülər və podratçılar üçün – öhdəliklərin vaxtı-vaxtında tam olaraq yerinə yetirilməsidir. Onların göstərdiyi fəaliyyət nəticəsinə əldə etdiyi mənfəət əsasən alıcı və sifarişçilər tərəfindən formalaşdığı səbəbindən, bu məqam yuxarıda göstərilən tərəflər üçün olduqca zəruridir. Vaxtsız-vədəsiz hesablaşmalar nəticəsində maliyyə vəsaitlərin dövriyyədən çıxarılması tədarükçü və podratçıların maliyyə durumunu ağırlaşdırır və onları normal fəaliyyətin təmin olunması üçün əlavə borc vəsaitlərinə müraciət etməyə vadar edir (bu isə əlavə məsrəflərin yaranması deməkdir);

– Xidmət göstərən kommersiya bankları üçün – kredit müqaviləsində əks olunmuş şərtlərə uyğun olaraq öhdəliklərin vaxtı-vaxtında tam olaraq yerinə yetirilməsi. Müqavilə şərtlərinin gözlənilməməsi və verilmiş kreditlər üzrə ödənişlərin həyata keçirilməməsi bank fəaliyyətinin pozulmasına səbəb ola bilər;

– Sahibkarlar üçün – gəlirlilik və dividentlərin ödənilməsinə yönələn gəlir məbləğidir. Müəssisə sahibləri üçün maliyyə dayanıqlığı müəssisənin gəlirliliyini və gələcəkdə sabitliyini müəyyən edən amil rolunda çıxış edir.

– İnvestorlar üçün (potensial investorlar daxil olmaqla) – müəssisəyə yatırımların əlverişliliyi və risk dərəcəsidir. Müəssisə maliyyə baxımından nə qədər dayanıqlı olsa, ona yatırılan investisiyalar bir o qədər xeyirli və az riskli olacaqlar

Müəssisə dayanıqlığının ali forması onun inkişaf etmə qabiliyyətidir. Bunun üçün müəssisə maliyyə vəsaitlərinin çevik strukturuna və həmçinin lazım gəldikdə borc vəsaitlərini cəlb etmək qabiliyyətinə (yəni, kredit ödəmə qabiliyyətinə) malik olmalıdır

Bir çox ölkələrin təsərrüfat təcrübəsinin təhlili göstərir ki, dayanıqsız maliyyə durumu həm istehsal tənəzzülünü yaşayan və borcunu ödəyə bilmək qabiliyyətinin zəifləmə əlamətləri ilə rastlaşan müəssisələrdə, həm də, tam əksinə olaraq, kapital artımı və kapital dövriyyəsinin çoxalması, lakin şərti-daimi xərclərin yüksək səviyyəsi ilə fərqlənən və gəliri tədricən azalan müəssisələrdə müşahidə olunur.

## ƏDƏBİYYAT

1. Sadıqov M.M. Azərbaycan maliyyə potensialının formalaşması Bakı: Elm nəşriyyatı 2003

2. Abbasov Ə.N, Sadıqov M.M. Azərbaycan Respublikasının regionları maliyyə və potensialının proqnozlaşdırılmasıproblemləri(monoqrafiya) Bakı :Elm 2002

3. Фетисов Г.Г Финансовая устойчивость предприятия. М:

4. Финансы: Учебник: Гриф / под ред. Г.Б. Поляк .-- 3-е изд., перераб. и доп. -- М.: ЮНИТИ-ДАНА, 2008 .—432

5. Финансы: Учебник: Гриф МО РФ для студ.вузов / Под ред А.Г. Грязновой, Е.В. Маркиной .-- М.:

6. Шеремет, А.Д. Финансы предприятий: менеджмент и анализ = Учебное пособие: Гриф / А.Д. Шеремет, А.Ф. Ионова .-- 2-е изд., испр. и доп. -- М.: ИНФРА-М, 2009 .-- 50с.

## РЕЗЮМЕ

В статье раскрыта суть финансовой устойчивости, определены ее основные параметры. Определена роль финансовой устойчивости в развитии предприятия, указано ее значение в увеличении капитала. Параллельно коротко проанализированы основные параметры управленческой системы финансовой устойчивости.

## SUMMARY

The article reveals the essence of financial stability, defined its basic parameters. . In the article disclosed the role of financial stability in the company's development, given its importance in the capital increase. At the same time briefly analyzed the main parameters of the management systems of financial stability.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# AZƏRBAYCANDA MƏNZİL BAZARININ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**M.M.Əhmədov**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakı, H.Əliyev küç. 135
e-mail:miraga.ahmedov@mail.ru

**Açar sözlər:** mənzil bazarı, dövlət tənzimlənməsi, inhisarlaşma, iqtisadi metodlar.
***Keywords:*** housing, government regulation, monopolization and economic methods.
***Ключевые слова:*** жилищный рынок, государственное регулирование, монополизация, экономические методы.

## Giriş

Azərbaycan Respublikasında sivil mənzil bazarının inkişafı üçün hökumətin effektiv siyasəti tələb olunur. Bu zaman iqtisadiyyatın dövlət tənzimlənməsinin dərəcə və formasını düzgün müəyyən etmək vacibdir.

Bazarların dövlət tənzimlənməsinə müxtəlif yanaşmalar mövcuddur. Neoklasik nəzəriyyə baxımından mənzil bazarının fəaliyyətinə hökumətin müdaxiləsi orada lazımdır ki, burada resursların səmərəli istifadəsini təmin etmək qabiliyyətinə malik olmayan bazar mexanizmləri iştirak edirlər, daha doğrusu, bazar "uğursuzluqları" nümayiş etdirir. Lakin dövlətin bazar "uğursuzluqlar"ını kompensasiya etmək üçün yalnız müdaxilə etmək hüququ var və həm də bu, ən səmərəli üsulla baş verməlidir ki, bu da ən aşağı xərclərlə daha yaxşı nəticələrin əldə edilməsi ilə müşahidə ediləcəkdir.

Hökumətin müdaxiləsi tələb edilən "bazar uğursuzluqları"nı sübut edən səmərəsiz hallar mövcuddur ki, buna da mənzil bazarının timsalında baxacağıq.

**1. Mənzil bazarının inhisarlaşması səbəbləri və antiinhisar tənzimlənməsinin prioritet istiqamətləri**

Bazarın inhisarlaşdırılması - bazar rəqabət mühitini dəstəkləmək qabiliyyətində olmadığı zaman baş verir. İnhisarçılıq iqtisadiyyatda resursların Pareto-səmərəli bölüşdürülməsinə kömək etmir, həm də ictimai rifah itkisinə gətirib çıxarır, buna görə də hökumət mənfi təsirləri aradan qaldırmaq üçün, rəqabət mühitinin dəstəklənməsinə və inhisar təcrübələrin məhdudlaşdırılmasına yönəlmiş siyasət həyata keçirməyi nəzərdə tutmalıdır. Hər hansı digər bazarda olduğu kimi, ilkin yaşayış təyinatlı daşınmaz əmlak bazarında da istehsalçılar üçün yüksək bazar qiymətlərini saxlamaqla, təklif həcmini məhdudlaşdırmaq əlverişlidir. Buna görə də, onlar rəqiblərin bu bazara daxil olmasının məhdudlaşdırılmasında maraqlıdırlar. Rəqabətin məhdudlaşdırılmasına iştirakçılar üçün, həm onlara verilən peşəkar tələblərlə şərtlənən obyektiv məhdudiyyətlər, həm də süni maneələr kömək edir.

Mənzil bazarının inhisarlaşması səbəbləri arasında aşağıdakılar qeyd edilməlidir:

• özlərini hələ subpodrat təşkilatlar və innovativ materialların istehsalçıları kimi göstərməyənlərin bazara daxilolmalarının məhdudlaşdırılması, hansı ki, bunu bazarın müxtəlif subyektləri: sifarişçilər, baş podratçılar, o cümlədən sövdələşmə ilə həyata krçirirlər. Belə məhdudiyyətlərin səbəbi bazarda həm podratçıların nüfuzunun olmaması və həm də(tez-tez) onların nizamnamə kapitalında baş podratçıların iştirakının nəzərdə tutulmaması ola bilər;

• bina tikənlərin əksəriyyətinin mürəkkəb obyektlərin tikintisini həyata keçirmək qabiliyyətində olmaması və ya istəməməsi və s.;

• orta və kiçik firmalar üçün özünü-tənzimləmə təşkilatlarına üzvlüyün yüksək dəyəri. Özünü-tənzimləmə institutunun fəaliyyəti onlar üçün assosiasiya və ittifaqlar şəklində inteqrasiyasını çətinləşdirir.

Yaşayış təyinatlı tikinti bazarında oyun qaydaları kiçik və orta firmaların inkişafı üçün xüsusi şərait təmin etmədiyindən, onlar bazarı tərk etmək və ya qonşu seqmentlərə keçmək, məsələn, mənzil fondunun əsaslı təmirini aparmaq, qeyri-yaşayış təyinatlı kiçik obyektlərin tikintisini yerinə yetirmək və s. məcburiyyətində qalırlar.

Azərbaycanın mənzil tikintisi bazarında inhisarlaşma dərəcəsinə həm də aşağıdakı amillər təsir edir:

• mənzil bazarının tutumluğu. Bu isə öz növbəsində, əhalinin adambaşına malik olduğu real gəlirlərindən və onların diferensiallaşma dərəcəsindən asılıdır.

• bazarda dövlətin iştirakı;

• institusional xüsusiyyətlərə görə maneələr.

Yaşayış təyinatlı daşınmaz əmlak bazarında yalnız dövlətin müştəri kimi çıxış etdiyi monopsoniya müşahidə oluna bilər. Məsələn, əsas hərbi şəhərciklərdə yaşayış təyinatlı obyektlərin tikintisi müxtəlif tikinti podratçıları tərəfindən həyata keçirilə bilər, lakin yeganə alıcı qismində Azərbaycan Müdafiə Nazirliyi çıxış edəcək. Həmçinin, müəyyən rayonlarında yaşayış təyinatlı daşınmaz əmlak obyektlərinin yeganə alıcısı kimi müəyyən proqramlar çərçivəsində çıxış edən bələdiyyələr ola bilər: köhnə və sökük yaşayış evlərinin dağıdılması və yenidən qurulması ("dalğavarı köçürülməsi"); yetim uşaqların mənzillə təminatı; fövqəladə vəziyyət, hərbi əməliyyatlar və s. nəticəsində zərərçəkənlərin mənzillə reabilitasiyası. Belə hallarda, həmçinin tez-tez müəyyən şərtlərin biznesə, xüsusilə də müqavilələr üzrə tərəfdaşlara tətbiqi, eləcə də onun dövlət sifarişləri alan imtiyazlı hissəsinin ayrılması müşahidə oluna bilər.

Ekspertlər tikinti şirkətinin dövlət müqaviləsi yolunda aradan qaldırılmalı olan üç əsas maneəni qeyd edirlər: 1) iştirak etmək üçün ərizənin təmin edilməsini; 2) öz vəsaitləri hesabına tikintini; 3) dövlət müqavilələrinin aşağı gəlirlilik səviyyəsini [1]. Bundan əlavə, baş podratçılar üçün tenderlərin tətbiqi ilə işlərin istehsalı üçün öz resurslarının mövcudluğu haqqında tələb qoyulmuşdur ki, bunun da nəticəsində bina tikənlər hesablamaları şişirtməli olurlar(o cümlədən buraya korrupsiya komponentlərini daxil etməklə) və ya sub-podratçılar hesabına bu işi yerinə yetirirlər, hansı ki, bu görülən iş üçün çox vaxt pul ödənilmir.

Ona görə də, bu gün Azərbaycanın mənzil bazarının antiinhisar tənzimlənməsinin prioritet istiqamətləri aşağıdakılar sayılır:

1) sahəyə daxilolmanın giriş maneələrinin azaldılması, yəni bəzi müqavilələrin müddətlərinin azaldılması və alınması şərtlərinin sadələşdirilməsi, dövlət xidmətlərinin göstərilməsində inzibati prosedurların optimallaşdırılması tədbirlərinin görülməsi;

2) inhisarçılıq təzahürlərinin yaranmasına qarşı mübarizə(şişirdilmiş qiymətlərlə, gizli sövdələşmələrlə, tikinti keyfiyyətinin aşağı salınması ilə, istehlakçı fırıldaqçılıqları və s. ilə).

**2. İnformasiya asimmetriyasının və xarici effektlərin mənzil bazarının inhisarlaşmasında rolu**

İnformasiya asimmetriyası mənzil bazarında satıcının daşınmaz əmlak obyektinin xüsusiyyətləri haqqında daha çox məlumatlara, alıcının isə daha az bilgiyə malik olması şəklində iştirak edir. Məsələn, müştəri mənzilə baxış zamanı onun rahatlığını və komfortunu müstəqil olaraq qiymətləndirə bilər, lakin satıcı öz materialların keyfiyyəti və yerinə yetirdiyi işlər haqqında daha çox bilir. Bu halda dövlət tənzimlənməsi müvafiq standartların, qaydaların və normaların qəbul edilməsi, sertifikatlaşdırma və lisenziyalaşdırma üzrə

tələblərin işlənib hazırlanması yolu ilə inzibati metodlarla həyata keçirilir. Lakin, bu bina tikənlərin fürsətdən istifadə davranış xərclərini azaltmağa tam kömək etmir, onlar materialların, işl icraçılarının seçimi, eləcə də zay məhsulun düzəldilməsi üçün qərar qəbulu imkanını özündə saxlayır.

Son illərdə dövlətlə yanaşı mənzil bazarında istehlakçıların hüquqlarının qorunmasında qeyri-kommersiya tərəfdaşlığı – inşaatçıların özünü tənzimləyən təşkilatları daha böyük rol oynamağa başlayır[2]. Onların yaradılmasının əsas məqsədi dövlət nəzarət funksiyalarının köçürülməsi yolu ilə və bununla da bu sahədə korrupsiya təzahürlərini azaltmaqla bazarı daha sivil və açıq etmək zəruriyyəti sayılır. Özünü tənzimləyən təşkilatlara inşaatın keyfiyyətinin yaxşılaşdırılması üçün, eləcə də yoxlamalar həyata keçirmək və tikilən obyektin keyfiyyəti haqqında rəy vermək üçün daxili standartları və iş qaydaları işləyib hazırlamaq imkanı verilir.

Məlum olduğu kimi, bazaar heç də həmişə mülkiyyət hüquqlarının kəsişməsi ilə bağlı problemləri optimal həll edə bilmir, bunun da nəticəsində bazar iqtisadiyyatında müsbət xarici effektlərlə nemətlərin tam olmayan istehsalı və mənfi xarici effektlərlə nemətlərin həddən artıq istehsalı müşahidə edilir.

Mənzil sosial əhəmiyyətli nemətlər kateqoriyasına aiddir. Mənzil bazarının inkişafının müsbət effektləri (sosial faydalar) həm makro səviyyədə, və həm də mikro səviyyədə özünü göstərilir. Belə ki, cəmiyyət tərəfindən yaşayış təyinatlı daşınmaz əmlak bazarının inkişafından alınan müsbət xarici təsirlər hər şeydən əvvəl özünü onda göstərir ki, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması bütövlükdə demoqrafik vəziyyətin yaxşılaşdırılmasında, əhalinin həyat şəraitinin, təhsilin, səhiyyənin yaxşılaşdırılmasında, krimonogen vəziyyətin azalmasında və s. özünü büruzə verir .

### 3. Mənzil bazarının dövlət tənzimlənməsi metodları

Daşınmaz əmlak bazarında dövlət iki əsas funksiyanı yerinə yetirir: tənzimləyici və təsərrüfat. Daşınmaz əmlak bazarının dövlət tənzimlənməsi həm inzibati, həm də iqtisadi metodlarla həyata keçirilir[3].

Mənzil bazarının dövlət tənzimlənməsi metodlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

I.İnzibati metodlar:

1) hüquqi tənzimləmə - standartların yenilənməsi, Torpaq və Mənzil məcəllələrinə, şəhərsalma və digər normativ-hüquqi aktlara dəyişikliklər edilməsi.

2) mənzil bazarının fəaliyyətinin infrastruktur təminatı – bura daşınmaz əmlaka və onunla aparılan sövdələşmələrə hüquqların uçotu və qeydiyyatı institutu, notariat, məhkəmə və s. daxildir.

3) ictimai ehtiyaclar üçün( qaçqınlara, məcburi köçkünlərə, şəhid ailələrinə, əlillərə, fövqəladə hadisə qurbanlarına və digər vətəndaş kateqoriyalarına) obyektlərin dövlət mülkiyyətinə alışı.

II. İqtisadi metodlar:

1) Vergi siyasəti alətlərindən istifadə:

- tikintiyə məsrəfə görə və ya mənzilin alınması, mənzil altında torpaq sahəsinin alınması zamanı, eləcə də məqsədli mənzil kreditlərinin(istiqrazların) qaytarılmasına görə əmlak vergisinin çıxılması;
- 3 ildən çox sahiblik şərti ilə mənzil satışı zamanı gəlir vergisindən azad olunması;
- yaxın qohumlar arasında vərəsəliyə və bağışlamağa görə verginin ləğvi və s.

2) pul-kredit siyasəti alətlərindən istifadə - başlıca olaraq ipoteka kreditləşməsi sahəsində;

3) tarif tənzimlənməsi sahəsində dövlət siyasəti.

Sahənin innovativ inkişafının aşağı templərinin səbəbləri iqtisadi stimulların yoxluğu və yeni tikinti texnologiyalarının tətbiqinin bahalığı; podratçıların aşağı səviyyəli təsnifatı; reqlamentlərin köhnəlməsi; cəmiyyətdə antiinovasiya atmosferi və tikintidə idarəetmə qərarları qəbul edən şəxslərin konservativ düşüncələri üzündən mövcuddur. Bu problemin həllində dövlət tənzimlənməsinin tədbirləri aşağıdakılardır: standartların, tikinti normalarının və qaydalarının modernləşdirilməsi, enerji səmərəliliyinə malik materialların və texnologiyaların tətbiqinin stimullaşdırılması.

Əhalinin əksəriyyəti üçün mənzilin əlçatar olmamasının əsas səbəbləri Azərbaycanın iri şəhərlərində mənzillərin dəyərinin yüksək olmasından, ipoteka kreditlərinin bahalığımdan, eləcə də əhalinin əlçatar mənzillə təmin edilməsi proqramlarının reallaşdırılmasının zəif nəticələrindən ibarətdir.

**4. Azərbaycanda mənzil bazarının dövlət tənzimlənməsinin nöqsanları və onların aradan qaldırılması yolları**

Mənzil bazarının dövlət tənzimlənməsinin müasir Azərbaycan sisteminin nöqsanlarına baxaq:

1. Normativ-hüquqi tənzimləmənin nöqsanları:

- torpaq hüququnun inkişafının digər sahələrin daşınmaz əmlak dövriyyəsini tənzimləyən qanunvericiliyin inkişafından geri qalması. Bu isə binaların, qurğuların və onların yerləşdiyi torpaq sahələrinin vahid təsərrüfat subyektlərində əlaqəsini çox vaxt çətinləşdirir.
- mülkiyyət hüququnun qeydiyyat müddətlərinin və digər dövlət xidmətlərinin verilməsi müddətlərinin uzunluğu. Bunun nəticəsində daşınmaz əmlak bazarında daşınmaz əmlakla sövdələşmələrin dövlət qeydiyyatının sürətləndirilməsi üzrə xidmətləri təqdim edən firmalar meydana çıxır. Tənzimləyici orqanların pozuntuya görə formal məsuliyyət xarakteri korrupsiya doğurur;
- tikinti normaları və qaydaları köhnəlmişdir. Onların modernləşdirilməsi üzrə işlər kifayət qədər aktiv deyil.
- şəhərsalmanın planlaşdırılmasının birləşmiş sxeminin işlənib hazırlanması zamanı razılzşmanın olmaması.

2. Mənzil bazarının fəaliyyətinin infrastruktur təminatı sisteminin nöqsanları:

- öz fəaliyyəti prosesində aşağıdakı informasiyalara ehtiyacları olan təşkilat və xidmətlərin işi üçün zəruri olan məkan məlumatlarının vahid Azərbaycan infrastrukturu yoxdu: torpaq sahələrini sərhəd koordinatları, əhalinin siyahıya alınmasının, seçkilərin nəticələri və s.
- daşınmaz əmlak obyektlərinin, o cümlədən dövlət mülkiyyətində yerləşən obyektlərin bazar qiymətləndirilməsi sistemi təkmil deyil. İnflyasiya şəraitində daşınmaz əmlakın dəyərinin aşağı düşməsi onun satışından renta ödənişlərinin və mənfəətin alınmasına gətirib çıxarır. Dövlət əmlakının bazar qiymətlərindən aşağı icarəyə verilməsi korrupsiyanı doğurur. Nəzərə almaq lazımdır ki, mənzilin kadastr dəyərinin bazar dəyərinə qədər yüksəlməsi daşınmaz əmlaka vergi məbləğinin artmasına səbəb olar ki, bu da əhalinin sosial cəhətdən zəif təbəqəsinin həyat səviyyəsinə mənfi təsir göstərir. Bundan qaçmaq üçün daşınmaz əmlaka proqressiv vergi dərəcəsini tətbiq etmək tələb olunur ki, bu da sosial ədalətə nail olmağa imkan verəcəkdir.

3. Dövlət və bələdiyyə mülkiyyətində yerləşən əmlakın idarə edilməsində nöqsanlar. Təsərrüfat funksiyasını yerinə yetirərkən dövlət büdcə sferasını maliyyələşdirmək ümün vəsaitləri cəlb etmək məqsədilə onun mülkiyyətində yerləşən daşınmaz əmlakı təsərrüfat dövriyyəsinə cəlb edir. Məsələn, hazırda zirzəmilərdə, birinci mərtəbələrdə, eləcə də çoxmərtəbəli evlərin yaşayış yerlərinə bitişik qeyri-yaşayış sığınacaqlarının satışı və ya

icarəyə verilməsi geniş yayılıb. Həm də əmlak ayrı- ayrı məsələlərin həlli üçün, məsələn, dövlət və bələdiyyə mənzil fondlarının evlərində azəmlaklı vətəndaşa mənzil verilməsi üçün təsərrüfat dövriyyəsinə cəlb oluna bilər.

Dövlət tərəfindən bu funksiyanın həyata keçirilməsində başlıca problem daşınmaz əmlakın mülkiyyətçisi kimi dövlətin səlahiyyətini həyata keçirən müxtəlif dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin koordinasiya edilməməsi sayılır.

4. Vergitutma sisteminin nöqsanları. Daşınmaz əmlakla sövdələşmələrin mövcud vergitutma sistemi bəzi hallarda nəğd pulların qeyri-leqal dövriyyəsinin əmələ gəlməsinə kömək edir. Məsələn, Bakıda mənzilin satışı zamanı satıcı gəlir vergisi kimi hər kvadrat metrə görə 15 manat ödəməlidir. Lakin çox vaxt bu alqı-satqı müqaviləsində real sövdələşmə dəyərinin məqsədli olaraq azaldılmasına gətirib çıxaracaqdır. Beləliklə, daşınmaz əmlak bazarında riskə meylli olmayan həmin potensial alıcı və satıcıların həddən artıq ehtiyatlılığı hesabına aktivlik azalacaqdır.

5. Pul-kredit tənzimlənməsinin nöqsanları. Dövlət hakimiyyəti orqanları tərəfindən kredit siyasəti hələ ki, ipoteka kreditləşməsi mexanizmlərinin kifayət qədər inkişafına kömək etməmişdir. Hazırda ipoteka gənc ailələr üçün mənzilin əldə olunmasının demək olar ki, yeganə imkanı sayılır. Lakin ipoteka kreditlərinin verilməsi şərtləri indiki halda onlar üçün heç də məqbul sayıla bilməz.

## Nəticə

Yuxarıda sadalanan nöqsanlardan göründüyü kimi, Azərbaycan Respublikasında sivil daşınmaz əmlak bazarının inkişafı üçün ciddi maneələr mövcuddur. Sosial yönümlü qarışıq tipli iqtisadiyyatın formalaşmasında mövcud tendensiyalar ayrı-ayrı sahəvi bazarlarındövlət tənzimlənməsinin istiqamətlərini müəyyən edirlər. Beləliklə müasir iqtisadiyyatın, iqtisadi və sosial hadisələrin, idarəetmə və texnoloji məsələlərin keyfiyyətcə mürəkkəbləşməsi, istehsal miqyasının artması innovasiya proseslərinin universiallaşdırılması kimi xüsusiyyətləri Azərbaycanda daşınmaz əmlak bazarının dövlət tənzimlənməsinin iqtisadi metodlarını ön plana keçirir.

## Ədəbiyyat

**1.** Горшков Н.Г. Государственное регулирование рынка доступной жилой недвижимости: Дис. канд. эк. наук. – М., 2012. – 171 с.

2. Щулепникова Е.А. Современные механизмы функционирования рынка жилой недвижимости Российской Федерации: Дис. канд. эк. наук. – Санкт-Петербург, 2014. – 237 с.

3. Лебедева О.И. Формы и методы государственного регулирования рынка недвижимости в Российской экономике // Управление экономическими системами. – 2012. – № 40. – С. 52.

## Xülasə

Məqalədə mənzil bazarının inhisarlaşması səbəbləri və antiinhisar tənzimlənməsinin prioritet istiqamətləri araşdırılmış, informasiya asimmetriyasının və xarici effektlərin mənzil bazarının inhisarlaşmasında rolu əsaslandırılmışdır. Mənzil bazarının dövlət tənzimlənməsi metodları dəqiqləşdirilmiş, Azərbaycanda mənzil bazarının dövlət tənzimlənməsinin nöqsanları və onların aradan qaldırılması yolları verilmişdir.

## SOME ISSUES OF STATE REGULATION IN THE HOUSING MARKET

**M.M.Ahmadov**

**SUMMARY**

The article examined the priority areas of the housing market monopolization causes and anti-monopoly regulation, information asymmetry and the role of external effects is based on the monopolization of the housing market. Corrected methods of state regulation of the housing market, the state regulation of the housing market have been shortcomings and ways to overcome them.

## НЕКОТОРЫЕ ВОПРОСЫ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ НА РЫНКЕ ЖИЛЬЯ В АЗЕРБАЙДЖАНЕ

**М.М.Ахмедов**

**РЕЗЮМЕ**

В данной статье исследованы причин монополизации рынка жилья и приоритетных направлений антимонопольной регулирований, обоснована роль информационной асимметрии и внешних эффектов при монополизации рынка жилья. Уточнены методы государственного регулирования рынка жилья, даны недостатки государственного регулирования рынка жилья и пути их преодоления.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# QARABAĞ-GƏNCƏ ŞİVƏLƏRİNİN ÖYRƏNİLMƏSİ TARİXİ

**M.B.Əmrahova**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakı, H.Əliyev küç. 135
e-mail:amrahova2016@mail.ru

***Açar sözlər:*** semantik, dialekt, dialektologiya, Gəncə, Qarabağ
***Ключевые слова:*** семантические, диалект, диалектология, Гянджа, Карабах
***Key words:*** semantic, dialect, dialectology, Ganja, Karabakh

Azərbaycan dilinin qərb ləhcəsinə daxil olan Qarabağ-Gəncə şivələri də böyük bir ərazini əhatə edir. Buraya, əsasən, Ağdam, Gəncə, Bərdə, Ağcabədi, Yevlax, Goranboy (keçmiş Qasım İsmayılov), Tərtər (keçmiş Mirbəşir), Xanlar, Füzuli və Şuşa rayonları daxildir.

Qarabağ-Gəncə şivələrinin öyrənilməsinə, demək olar ki, 1938-1944-cü illərdən başlanmışdır. M.Şirəliyev hələ Ağdamda müəllim işləyərkən Qarabağ şivələri ilə maraqlanmış və 1938-ci ildə Şuşadan və onun bir sıra kəndlərindən, sonralar isə, yəni 1943-cü ildə Gəncə, 1944-cü ildə isə Ağdam rayonlarından xeyli dialektoloji materiallar toplamış və 1962-ci ildə nəşr etdirdiyi "Azərbaycan dialektologiyasının əsasları" (birinci nəşri) adlı əsərini yazarkən həmin materiallardan istifadə etmişdir.

Şəxsiyyətə pərəstiş dövründə doğma vətənindən didərgin düşən və mühacirətdə yaşayan Ceyhun Hacıbəyli də Qarabağ şivələrinə aid əsər yazmış və həmin əsər Fransada fransız dilində çap olunmuşdur. C.Hacıbəyli öz qeydlərində göstərir ki, o öz tədqiqatını M.Samoyloviçin məsləhəti ilə aparmış və V.Radlovun türk-tatar dialektləri kolleksiyası üçün nəzərdə tutmuşdur (1, 6).

Məktəblərdə aparılan müşahidələrin təhlili göstərir ki, biologiya fənninin tədrisi prosesində müxtəlif bioloji obyekt və hadisələr barədə geniş məlumat verilsə də, mövzuda öyrədiləcək anlayışların mahiyyəti barədə geniş açıqlama verilmir. Nəticədə şagirdlər müxtəlif bioloji anlayışların təriflərini əzbərləyir, onların mahiyyətini izah edə bilmirlər. Tədris prosesində şagirdlərin anlayışların mahiyyətini mənimsəməsinin bir çox obyektiv və subyektiv səbəbləri mövcuddur. Belə ki, əvvəla, bəzən anlayışların elmi mahiyyətini müəllimlərin özlərinin zəif bilmələri şagirdlərə bu anlayışların tədrisində çətinlik yaradır.

Yeni dərsliklərin əksəriyyətində anlayışların adı çəkilir, mahiyyəti isə izah edilmir. Belə hallar tədris prosesində çətinlik yaradır.

Anlayışların tədrisində dialektika prinsipinə riayət olunmur. Yəni anlayışlar sadədən mürəkkəbə doğru prinsipi ilə öyrədilmir. Eyni zamanda biologiya fənninin tədrisində fənlərarası və fəndaxili inteqrasiya imkanları demək olar ki, nəzərə alınmır, bu isə bioloji anlayışların səmərəli mənimsənilməsində çətinliklər yaradır.

Tədris prosesində şagirdlərin bilik, bacarıq və vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsində anlayışların mühüm rolu vardır. Lakin bir çox hallarda tədris prosesində anlayışlar şagirdlərin praktiki bilik, bacarıq və vərdişlərinin inkişafına zəif yardım edir və ya heç yardım etmir.

Anlayışların tədrisində mühüm problemlərdən biri də onların öyrədilməsində müasir təlim texnologiyalarından düzgün istifadə edilməməsidir. Bundan başqa, anlayışların tədrisində müqayisə priyomlarından istifadə olunmalıdır, öyrədilmiş və yeni anlayışlar əlaqələndirilməlidir. Eləcə də, anlayışların tədrisində didaktik şərait yaradılmalıdır.

Təlim prosesində şagirdlərin idrak fəaliyyətinin, elmi dünya görüşünün inkişaf etdirilməsində xüsusi və immunoloji anlayışların öyrədilməsinə xüsusi diqqət verilməlidir. Qeyd etmək lazımdır ki, öyrədilən bioloji anlayışlar yüksək elmi səviyyədə öyrədilməlidir.

Müqayisə priyomunun tətbiqi zamanı ilk öncə bioloji obyektin xarici quruluşu, yəni morfoloji əlamətləri müqayisə olunur. Məsələn, gülçiçəklilər fəsiləsinə aid müxtəlif bitkiləri, suda-quruda yaşayanlarla sürünənləri, məməlilərin müxtəlif dəstələrini və s. şagirdlərə aydın olmayan anlayışları öyrətmək üçün ilk növbədə şagirdlər canlı obyektlər üzərində müşahidə aparmalı, sonra oxşar və fərqli cəhətləri müqayisə etməklə nəticə çıxarmalıdır.

Qeyd etmək vacibdir ki, tədris prosesində sadə anlayışları inkişaf etdirərək, ümumbioloji anlayışların yaranması ilə nəticələnməlidir. Anlayışların öyrədilməsinin səmərəli yollarından biri də biliyin təkrarlanmasıdır. Yeni anlayışlar əvvəlki anlayışlarla bağlı olduğu üçün anlayışların sistemli təkrarı vacibdir. Qeyd etmək vacibdir ki, VI sinifdə anlayışların təkrarına az yer verilir. VII və VIII siniflərdə isə mövzular bir-biri ilə dialektik ardıcıllıqla daha çox əlaqəli olduğu üçün bu siniflərdə tədris edilən biologiya fənnində tədris edilən anlayışlar sıx olaraq təkrar olunmalıdır.

Bioloji anlayışların inkişaf etdirilməsində mühüm yollar kimi şagirdlərə bioloji məzmunlu tapşırıq, məsələ, çalışmaların, yoxlama və test işlərinin verilməsidir. Qeyd etmək vacibdir ki, anlayışların formalaşmasında əsas məntiqi priyomlardan ümumidən xüsusiyə, eləcə də xüsusidən-ümumiyə keçməkdir. Beləliklə, bioloji anlayışların öyrədilməsinin səmərəli yollarını qısa olaraq ümumiləşdirmək olur:

1. Anlayışların müqayisəli öyrədilməsi;
2. Öyrədilən materialın ümumiləşdirilməsi;
3. Anlayışların təkrar edilməsi;
4. Bioloji tapşırıq və çalışmaların verilməsi;
5. Xüsusidən ümumiyə keçmək;
6. Ümumidən xüsusiyə keçmək;
7. Ümumbioloji anlayışların inkişafı;
8. Əyani vasitələrdən istifadə olunması;
9. Yoxlama, test tapşırıqlarından, iş vərəqlərindən istifadə olunması.

Anlayışların səmərəli öyrənilməsi yollarından biri də əyani vasitələrdən (qrafik, diaqram) istifadə etməkdir. Belə qrafiklər və diaqramlar fizioloji məzmunlu anlayışların tədrisində geniş istifadə olunmalıdır.

Azərbaycanda müasir təlim metodlarının tətbiqi 15 ildən çoxdur ki, həyata keçirilir. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində fəal təlimin tətbiq edilməsi təhsil islahatının əsas məqsədlərindən biridir. Fəal (interaktiv) təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin, yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəlməsinə şərait yaradaraq Azərbaycan Respublikasının Təhsil İslahatları Proqramında göstərilən demokratikləşdirmə, humanistləşdirmə, diferensiyalaşdırma, fərdiləşdirmə, inteqrasiya prinsipini həyata keçirməyə imkan verir:

- biliklərə müstəqil yiyələnmək və yenilərini əldə etmək bu bilikləri yaradıcılıqla işləmək;
- onlardan həyatda məqsədlərinə çatmaq üçün istifadə etmək;
- öz yoldaşları ilə problemin həllində əməkdaşlıq etmək;
- öz qabiliyyətlərini gerçəkləndirmək üçün yollar axtarmaq və s.

Biologiya fənninin təlimində dörd iş forması nəzərdə tutulmuşdur: kollektivlə iş, qruplarla iş, cütlər iş və fərdi iş. Təlim formaları dərsin məqsədinə uyğun olaraq seçilir və şagirdlərin fəaliyyətləri bu forma üzərində qurulur[4].

***Kollektivlə iş*** zamanı, kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur, şagirdlərdə ünsiyyətyaratma, əməkdaşlıq bacarığının təşəkkülü və inkişafı təmin edilir.

***Qruplarla iş*** zamanı şagirdlər müəyyən problemi həll etmək üçün qruplarda birləşirlər. Bu zaman onların müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək bacarıqları inkişaf edir.

**Cütlərlə iş** zamanı şagirdlər təlim tapşırıqlarını birgə yerinə yetirirlər. bu dərs forması şagirdlərə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa,məsuliyyəti bölüşməyə optimal imkan yaradır. Lakin bu əməkdaşlığın əhatə dairəsi çox azdır.

***Fərdi iş*** şagirdin fəaliyyətini izləmək, potensial imkanlarını müəyyənləşdirmək və inkişaf etdirmək məqsədi daşıyır. Fərdi iş zamanı şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaranır. Müəllim şagirdin fəaliyyətini tam obyektiv qiymətləndirə bilir.

Biologiyanın tədrisində anlayışların öyrədilməsində əsasən **klaster, Beyin həmləsi, müzakirə, anlayışın çıxarılması, karusel, BİBÖ, auksion, Venn diaqramı, ziqzaq, assosiasiya kolu və s.** üsullardan geniş istifadə oluna bilər [2].

## Beyin həmləsi

Bu üsul əqli hücum da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlanır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirir.

## BİBÖ - Bilirəm/İstəyirəm bilim/Öyrəndim

Bu zaman şagirdlərin əvvəlki bilik və təcrübələri ilə yeni biliklər və anlayışlar arasında əlaqə yaratmaqla şagirdlərin müstəqil düşünməsinə nail olmaq nəzərdə tutulur.

BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır:

1. Problem müəllim tərəfindən elan edilir.
2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir-Bilirəm/İstəyirəm bilim/Öyrəndim.
3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur.
4. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır.
5. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrən-dikləri üçüncü sütunda qeyd edilir.

Müəllim öyrənilən məsələni müəyyən edərək şagirdləri auksionun keçirilmə qaydaları haqqında təlimatlandırır. Öyrənilən əşya və ya hadisənin xüsusiyyətləri ardıcıl şəkildə adlandırılır.

Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir: hər bir fikirdən sonra müəllim sayır. "Bir, iki". Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu təklif verən qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini dinləyir [3]. Məsələn: Biologiya dərsində müəllim bu təlim üsulundan yastı qurdların xüsusiyyətlərini, həlqəvi qurdların xüsusiyyətlərini, abiotik amillər, hüceyrənin kimyəvi tərkibi, iqlim faktorlarının insan orqanizminə təsirini və s. sadalayarkən istifadə edə bilər.

## Klaster (şaxələndirmə)

Müəllim tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yazılmış anlayış ilə bağlı söz və ya ifadələr söyləmək şagirdlərə tapşırılır. Mərkəzdə yazılmış anlayşdan başlayaraq hər növbəli söz onunla əlaqəli sözlərlə, xətlərlə birləşdirilir. Vaxt bitənə qədər imkan daxilində çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olu-

nur. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır. Məsələn: insanın təsnifatda yeri, həzm və tənəffüs orqanlarının gigiyenası, viruslar, bakteriyalar haqqında mövzuların tədrisi zamanı klasterdən istifadə məqsədəuyğundur.

Müəllim motivasiyanı qoyarkən və yaxud qruplara tapşırıq verərkən bu üsuldan istifadə edə bilər.

**Anlayışın çıxarılması**

Bu üsul oyun-tapmaca formasında keçirilir və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədə dairəvi kart asır, onun arxasında şagirdlərdən tələb olunan anlayışı yazır. Kartın yazı olmayan tərəfini şagirdlərə göstərir və gizlədilmiş anlayışların xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq, gizlədilmiş anlayışı tapırlar. Əgər şagirdlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni xüsusiyyətlər sadalayır.

Şagirdlər öz fəaliyyətlərini dedikdən sonra müəllim bu tapmacanın tapılıb-tapılmamasını hamıya çatdırır və kartoçkalarda yazılan sözləri açıqlayır.

Məsələn, şibyələr, göbələklər, ümumiyyətlə heyvanlar aləmi haqqında mövzuların tədrisi zamanı bu üsuldan istifadə etmək olar [1].




**Müzakirə**

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladır. Mpvzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı “Bəli” və ya “xeyr” olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid “Nə baş verdi” Nə üçün baş verdi? Bu başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə, həmin obraz nə hiss et-

di? Siz bu şəraitdə nə hiss edərdiniz? Bu, düz idimi? Nə üçün?”kimi suallardan istifadə olunur.

Məsələn: İnfeksion xəstəliklər və onlara qarşı mübarizə, insanın təsnifatda yeri, biosfer ekologiyaya dair mövzuların tədrisi zamanı diskussiyadan istifadə etmək olar.

**Akvarium**

Bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. Akvarium bir neçə variantda keçirilə bilər. Şagirdlərin köməyi ilə diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və s.) müəyyən edilir. Şagirdlər 2 qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. dairədən kənarda stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir.

Müəyyən olunmuş mövzu üzrə birinci qrup diskussiya aparır. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, “xarici dairənin” iştirakçıları diskussiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.

**Venn diaqramı**



Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

***Venn diaqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır.***

1. Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir.
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanır).
3. I və III dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.
4. Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır).
5. Müqayisə olunan obyektlər təsvir edilir (fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur).
6. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

**Ziqzaq**

Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır.

Şagirdlər dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər yenidən nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır.

Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir. Ekspert qrupları onlara verilən hissəni oxumalı və məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır.

Müəllim informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verə bilər. Məsələn: Biologiya dərslərində bu üsuldan geniş istifadə oluna bilər. Hər hansı canlının quruluşunu, irsi xəstəliklər və onların qarşısının alınması yollarını, qlobal ekoloji problemləri, dərman bitkilərini, yoluxucu xəstəlikləri və s. bu üsuldan istifadə etməklə tədris etmək daha səmərəli ola bilər.

**Karusel**

Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. “Karusel” kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir. Məsələn: Dərman bitkiləri, zərərli vərdişlər, bioloji proseslərin pozulma səbəbləri, bitki və heyvanların insan sağlamlığında rolu, yoluxucu xəstəliklər, müxtəlif bitki qruplarının tədrisinə dair mövzularda bu üsuldan istifadə edilə bilər [3].

**Ədəbiyyat**

1. Veysova Z. Fəal dərsin aparılması üzrə tövsiyyələr. Bakı: Norveç Qaçqınlar Şurası, 2003, səh. 14-26.
2. Veysova Z. Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu. Təlimçilər üçün metodik vəsait. Bakı: UNICEF, 2004, 126 səh.
3. Veysova Z. Fəal dərsin aparılması üzrə tövsiyyələr. Bakı: Norveç Qaçqınlar Şurası, 2004, 6 səh.
4. Miller Q.A., Qalanter E., Pribram K.N. Plans and structure ot behaviour. New York, 1960, 210 p.

## EFFECTIVE WAYS TO TEACH BIOLOGICAL CONCEPTS

**Y.I.Gedik**

**SUMMARY**

The analysis of biology teaching in secondary schools shows that, inspite being very informative, the methods of teaching biology do not help much reveal the essence of biological concepts. This work suggests new ways to improve the situation in this field.

# ЭФФЕКТИВНЫЕ ПУТИ ОБУЧЕНИЯ БИОЛОГИЧЕСКИМ ПОНЯТИЯМ

**Я.И.Гедик**

**РЕЗЮМЕ**

Анализ преподавания биологии в средних школах показывает, что хотя процесс преподавания этой науки и содержит массу информации о различных биологических объектах, сущность изучаемых понятий раскрывается недостаточно. В настоящей статье предлагаются новые пути улучшения ситуации в данной сфере.

2016 - № 44

# TƏDRİSDƏ İKT TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ŞAGİRDLƏRİN ELMİ DÜNYAGÖRÜŞLƏRİNİN FORMALAŞMASINA TƏSİRİ

**T.H.Şentürk**
Bakı Slavyan Universiteti
Bakı, S.Rüstəm küçəsi 33
e-mail: tacisenturk@yahoo.com

***Açar sözlər:*** cəmiyyət, təhsil, təlim, texnologiya, informasiya, kompyuter, dünyagörüşü, kommunikasiya, məktəb, texniki vasitələr, inkişaf

***Keywords:*** society, education, training, technology, information, computer, outlook, communications, schools, technical means, development

***Ключевые слова:*** общество, образование, обучение, технологии, информация, компьютер, мировоззрение, коммуникации, школы, технические средства, развитие

Təhsili dövləti və cəmiyyəti möhkəmləndirməyin prioritet sahələrindən biri hesab edən dövlətimiz, başlıca məqsədi də demokratik, elmi dünyagörüşlü, bacarıqlı, məsuliyyətli vətəndaşlar yetişdirməkdə görür. Bütün bunlar uşaqların gələcəyə, getdikcə mürəkkəbləşən cəmiyyətə hazırlığı ilə bağlı məsələlərə, xüsusilə təhsil konsepsiyasına yeni nəzərlə baxmağı tələb edir. İndi məktəbin əsas məqsədi şagirdlərin yaş və fərdi xüsusiyyətlərini, meyl və maraqlarını nəzərə almaqla onların əqli, əxlaqi, etik, estetik və fiziki inkişafına kömək göstərmək, gündəlik həyatda rastlaşdıqları problemləri həll etmək üçün onlarda zəruri bacarıqlar formalaşdırmaqdır. Çünki yaşadığımız yüksək texnologiya əsrində biliklər kimi, bacarıqlar da öz əhəmiyyətini itirmir.

İKT-nin təhsilə tətbiqi sahəsindəki bütün nailiyyətlər, telekommunikasiya şəbəkəsinin yaradılması və orada informasiya selinin təmin edilməsi, verilənlər və bilik bazasının yaradılması, hamısı bir məqsədə - İKT-nin təhsil sahəsinə tətbiqinin metodoloji əsasının işlənilməsinə xidmət etməlidir (2, 26). Təlimin texniki vasitələri şagirdlərə informasiyaları çatdırmaqda, bilikləri dərk etməkdə, yadda saxlamaqda, tətbiq edilməsində və təlimin nəticələrinin dəqiqləşdirilməsində istifadə olunan qurğulardır. İKT şagirdlərin istifadə etdiyi resursların çeşidini zənginləşdirməklə yanaşı, onlara yaşadıqları dünyanı dərk etməkdə kömək edə bilər. Hazırda respublikamızda bütün sahələrdə mütəxəssislərin informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə işləmək və onlardan düzgün istifadə etmək bacarığına çox böyük önəm verilir. İKT biliyinə mükəmməl yiyələnməyin ən yaxşı yolu isə orta məktəbdən başlayır.

Hazırki dövrdə ən geniş yayılmış inkişafetdirici təlim texnologiyalarına İnformasiya Kommunikasiya Texnologiyalarını aid etmək olar. Təhsil sisteminin İKT əsasında qurulması informasiya cəmiyyətinin əsas xüsusiyyətlərindən biridir. Təhsilin informasiyalaşdırılması ənənəvi təhsili yeni çalarlarla zənginləşdirir. Ənənəvi təlimdə əks-əlaqənin həyata keçirilməsi baxımından informasiya-qarşılıqlı əlaqə yaradılmasında 2 fəal tərəf var: öyrədən və öyrənən. İKT əsaslı təlim prosesində operativ əks-əlaqə baxımından

öyrədən və öyrənənin yeni interaktiv tərəfdaşı meydana gəlir.

İKT məktəblinin müstəqil qavrama qabiliyyətini təmin etmək üçün yeni imkanlar açır. Hazırda ölkəmizdə bu sahə üzrə mütəxəssislərin informasiya kommunikasiya texnologiyaları ilə işləmək bacarığına çox böyük önəm verilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 avqust 2004- cü il tarixində təsdiq etdiyi " Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı (2005–2007–ci illər) bu prosesin başlanmasının bünövrəsini qoydu. Ölkədə 2007-2013-cü illəri əhatə edən keyfiyyətli təhsil üçün "İnformatika və kommunikasiya texnologiyası Proqramı" işlənib hazırlanmışdır. Proqram hazırlanarkən, şagirdlərin, tələbələrin və valideynlərin rəyi öyrənilmiş, onların nə istədikləri müəyyənləşdirilmişdir. Bu proqramın ən mühüm vəzifəsi bütün əhalidə İKT-dən istifadə vərdişləri yaratmaqdır. Proqram bir neçə istiqamətdə layihələri özündə ehtiva edir:

- Məktəb-informatika layihəsi. Bu layihə İKT-dən tədris prosesində daha geniş istifadəni nəzərdə tutur. Artıq bir sıra fənlər üzrə elektron tədris vəsaitləri hazırlanmışdır. - Müəllimlərin təhsili layihəsi. Layihə təkcə məktəb rəhbərləri, informatika müəllimlərini deyil, bütün müəllimlərin öyrədilməsini nəzərdə tutur.

- Proqramın bir layihəsi də əhaliyə, valideynlərə İKT-dən istifadənin öyrədilməsini əhatə edir.

Məktəbdə pedaqoji prosesin əyaniliyinin təmin edilməsinə 1930-cu illərdən başlanmışdır. Bu vaxtdan akustik (audio), vizual (video) və audio-vizual (audio-video) və s. ekran vasitələri tədrisə və təlimə daxil olmuşdur (4, 324). İndiki təhsil sistemində müasir təlim texnologiyaları vasitələrinin adları belə ifadə olunur: internet, elektron poçt, kompyuter, televizor,interaktiv lövhə, radio, audio-video qurğuları, maqnitofon, proyektor, çap işləri üçün printer, skaner, optik disk, CD-ROM, BQS (Biliyin Qaytarılması Sistemi) qurğusu, dublikat, kamera, multimediya və s.

Komputerdən istifadənin rolu pedaqoji prosesdə getdikcə genişlənir və onun faydası artır. Müasir Təhsil Mərkəzində (Bakı Şəhərində) insan anatomiyası və fiziologiyası üzrə məşğələlərdən birində şagirdlər komputerdə əvvəlcə insan orqanizminin bütövlükdə quruluşunu nəzərdən keçirdilər. Sonra onlar orqanizmin hər bir üzvünü (ürəyi, böyrəkləri, ağ ciyəri, qara ciyəri, baş beyini və s.) ayrılıqda müşahidə etdilər. Şagirdlərin müşahidələri müəllimin şərhi ilə müşayiət olunurdu. Nəticədə onlar az vaxt ərzində insan orqanizmi üzvlərini, onların vəzifələrini, qarşılıqlı əlaqələrini, mürəkkəb bir sistem əmələ gətirdiklərini əyani olaraq görmək və başa düşmək imkanı qazandılar (3, 92).

Tədris prosesində interaktiv lövhədən istifadə dərsin əyanilik üzərində qurulmasını təmin edir. Elektron lövhənin sensorlu səthinə xüsusi qələmlə və barmaqla toxunduqda onun üzərində kompyuterdə görülməsi mümkün olan bütün əməliyyatları aparmaq olur. İnteraktiv lövhənin ən vacib xüsusiyyətlərindən biri də yerinə yetirilən əməliyyatların kompyuterin yaddaşında saxlayaraq yenidən dərs prosesində istifadə etmək olar. Belə imkanlar əsasən üzürlü səbəblərə görə dərsə gələ bilməyən və ya təlimdə geridə qalan şagirdlər üçün xüsusi əhəmiyyətə malikdir. Həmçinin ağıllı lövhədən istifadə şagirdlərin dərsə olan marağını da artırır. Dərs qısa vaxt ərzində yığcam, maraqlı və həmçinin keyfiyyətli qurulur. Nəzərə alsaq ki, ibtidai siniflərdə şagirdlərin diqqəti daha az vaxt ərzində dərsə cəmləşir. Bu səbəbdən interaktiv lövhə bizim köməyimizə gəlir. Onların diqqətin cəmləməyə, ən əsası veriləcək bilikləri onlara maraqlı tərzdə çatdırmağa imkan yaranır. Ağıllı lövhə, həmçinin kompyuterə qoşulan mikroskop, skaner, rəqəmli fotoaparat, videokamera və s. qurğulardan alınan təsvirləri də proyektor vasitəsilə qəbul edə bilir ki,

bu da məktəblərdə virtual laboratoriyaların təşkilində mühüm əhəmiyyətə malikdir. Şagirdlər istənilən kimyəvi reaksiyanın, fiziki, bioloji, coğrafi proseslərin izahını və videogörüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləmə prinsiplərini "möcüzəli" ekranda izləyə bilərlər. Bu isə şagirdlərin nəzəri-metodoloji biliklərini, praktiki bacarıq və təcrübələrini inteqrasiya etməklə tədrisi xeyli canlandırır, uşaqlarda yaradıcı yanaşma, elmi dünyagörüşlü formalaşma, düşünmə, təşəbbüskarlıq, tədris materialını dərindən dərk etmə qabiliyyətini daha da artırır.

Müasir dərs prosesində audiovizual vasitələrdən xüsusi ilə televiziyadan istifadənin rolunu xüsusi qeyd etmək lazımdır. Təlimin texniki vasitəsi kimi televizor verilişlərindən istifadə olunması şagirdlərin psixi inkişafına əsaslı təsir göstərir. Burada birinci növbədə hissi idrakın, təfəkkür və təxəyyülün inkişafı üçün geniş imkan yaranır.Televiziya verilişlərindən audiovizual vasitə kimi istifadə olunması şagirdlərin hafizələrinə də əsaslı təsir göstərir. Ekranın köməyi ilə şagirdlərə çatdırılan material tez yadda qalır və uzun müddət unudulmur. Adi təlim şəraitində öyrənilən materiala nisbətən daha dəqiq xatırlanır. Adətən, televiziya verilişlərindən təkcə tədris filmlərinin nümayiş etdirildiyi zaman istifadə olunmur. Bu cür verilişlərin imkanları çox genişdir. Müəllim şagirdlərlə bədii-siyasi, publisist, elmi-kütləvi verilişləri müzakirə etməli, onlardan şagirdlərin dünyagörüşünün, əqli və əxlaqi baxışların, bir şəxsiyyət kimi formalaşmasının gedişində istifadə etməlidir. Bu cür verilişlərə təkcə baxmaqla kifayətlənmək olmaz. Müəllim həmin verilişlərin hər birini şagirdlərlə birlikdə geniş müzakirə etməlidir. Bu cür müzakirələr həmin verilişlərin məzmununu anlamağa, onlara qarşı münasibətin yaranmasına səbəb olur. Təlimdə istifadə olunan texniki vasitə kimi, maqnitafon da xüsusi yer tutur. Bu məqsədlə məktəblərdə fəaliyyət göstərən linqafon kabinələrinin rolunu xüsusilə qeyd etmək lazımdır. Maqnitafondan düzgün tələffüz vərdişini yaradan çalışmalar üçün istifadə edilir. Maqnitafon olmadıqda tələffüz vərdişinin yaradılmasında əsas ağırlıq müəllimin üzərinə düşür. Bu zaman təlimi fərdiləşdirmək çətinləşir. Ona görə də çox vaxt müəllimlər bu işin öhdəsindən gələ bilmirlər. Müasir dövrdə isə maqnitafon müəllimlərin bu işdə ən yaxın köməkçisidir. Maqnitafon vasitəsilə bu və ya digər ifadələr istənilən sayda təkrar edilir ki, bunun sayəsində də şagirdlər düzgün tələffüzü təkrar dinləmək imkanı əldə edirlər. Maqnitafonu təkrar dinləmək sayəsində şagirdlər özlərinin və yoldaşlarının lentə yazılmış nitqlərindəki səhvləri daha yaxşı başa düşür və asanlıqla düzəldirlər. Həmçinin maqnitafondan ibtidai siniflərdə imla yazısı zamanı da istifadə oluna bilər. Bu zaman müəllim mətni səsləndirir və şagirdlər imla yazıya başlayırlar. Hər bir şagird imlanın sürətinə çatmağa çalışır. Yazıda sürəti zəif olan şagirdlər mətnin bir də təkrarlanmayacağını anlayaraq səslənən cümlələri yadda saxlamağa məcbur olurlar. Bunun nəticəsində də həmin şagirdlərin yazıdakı sürəti tədricən yaxşılaşmağa başlayır.

Müasir dövrdə proqlamlaşdırılmış təlimdən, xüsusilə, proqramlaşdırılmış təlim maşınlarından istifadəyə müəyyən yer verilir. Proqramlaşdırılmış təlim dedikdə əvvəlcədən hazırlanmış proqrama müvafiq olaraq bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesisini idarəetmək yolu ilə öyrətmək, təlim vermək nəzərdə tutulur. Bu cür idarəetmə bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesində daxili və xarici əlaqə əsasında şagirdlərin fikri fəaliyyətini idarə etmək deməkdir (1, 33). Hazırda kompyuterlərdən istifadə olunması bu baxımdan diqqəti cəlb edir. Elə şagirdlər var ki, dərs zamanı onlar öz cavablarının səhv olduğunu düşünür, həmyaşıdlarından və müəllimdən utanaraq cavab verməkdən imtina edir və bununla da daha passiv vəziyyətə düşürlər. Kompyuter qarşısında əyləşən şagird isə artıq maşından çəkinmir, onunla kompyuter arasında əks-əlaqə yaranır, fikirləşdiyi ca-

vabları kompyuterə daxil edir, səhvlərini görür, onları kompyuterin köməyilə düzəldir, mənfi emosiyalardan uzaq olur və nəticədə özünə inamı artır. Kompyuter həmçinin görmə vasitəsilə informasiya qəbulunun imkanlarını artırır, belə ki, gözlə görünməyən, rəng və formasını dəyişən əşyaların təsvirini reallaşdırır. Video və ya animasiyalar formasında olan tapşırıqların yaxşı mətn və musiqinin müşayiəti ilə verilməsi şagirdə güclü təsir edərək, onun bədii zövqünün inkişafına, materialı daha yaxşı mənimsəməsinə səbəb olur.

İnternet vasitəsilə şagirdlər elektron kitabxanalara qoşularaq lazım olan məlumatları toplayır, verilən tapşırıqları qısa vaxt ərzində səmərəli yerinə yetirirlər. Bu cür axtarışlar şagirdlərdə tədqiqatçılıq bacarıqlarının inkişafına şərait yaradır. Həm də onların elmi dünyagörüşlərinin hərtərəfli formalaşmasında böyük rol oynayır. Müsbət tərəfləri ilə yanaşı İKT vasitələrinin insanın xüsusən də məktəblilərin həm sağlamlığına, həm də tərbiyəsinə mənfi təsir edəcək xüsusiyyətləri də vardır. Buna görə də psixoloqlar və həkimlər komputerdən istifadə zamanı istər böyüklərin, istərsə də məktəblilərin ehtiyatlı davranmasını məsləhət görürlər. Komputerdən fasiləsiz istifadə görmə qabiliyyətinin zəifləməsinə, beynin daha tez yorulmasına, kiçik yaşlı məktəblilərdə isə çox vaxt onurğa əyriliklərinə gətirib çıxarır. Çox vaxt isə internetdən mütəmadi istifadə uşaqları real dünyadan ayırır. Bu cür halların baş verməməsi üçün istər məktəbdə müəllimlər, istərsə də ailədə valideynlər uşaqlara nəzarət etməli, baş verə biləcək mənfi halların qismən də olsa qarşısını almağa çalışmalıdırlar. Təlim şəraitində texnologiyaların seçilməsi və tətbiqi xüsusi hazırlıqla həyata keçirilməlidir. Düzgün təşkil olunmuş pedaqoji texnologiyalar dərs sisteminin müasir tələblər əsasında təşkil edilməsinə şərait yaradır. Bu isə nəticədə şagird şəxsiyyətinin fəal inkişafına öz təsirini göstərir.

Qeyd etmək lazımdır ki, ümumilikdə təhsil sisteminin İKT əsasında təkmilləşdirilməsi informasiya cəmiyyətinin əsas xüsusiyyətlərindən biridir. 10 iyun 2008-ci il tarixində ölkə başçısı tərəfindən qəbul edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" isə İKT-dən istifadə etməklə ölkəmizdə beynəlxalq standartlara uyğun keyfiyyətcə yeni təhsil modelinin qurulmasını, vahid elektron təhsil məkanının yaradılmasını və təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya etdirilməsini əsas məqsəd kimi qarşıya qoyub.

Artıq təhsil sisteminin informasiyalaşdırılması ilə əlaqədar əsas hədəflər müəyyənləşdirilmiş, nəzərdə tutulan tədbirlərin xeyli hissəsi həyata keçirilmişdir. Azərbaycan Respublikasının Təhsil Nazirliyi 2010-cu ili ölkəmizdə "Təhsildə İKT ili" elan etmiş və bu kampaniya çərçivəsində konfranslar, seminarlar, müxtəlif stimullaşdırıcı və həvəsləndirici aksiyalar, müsabiqələr həyata keçirilmişdir. Məktəblərin İKT avadanlığı, o cümlədən kompyuter, noutbuk, interaktiv lövhələr ilə təchizatı isə hazırda uğurla davam etdirilir.

Dünya təcrübəsi göstərir ki, İKT-dən istifadə etməklə qurulan müasir təhsil modeli məktəbin pedaqoji heyəti qarşısında da yeni tələblər və vəzifələr qoyur. Müəllimlərin tək öz seçdikləri fundamental biliklər, pedaqogika və psixologiya sahəsində deyil, həm də informasiya sahəsində yenidən təlim alması olduqca aktuallaşır. Artıq yeni nəslin müəllimlərindən konkret öyrətdikləri fənnin struktur məzmununa və məqsədinə uyğun, uşaqların fərdi xüsusiyyətlərini nəzərə alan, şagirdlərin harmonik inkişafını mümkün edən texnologiyaları seçib tədrisdə tətbiq etmək tələb olunur.

Tədrisdə yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə edən müəllimlərin sözlərinə görə, İKT vasitələri öz geniş imkanları ilə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. "Müəllim-şagird-dərslik" tədris modelinə kompyuterin də əlavə

edilməsi tədris prosesini fərdi proqram üzrə təşkil etməyə, uşağın dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir. Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompyuter tədris proqramları, animasiya qrafikası, rəngarəng illüstrasiyalar uşaqların idrak aktivliyinə müsbət təsir göstərir və yekun etibarilə şagirdlərin olimpiadalarda, müxtəlif intellektual yarışmalarda göstərdikləri nəticələrin keyfiyyəti xeyli artır. Dərsdə İKT-dən istifadə əsasən üç istiqamətdə aparılır:

1. Biliklərin yoxlanması. İKT vasitəsilə biliklərin yoxlanması zamanı komputer testlərindən istifadə edilir. Testlərin çətinlik səviyyəsi qarşıya qoyulmuş məqsəddən asılıdır. Əgər biliklərin yoxlanılması üçün daha maraqlı bir variant varsa, onda test suallarından baza kimi istifadə etmək lazımdır. Digər variant, mövzudan asılı olaraq, cədvəl, sxem, yaxud müxtəlif illüstrasiyalar ola bilər. Biliklərin yoxlanılmasında tapşırıqlar müəllim tərəfindən hazırlanmış və mövzuya uyğun multimediya vasitəsi ola bilər.

2. Yeni mövzunun izahı. Bu mərhələdə hazır multimediyalı vasitələrədən istifadə çox yerinə düşər. Elektron vəsaitdən zəngin illüstrasiya, cədvəllər, animasiya, video fraqmetlər istifadə etmək olar. İnternet şəbəkələrindən istifadə edərək humanitar fənnlərin tədrisini genişləndirmək və rəngarəng etmək olar. İnternetdən məqsədyönlü istifadə ilə şagirdlər üçün maraqlı məlumatlar, şəkillər, sxemlər, fotoşəkillər, audio-video fraqmentlər təqdim etmək olar.

3. Öyrənilən mövzunun möhkəmləndirilməsi. Bu mərhələdə İKT- dən istifadənin imkanları çoxcəhətlidir. Şagirdlər və müəllimlər təqdimatlar zamanı Power Point proqramından istifadə edə bilərlər. Kompyuter vasitəsi ilə şagirdlərin biliklərinin yoxlanılmasında oyun formasından və test variantlarından istifadə etmək olar. Təqdimatların tərkibində illüstrasiyalar, faktiki materiallar, cədvəllər, sxemlər, qrafiklər, praktiki tapşırıqlar, testlər, problemli suallar ola bilər. Belə təqdimatlar müəllimin vaxtına qənaət edir və şagirdlərin məqsədinə çatmağa kömək edir. Humanitar elmlərin tədrisində İKT – dən istifadə dərsin səmərəliliyini və uşaqların motivasiyasını artırır, başqa fənlərlə inteqrasiyasını asanlaşdırır, elmi dünyagörüşlərini və yaradıcı bacarıqlarını inkişaf etdirir.

İKT-nin imkanlarından tədrisdə uğurla istifadə edən müəllimlər qeyd edirlər ki, interaktiv rejimdə keçilən dərslərdə şagirdlərin mərkəzi fiqur olması təmin edilir. Müəllim, əsasən, şagirdin konsultantı, onun fərasətini və orijinal bacarığını qiymətləndirən, şagirdi aktivliyə, müstəqilliyə, təşəbbüskarlığa həvəsləndirən rolunda çıxış edir. Elektron tədrisdə uşaqların hamısı lövhəyə çıxıb müəllimin bütün tapşırıqlarını yerinə yetirməkdə həvəsli olurlar. İnteraktiv rejimdə keçilən dərslər bütün uşaqların, o cümlədən passiv, utancaq, müəyyən fiziki və ya psixoloji qüsuru olan şagirdlərin dərs prosesinə aktiv qoşulmasına şərait yaradır. Bunlardan əlavə, müəllimlər İKT-nin köməyi ilə bir dərs prosesində müxtəlif hazırlıqlı şagirdlərə fərdi yanaşma və adaptasiyalı öyrətmə sistemini tətbiq etməklə qavrama qabiliyyətlərinə uyğun tapşırıqlar verə bilər. Uşaqların sinifdə statusuna uyğun onları qruplara ayırmaqla kompyuterdə optimal iş rejimi də qurmaq olar. Müəyyən fənlər üzrə məsələlərin, tədqiqat xarakterli çalışmaların həllində belə qruplaşdırma xüsusi effekt verir. Kompyuter qarşısında təhsil alan şagird materialın verilmə və mənimsəmə sürətini özü rahat formada müəyyənləşdirə bilər. Öz sürət rejimində uşağın işləməsi yaxşı nəticə verir, onun özünə inamı artır, bu isə təlimə əlverişli psixoloji atmosfer yaradır. Müəllimin verdiyi suala sinifdəki şagirdlərin hamısı kompyuter vasitəsilə eyni zamanda cavab verməklə dərs prosesində aktiv iştirak edir, müəllimlər isə dərs boyu uşaqların aktivliyini istədikləri kimi qoruyub saxlaya bilirlər.

Elmi araşdırmalara görə, informasiya cəmiyyətinin tam formalaşdığı mərhələdə insanların əsas əmək predmeti informasiya, əmək alətləri isə İKT olacaq. Ona görə də bu gün respublikamızda təhsilin bütün pillələrində İKT-nin tətbiq və istifadə edilməsi, eyni zamanda İKT-nin özünün tədris olunması, uşaqlarda müstəqil şəkildə informasiya toplamaq, analiz etmək, ötürmək qabiliyyətinin formalaşdırılması, gələcəkdə informasiya cəmiyyətinin üzvlərinə çevrilməsində mühüm rol oynayır. Ötən dövr ərzində informasiya və kommunikasiya texnologiyalarının təhsil sisteminə inteqrasiyası və təhsil prosesinin məzmunca modernləşməsi sahəsində də bir sıra işlər görülmüşdür. Bütün təhsil pillələri üçün İKT üzrə proqramlar hazırlanıb təsdiq edilmiş, distant təhsil üzrə ilk eksperimentlər aparılmağa başlanılmışdır.

Bununla yanaşı, elektron vəsaitlərin, multimedia xarakterli dərsliklərin və digər texniki tədris vasitələrinin işlənilməsi, yayılması və təhsil prosesində tətbiq olunması o qədər də surətlə getmir. Son dövrdə bu sahədə bir sıra tədbirlər həyata keçirilib, elektron tədris sistemlərinin formalaşdırılması istiqamətində əməli addımlar atılsa da, İKT-nin tətbiqi üzrə elmi-metodiki bazanın təkmilləşdirilməsi, yüksək səviyyədə vahid elektron təhsil məkanının təşəkkül tapması günün əsas tələbi olaraq qalır.

## Ədəbiyyat


1. Dəmirov A.H., Məmmədov S.M., İsmayılov N. Yeni təlim texnologiyaları və müasir dərs. Bakı, Prezident kitabxanası, 2007, 109 s.
2. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Bakı, MBM, 2014, 190 s.
3. Kazımov N. Məktəb pedaqogikası. Bakı, Çıraq, 2011, 440 s.
4. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., R.Həsənov. Pedaqoji texnologiyalar. Bakı, Mütərcim, 2006, 372 s.


## THE IMPACT OF USING ICT TECHNOLOGY FOR EDUCATIONAL PURPOSES ON STUDENTS' SCIENTIFIC VIEW

**T.H.Senturk**

## SUMMARY


Since recently, one of the most important issues faced by the society is the optimal and effective use of computers in education. Computer-based teaching methods can only be applied with the combination of computer and information science. ICT differs from conventional teaching methods with the fact that it is always open to development.

Electronical education system comprises a variety of information technologies. This article deals with the means of ICT and their usage, and the problems caused by their misuse. These include computer networks, notebooks, smart boards, tablets, mobile devices, internet, etc.

Computer is not only electronic teaching aid. It can also be considered as a system which covers lesson, survey, research, data, literature and copybooks. Computer technology leads to high educational quality and helps students to learn much faster.

# ВЛИЯНИЕ ИКТ-ТЕХНОЛОГИЙ НА ФОРМИРОВАНИЕ НАУЧНОГО МИРОВОЗЗРЕНИЯ УЧАЩИХСЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

**Т.Х.Шентюрк**

## РЕЗЮМЕ

В настоящее время одной из важнейших проблем, стоящих перед обществом, является правильное, оптимальное и безвредное обучение компьютерной системе. Обучение компьютерных технологий обосновывается информационными принципами и реализуется компьютерным обучением. ИКТ отличается от традиционного обучения динамичным развитием использования компьютера.

Электронная система образования объединяет в себе множество информационных технологий. В статье говорится о средствах ИКТ и его правильном использовании, а также о возникающих проблемах при его неправильном использовании. Сюда относятся компьютерные сети, ноутбуки, интерактивные классные доски, планшеты, карманные приборы, интернет и т.д.

Компьютер – это не просто электронный учебник. Это портфель (система), который объединяет в себе уроки, запросы, справочную информацию, литературу, различные сферы знаний в базе данных и рабочая тетрадь. Компьютерная технология служит для улучшения качества образования и повышает скорость освоения материала.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# ПОЛИЦЕЙСКИЕ РАПОРТЫ О СОБЫТИЯХ ФЕВРАЛЬСКОЙ РЕЗНИ 1905 Г. В БАКУ

**Ф.Р.Джаббаров**
Национальный Музей Истории Азербайджана НАНА
Баку, ул.Г.З.Тагиева 4
e-mail: farhadcabbarov@mail.ru

***Açar sözlər:*** erməni-azərbaycanlı qırğını, 1905-ci il 6-9 fevral hadisələri, raportlar, Bakı şəhər polisi

***Keywords:*** Armenian-Azerbaijani conflict, incident of 1905 February 6-9, reports, Baku city police

***Ключевые слова**:* армяно-азербайджанская резня, события 6-9 февраля 1905 г., рапорты, Бакинская городская полиция

После событий 6-9 февраля 1905 г., когда в Баку произошла армяно-азербайджанская резня, началось следствие, которое должно было выяснить причины произошедшего, а также выявить виновных и ответственных за случившееся. В связи с этим в архивах отложилось довольно значительное количество документов различного характера – докладные записки, рапорты, протоколы допросов, осмотров мест происшествий и т.д. В конечном итоге все они составили основу для материалов сенаторской ревизии А.М.Кузминского, направленного императором Николаем II в Баку для выяснения причин межнациональных столкновений.

В настоящей статье объектом исследования избраны рапорты руководителей полицейских участков города Баку, которые ранее не являлись объектом специального изучения. Данные рапорты представляют интерес не только для исследования хода событий, но и раскрывают довольно важные подробности, проливающие свет на февральскую резню. В частности, по этим рапортам можно проследить, кто являлся инициатором беспорядков и убийств, понять причину того, почему в количественном отношении число убитых и раненых армян оказалось больше, чем азербайджанцев, выяснить действия полиции во время резни.

В начале XX в. город Баку делился на пять полицейских участков, возглавляемых приставами. Рапорты приставов относительно событий во вверенных им участках хронологически охватывают период с 14 по 21 февраля. Первый рапорт был представлен бакинскому полицмейстеру приставом 2-го участка Подгорным (14 февраля), затем – приставом 4-го участка Гогоберидзе (15 февраля), приставом 1-го участка Мамедбековым (16 февраля) и приставом 3-го участка И.Нижерадзе (21 февраля). В архиве не сохранился рапорт пристава 5-го участка Прокоповича, что, видимо, связано с отсутствием в его участке столкновений между армянами и азербайджанцами. В качестве источника привлечен к исследованию также рапорт заведующего Завокзальным полицейским участком г. Баку Григоренко (19 февраля).

Несмотря на то, что рапорт пристава 3-го участка И.Нижерадзе хронологически позже остальных, он имеет особое значение. Именно в этом участке произошло событие, ставшее поводом к февральской резне. 6 февраля, в 12 часов дня, на Парапете армянами был жестоко убит бакинский житель Ага Рза Бабаев. Это убийство спровоцировало начало массовых беспорядков в городе, завершившихся четырехдневным кровопролитием. Вот как описывал событие на Парапете пристав И.Нижерадзе: «6 февраля, в 12 часов дня, околоточный надзиратель вверенного мне участка Адольф доложил мне по телефону, что на Парапете происходил бунт. Прибыв на место, я из доклада того же околоточного надзирателя Адольфа узнал, что Адольф, будучи дежурным по участку, стоял на Армянской улице [нын. ул. М.Ибрагимова – *Ф.Д.*], на тротуаре против дома Адамова, услыхал огнестрельный выстрел, обернулся и заметил уходившего скорыми шагами солдата, а недалеко от него дым. Адольф, подозревая солдата в произведенном выстреле, погнался за ним и нагнал его, но уже тогда, когда он повернул с Армянской улицы на Колюбакинскую [нын. ул. Н.Рафибейли – *Ф.Д.*], по направлению к базару. Задержанный Адольфом солдат, не принимая на себя приписываемого ему обвинения, обещал указать того человека, которым был произведен выстрел, для какой цели они и вернулись обратно по прежнему направлению, но только что пройдя аптеку – угол Армянской и Почтовой [нын. ул. С.Тагизаде – *Ф.Д.*] улиц, солдат скрылся в толпе народа. Видя таковое положение вещей, Адольф счел нужным вернуться на прежнее место, с той целью, чтобы успокоить собравшуюся там толпу армян. Повернув вновь на Армянскую улицу, Адольф заметил толпу армян, ведущую одного прилично одетого татарина (Ага Рзу Бабаева). Толпа, принимая буйственный вид, так и стремилась наброситься на свою жертву. Благодаря вмешательству Адольфа, хотя и с большими затруднениями, Бабаева удалось вырвать из рук армян и посадить на фаэтон, чтобы для выяснения сущности дела доставить в участок.

Как только фаэтон хотел тронуться, в это время из толпы армян с криком «Довольно уже, что татары убивают армян» был произведен выстрел из огнестрельного оружия, пуля которого попала Бабаеву прямо в грудь. Бабаев соскочил с фаэтона, бросился бежать по направлению к гостинице «Гранд-отель», но, не добежав до последней, на углу Парапета упал и тут же скончался…» (2, л.93-93 об.).

В процитированном отрывке необходимо указать на некоторые неточности. Пристав не упомянул, что задержанный Г.Адольфом солдат был армянином, а собравшаяся на Парапете толпа армян схватила А.Р.Бабаева и пыталась выдать его за стрелявшего из револьвера. Об этом заявлял на допросе сам Г.Адольф (3, л. 8-9). Кроме того, в рапорте И.Нижерадзе говорилось, что А.Р.Бабаев был убит выстрелом из огнестрельного оружия. Однако в протоколе осмотра трупа, проведенного 6 февраля 1905 г., говорилось, что на трупе имелась «одна пулевая рана в нижней части правой половины живота и 2 раны бейбутом на груди, разорвана правая ноздря» (3, л. 6). Эти обстоятельства дают право утверждать, что убийство А.Р.Бабаева было совершено армянами с особой жестокостью, что вызвало резкую ответную реакцию у азербайджанцев, которые еще накануне февральских событий не раз

сталкивались с актами насилия и убийств со стороны армян.[1]

Как видно из рапорта пристава И.Нижерадзе, зачинщиками межнациональной резни в 3-м участке Баку выступили армяне. Однако такая же ситуация складывалась и в других районах города. Пристав 2-го участка Подгорный сообщал, что 6 февраля на Воронцовской улице (нын. ул. И.Сафарли) армянами был убит кондуктор конки А.Шейников, а на углу Цициановской (нын. ул. Т.Халилбейли) и Чадровой (нын. ул. М.А.Алиева) улиц – другой русский, фамилию которого не удалось выяснить (2, л. 90). Аналогичные примеры приведены в рапорте пристава 1-го участка Мамедбекова: «…В 10 часов утра 7 февраля на Петровской Набережной [нын. проспект Нефтяников – *Ф.Д.*] 4 армянина с вагона конки начали стрелять в проходящих татар, причем ранили персидско-подданного Джамиль Али хана Али Кули оглы, которого я отправил в больницу. Спустя полчаса, на углу Барятинской [нын. ул. А.Ализаде – *Ф.Д.*] и Мариинской [нын. ул. Р.Рзы – *Ф.Д.*] улиц армяне в числе 8 человек с двух сторон начали стрелять в проезжавшего на фаэтоне бакинца Абдурахмана Абдул Касым оглы, которого ранили тяжело в правый бок. Через полчаса на Большой Крепостной улице неизвестными лицами (как видно, татарами) убит армянин Иван Аракелов, в два часа дня два армянина на фаэтоне с берданками помчались по Набережной, производя направо выстрелы. 9 февраля в Темном ряду утром ранен пулей в голову, как видно, с крыши или окна, татарин Муталиб Джабар оглы, а также ранен пулей на Барятинской улице магазинщик Кипиани армянином, которого он знает в лицо. У дока Дадашева убит армянин. В Чемберекенте на тротуаре дома ранен выстрелом Кязим Мустафа оглы…» (2, лл. 88-89). То же самое сообщал заведующий Завокзальным полицейским участком Григоренко: «…7 февраля, около дома Григорьева по Пороховой улице [нын. ул. Карабахская – *Ф.Д.*] неизвестными армянами тяжело ранен пятью выстрелами из револьвера в разные части тела персидско-подданный Абдул Фатулла оглы. Потерпевший отправлен в Михайловскую больницу. 2) 8 февраля несколько человек армян ворвались в пекарню персидско-подданного Усейна Гаджи Баба оглы, находящуюся в доме Данильянца, по 1-й Балаханской улице [нын. ул. Физули – *Ф.Д.*], разбросали тесто, хлеб и другие вещи и похитили немного печеного хлеба и деньгами 50 рублей. 3) 9 февраля по 6-й Завокзальной улице [нын. ул. А.Вахида – *Ф.Д.*] неизвестным армянином выстрелом из револьвера ранен в правое бедро житель селения Хизра Кубинского уезда Кубат Наджаф оглы...» (2, лл.98-99).

По рапортам можно проследить еще одну характерную деталь участия противоборствующих сторон в конфликте. Азербайджанцы, которые перешли к самообороне, стреляли открыто, на улицах. Армяне же, укрываясь в домах, стреляли с крыш и окон. Во 2-м городском участке армяне производили стрельбу из домов братьев Красильниковых, где помещались номера «Мадрид», другого дома Красильниковых на углу Базарной (нын. проспект Азербайджана) и Губернской (нын. ул. Низами) улиц, дома Маилова, выходящего на Кубинскую площадь (нын. площадь Физули), дома Гукасова на Воронцовской улице (2, л.90). В 3-м городском участке стрельба по азербайджанцам производилась из дома Меликова, где находилась баня «Эрмитаж», дома Тагиева на Базарной улице, дома Асланова на Сурахан-

[1] Подробно об убийстве А.Р. Бабаева см.: *Джаббаров Ф.* Материалы следственного дела об убийстве Ага Рзы Бабаева как источник по изучению причин и хода февральской резни 1905 г. в Баку. // AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, 2014. Cild 51, s. 152-168.

ской улице (нын. ул. Д.Алиевой), дома Бабаджанова на Церковной улице (нын. ул. Видади), дома Лалаева на Шемахинке (2, л.90), дома Агаджанова на Армянской улице, дома Лазаревой на Церковной улице (2, л.94). Приведенные примеры дают основание сделать вывод, что армяне отдавали предпочтение не открытому бою, а провокационным выстрелам из засады. Данный факт доказывает, что армяне готовились к резне заранее, запаслись оружием в вышеупомянутых домах. Этим и объясняется то, почему некоторые из них подверглись атакам со стороны сил азербайджанской самообороны. Чтобы предотвратить обстрелы улиц и гибель невинных людей, азербайджанцы напали и сожгли дома Асланова, Бабаджанова, Лалаева и др. Впоследствии армяне и сочувствующая им пресса в России и Западной Европе широко растиражировали это, пропагандируя бесчеловечность и жестокость мусульман. И сейчас армянские историки, касаясь резни 1905 г., утверждают, что погромы армянских домов были одним из примеров «геноцида» против армян в Баку. Реальность же, как это видно из цитируемых полицейских рапортов и других источников, материалов следствия, заключалась в обратном. Поджоги домов были ответной и вынужденной мерой со стороны азербайджанцев, доведенных до отчаяния беспрерывной стрельбой из окон и крыш. Из рапортов можно заметить, что нападениям подвергались лишь те дома, откуда стреляли, в то время как целыми и невредимыми оставались другие дома армян, расположенные во всех районах города. Примечательным было и то, что в результате поджогов упомянутых домов среди обгоревших трупов были обнаружены, за редким исключением, мужчины, стрелявшие по мусульманам. Это тоже подтверждает беспочвенность обвинений в планомерном убийстве мирных армян.

Полицейские рапорты дают ответ еще на один принципиально важный вопрос. Как тогда, так и сейчас, армянские пропагандисты, пытаясь обосновать пресловутый «геноцид» армян в 1905 г., оперируют численностью убитых и раненых с обеих сторон. Как доказательство, они приводят цифры, зафиксированные в отчете сенатора А.М. Кузминского: 232 убитых, из них армян – 192, азербайджанцев – 36 (1, с.7). Однако объективное, лишенное эмоций и популизма изучение, а также сравнительное сопоставление источников создает совершенно иную картину происходившего. Во-первых, сенатор А.М.Кузминский, на которого любят ссылаться армянские историки, приводя численные данные об убитых, далее делает очень важную ремарку, о которой армяне умалчивают. В частности, он пишет: «Сведения эти [об убитых – *Ф.Д.*] во всяком случае не вполне верны, так как многие убитые и раненые, особенно из мусульман, были унесены и скрыты родственниками их, без заявления о том полиции» (1, с.7). Во-вторых, анализируемые в настоящей статье полицейские рапорты однозначно указывают, что жертвы со стороны азербайджанцев были немалыми, но установить их точную численность не удалось из-за того, что сами же мусульмане из религиозных соображений убирали трупы и передавали их родственникам для захоронения. В частности, пристав Подгорный сообщал, что «число раненых и убитых мусульман не представлялось возможным выяснить, так как во время беспорядков самими же мусульманами сейчас же подбирались с улиц и отправлялись домой. Но, во всяком случае, по добытым сведениям, их насчитывается в участке не менее 30 человек» (2, л. 91 об.).

Информативную ценность представляет описание в рапортах действий полиции во время резни. Отмечу, что после февральской резни как в общественном мне-

нии, так и в официальных кругах деятельность полиции по предотвращению межнациональных столкновений стала предметом особого внимания. Большинство сходилось в мнении, что полиция проявила безответственную халатность и бездеятельность по умиротворению сторон, прекращению убийств и грабежей. Наиболее радикальные силы обвиняли полицию в потворстве резне, открытом поощрении азербайджанцев к уничтожению армян. Из всего этого набора обвинений лишь последнее было отвергнуто сенаторской ревизией однозначно, как беспочвенное. Все разговоры о том, что полиция закрывала глаза на убийства армян, грабежи и поджоги их домов, магазинов, тем самым потворствуя азербайджанцам, не подтвердились ни одним серьезным и аргументированным фактом. Зато вопросы о неэффективности действий полиции во время резни, уровня ее подготовленности к подобного рода беспорядкам, о профессионализме, моральных качествах служащих в бакинской полиции, обеспечения их оружием стали предметом детального разбирательства как со стороны следствия, так и в правительственных кругах.

Рассматривая отражение данного вопроса в анализируемых рапортах, следует иметь ввиду, что их авторы, будучи сами полицейскими, к тому же по должности, руководившие полицейскими участками и имевшие в своем подчинении штат околоточных надзирателей и городовых, естественно, являлись стороной заинтересованной. Следовательно, в их интерпретации описание действий полиции во время резни может выглядеть довольно субъективным. Эту мысль можно допустить, но частично. Действительно, в рапортах иногда прослеживается попытка приставов выдать желаемое за действительное. Так, например, явным преувеличением было указание в рапортах на то, что во все дни резни чины полиции находились постоянно на улицах и продолжали исполнять свои служебные обязанности (2, л. 91 об., л. 97).

Красной нитью в большинстве рапортов проходит мысль о слабости полицейских и неспособности их противостоять хорошо вооруженным армянам и азербайджанцам. Так, пристав Подгорный заявлял, что использовать оружие против мародеров и поджигателей городовые не могли, так как не имели такового (2, л. 91). Пристав 4-го участка Гогоберидзе утверждал, что городовые являлись к нему и требовали револьверов, объясняя, что они подвергаются опасности и не в состоянии нести службу. Пристав же убеждал их не покидать посты, отказывая при этом в выдаче оружия, за отсутствием его (2, л. 97). Пристав 3-го участка И.Нижерадзе, жалуясь на минимальный штат полиции вверенного ему участка, а также плохое вооружение, признавал, что полицейские и в мирное время не в состоянии обеспечить порядок, не говоря уже о кровавых беспорядках с 6 по 9 февраля. «Револьверы у городовых ветхие, совершенно непригодны к действию на случай какой-либо самобезопасности, а большей частью их нет и вовсе», - заключал И.Нижерадзе (2, л. 95).

Таким образом, бездействие полиции может быть частично объяснено и объективными причинами. Оставшиеся без револьверов городовые и околоточные, были бессильны перед толпой, и, побросав место службы, просто-напросто сбежали. Безоружные полицейские не хотели становиться мишенью хорошо вооруженных армянских боевиков, тем более что из противоборствующих сторон ненавистью к полиции отличались именно армяне. Это было совершенно очевидно, ибо с начала

XX в. полиция и органы сыска вели усиленную борьбу против групп и отдельных представителей армянского националистического и террористического движения.

Таким образом, полицейские рапорты содержат обширный и полезный материал по истории армяно-азербайджанской резни в феврале 1905 г. В целом, они создают довольно четкий обзор о причинах и ходе межнациональных столкновений и представляют важный источник для исследования данного вопроса.

**Источники**

1. Всеподданнейший отчет о произведенной в 1905 году, по Высочайшему повелению, сенатором А.Кузминским ревизии города Баку и Бакинской губернии. СПб., 1906. 620 с.
2. Государственный исторический архив Азербайджанской Республики: ф. 185, оп. 11, д. 80.
3. Там же: ф. 343, оп. 1, д. 24.

## POLİS RAPORTLARI BAKIDA 1905-Cİ İL FEVRAL QIRĞINI HAQQINDA

**F.R.Cabbarov**

**XÜLASƏ**

1905-ci il fevralın 6-9-da Bakı şəhərində yüzlərlə insanın həyatına son qoymuş erməni-azərbaycanlı qırğınları baş vermişdir. Məqalədə həmin hadisələrin təfərrüatları əks olunduğu polis raportları araşdırılır. Bu raportlar təkcə hadisələrin gedişini izləmək baxımından deyil, eyni zamanda Fevral qırğınının mühüm detallarını işıqlandırmaq nöqteyi-nəzərindən maraq kəsb edir. Belə ki, tədqiq edilən sənədlər qarşıdurmanın təşəbbüskarlarını və səbəbkarlarını, ermənilərin azərbaycanlılara nisbətən daha çox itki verməsinin səbəblərini izləməyə, qırğınlar zamanı polisin fəaliyyətini araşdırmağa imkan verir.

## POLICE REPORTS ABOUT 1905 FEBRUARY MASSACRE IN BAKU

**F.R.Jabbarov**

**SUMMARY**

The Armenian-Azerbaijani massacre, which took hundreds of lives, occurred in Baku in February 6-9, 1905. The detailed police reports related to that massacre are surveyed in this article. These reports are very interesting not only from the chronological point of view. They help reveal the important details of the February massacre. The studied documents allow to trace the initiators and instigators of the slaughter, to find out why Armenian losses were much more than those Azerbaijanis and to explore the police activities during the massacre.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# ŞİRKƏTLƏRDƏKİ TƏHLÜKƏSİZLİK SƏVİYYƏSİNİ ARTIRMAQ ÜÇÜN DEC-POMDP ALGORİTMİ TƏTBİQ EDİLMİŞ PUA MODELİ

**Ümit İLHAN Bayram**
Qafqaz ÜniversitesiPhD student
Qafqaz University Lecturer
Xırdalan, AZ0101, Həsən Əliyev küç., 120
e-mail: uilhan@qu.edu.az

**Kenan KILIÇ Süleyman**
Odlar Yurdu University PhD student
Qafqaz University ICT Centre and Lecturer
Xırdalan, AZ0101, Həsən Əliyev küç., 120
e-mail: kkilic@qu.edu.az

***Açar sözlər:*** DEC-POMDP, Markov qərar qəbul etmə prosesləri, pilotsuz uçan aparat, informasiya sistemleri, qərar dəstək sistemləri.

***Keywords:*** DEC-POMDP, Markov decision processes, unmanned aerial vehicle, information systems, decision support system.

***Ключевые слова:*** DEC-POMDP, Марковский процесс принятия решений Информация, Беспилотный летательный аппарат, информационные системы, Система поддержки принятия решений.

**Xülasə:** Şirkətlərdəki təhlükəsizlik səviyyəsini yüksək səviyyədə saxlamaq hər zaman şirkətlərin ən əhəmiyyətli işlərindən olmuşdur. Təhlükəsizlik səviyyəsini artırmaq üçün müxtəlif informasiya sistemləri üsulları tətbiq olunmaqdadır. Dünyada son zamanlar çox sürətli şəkildə yayılan pilotsuz uçan aparatlar isə fərqli sahələrdə tətbiq edilir. PUA'lar avtonom şəkildə idarə edilərək istənilən vəzifələri yerinə yetirə bilməkdədir. Markov qərar vermə prosesləri isə, qərar vermə problemlərində tətbiq əhəmiyyətli alqoritmlərdən biridir.

Bu məqalədə, şirkətlərdə təhlükəsizlik üçün istifadə edilən məlumat sistemlərinə dəstək vermək və təhlükəsizlik səviyyəsini artırmaq üçün PUA--lardan istifadə edilə biləcək bir model təklif edilmişdir. Burada istifadə edilən PUA--ların ən əhəmiyyətli xüsusiyyəti odur ki, onlar bir-birilərinə birbaşa məlumat göndərərək, verilmiş vəzifələri yerinə yetirə bilirlər. Verilən vəzifələri ən doğru şəkildə yerinə yetirmək üçün Mərkəzləşdirilməmiş Qismən Müşahidə olunan Markov Qərar Qəbuletmə prosesinden (DEC-POMDP) istifadə edilmişdir. Sonda isə modelin detalları izah edilmiş və təkliflər verilmişdir.

## Giriş

Pilotsuz uçan aparat (PUA), son illərdə yaşanan texnologiya inkişafların işığında, məşhurluğu gedərək artan bir akademik çalışma və mühəndislik tətbiq sahəsi halina gəlmişdir. PUA, əsasən hərbi tətbiqlər başda olmaq üzrə təbii fəlakətlər, müxtəlif idman fəaliyyətlərinin izlənilməsi, yol nəzarəti v.s. bir çox vəziyyətin həll və ya analizinin sürətli və təhlükəsiz bir

şəkildə həyata keçirilməsinə imkan verir. Bu sahələrin yanında günlük həyatda həm şirkətlərin həm də şəxslərin bir çox problemlərinə fərqli həllər çıxartmaq üçün PUA-lar istifadə edilməkdədir.

Günümüzdə hər hansı bir ərazini qorumaq üçün bir çox təhlükəsizlik sistemləri istifadə edilməkdədir. Ərazinin böyüklüyünə görə istifadə edilən texnikalarda dəyişməkdədir. Böyük ərazilərdə isə təhlükəsizliyi təmin etmək daha çətindir. Ərazi təhlükəsizliyi dediyimiz zaman, ərazidə ola biləcək bütün təhlükələrdən qorumaq, ərazinin istənilən yerinə istənilən zaman nəzarət etmək kimi hadisələr başa düşülür. Bu problemləri həll etmək üçün bəzi üsullar istifadə edilməkdədir. Təhlükəsizlik kameraları yerləşdirmək, ərazinin müəyyən yerlərinə müəyyən zamanlarda nəzarət etmək kimi işlərlə bu problemlərə həll axtarılmağa çalışılmaqdadır. Bu həllər zamanı yenə ərazilərin təhlükəsizliyi tam olaraq təmin edilmir. Bəzı ərazilərin ölçüləri hektarlarca böyüklüyündə olduğu üçün ərazinin hər bir yerinə kameralar ilə təhlükəsizliyi təmin etmək çox böyük büdcələr ortaya çıxaracaqdır. Kamera sistemləri qurulsa belə kameraların görüş və hərəkət sahələri məhdud olduğundan ərazidə yenə görünməyən sahələrin olma ehtimali hər zaman yüksəkdir. Bunun yanında ərazini gəzərək təhlükəsizliyi təmin etmək üçün çalışacaq insanlarında işci gücü çox yüksək olacaqdır. Bu səbəblərdən ötrü böyük ərazilərin təhlükəsizliyi daha yaxşı təmin etmək üçün yeni tələblərə ehtiyac vardır.

Məqalədə bu problemin aradan qaldırılması üçün, Qərar vermə alqoritmləri olaraq MDP alqoritmindən istifadə edilmişdir. Verilən vəziyyət və müşahidə sabit isə MDP alqoritmi ilə, vəziyyət və müşahidələr dəqiq deyil və qismən müşahidə bir zamanda isə POMDP alqoritmi ilə, birdən çox PUA varsa və vəziyyət və müşahidələr dəqiq deyil və qismən müşahidə bir zamanda ilə isə Dec-POMDP algoritmalarından istifadə edərək bu problemin aradan qaldırılmasının modeli və təklifləri verilmişdir [1, 2, 3, 4].

## Qərar qəbul etmə alqoritimləri

Qərar qəbul etmə istənilən icraçının ən vacib arzu olunan bacarıqlarından biridir. İcraçı ətraf mühitdən giriş götürür, qərar qəbul edir və onun qərarını yerinə yetirir. Qərar qəbulu lahiyəçi tərəfindən əvvəlcədən müəyyən edilən hərəkət yığımından bir hərəkəti seçir. İcraçının işi hərəkəti seçməsindən asılıdır. Qərar qəbul etmə alqoritmi cari vəziyyətə müvafiq olaraq optimal hərəkəti seçmək üçün strategiya müəyyən edir [5].

## Markov qərar qəbul etmə prosesləri

Markov Qərar qəbuletmə Prosesi (Markov Decison Process - MDP) hərəkətlərin ehtimal olunan olduğu yerdə qərar qəbulu üçün riyazi strukturdur [6, 7, 8, 9, 10]. Buna baxmayaraq, bu güclü strukturdan istifadə etmək üçün biz problemi rəsmiləşdirməyə və aşağıdakıları müəyyən etməyə ehtiyac duyuruq:

- Vəziyyətlər çoxluğu, S
- Hərəkətlər çoxluğu, A
- Keçid funksiyası,T
- Mükafat funksiyası, R

Zaman addımında proses bir neçə bəzi $s \in S$ vəziyyətindədir və icraçı $a \in A$ hərəkətini seçir. Gələn dəfə ki addımda proses yeni $s' \in S$ vəziyyətə $T_a(s,\dot{s})$ ehtimal ilə və mükafatla $r$ ilə hərəkət edir, $r = R(s,s')$ qəbul edilir [11, 12, 13]. Vəziyyət əvvəlki vəziyyətdən və hərəkətin qəbul edilməsindən asılıdır və bu Markov Xüsusiyyəti adlandırılır. Buna baxmayaraq, MDP ehtimala əsalanan vəziyyət keçidlərinə imkan verir. Başqa sözlə, hərəkətin nəticəsi ehtimala əsaslanır. Bu, həmçinin güman edir ki, proses öz vəziyyətini bilir.

## Qismən Müşahidə olunan Markov Qərar Qəbuletmə Prosesi

Qismən Müşahidə olunan Markov Qərar Qəbuletmə Prosesi (Partially Observable Markov Decision Process - POMDP) icraçının onun vəziyyətini dəqiq bilmədiyi hal üçün MDP-in ümumiləşdirməsidir [8, 14]. Müşahidə yığımı $O$ və müşahidə funksiyası $\Omega$ MDP-in tərifinə əlavə edilir, həmçinin mükafat funksiyası aşağıdakı qaydada dəyişdirilir:

$$R(s; a)\ s \in S \quad a \in A \tag{1}$$

## Markov qərar prosesi

Sxochastic qərar vermə problemlərini həll etmək üçün ən güclü model Markov Qərar vermə prosesidir (MDP). Biz MDP-ni çoxüzlü ($S, A, T, R, \gamma$) kimi də təsvir edə bilərik [7, 8, 9, 14].

**Vəziyyətlər:**$S=(S_0,S_1....S_N)$ mühitin/icraçının bütün mümkün vəziyyətlərinin məhdud bir qrupudur. Biz St-ni zaman addımı t də vəziyyət kimi müəyyən edirik. Müzakirə etdiyimiz kimi, vəziyyət kafi statistikadır ki, icraçının öz qərarını formalaşdıranda ehtiyacı ola biləcək hər şeyi tamamilə təsvir edir. MDP vəziyyətlər çoxluğu kimi də müəyyən edilə bilər, lakin bu məqalədə biz yalnız məhdud halı təyin edirik. Vəziyyətə nümunə, robotun naviqasiya xidmətindəki yerləşməsidir.

**Hərəkətlər:**$A(A_0,\ A_1,......A_m)$ icraçının götürə biləcəyi bütün mümkün hərəkətlərin məhdud bir qrupudur. Davamlı hərəkətlər qrupu da mümkündür, ancaq biz burada məhdud vəziyyətlər çoxluğunun üstündə dururuq. Ümumiyyətlə, hərəkətlər qrupunun vəziyyətdən asılı olmağı mümkün haldır ancaq burada biz təyin olunmuş hərəkətlər qrupunun bütün vəziyyətlərdə mümkünlüyünü saxlayırıq. Buna misal, naviqasiya xidmətlərindəki hərəkət əmrini göstərmək olar.

**Keçid funksiyası**: Biz keçid funksiyasını $T(s, a, s') = P(s_{t+1} = s'|s_t = s, a_t = a)\ \forall t$ (2) kimi ifadə edilir.

Hansıkı, orada s zaman $t$ də vəziyyət, $a$ zaman $t$ də götürülən hərəkət, $s'$ isə zaman $t+1$ də göstərilən vəziyyət kimi müəyyən olunur. Dönmə funksiyası spesifik hərəkət-vəziyyət cütünə tabe olan növbəti vəziyyətin mümkünlüyünü müəyyən edir. MDP modelinin bu xüsusiyyəti qərar vermənin sxochastic təbiətidir. Dönmə funksiyası Markov xüsusiyyətini qane edir. $P(s_{t+1} = s'|s_t, a_t, s_{t-1}, a_{t-1}, ..., s_0, a_0) = P(s_{t+1} = s'|s_t, a_t)$ (3) kimi ifadə edilir.

Bu şərti mümkünlük olduğundan, bizim$\sum_{s' \in S} T(s, a, s') = 1$(4) xüsusiyyətimiz də var.

**Mükafat:** R funksiyası vəziyyət S-də götürülən hərəkətdə say mükafatıdır. Modelə həm mənfi həm müsbət qiymətlər daxildir. İcraçının məqsədi prosesdən qayıdanı maksimuma çatdırmaqdır. Biz onu $E\left[\sum_{t=t_0}^{T}\gamma^{t-t_0}r_t\right]$ (5) kimi yazır.

*E* gözləmə, $r_t$ zaman addımı *t*-də qazanılan mükafat, $\gamma$ sonradan qazanılan, $t_0$ və *T* prosesin başlama və bitmə vaxtlarıdır.

**Güzəşt**. Biz $\gamma$ -ə güzəşt faktoru kimi tərif veririk. Tənlik 2.2də gördüyümüz kimi, zaman addımı *t*-dəki mükafat $\gamma(t\text{-}t_0)$ faktoru tərəfindən aşağı düşür. Güzəşt faktorunun arxasında duran intiusiya odur ki, bərabər ölçüdə qısa müddətdə əldə edilmişlər uzun müddətdə əldə edilmişlərdən daha güclü dəyərləndirilsin. Əgər $\gamma 1$-ə yaxın olarsa, onda icraçının gələcək mükafatları daha güclü olacaq. Əgər $\gamma 0$-a yaxın olarsa, onda icraçı daha da miyoplaşıb (uzağı yaxşı görməyən) əldə olan mükafatları maksimallaşdıracaq. Güzəşt faktoru maliyyədə faizə oxşar görünə bilər. Beləki, $\gamma$ təmin edir ki, ümümi qayıdış sabit məbləğdir. MDP-də spesifik tapşırıq kimi, biz $S_0$ vəziyətində başlama tələb edirik yaxud bəzi ilkin başlanğıc vəziyyətlər 1-ə bərabər olur.

$\mu_0(s) = P(s_0\ = s), harada\ ki\ \sum_{s\in S}\mu_0(s) = 1(6)$

Davranış $\pi \in\prod$ üçün $\pi(s,a) = P(a_t\ = a|s_t\ = s)$ (7) kimi ifadə edilir.

Davranış cari vəziyyətlərə əsaslanaraq götürülən hərəkət üzərində mümkün bölümü müəyyən edir$\sum_{a\in A}\pi(s,a) = 1\forall s$ *(8)* kimi ifadə edilir.

Bellman göstərir ki, verilmiş MDP üçün hər zaman müəyyənləşmiş optimal davranış $\pi^*$ mövcuddur ki, o da başqa *s* vəziyyətdə başlayan digər davranış qədər yaxşı olan uzun müddətli qayıtma verir. Müəyyənləşdirilmiş davranış verilmiş hərəkətdə $\pi(s, a_i) = 1\ a_i$, və $\pi(s, a) = 0\ \forall a \neq a_i$ belədir. Sxochastik davranışı istifadə etməyin üstünlüyü olmadığından, biz sadəlik üçün yalnız məyyənləşdirilmis davranışını aid edirik. Ona görə də biz yalnız s vəziyətində hərəkət götürən $\pi(s) \rightarrow a$, dən istifadə edirik. Mühit daxilində icraçinin işini MDP və davranışı ilə müəyyən edə bilərik. İcraçı $S_0$ vəziyyətində başlayır. Hər zamans addımı *t* də, icraçı $a_t = \pi(s_t)$ seçir. İcraçı $a_t$ dən keçərək $S_{t+1}$ vəziyətinə hərəkət edir və mükafat $r_t$ əldə edir. Bu proses davamlı olaraq davam edə bilir yaxud da bəzi şərtlər daxilində bitə bilir.

## Qismən müşahidə edilən Markov qərar vermə prosesi

POMDP-lər qismən müşahidə edilə bilən ərazini, dəyişə bilən qərar vermə sistemi ilə təmin edir. Qismən müşahidə edilə bilən mühit o deməkdir ki, icraçının öz vəziyətinə birbaşa giriş haqqı yoxdur, ancaq qəbul etdiyi müşahidələrə əsasən situasiyadan çıxmalıdır. POMDP mümkün ərazi üçün yaxşı uygunlaşmışdır hansiki orada qərar vermə sensor vasitəsiylə iştirakında robot kontroldakı kimi tələb olunur. MDP modeli üçün POMDP təbii qismən müşahidə ediləbilən modeldir. Formal olaraq, biz POMDP-ni çoxüzlü kimi müəyyən edirik. *S, A, T, R* və $\gamma$ da MDP modelindən törəmədir hansı ki, orada S vəziyətlər qrupu, A hərəkətlər qrupu, T çevrilmə funksiyası, *r* mükafat funksiyası, $\gamma$ isə güzəşt faktorudur. Biz MDP-yə POMDP-nın vurğulama MDP-sı kimi baxırıq. Yerdə qalan terminləri Z və O kimi qeyd edirik [13, 15].

**Müşahidələr**. $Z = \{z_0, z_1, \ldots, z_L\}$ icraçının mühitdən qazandığı bütün mümkün müşahidələr qrupudur. Müşahidə mühit haqqında informasiyadan bir hissədir. Yalnızca $Z_t$ müşahidəsi zaman addımı t-də görünə bilər, ancaq çoxsaylı müşühidələr axını bir qrup müşahidələrə $Z$-ə daxildir. $Z$-i davam edici müşahidələr ilə müəyyən etmək mümkündür, ancaq bu iş üçün biz ölçülə bilən davamlı mühiti yoxlamalıyıq.

**Müşahidə funksiyası**. Biz bu funksiyanı $O$ kimi qeyd edirik. $s$ vəziyətində $a$ hərəkətinin müşahidəsinin mümkünlüyünü müəyyən edir $O(s, a, z) = P(z_{t+1} = z|s_t = s, at = a) \forall t$ *(9)*kimi ifadə edilir.

## Tarix və inam vəziyyətləri.

İcraçı qismən müsahidə edilə bilən mühitdə cari vəziyyət S-də birbaşa daxil ola bilmir. Lakin, icraçı hər addimda vəziyyətə vasitəsiz daxil olmanı təmin edən müşahidələri qəbul edir. Ümumilikdə, bu müşahidələr vəziyyət biliyini qarantiya etmək üçün yetərli deyildir.

İcraçının oldugu vəziyətin izini saxlamaq üçün ən açıq yol icraçının hərəkətlərinin və müşahidələrinin tarixini saxlamaqdır. Biz tarixi $h_t$ kimi qeyd edirik. Müşahidələrinin tarixi $h_t = \{a_0, z_1, a_1, z_2, \ldots, a_{t-1}, z_t\}$ *(10)* kimi ifadə edilir.

Lakin tarixi toplamaq bəzi tapşırıqlar üçün çox da praktik deyil. Tarixi müəyyən etmək əvəzinə biz inam vəziyyətini yəni Bt-ni qeyd edə bilərik ki bu da verilmiş tarixdə vəziyyətlər üzərində bölünmə mümkünlüyüdür. Bölünmə vəziyyəti tarix üçün əlverişli statistikadır. B0 I başlanğıc inam vəziyyəti kimi qeyd edə bilərik.

Bunun üstünlüyü ondadır ki, icraçının tarixini qısaltmağa kompakt yol təklif edir. İnamdan istifadə edərkən, tarixi saxlamağa ehtiyac yoxdur. Mümkün inamlar qrupunu S kimi qeyd edirik. Onu da qeyd edək ki, s vəziyətlər çoxluğu üçün bəsitdir. Ona görə də, ölçüsü var və davamedici çoxluqdur.

Əgər inam nöqtəsinin əvvəlki inam nöqtəsi bəlli olarsa asan hesablanma kimi üstünlüyü də var. Biz $T$-i keçmis inam vəziyəti, T1-dən yeni inam vəziyyətinə çevrilən funksiya kimi qəbul edirik. $b_t(s) = P(s_t = s|h_t, b_0)$ *(11)* burada $b_0$ başlanğıc inam vəziyyətidir. $b_t(s') = \tau(b_{t-1}, a_{t-1,} z_t), = \frac{1}{P(b_{t-1}, a_{t-1})} O(s', a_{t-1,} z_t) \sum_{s \in S} T(s, \; a_{t-1,} s') b_{t-1}(s)(12)$ düstur da görüldüyü kimi *s'*də olan növbəti inam vəziyyəti sadəcə keçmiş inama əsaslanaraq S' inam üçün müşahidə z mümkünlüyü tərəfindən seçilən və mümkünlüyü qəbul edən $Z_t$ tərəfindən normallaşdırılan mümkünlükdür $P(b_{t-1}, a_{t-1})$.Bu faktor belə hesablanır:

$P(b_{t-1}, a_{t-1}) = \sum_{s \in S} O(s', \; a_{t-1,} z_t) \sum_{s \in S} T(s, \; a_{t-1,} s') b_{t-1}(s)(13)$ və kimi ifadə edilir. Bu inamın yeniləmə prosesi Bayes filteri ilə eynidir.

## Davranışlar və dəyər funksiyaları.

MDP halinda oldugu kimi, biz icraçının POMDP mühitində əməliyyatını müəyyən edən davranışını qeyd edə bilərik. Onu da qeyd edək ki, bu MDP üçün olanlarla eynidir, Lakin biz vəziyyətə əsaslanan hərəkəti seçmək əvəzinə inam vəziyətini seçirik. POMDP davranış üçün inam MDP halindaki vəziyyət kimi hərəkət edir. Əslində, POMDP özü bizim inam MDP adlandırdıgımız tərəfindən nümayis olunur. Çevrilmə funksiyasi əlverişli statistika olduğundan, biz MDP inam qaydaya sala bilərik hansıki orada POMDP vəziyyətlər çoxluğu inam

çoxluğundan, A hərəkət çoxluğu POMDP-de olduğu kimi eyni, çevrilmə funksiyası isə inam çevrilmə funksiyası ile eyni, mükafat isə MDP-də olduğu kimi eynidir.

**Mərkəzləşdirilməmiş Qismən Müşahidə olunan Markov Qərarı Qəbuletmə Prosesi**

Mərkəzləşdirilməmiş Qismən Müşahidə olunan Markov Qərarı Qəbuletmə Prosesi (Decentralized Partially Observable Markov Decision Process - Dec-POMDP) çox icraçılı həll üçün POMDP-un genişlənməsidir. Mərkəzləşdirilməmiş icraçılar bir neçə məsələyə nail olmaq üçün hərəkət edəndə, problem Dec- POMDP kimi modelləşdirilə bilər. Hər bir zaman addımında, hər icraçı hərəkəti yerinə yetirir, yerli müşahidə və birgə yaxın mükafatı qəbul edir. Hər təmsilçi üçün yerli davranış onun müşahidə ardıcıllıqlarından hərəkətlərə kartoqrafiyasını edir [11, 12, 15, 16]. Bu məqalədə, Bernstein tərəfindən müəyyən edilən formallaşdırmadan istifadə edilib [17].

Dec- POMDP modeli 7 kortejlidir *(n; S; A; T; Ω;Obs;R):*

- *n* icraçılaarın sayıdır .
- *S* vəziyyətlərin sonlu yığımıdır.
- *A, Ai (i = 1; 2::; n)*-nin kartezian məhsulu olan birgə hərəkətlərin yığımıdır. Digər sözlə, $agent_i$ üçün mümkün olan hərəkətlərin yığımıdır.
- *T*, verilmiş *S* cari vəziyyətinə və *a* cari birgə hərəkətinə üçün mümkün növbəti vəziyyətlərin ehtimallarını müəyyən edən vəziyyətin keçid funksiyasıdır.
- Ω, $\Omega_i$ *(i = 1; 2:::; n)*-nin Kartezian məhsul olan birgə müşahidələrin yığımıdır, digər sözlə, $i\c{c}rac\imath_i$ üçün mümkün olan müsahidə çoxluğudur. İstənilən zaman addımında icraçılar ətraf mühitdən $o = -i\ (o_1;\ o_2;\ :::o_n;\ )$ birgə müşahidəsini qəbul edir.
- *Obs* müşahidə funksiyasıdır, hansı ki, *s* cari vəziyyətini və *a* cari birgə hərəkətə verilmiş *o* birgə müşahidəsini qəbul edən ehtimalı dəqiqləşdirir.
- *R*, cari vəziyyəti və cari hərəkəti verilən çox icraçılı komanda tərəfindən qazanılan ani mükafat funksiyasıdır.

**Təklif Edilən Model**

Təklif edilən modeldə şirkətlərdəki təhlükəsizlik məlumat sistemlərinin böyük ərazilərdəki təhlükəsizliyin tam təmin edilməməsi problemi üçün, təhlükəsizlik problemlərinin sabit olmayan və qismən müşahidə olduğu bir Mərkəzi olmayan qismən müşahidə olunan Markov Qərarı Qəbuletmə Prosesi(POMDP) modeli inkişaf etdirilmişdir. Model ilə əlaqəli detallar aşağıdakı bölümlərdə anladılacaqdır.

Model Parametrləri:

T = Sonlu zamanda istifadə edilən vəziyyətlərin period sayı

n = PUA-ların ümumi sayı

C = Təhlükəsizliyin pozulduğu vəziyyətlər

M = Maksimum təhlükəsizlik səviyyəsi tələbi $0 \leq M \leq C$

$\pi_t$ = *t* periodundakı təhlükəsizlik tələb bölgüsü, $\pi_t(\lambda_t) = \{\pi_{ti}(\lambda_t)\}$ şəklindədir və $\lambda_t = k$ orta tələb ifadəsi, i=0,……, M olacaq şəkildə $\pi_{ti}(\lambda_t) = f(d_t = i; \lambda_t = k)$ vəziyyətini ifadə edər.

$l_t$= Təhlükəsizlik səviyyəsinin normal zamandakı vəziyyəti

$d_t$ = t periodunda, bir $\pi_t$ vəziyyətinə görə meydana gələn təhlükəsizlik səviyyəsi *tələbi* $0 \leq dt \leq M$

$a_t$= şirkətin t periodundakı tələb etdiyi təhlükəsizlik səviyyəsi

**Model Məlumatları**

- Təhlükəsizlik sistemində ən az 2 ədəd PUA mövcuddur.
- Sistemdə təhlükəsizlik kamera ilə görüntü işləmə və bəzı sensorlar vasitəsiylə əldə ediləcəkdir.
- PUA-nın qərar vermə sistemi sayəsində PUA-lar özləri qərar verəbilirlər.
- PUA-nın qərar vermə sistemi ilə hər bir PUA birbirinə məlumat göndərəbilər.
- Sistem şirkətin təhlükəsizlik sistemi ilə birlikdə inteqrasiya olunmuş şəkildə işləyəcəkdir.
- Şəkil 1-də göründüyü kimi, bir t periodunun başında təhlükəsizlik sistemi bir əvvəl ki, təhlükəsizlik sistemi periodun sonunda əldə etdiyi $l_{t-1}$ təhlükəsizlik səviyyəsinə malikdir.




Şəkil 1 – Sistemin t periyodundaki başlanğıc təhlükəsizlik səviyyəsi

Şəkil 2-də göründüyü kimi, mövcud təhlükəsizlik istəyi olan $d_t$-ni müşahidə edər. Müşahidə edilən bu taləb, təhlükəsizlik səviyyəsinin vəziyyətini müəyyən edəcəkdir. $d_t$, mövcud orta təhlükəsizlik səviyyəsi, $\lambda_t$'dən əldə edilən $\pi_t$ paylanılmasındakı ehtimallra bağlı olaraq müşahidə edilməkdədir.



Şəkil 2 – Sistemin mövcud təhlükəsizlik səviyyəsini müşahidə etməsi.

PUA-nın apardığı müşahidələrin nəticəsi sistemə göndərdiyi ehtimallara görə iki vəziyyət ortaya çıxır.

- Əgər $l_{t-1} \geq d_t$isə, PUA'nın qərar verici sistemi, gələn müşahidələrin sistemin təhlükəsizlik vəziyyətini pozmadığını hesabladığı üçün, Şəkil 3-də görüldüyü kimi PUA-1-ə $d_t$ təhlükəsizlik səviyyəsi pozulmadığı üçün bu məlumatı göndərir və PUA-1 daha əvvəldən verilmiş olan vəzifələri yerinə gətirməyə davam edər.




Şəkil 3 – Sistemin mövcud təhlükəsizlik vəziyyətini pozmadığını müşahidə etməsi.

- Əgər $l_{t-1} < d_t$isə, təhlükəsizlik sistemi, gələn müşahidələrin təhlükəsizlik vəziyyətini pozduğunu hesabladığı üçün, Şəkil 4-də görüldüyü kimi PUA-1-ə təhlükəsizlik səviyyəsinin pozulduğunu məlumatını göndərir və PUA-1 təsbit etdiyi təhlükəsizlik problemini bir sonrakı veriləcək vəzifəyə qədər təqib edər və artıq işin içinə digər PUA-larda (PUA-2, PUA-3, ….., PUA-N) girər.




Şəkil 4 – Sistemin mövcud təhlükəsizlik vəziyyətini pozulduğunu müşahidə etməsi.

PUA'nın qərar verici sistemi, Şəkil 5-də görüldüyü kimi PUA-1'dən gələn təhlükəsizlik probleminə görə digər PUA'lara veriləcək yeni vəzifələrin təyin edilməsi lazımdır. Bu arada digər PUA'ların təhlükəsizliyi təmin etdikləri ərazilərdə təhlükəsizliyin tam olacağı fərziyəsi edilmişdir.

PUA-nın qərar verici sisteminin digər PUA-lara verəcəyi vəzifələr, $0 \leq l_t \leq C,\ t = 0,1,\ldots,T$ olacaq şəkildə sərhədli olduğundan veriləcək olan vəzifələrin sayısı digər PUA-ların sayını keçməyəcək şəkildə yəni, $0 \leq a_t \leq C - max(0, l_{t-1} - d_t),\ 0,1,\ldots,T,$ ifadəsi kimi olmalıdır.




Şəkil 5 – Sistem üçün tövsiyə edilən model

Məqalədə tövsiyə edilən Dec-POMDP modelinin komponentləri aşağıdaki kimidir.

- Vəziyyət: t periodu üçün sistemin vəziyyəti, bir sonraki periodun orta vəzifələrini, mövcud periodda yaranan istəkləri və PUA-nın qərar vermə sistemi başlanğıc vəziyyətini əhatə edən bir vektordur; $s = (\lambda_{t+1},\ d_t, l_{t-1})$
  Sistemdə, bir vəziyyət içərsindəki vəzifə səviyyəsi $l_{t-1}$ və mövcud vəziyyətin vəzifələri $d_t$ tam olaraq müşahidə edilə bilərkən, bir sonrakı vəziyyətin orta vəzifləri $\lambda_{t+1}$ qismi olaraq müşahidə edilə bilməkdədir.
- Hərəkət: Sistemdə çoxlu qərar vericilər olduğundan hər bir PUA-nın qərar verici sistemi, yeni vəzifələr $a_t$'yə qərar verəcəkdir.
- Müşahidə: PUA'nın qərar verici sistemi, müşahidə olaraq bir sonraki zamanda gələcək orta vəzifələr haqqındakı düşüncəsini, mövcud zaman vəzifələrini və mövcud zamandakı ilk verilən vəzifə müşahidələrini; $o = (\Omega_{t+1},\ d_t,\ l_{t-1})$ kimi göstərilir.
- Keçid Funksiyası : $P(s'\backslash s,a_t),\ = (\lambda_{t+1},\ d_t,\ l_{t-1}),\ S' = \lambda_{t+2},\ d_{t+1},\ l_t)\ t=0,1,\ldots,T$ kimi ifadə edilir.
  Keçid funksiyası yaradılarkən diqqətə alınması lazım olan hallar;

- Yeni keçiləcək olan s'vəziyyəti sahib olduğu orta vəzifə $\lambda_{t+2}$'yə keçid ehtimallarının hesablanması: bu andaki vəziyyətdən bir s' vəziyyətinə keçərkən, yeni vəziyyətdə hər bir orta vəzifənin əldə edilmə ehtimalı bir-birinə bərabərdir.
- Yeni keçiləcək olan vəziyyətinin sahib olduğu mövcud dövr vəzifələri $d_{t+1}$-ə keçid ehtimallarının hesablanması: keçiləcək olan s' vəziyyətinin (içerdiği) mövcud dövr vəzifələri $d_{t+1}$, s vəziyyətinin sahib olduğu orta vəzifə $\lambda_{t+1}$ 'in yaratdığı paylaşımdan əldə edilmişdir. Bu səbəbdən, s vəziyyətindəki $\lambda_{t+1}$'in yaratdığı paylaşımın içerdiği $d_{t+1}$ehtimalı, bu tələbi əhadə edən yeni vəziyyətinə keçid ehtimalını verir.

- Yeni keçiləcək olan vəziyyətin keçid ehtimalının hesablanması: Bütün bu əldə edilən vəziyyət komponentləri ehtimalları vuralaraq yeni vəziyyətə keçid ehtimalı əldə edilir. Lakin bu ehtimalların sətrlərin cəmlari 1 olması lazım olduğundan hər bir sətrdəki komponentlər, sətr cəmina bölünərək matris normallaşdırma edilir.
- Müşahidə Funksiyası : $O\ (o \backslash s', a_t), o = (\ \Omega_{t+2}\ ,\ d_{t+1}\ ,\ l_t\ ),\ s' = (\lambda_{t+2},\ d_{t+1},\ l_t\ )\ t = 0,1,...,T$ kimi ifadə edilir.

  Müşahidə funksiyasını yaradarken diqqətə alınması gərəkən hallar;

- Yeni keçilən *s'* vəziyyətindəki mövcud dövr vəzifələri $d_{t+1}$və əvvəlcədən verilən vəzifələr $l_t$ tam olaraq müşahidə oluna bilən olduğundan, bu vəziyyətdə əldə ediləcək olan o müşahidənində, mövcud dövr vəzifəsi $d_{t+1}$və öncədən verilən vəzifələr $l_t$ mütləq bu *s'* vəziyyətinin sahib olduğu dəyərlərlə eyni olmalıdır. Bunun xaricindəki müşahidələrin əldə edilmə ehtimalı 0-dır.
- PUA-nın tələbinə ümumiyyətlə yüksək olduğu və əvvəlcədən verilmiş olan vəzifələrin PUA ilə paylaşdığı qəbul edilmişdir. Bu səbəbdən, yeni keçiləcək olan *s'* vəziyyətindən hesablanacaq vəzifələr $l_t$ yüksək isə, orta vəzifə $\lambda_{t+1}$'in böyük olduğunu düşünmə ehtimalı artıq olacaqdır. Yəni, böyük $\Omega_{t+1}$ əhatə edən müşahidəni əldə etmə ehtimalı daha artıq olacaqdır. Eyni şəkildə, yeni keçiləcək olan *s'* vəziyyətindən hesablanacaq öncədən verilən vəzifələr $l_t$ kiçik isə, orta vəzifələr $\lambda_{t+1}$'in kiçik olduğunu düşünmə ehtimalı yenə artıq olacaqdır. Yəni, balaca $\Omega_{t+1}$ əhadə edən müşahidəni əldə etmə ehtimalı daha artıq olacaqdır. Bunun xaricindəki vəziyyətlərə keçid ehtimalları isə daha azdır.

## Nəticə və Təkliflər

Bu araşdırmada, PUA-lar istifadə edərək böyük əraziyə sahib olan şirkətlərdə təhlükəsizlik problemləri ələ alınaraq, PUA-ların özlərinə verilən vəzifələri sabit olmayan və qismi olaraq müşahidə oluna bilən olduğu bir Dec-POMDP modeli qurulmuş və detalları göstərilmişdir.

POMDP və digər ardıcıl qərar vermə modelləri, hərəkətlərin uzun dönəmli təsirlərini göz önünə aldıqları üçün gələcəkdə PUA'ların sənayedəki tətbiqlərində çox böyük faydalar təmin edəcəklərdir.

Ardıcıl qərar vermə modellərinin ən böyük çatışmazlığı, qarmaşıqlığı çox sürətli bir şəkildə artmasıdır. DEC-POMDP, POMDP"yə görə, POMDP də MDP"yə görə daha artıq qarmaşıqlığa sahibdir. Çünkü qeyri-müəyyənlik ve qərar verici sayılarının artması əməliyyat xaosunu artırmaqdadır.

Bu modeldə PUA-lara verilən vəzifələr hər zaman fərqlilik göstərə bilər. Bu fərqlilik müşahidə etdiyi yeni vəziyyətin təsbit edildiyi zaman digər vəzifələrin davam edib etməyəcəyinə, daha əvvəlcedən verilmiş meyarlara görə PUA-nın qərar vermə sistemi qərarlar verəcəkdir. Əgər təhlükəsizlik sistemində bəzı meyarlarda PUA-nın qərar verici sisteminin qərar verməməsi istənirsə, bu öncədən müəyyənləşdirilməli və bu qərarı verəcək olan sistem vəya şəxsə müşahidə edilən yeni vəziyyətlər bildirilməlidir.

Sadəcə bir PUA-nın şirkətlərdəki təhlükəsizlik səviyyəsini artırmaq üçün, vəziyyət və müşahidə sabit isə MDP algoritması ilə, vəziyyət və müşahidələr dəqiq deyil ve qismən

müşahidə edilə bilən bir zamanda POMDP alqoritm ilə, birdən çox PUA və vəziyyət və müşahidələr dəqiq deyil və qismən müşahidə edilə bilən bir zamanda isə Dec-POMDP alqoritmi istifadə edilməkdədir.

Burada təklif edilən modelin səmərəli olduğu, təhlükəsizliyi daha da inkişaf etdiyi və gözlənilən qazancları təmin etdiyi görülməkdədir.

## ƏDƏBİYYAT

1. C. Amato, G. Konidaris, A. Anders, G. Cruz, J. How, and L. Kaelbling, "Policy search for multi-robot coordination under uncertainty," in Robotics: Science and Systems XI (RSS), 2015. [Online]. Available: http://lis.csail.mit.edu/pubs/amato- konidaris- rss15.pdf
2. C. Amato, G. D. Konidaris, G. Cruz, C. A. Maynor, J. P. How, and L. P. Kaelbling, "Planning for decentralized control of multiple robots under uncertainty," in IEEE International Conference on Robotics and Automation (ICRA), 2015.
3. C.Amato,G.D.Konidaris,andL.P.Kaelbling.,"Planning with macro actions in decentralized POMDPs," in International Conference on Autonomous Agents and Multiagent Systems, 2014.
4. Agha Mohammadi, S. Chakravorty, and N. Amato, "FIRM: Sampling-based feedback motion planning under motion uncertainty and imperfect measurements," International Journal of Robotics Research (IJRR), vol. 33, no. 2, pp. 268–304, 2014.
5. Abdullayev T.S, Ələkbərov R.B, Kılıç K.S, "Korporativ informasiya sistemlərində qeyri-səlis sorğuların emalı", Journals of Qafqaz University, Mathematics and Computer Science 34, Qafqaz Universiteti, 2012
6. Mazurowski, M. and J. Zurada, "Solving decentralized multi-agent control problems with genetic algorithms", IEEE Congress on Evolutionary Computation, pp. 1029–1034, 2007.
7. LaValle, S., Planning Algorithms, Cambridge University Press, 2006.
8. Lopez, E., R. Barea, L. Bergasa and M. Escudero, "Visually augmented POMDP for indoor robot navigation", 21th IASTED International Multi-Conference on AppliedInformatics, 2003.
9. Spaan, M. T. J. and N. Vlassis, "A point-based POMDP algorithm for robot planning", Proceedings of the IEEE International Conference on Robotics and Automation, pp. 2399–2404, 2004.
10. Nair, R., D. Pynadath, M. Yokoo, M. Tambe and S. Marsella, "Taming Decentralized POMDPs: Towards Efficient Policy Computation for Multiagent Settings", Eighteenth International Joint Conference on Artificial Intelligence (IJCAI-03), 2003.
11. Bernstein, D., S. Zilberstein and N. Immerman, "The Complexity of DecentralizedControl of Markov Decision Processes", Sixteenth Conference on Uncertainty in Artificial Intelligence (UAI), 2000.
12. Oliehoek, F., S. Whiteson andM. Spaan, "Lossles Clustering of Histories in Decentralized POMDPs", Proceedings of the 8th International Joint Conference on Autonomous Agents and Multi-Agent Systems, pp. 577–584, 2009.
13. Aras, R. and A. Dutech, "An investigation into mathematical programming for finitehorizon decentralized POMDPs", J. Artif. Int. Res., Vol. 37, pp. 329–396, 2010.
14. Nadir Hajiyev, Umit ilhan, "Using Partially Observable Markov Decision Process for Indoor Planning and Navigation in Robotics", IV International Scientific Conference of Young Researchers(YRIC) 2014.
15. Boularias, A. and B. Chaib-draa, "Exact dynamic programming for decentralized POMDPs with lossless policy compression", In Int. Conf. on Automated Planning and Scheduling, 2008.
16. Seuken, S. and S. Zilberstein, "Improved Memory Bounded Dynamic Programming for Decentralized POMDPs", Twenty-Third Conference on Uncertainty in Artificial Intelligences(UAI-07), Vancouver, BC, Canada, 2007.
17. Optimizing Fixed-size Stochastic Controllers for POMDPs and Decentralized POMDPs. Christopher Amato, Daniel S. Bernstein and Shlomo Zilberstein. Journal of Autonomous Agents and Multi-Agent Systems (JAAMAS) 2009.

## DEC--POMDP ALGORITHM APPLIED UAV MODEL TO INCREASE SECURITY LEVEL IN COMPANIES


### SUMMARY



**Umit B. ILHAN, Kenan S. KILIC**



Sustaining security level in companies in a high level has always been one of the most significant puposes of companies. In order to increase security level various information systems methods are being applied. Unmanned aerial vehicles have spreaded at a great rate in the world recently and they are applied in diverse areas. Being controlled by an autonomic way UAVs are able to fulfil any function. However, Markov decision processes are one of the applying algorithms in decision-making processes.

In this article the model has been offered that enables to use UAVs to support information systems and to increase security level. The most significant feature of UAVs which are used here is that they can carry out the given functions by transfering information directly to one another. To fulfil the given functions in the most accurate way decentralized partially observable Markov decision process (DEC--POMDP) has been used. Finally, the details concerning the model have been explained and offers have been presented.


## МОДЕЛЬ PUA ПРИМЕНЁННАЯ АЛГОРИТМОМ DECPOMDP ДЛЯ УЛУЧШЕНИЯ УРОВНЯ БЕЗОПАСНОСТИ В КОМПАНИЯХ


### РЕЗЮМЕ



**Умит** Б.**ИЛЬХАН, Кенан С. КЫЛЫЧ**



Удерживание уровня безопасности на высоком уровне всегда было самой важной работой.Для улучшения уровня безопасности применяются различные методы информационных систем.Широко распространённые в последнее время беспилотные аппараты применяются в различных областях. PUA выполняет любые различные обязанности которые управляются автономно.Дающее решение процессов Марков выражает значение проблем требующие решения при помощи алгоритма.

В этой статье, предлагается модель PUA для улучшения уровня безопасности и поддержания используемых информационных систем. Используемая здесь самая важная особенность PUA то,что посылая непосредственно друг другу информацию может выполнять имеющиеся обязанности.Для выполнения в правильной форме обязанностей использовался Объединённое Частично наблюдаемое процессы Марков принимающие решения(DEC-POMDP). В конце были даны предложения и объяснены детали моделя.

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2016 - № 44**

# TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ TƏHSİL NAZİRLİYİ VƏ LİSEYLƏRİN İDARƏ EDİLMƏ SİYASƏTİ

**M.O.Kadifeci**
Təhsil Problemləri İnstitutu
Bakı, Z.Əliyeva prospekti 96
e-mail: kadifecimurat@yahoo.com

***Açar sözlər:*** Türkiyə Respublikası, Milli Təhsil Nazirliyi (MEB), orta təhsil müəssisələri, liseylər, distant təhsil, təhsil proqramları, təhsil xidmətləri, idarəetmə

***Keywords:*** The Republic of Turkey, The Ministry of National Education, secondary schools, lyceums, distant education, education programs, education services, management

***Ключевые слова:*** Турецкая Республика, Министерство Национального Образования, средние учебные заведения, лицеи, дистанционное обучение, программы обучения, образовательные услуги, управление

Təhsil Nazirliyi təhsil sahəsində fəaliyyət göstərən dövlət qurumudur. Təhsil sisteminin idarə olunması onun ciddi nəzarəti altında həyata keçirilir və tənzimlənir. Nazirlik təhsilin keyfiyyətinə dövlət nəzarətini təmin edir. Bu ali qurum nəinki tədris proqramlarının tərtibinə, orta və ali təhsil müəssisələrinin əlaqələndirilməsinə cavabdehdir, o həm də məktəb tikintisinə, dərslik və digər tədris materiallarının, metodikanın hazırlanmasına görə məsuliyyət daşıyır.

Türkiyədə təhsil və təlim xidmətlərinin dövlətin vasitəsilə həyata keçirilməsi fikri ilk dəfə II Mahmudun (1808-1839) hakimiyyəti dövründə gündəmə gəlmişdir. Bu dövrə qədər vəqflər vasitəsilə həyata keçirilən təhsil və təlim xidmətləri 1857-ci il martın 17-də Maarifi-Ümumiyyə Nəzarətinin öhdəsinə verilmişdir. Qeyd etmək lazımdır ki, Osmanlı dövlətində II Mahmut dövrünə qədər təhsil işlərindən xəbərdar olan yüksək vəzifəli bir şəxs yox idi və dövlət buna çox əhəmiyyət vermirdi. Bu dövrdə Heyəti-Vükəla, yəni Nazirlər Kabinetinin qurulmasıyla Vəqflər Nazirliyi təhsil işlərinə cavabdeh oldu. Nəhayət, Tənzimat dövründə 1857-ci ilin iyulunda Türkiyənin ilk Maarif Nazirliyi quruldu və onun başına ilk Maarif Naziri kimi Əbdürrəhman Sami Paşa gətirildi. Nazirliyin nəzarəti ilə ibtidai və orta təhsil verən məktəblər sibyan, rüşdiyyə və məktəbi-fünunu olaraq üç dərəcəyə bölündülər.

1868-ci ildə İstanbulda açılan Qalatasaray liseyi ilk ota təhsil müəssisəsi idi.

1869-cu ilin iyulunda isə o zamanki Maarif Nazırı Mahmud Əsəd Saffet Paşa tərəfindən bir təhsil nizamnaməsi hazırlandı ki, həmin sənəd vasitəsilə də Türk təhsil sistemində köklü dəyişiklik başlandı. Türkiyə mədrəsə sistemindən uzaqlaşaraq, Rüşdiyyə məktəblərindən sonra müasir təhsil verəcək İdadi məktəblərini qurdu.

Böyük Təhsil Məclisi və yerli Maarif Məclisləri mərkəzdə və yerlərdə elmi və inzibati işləri həyata keçirirdilər. 1872-ci ildə Böyük Təhsil Məclisi vahid rəhbəredici orqan halına gətirildi. Artıq Sibyan məktəbləri (ibtidai məktəblər), Rüşdiyyə məktəbləri (orta təhsil verən məktəblər), Ali məktəblər (ali təhsil verən müəssisələr), o cümlədən dərsliklərin tərcüməsi və çapı ilə məşğul olan mətbəələr onun nəzarəti altında keçirildi.

II Məşrutiyyət dövrünün sonunda - 1918-ci ildə Maarif Nazirliyinə aşağıdakı şöbələr daxil idi: İbtidai təhsil şöbəsi (Tədrisat-i İptidaiyyə), Orta təhsil şöbəsi (Tədrisat-i Tali-

yə), Ali təhsil şöbəsi (Tədrisat-i Aliyə), Xüsusi məktəblər şöbəsi (Özəl məktəblər), Yazı İşləri şöbəsi (Təhrirat şöbəsi), Mühasibatlıq şöbəsi, Şəxsi işlər şöbəsi (Kadrlarla iş), Statistika şöbəsi, Ləvazimat şöbəsi (Dərs ləvazimatları) və Sənədlərin qəbulu şöbəsi.

Nazirliyin bu formada yenidən təşkilini isə həyatın özü diktə edirdi. “Gənc türklər” inqilabından (1866) sonra Türkiyədə maarif sahəsində xeyli irəliləyiş olmuşdu. Əsrin ilk ilində ölkədə 28615 ibtidai məktəb vardısa, 1910-cu ildə onların sayı 36230-a çatmışdı. 1900-cu ildə İstanbul universitetində yeni fakültələr təşkil edilmişdi. 1913-cü ildə ibtidai məktəblərdə tədrisin keyfiyyətini yüksəltmək üçün yeni qanun həyata keçirildi.”[1]

Türkiyə Qurtuluş Savaşı illərində (1919-1923) İstanbulda Osmanlı hökumətinin Maarif Nəzarəti, Ankarada isə Türkiyə Böyük Millət Məclisinin (TBBM) Maarif Vəkaləti kimi iki təhsil nazirliyi fəaliyyət göstərməkdə idi.

1923-cü ildə Türkiyə Respublika elan olunduqdan sonra ölkənin bütün tədris müəssisələri dövlətin nəzarəti altına keçdi. Həmin ilin iyulunda İstanbulda olan Maarif Nazirliyi ləğv olundu. Ankaradakı Maarif Vəkaləti təşkilatına İbtidai təhsilə rəhbərlik şöbəsi, Orta təhsilə rəhbərlik şöbəsi, Mədəniyyət şöbəsi, Şəxsi işlər şöbəsi (Kadrlarla iş) və Statistika şöbələrinə isə Məsləhət, Ali təhsil, Müəlliflik və tərcümə, Sənədlərin qəbulu şöbələri və Təftiş heyəti də əlavə edildi. Şəhər təhsil şöbəsi də bu nazirliyin nəzdində fəaliyyətə başladı.

Türkiyə Respublikasının Milli Təhsil Nazirliyi 1923-1935-ci illərdə “Maarif Vəkaləti”, 1935-1941-ci illər arasında “Mədəniyyət Nazirliyi”, 1941-1946-cı illərdə “Maarif Vəkilliyi”, 1946-1950-ci illərdə “Millî Təhsil Nazirliyi”, 1950-1960-cı illərdə “Maarif Vəkaləti”, 1960-1983-cü illərdə “Milli Təhsil Nazirliyi”, 1983-1989-cu illərdə isə “Milli Təhsil, Gənclik və İdman Nazirliyi”[2] adları altında fəaliyyət göstərmişdir. 1989-cu ildən isə günümüzə qədər də Milli Təhsil Nazirliyi adı ilə çalışmaqdadır.

Hazırda Milli Eğitim Bakanlığı (MEB) adı ilə fəaliyyət göstərən Türkiyə Respublikasının Təhsil Nazirliyi dövlətin təhsil sahəsindəki siyasətini yönləndirir və onu xalqın rifahına uyğun şəkildə həyata keçirir.

MEB Konstitusiyada verilən Atatürk ideyalarının və Atatürkçülüklə bağlı öz əksini tapan fikirləri, Türk millətinin milli, əxlaqi, mənəvi, tarixi və mədəni dəyərlərini mənimsəyən, qoruyan və inkişaf etdirən, ailəsini, millətini və vətənini sevən və onu daima ucaltmağa çalışan, insan haqlarına və Konstitusiyada demokratik əsaslara dayanan və sosial bir hüquq dövləti olan Türkiyə Cümhuriyyətinə qarşı vəzifə və məsuliyyətlərini başa düşən və bunları öz davranış və həyat tərzlərində üzə çıxara bilən vətəndaşlar yetişdirmək məqsədilə təhsil qurumlarının müəllim və şagirdlərə aid bütün xidmətlərini planlaşdırır, proqramlaşdırır, həyata keçirir və nəzarət altında saxlayır.

MEB məktəbəqədər, ibtidai, orta, ali, dövlət, özəl təhsil müəssisələrinin ölkədə və xaricdə açılmasına icazə verir.

O, Türkiyə vətəndaşlarının xarici ölkələrdə həyata keciriləcək təhsili və təlimi ilə bağlı xidmətləri müəyyənləşdirir və sistemli şəkildə həyata keçirir, Türkiyə Silahlı Qüvvələri üçün orta təhsilli mütəxəssis hazırlayan məktəblərin (hərbi liseylərin) təhsil işləri ilə bağlı işləri həmin qurumla birlikdə işləyir.

Nazirlik dövlətin ali təhsil sahəsindəki siyasətini həyata keçirmək məqsədilə Ali təhsil haqqında qanunla bu ali orqan ona verilmiş tapşırıq və vəzifələrə görə məsuliyyət

[1] Əhmədov R. Türk xalqlarının tarixi (XIII-XX əsrin əvvəlləri). Sumqayıt: Sumqayıt Dövlət Universiteti, 2013, s.281 (294 s.)

[2] Milli Eğitim Bakanlığı 2015 – 2019 Stratejik Planı. Ankara, 2015, s.28 (112 s.)

daşıyır və onları yerinə yetirir. Məktəblərdəki bədən tərbiyəsi və idman təhsili ilə əlaqədar işləri həyata keçirir. Təhsil sisteminin müasir tələblərə uyğun təşkilati-iqtisadi modelini yaradır, onu müntəzəm inkişaf etdirir.

Türkiyə Təhsil Nazirliyi hazırladığı qanunlar və sənədlər vasitəsilə ümumtəhsil məktəbləri sırasına daxil olan liseylərin fəaliyyət növlərini və istiqamətlərini müəyyən edir. Məsələn, 2005-ci ildə hazırladığı "Distant təhsil liseyinin idarə olunması haqqında" Qanunda ("Milli Eğitim Bakanlığı Açık Öğretim Lisesi Yönetmeliği") nazirlik Distant təhsil liseyinin quruluşu, təlim-tədris, idarəolunma və iş fəaliyyəti ilə əlaqəli üsul və əsasları təyin edir. Bu qanunun 2-ci maddəsində göstərilir ki, "liseyin məqsədi geniş kütləvi informasiya vasitələri və yeni texnologiyalardan istifadə edərək ibtidai təhsili tamamlayan, ancaq orta təhsilə davam etməyənlər ilə orta təhsili bitirən, ali təhsildən ayrılan və ya məzun olanlara fərqli sahələrdə təhsilalma fürsəti verərək təhsil imkanını təmin etmək, orta təhsil səviyyəsindən istifadə etməklə mədəniyyət səviyyənin yüksəldilməsinə və gücləndirilməsini təmin etmək, şagirdləri həyata və yüksək təhsilə hazırlamaqdır."[3] Distant təhsil ənənəvi təhsil tərzindən fərqli olaraq, təhsil müəssisəsinə gəlmə zəruriliyini olmadığı, dərslərin kompüter vasitəsilə tamamilə virtual mühitdə, canlı və interaktiv olaraq keçirildiyi, iştirakçının istədiyi zaman bunları təkrar-təkrar izləyən təhsilin adıdır. Bu tədris informasiyalarının kitablar, disklər, audio-video kasetlər kimi daşıyıcıları vardır. Distant təhsildə tədris metodik kompleksdən, kompüter, televizor, audio-video maqnitofon, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olunur.

2001-ci ildə MEB "Milli Təhsil Nazirliyinin çoxproqramlı lisey direktivi"ni (Milli Eğitim Bakanlığı çok proqramlı lise yönergesi") qəbul etdi. Bu sənədlə Milli Təhsil Nazirliyi çox proqramlı liseyləri açılışını, onlara rəhbərliyi, idarə olunması və fəaliyyəti ilə əlaqədar işlərin tənzimlənməsini həyata keçirməyə başladı.

Bu sənədin göstərişlərinə əsasən bir sıra istiqamətlərə üstünlük verilirdi:

a) Milli Təhsil haqqında Qanunla inkişaf planları, hökumət proqramları və şura qərarlarında iştirak edən hədəflər, qanunlar və siyasətlər istiqamətində insan qüvvəsinin, təhsil və məşğulluq əlaqələrinin sağlam, nizamlı və dinamik bir şəkildə qovuşdurulması;

b) Hər bir fərdə maraq, istək və qabiliyyətləri istiqamətində bilik və bacarıqlar qazandıraraq çalışqanlıq vərdişlərinin inkişaf etdirilməsi, onların həyata və yüksək təhsilə hazırlanmalarının təmin edilməsi;

c) Dövrün tələbinə uyğun iş və xidmət sahələrində ehtiyac duyulan insan qüvvəsindən istifadənin və davamlı təhsil yolu ilə peşə təhsilinin inkişaf etdirilməsinin dəstəklənməsi;

d) Ümumi və xüsusi sektor nümayəndələri ilə işə götürülənlərin peşə və texniki təhsil sahəsində iş birliyinin təmin edilməsi...[4]

Çoxproqramlı liseylərdə aşağıdakı təhsil proqramlarından istifadə olunmaqdadır:

1) Ali təhsilə hazırlayan proqramlar;
2) Həm peşəyə, həm də ali təhsilə hazırlayan proqramlar;
3) Həyata və iş sahələrinə hazırlayan proqramlar.

Bu direktiv sənəddən də göründüyü kimi, çoxproqramlı liseylərdə təlim-tərbiyə prosesi müəllim-şagird münasibətlərinin demokratikləşdirilməsi və humanistləşdirilməsi prinsipləri əsasında qurulur. Çoxproqramlı liseylər dövlət və ictimai özünüidarə prinsipləri

[3] Milli Eğitim Bakanlığı Açık Öğretim Lisesi Yönetmeliği. Madde 2.-mevzuat.meb.gov.tr
[4] Millî Eğitim Bakanlığı Çok Programlı Lise Yönergesi. Maddə 5.- mevzuat.meb.gov.tr

əsasında idarə edilir və onun fəaliyyəti Milli Təhsil Qanunu, o cümlədən Türkiyə Milli Təhsil Nazirliyinin müvafiq qanunvericilik aktları, əsasnamələr, nizamnamələr digər normativ sənədlərlə tənzim olunur. “Təlim-tərbiyə prosesinin idarə edilməsini liseyinin gündəlik fəaliyyətini müdir həyata keçirir. Bu işdə ona proqramların növlərinə uyğun olaraq tədris hissə müdirləri və emalatxana, laboratoriya müdirləri kömək edir.”[5]

2013-cü ildə qəbul olunan “Milli Təhsil Nazirliyi orta təhsil müəsssələrinin idarə olunması” (Milli Eğitim Bakanlığı Ortaöğretim kurumları yönetmeliği”) Qanunun məqsədi isə Milli Təhsil Nazirliyinə bağlı dövlət və özəl orta təhsil müəssisələrində təhsil və təlim, idarəetmə və fəaliyyət istiqamətləri ilə əlaqəli qaydaları tənzimləməkdir. Qanundan aydın olur ki, “orta təhsil müəssisələri öz işlərini Türk milli təhsilinin əsas prinsipləri istiqamətində, beynəlxalq hüquqa, demokratiya və insan haqlarına uyğun şəkildə fəal tədris və şagird mərkəzləri kimi qururlar.”[6]

Orta təhsil, o cümlədən imam-xətib məktəbləri dörd il müddətində dərs verən təlim-tərbiyə ocaqlarıdır. Aztəminatlı, zəruri sosial-məişət şəraiti olmayan ailələrdən qəbul edilmiş, yetim və valideyn himayəsindən məhrum, sağlamlığının bərpasına ehtiyacı olan, o cümlədən uzaq şəhər və vilayətlərdən gələn uşaq və yeniyetmələr bu məktəblərdən internat tipli təhsil ala bilərlər. İnternat tipli təhsil zamanı təlim-tərbiyə prosesinin təşkili müasir elmi-pedaqoji, metodiki nailiyyətlərə əsaslanır, daim təkmilləşdirilir və şagirdlərin möhkəm bilik zəminində təhsil almasına xidmət edir.

“Milli Təhsil Nazirliyi orta təhsil müəsssələrinin idarə olunması” (2013) Qanunu Türkiyədə mövcud olan orta ümumtəhsil məktəblərinin fənn liseyləri, sosial elmlər liseyləri, Anadolu liseyləri, Anadolu müəllim liseyləri, incəsənət liseyləri, Anadolu imam-xətib liseyləri və imam-xətib liseyləri, peşə liseyləri, texniki liseylər, Anadolu peşə liseyləri kimi bir çox mövcud növləri haqqında məlumat verir.

Türkiyə Respublikasının Təhsil Nazirliyi (MEB) təhsil sahəsində dövlət tənzimlənməsini həyata keçirmək, təhsilin keyfiyyətinə dövlət nəzarətini təmin etmək, təhsil sisteminin idarə olunmasında səlahiyyətlərin bölüşdürülməsi, idarəetmənin demokratikləşdirilməsi mexanizminin yaradılması istiqamətində bir sıra yeni strateji planların, normativ-texniki sənədlərin işləyib hazırlayır.

Bunların sırasında şəffaflıq, bərabərlik, demokratiya, humanizm prinsiplərinə dayanaraq təhsil sistemində dövlət xidmətlərinin yüksəldilməsi, lazımi mənbələrdən səmərəli bir şəkildə istifadə edilməsi məqsədilə hazırlanan sənədlərin sırasında 2015-2019-cu illər üçün nəzərdə tutulmuş Strateji Plan da vardır. 2009-cu ildə hazırlanmış “2010-2014-cü illər Strateji Planı”ndan sonra 2014-cü ildə “2015-2019-cu illər Strateji Plan” təhsil müəssisələrinə təqdim olunmuşdur.

Bu sənəddə mövzular 3 əsas “Təhsil və təlimə giriş”, “Təhsil və təlimdə keyfiyyət” və “Korporativ idarəetmə” bölmələri daxilində toplanmışlar. Beş il üçün nəzərdə tutulmuş strateji məqsədlər və hədəflər müəyyənləşdirilmişdir. “Təhsil və təlim”, “Elmi, mədəni, incəsənət və idman fəaliyyələri”, “Nəticələrin ölçülməsi və qiymətləndirilməsi”, “Araşdırma, inkişaf etdirmə, layihələndirmə və protokollaşdırma”, “Ölkələrarası əlaqələr” və “Fiziki və texnoloji infrastruktur” kimi fəaliyyət sahələri ilə yanaşı təhsil sisteminin idarə edilməsi ilə bağlı iki bölmədə vardır. “İnsan resurslarının idarə edilməsi” bölməsinə dövlət və özəl təhsil müəssisələrinə müəllim peşəsinin uyğunluğunun müəyyən edilməsi, işçilərin peşə fəaliyyətinin inkişafının istiqamətləndirilməsi, işə götürmə, təyinetmə, təltif-

[5] Millî Eğitim Bakanlığı Çok Programlı Lise Yönergesi. Maddə 17. - mevzuat.meb.gov.tr
[6] Ortaöğretim Kurumları Yönetmeliği. Maddə 6. - Resmi Gazete www.resmigazete.gov.tr

etmə, vəzifədə irəliləmə kimi əməliyyatların aparılması daxildir.

"Rəhbərlik və təftiş" bölməsinə isə təhsil və təlimə yönəlmiş siyasətlərin müəyyən olunması və tətbiq olunması, Nazirliyin fəaliyyət istiqamətlərinə yönəldilmiş qanunvericiliyin hazırlanması, Avropa Birliyi təhsil və tədris sisteminə uyğun olan işlərin aparılması, milli plan və proqramlarla nazirliyə verilən tapşırıqların icrası, statistik göstəricilərin toplanması, təhlili və nəşr olunması, strateji plan və fəaliyyət programının hazırlanması, tətbiqi, dəyərləndirilməsi, fəaliyyət hesabatının hazırlanması, investisiya proqramlarının hazırlanması və monitorinqi, rəhbərlik, təftiş, yoxlama, işlədiləcək yataqxana, pansionat və buna bənzər digər təlim-tərbiyə müəssisələrinin açılması, nəqli və bağlanmasıyla əlaqədar əsasların müəyyən edilməsi və s. kimi istiqamətlər daxildir.

Hal-hazırda Türkiyə Respublikasının Milli Təhsil Nazirliyinin fəaliyyəti "Milli Təhsil Nazirliyinin təşkili və funksiyaları haqqında" 3797 saylı Qanunundan irəli gələn norma və qaydalarına uyğun olaraq təzimlənir. Türkiyə vətəndaşları bu qurum vasitəsilə təhsilin bütün səviyyələrində kömək əldə edir, onların təlim-təhsil sahəsində ehtiyac və tələblərini ödəyir. Məhz bu maarif təşkilatının idarəetmə bacarığı Türkiyə Respublikasında təhsil-təlim, tərbiyə işləri inkişaf edir və dünyanın ən qabaqcıl təhsil standartlarının ölkənin ibtidai, orta və ali məktəblərində tətbiqi mümkün olur.

## Ədəbiyyat

1. Akyüz Y. Türk Eğitim Tarihi (m.ö.1000-m.s.2010). Ankara: Pegem Akademi, 2010, 529 s.
2. Baharlı M. Dünya təhsil sistemi: dünən, bugün, sabah. Bakı: Azərbaycan, 2002, 144 s.
3. Çelik V. Türk eğitim sistemi ve okul yönetimi. Ankara: Pegem Akademi, 2009, 221 s.
4. Əhmədov R. Türk xalqlarının tarixi (XIII-XX əsrin əvvəlləri). Sumqayıt: Sumqayıt Dövlət Universiteti, 2013, 294 s.
5. Milli Eğitim Bakanlığı 2015-2019 Stratejik Planı. Ankara, 2015, 112 s.
6. Ortaöğretim Kurumları Yönetmeliği. Maddə 6. -Resmi Gazete www.resmigazete.gov.tr/
7. Millî Eğitim Bakanlığı Çok Programlı Lise Yönergesi. Maddə 5. - mevzuat.meb.gov.tr
8. Millî Eğitim Bakanlığı Çok Programlı Lise Yönergesi. Maddə 17. - mevzuat.meb.gov.tr
9. Milli Eğitim Bakanlığı Açık Öğretim Lisesi Yönetmeliği. Madde 2.-mevzuat.meb.gov.tr

## THE MINISTRY OF NATIONAL EDUCATION OF THE REPUBLIC OF TURKEY AND THE POLICY ON MANAGEMENT OF LYCEUMS

**M.O.Kadifeci**

## SUMMARY

The Ministry of National Education of the Republic of Turkey plays an important role in the education policy of this country. The Ministry defines rules and regulations for all kinds of public schools and private lyceums dealing with the secondary education. The priority of the Ministry is to contribute to the nation's prosperity.

# МИНИСТЕРСТВО НАЦИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ ТУРЕЦКОЙ РЕСПУБЛИКИ И ПОЛИТИКА УПРАВЛЕНИЯ ЛИЦЕЯМИ

**М.О.Кадифеджи**

## РЕЗЮМЕ

В сфере управления образованием в Турции важная роль принадлежит Министерству национального образования страны. Эта организация отвечает за планирование, руководство, наблюдение и контроль за всеми образовательными учреждениями, в том числе и лицеями всех уровней. Приоритетная цель Министерства заключается в содействии процветанию страны.

2016 - № 44

# KOSMİK MƏKANDA APARILAN MƏDƏN İŞLƏRİNİN BEYNƏLXALQ-HÜQUQİ ASPEKTLƏRİ

**Zafiq Xəlilov**
Milli Aviasiya Akademiyası
e-mail: zafiq@mail.ru

***Açar sözlər:*** kosmik sənaye; kosmik məkan; beynəlxalq kosmos hüququ; mədən işləri; səma cisimləri; "Kosmos haqqında" beynəlxalq saziş; ABŞ; "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanun.

***Keywords:*** space industry; outer space; international space law; mining activities; celestial bodies; "The Outer Space İnternational Treaty"; USA; "Commercial Space Launch Competitiveness Act".

***Ключевые слова:*** космическая индустрия; космическое пространство; международное космическое право; промыслово-добывающая деятельность; небесные тела; международный договор "О космосе"; США; "Акт конкурентоспособности космического права".

*Bu məqalə kosmik məkanda mədən işlərinin aparılmasını müəyyən edən ABŞ-ın yeni normativ-hüquqi aktının beynəlxalq hüquqa uyğun olmaması məsələlərinin təhlilinə həsr olunmuşdur. Məqalədə kosmos hüququ çərçivəsində mədən işlərinin terminoloji təsbiti nəzərdən keçirilmiş və bu fəaliyyəti özündə birləşdirən ABŞ-ın "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanununun tətbiqi perspektivləri şərh edilmişdir. Eyni zamanda məqalədə ABŞ-ın "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanunu ilə "Kosmos haqqında" beynəlxalq saziş arasında mövcud olan ziddiyyətlər təhlil edilərək mövcud boşluqlar açıqlanmışdır. Bununla yanaşı, "Kosmos haqqında" beynəlxalq sazişin 2-ci, 6-cı və 9-cu maddələrinin ABŞ-ın yeni qanunu üzərində üstün hüquqi qüvvəyə malik olması dolğun şəkildə əsaslandırılmışdır. Məqalədə aparılan elmi təhlil nəticəsində müəyyən olunur ki, müasir dövrdə ABŞ-da qəbul edilən və Lüksemburqda formalaşdırılan müvafiq qanunvericilik aktları "Kosmos haqqında" beynəlxalq sazişin tələblərini pozaraq və kosmik məkan üçün ekoloji təhlükə yaradaraq biznes xarakterli və qeyri-hüquqi yanaşma ortaya qoymuşdur. Bu qanunun qəbul edilməsi ilə ABŞ-ın "Komos haqqında" beynəlxalq saziş üzrə müəyyən edilən vəzifə və öhdəliklərinə əməl etməməsi ortaya çıxır. Məqalənin nəticə hissəsində ABŞ-da qəbul edilən yeni qanun beynəlxalq hüquq rejiminə tam şəkildə zidd olan birtərəfli normativ-hüquqi akt kimi xarakterizə olunur.*

29 yanvar 2016-cı il tarixdə ölkə gənclərinin bir qrupu ilə görüşən Prezident İlham Əliyev vurğuladı ki: "Azərbaycan indi kosmik dövlətə çevrilibdir. Azərbaycanda elmin inkişafına, yeni texnologiyaların, İKT-nin, kosmik sənayenin inkişafına böyük diqqət verilir". [1] Təbii ki, möhtərəm Prezident İlham Əliyevin bu fikrini rəhbər tutaraq elmi ictimaiyyət də, öz növbəsində kosmik sənayenin elmi təminatını gücləndirərək bu sahənin müasir inkişaf tendensiyalarını elmi-tədqiqatlara cəlb etməlidir. Müasir dövrdə kosmik sənaye dedikdə təkcə kosmosu fəth etmək vasitəsi nəzərdə tutulmur, həm də, bu sahənin elmi-texniki araşdırılma məsələləri əsas götürülür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, daima çıxışları zamanı irəli sürdüyü elmi prioritet kimi kosmos sahəsinin elmi-texniki araşdırmalarına xüsusi diqqət verilməsi ölkəmizdə bununla bağlı məsələləri daha da aktuallaşdırıb. Prezident İlham Əliyev həm gənclərlə, həm də, elm xadimləri ilə görüşləri zamanı Azərbaycan elminin qarşısında kosmik sahənin fundamental araşdırılması, kosmik sənayenin inkişaf prosesində elmin yaxından iştirakına nail olunması kimi mühüm vəzifələri müəyyənləşdirmişdir. Hazırki dövrdə Azərbaycanda kosmik

sənayenin inkişafı ilə əlaqədar olaraq bu sahədə beynəlxalq elmi təcrübə mənimsənilməli və dərindən öyrənilməlidir. Bu baxımdan da, həm ölkəmizin kosmik sənaye strategiyası əsasında, həm də, bütövlükdə müasir kosmos sahəsinin mühüm və aktual məsələləri əsas götürülməklə hərtərəfli tədqiqatların aparılması vacib istiqamət kimi qəbul edilməlidir. Bu prioritetləri əsas tutan hüquqşünas alimlər də, öz növbəsində beynəlxalq kosmos hüququnun müasir aktual problemləri və inkişaf perspektivləri barəsində geniş elmi araşdırmalara yer verməlidirlər. Bu gün beynəlxalq kosmos hüququnda ən çox araşdırılan və müzakirə predmetinə çevrilən mövzulardan biri də, kosmik məkanda kommersiya fəaliyyətinin hüquqi tənzimlənməsi məsələləridir. 2015-ci ildən etibarən beynəlxalq kosmos hüququnun həllini araşdırdığı ən vacib məsələ isə kosmik məkanda kommersiya mədən işlərinin aparılması perspektivlərinin hüquqi tənzimlənməsində yaranan əsaslı boşluqların aradan qaldırılmasıdır. Əslində kosmik məkanda mədən işlərinin realizə olunması kosmosun və Ayın fəth edilməsi dönəmindən etibarən ideya olaraq mövcud olsa da, bu sadəcə elmi-tədqiqat məqsədli araşdırma kimi praktikada tətbiq olunurdu. Amma 24 noyabr 2015-ci il tarixdə ABŞ prezidenti Barak Obamanın Amerika Birləşmiş Ştatlarının "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanununu imzalaması bu məsələləri yeni müstəvidə gündəmə gətirdi. Bununla da, ABŞ-da ilk dəfə olaraq kosmik məkanda faydalı mineralların əldə edilməsini tənzimləyən qanun təsdiq olundu.

Beləliklə, seçilmiş məqalə mövzusunun aktuallığı, beynəlxalq kosmos hüququnda mədən işlərinin aparılması ilə bağlı hüquqi aspektlərin araşdırılması ilə şərtlənir. Yuxarıda şərh edilənlər sözügedən məqalə mövzusunun aktuallığını müəyyənləşdir-məklə, bu məsələnin tədqiq edilməsini və beynəlxalq hüquqa uyğun olub-olmamasının zəruriliyini şərtləndirmişdir.

Məqalənin məqsədi kosmik məkanda mədən işlərinin aparılmasını müəyyən edən ABŞ-ın yeni normativ-hüquqi aktının beynəlxalq hüquqa uyğun olmadığını əsaslandırmaqdır.

Bu məqsədə nail olmaq üçün aşağıda göstərilən məsələlərin həlli xüsusilə vacibdir:

- Kosmik məkanda mədən işlərinin aparılmasına dair ABŞ-da qəbul edilmiş "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanunun tətbiqi perspektivlərinin şərhi;
- ABŞ-ın "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanunu ilə "Kosmos haqqında" beynəlxalq saziş arasında mövcud olan ziddiyyətlərin təhlil edilməsi;
- Kosmik məkanda mədən işlərinin aparılması ilə bağlı beynəlxalq və milli hüquqi tənzimlənmədə olan (ABŞ nümunəsində) mövcud boşluqların açıqlanması;
- "Kosmos haqqında" beynəlxalq sazişin 2-ci, 6-cı və 9-cu maddələrinin ABŞ-ın yeni qanunu üzərində üstün hüquqi qüvvəyə malik olmasının müəyyən edilməsi.

İlk öncə mədən işləri barəsində bəzi məqamları qeyd etmək daha məqsədəuyğundur. Ümumilikdə mədən işləri dedikdə Yer kürəsində aparılan faydalı mineralların qazıntı prosesi nəzərdə tutulur. Texniki terminoloji lüğətlərdə də, mədən işlərinin anlayışı məhz bu qaydadadır: "Mədən işləri - Yer təkindən faydalı qazıntıların çıxarılması proseslərini əhatə edən elm və texnika sahəsidir". [2] Digər tərəfdən, əksər dünya dövlətlərinin qanunvericiliyində Yerin təkindən faydalı qazıntıların çıxarılması ilə bağlı olan proses dağ-mədən işləri kimi xarakterizə edilir. Onu da, vurğulamalıyıq ki, Azərbaycan Respublikasının bu sahədə olan əsas qanunvericilik aktında da, (13 fevral 1998-ci il tarixli, 439-IQ №-li "Yerin təki haqqında Azərbaycan Respublikasının Qanunu") dağ-mədən işləri müvafiq hüquqi termin kimi təsbit olunmuşdur. [3] Hazırda istənilən dövlətin bu sahədə olan müvafiq qanunverilcilik aktında faydalı qazıntıların çıxarılması ilə əlaqədar görülən kompleks işlərin Yer səthində aparılması açıq şəkildə qeyd edilmişdir.

Amma son illərdə dağ-mədən işlərinin təkcə Yer səthində aparılmadığının şahidi oluruq. İnsanın kosmosu fəth etdiyi gündən etibarən kosmosda müxtəlif növ elmi-tədqiqat işləri aparılmış və kosmik məkanın bütün komponentləri dərindən öyrənilmişdir. Bu gün artıq kosmosda dağ-mədən işlərinin aparılması məsələsi də, olduqca aktual və mühüm mövzulardan birinə çevrilmişdir. Qeyd etməliyik ki, kosmosda aparılan bu prosesin mədən işləri olaraq ifadə edilməsi daha məqsədəmüvafiqdir. 2012-ci ildə hüquqşünas alim Riki Linin müəllifliliyi ilə nəşr olunan "Kosmik məkanda kommersiya mədən işlərinin aparılması hüququ və tənzimlənməsi" adlı monoqrafiyada ilk dəfə olaraq kosmik məkanda mədən işlərinin hüquqi və siyasi məsələləri geniş şəkildə analiz edilmişdir. Son illərdə xüsusən də, ABŞ-da bu cür məsələlər ayrı-ayrı hüquqşünas alimlər tərəfindən müzakirə olunsa da, sözügedən tədqiqat işi kosmik məkanda mədən işlərinə həsr olunmuş ilk monoqrafik əsər hesab olunur. Məhz bu əsərdən də, bizə məlum olur ki, kosmik məkanda faydalı qazıntıların çıxarılması prosesi kosmos hüququnda "mədən işləri" kimi təsbit olunmalıdır. Yəni kosmik məkanda gedən bu proses əksər dünya dövlətlərinin milli qanunvericiliyində Yer səthində aparılan dağ-mədən işləri kimi adlandırılmır. [9] 2014-cü ildə hüquqşünas alim Bari Kelmanın "Kosmik məkanda kommersiya mədən işləri" mövzusunda yazdığı məqalədə də, kosmik məkan kontekstində bu proses "mədən işləri" kimi təsbit olunur. [5] Bu nöqteyi-nəzərdən də, biz beynəlxalq kosmos hüququ ədəbiyyatında artıq bu qaydada müəyyən olunmuş termini azərbaycan dilində də, eyni şəkildə istifadə etməyi daha məqbul hesab edirik. Hüquqşünas alim Riki Li yuxarıda qeyd olunan monoqrafiyasında haqlı olaraq kosmik məkanda mədən işlərinin aparılmasının bilavasitə iqtisadi zərurətdən əmələ gəldiyini izah etməyə çalışır. Sözsüz ki, monoqrafiyanın yazıldığı dövrdə də, müəyyən iqtisadi çətinliklərlə üzləşən ABŞ-da bu sahədə müxtəlif qanunvericilik təşəbbüsləri irəli sürülmüş və müvafiq qanun layihəsi Konqresə təqdim olunmuşdu. Məhz 24 noyabr 2015-ci il tarixdə qəbul edilən "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanun əsasında ABŞ-ın bütün özəl şirkətləri kosmik məkanda apardıqları mədən işləri nəticəsində əldə etdikləri faydalı mineralları özlərində saxlamaq hüququ əldə etdilər. Bu o deməkdir ki, bu ölkədə adıçəkilən qanunun hüquqi qüvvəyə minməsi ilə dövlət özəl şirkətlərdən kosmik məkanda əldə etdikləri resursları toplaya bilməz. Sözügedən qanun rəsmi olaraq Amerika şirkətlərinin kosmosda mədən fəaliyyəti həyata keçirmələrinin önünü açır. Hazırda yeni qəbul edilmiş qanuna əsasən istənilən ABŞ vətəndaşı asteroiddən qopardığı bir hissənin sahibinə çevrilə bilər. Digər tərəfdən burada göstərilən "resurs" sözü qeyri-müəyyən məfhumda olduğu üçün adıçəkilən qanun Ay, digər planetlər və kiçik səma cisimlərinə də, aid edilir. İndiki halda ABŞ-ın bu fəaliyyətlə məşğul olan "Planetary Resources" və "Deep Space İndustries" şirkətlərinin bir qrup vətəndaşları bu resurslara rahat şəkildə sahib ola bilərlər. Bununla yanaşı, yeni qanuna əsasən ABŞ vətəndaşları bu resursları istifadə edərək onları sata və istədikləri kimi nəql edə bilərlər. [8]

Digər tərəfdən ABŞ-da qəbul edilən "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanunun "Kosmos haqqında" beynəlxalq sazişə qarşı olması fikri hələ də, beynəlxalq hüquq ədəbiyyatının əsas mövzularından biri hesab olunur. 2016-cı ilin may ayında Vaşinqtonda "Secure World Foundation" təşkilatının bu məsələ ilə bağlı keçirdiyi iclasda "Mobius Legal Group"-un təsisçisi Cim Dunstan belə bir fikir səsləndirmişdi: "Asteroiddə mədən-qazıntı işlərinin aparılması şərəfli işdir. Hər kəs fikirləşir ki, bu, şərəflidir. Amma bu, hüquqauyğundurmu?" Sözsüz ki, bütün bu nüanslar ABŞ-da 2015-ci ilin noyabr ayında qəbul edilən "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanunla bağlı gündəmə gəlmişdir. Daha sonra isə bənzər bir təşəbbüslə çıxış edən Lüksemburq bu fəaliyyətə dəstək verərək milli qanunvericilik səviyyəsində kosmosda mədən işlərinin hüquqauyğunluğunu təsbit etdi. [7] Nəticədə beynəlxalq hüquq ictimaiyyəti üçün ən çox sual yaradan məsələ ortaya çıxdı. Burada milli qanunvericilik

çərçivəsində qəbul edilən qanunların beynəlxalq kosmos hüququnun təməli sayılan "Kosmos haqqında" beynəlxalq sazişlə ziddiyyətli olub-olmaması məsələsi nəzərdə tutulur. Məlum olduğu kimi, 1967-ci il tarixli "Kosmos haqqında" beynəlxalq sazişin (Ay və digər səma cisimləri də daxil olmaqla kosmik fəzanın tədqiqi və istifadəsi üzrə dövlətlərin fəaliyyət prinsipləri haqqında beynəlxalq sazişin) 2-ci maddəsində qeyd olunur ki: "Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəza onlar üzərində suverenlik elan etmək, istifadə, işğal və ya hər hansı digər vasitələrlə milli mənimsəmə predmeti ola bilməz." [4] Bir çox Avropa alimləri də, haqlı olaraq düşünürlər ki, "Kosmos haqqında" beynəlxalq sazişin ikinci maddəsi komsik resursların hasilatını qanunsuz edir. Biz də, düşünürük ki, sözügedən ikinci maddə kosmosun milli cəhətdən mənimsənilməsini qadağan edir. Həmçinin, bu məsələ beynəlxalq kosmos hüququnun mühüm prinsipi kimi müəyyən edilərək, "Kosmos haqqında" beynəlxalq sazişi ratifikasiya edən əksər dünya dövlətləri tərəfindən onların milli qanunvericiliklərinə daxil edilmişdir. Təəssüflər olsun ki, bu məsələ beynəlxalq konsensusla dəstəklənmir.

ABŞ hökuməti isə iddia edir ki, "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanunda göstərilən kosmik resurslarla bağlı olan tənzimləyici məsələlər beynəlxalq sazişə uyğundur. Belə ki, ABŞ hökuməti asteroidin özünü deyil, ondan hasil edilən resursların mənimsənilməsini dəstəklədiyini bildirir. Lakin bu arqument haqlı olaraq hamılıqla qəbul edilmir. "Mobius Legal Group"-un təsisçisi C.Dunstan qeyd edir ki, son dövrdə ABŞ-ın hüquq icmalı jurnallarından birində oxuduğu məqalədə "Kosmos haqqında" beynəlxalq sazişin 2-ci maddəsinin "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanunu üstələməsini müşahidə edib. Eyni zamanda C.Dunstan vurğulayır ki, kosmik resurslara dair etirazlar əksər halllarda "Kosmos haqqında" beynəlxalq sazişin 2-ci maddəsindən qaynaqlanır. C.Dunstan öz şərhlərində onu da, ifadə edir ki, bu barədə etirazlarını bildirən nümayəndələr səma cisimləri də daxil olmaqla "hər hansı bir ayrı-seçkilik olmadan" kosmik fəzanın "tədqiqi və istifadəsinə" icazə verən "Kosmos haqqında" beynəlxalq sazişin 1-ci maddəsinə diqqət etmirlər. Məlumdur ki, vaxtilə həm Amerika Birləşmiş Ştatları, həm də Sovet İttifaqı ciddi şəkildə sahiblik iddiaları irəli sürülən Ay nümunələrini geri qaytarmışdı. NASA və Amerika Birləşmiş Ştatları o zaman 842 funt Ay nümunələrinin milli resurs olması iddiasını irəli sürürdü. Bir çox amerikalı mütəxəssislər də, o dövrdə Apollon resurslarının mülkiyyətçisi kimi iddialarını bildirirdilər. Digər ölkələrin isə bununla bağlı müxtəlif mövqeləri var idi. [7] Gördüyümüz kimi, hazırda ABŞ-ın yeni qanunu bu cür məsələlərin tənzimlənmə mənzərəsini tamamilə dəyişmişdir.

"Kosmos haqqında" beynəlxalq sazişin 1-ci maddəsində qeyd edilir ki: "Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəza bərabərlik əsasında və beynəlxalq hüquqa müvafiq olaraq, hər hansı ayrı-seçkilik olmadan bütün dövlətlər tərəfindən tədqiqat və istifadə üçün açıqdır və səma cisimlərinin bütün sahələrinə azad giriş mövcuddur". [4] Fikrimizcə, "Kosmos haqqında" beynəlxalq sazişin birinci maddəsi ümumi və giriş xaraterli olub heç bir halda ayrı-ayrı şirkətlərin istədikləri kimi kosmosda mədən işlərini aparmasına icazə vermir. Bəzi alimlər "səma cisimlərinin bütün sahələrinə azad giriş imkanının olmasını" bildirərək müvafiq maddəni təhrif etməklə yanlış şərh verməyə çalışırlar. Əslində isə "Kosmos haqqında" beynəlxalq sazişin birinci maddəsinin 2-ci bəndində müəyyən olunur ki: "Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəza elmi araşdırmalar üçün azaddır və dövlətlər belə tədqiqatlarda beynəlxalq əməkdaşlığı dəstəkləyir və təşviq edirlər." Yəni bu o deməkdir ki, kosmik məkanda yalnız elmi araşdırmaların və tədqiqatların aparılmasına icazə verilir. Maddədən də, göründüyü kimi, kosmosda aparılan elmi araşdırmalarla bağlı dövlətlər öz aralarında əməkdaşlıq edə bilərlər. Lakin, ABŞ-da qəbul edilən qanun beynəlxalq sazişin tələbini tam şəkildə inkar edir. Daha dəqiq desək, bu qanuna əsasən ABŞ vətəndaşları əldə etdikləri kosmik

resursların sahibinə çevrilməklə onları sata və istədikləri kimi nəql edə bilərlər. Buradan da məlum olur ki, bu qanunun motivi elmi-tədqiqatlara yönəlməmişdir. Bu qanun açıq şəkildə kosmik məkanda aparılacaq mədən işləri nəticəsində vətəndaşların və aidiyyəti şirkətlərin geniş biznes şəbəkəsi qurmalarına yardımçı olur.

Ümumilikdə ABŞ-ın yeni qanunu ilə 1967-ci il "Kosmos haqqında" beynəlxalq saziş arasında tam mənada əsaslı ziddiyyətlərin olmasını xüsusilə qeyd etmək lazımdır. İlk növbədə nəzərə almalıyıq ki, "Kosmos haqqında" beynəlxalq sazişin həm ikinci maddəsi həm də, doqquzuncu maddəsi bir-birini tamamlayaraq ABŞ-ın yeni qanununun başdan-başa beynəlxalq hüquqa uyğun olmadığını ortaya qoyur. "Kosmos haqqında" beynəlxalq sazişin doqquzuncu maddəsində nəzərdə tutulmuşdur ki: "Müqavilə tərəfi olan dövlətlər Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzanın öyrənilməsi və tədqiqi zamanı zərərli çirklənmələrin, eləcə də yerdən kənar məsələlərin tətbiqi nəticəsində yerin ətraf mühitinə mənfi təsirlərin qarşısını alır və bu məqsədlə zəruri hallarda müvafiq tədbirlər görürlər. Əgər müqavilə tərəfi olan hər hansı dövlət özü və ya vətəndaşları tərəfindən planlaşdırılan Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzada fəaliyyət və ya təcrübənin müqavilə tərəfi olan digər dövlətlərin Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzanın sülh məqsədli tədqiqinə və istifadəsinə potensial zərərli müdaxilə etməsini ehtimal edirsə, belə fəaliyyətə və ya təcrübəyə başlamazdan əvvəl müvafiq beynəlxalq məsləhətləşmələr aparılır". [4] Göründüyü kimi, burada dövlətlər kosmosun zərərli çirkləndirilməsindən və yer mühitinin arzu olunmayan dəyişilməsindən qaçmaq üçün müvafiq tədbirlər görəcəkləri barədə razılığa gəlmişlər. Bu o deməkdir ki, bu sazişi qəbul etmiş dövlətlər heç bir halda bu cür bəşəriyyət üçün həddən artıq əhəmiyyətli olan məsələyə biganə yanaşa bilməz. Onu da, vurğulamalıyıq ki, dövlətlərin kosmosu zərərli çirkləndirmədən qorumaq sahəsində vəzifəsini də, bir çox alimlər beynəlxalq kosmos hüququnun vacib prinsiplərindən biri hesab edirlər. Qeyd edək ki, hüquqşünas alim Riki Li hələ 2012-ci ildə kosmik məkanda mədən işlərinin aparılması ilə bağlı dövlətlərin məsuliyyəti və beynəlxalq məsuliyyətlə əlaqəli olan nüansların beynəlxalq kosmos hüququnun müasir prinsiplərinə nə dərəcədə təsir etməsi məsələlərini gündəmə gətirmişdi. Eyni zamanda o gələcəkdə bununla bağlı qəbul oluna biləcək yeni hüquqi tənzimləmə rejimi üçün dünya dövlətləri arasında hüquqi və siyasi kompromisin olmasının vacibliyini qeyd etmişdi. [9; 3]

Onu da, nəzərə almaq lazımdır ki, əksər dünya dövlətlərinin qanunvericiliyində Yer təkində dağ-mədən işlərinin təhlükəsiz görülməsinə dair tələblər müəyyən edilmişdir. Məsələn, Yer kürəsində dağ-mədən işlərinin aparılması zamanı atmosferin vəziyyəti, müvafiq ərazidəki oksigenə nəzarət edilməsi və s. kimi mühüm tələblərə ciddi şəkildə riayət edilir. Bununla yanaşı, hər bir dövlətdə dağ-mədən işlərinin müvafiq qanunla müəyyən edilmiş qaydada və təhlükəsiz şəraitdə görülməsinə dair tələblərə riayət edilməsi ilə bağlı dağ-mədən nəzarəti orqanı cavabdehlik daşıyır. Kosmik məkanda isə mədən işlərinin təhlükəsiz şəraitdə aparılması ilə bağlı müvafiq tələblər beynəlxalq səviyyədə təsbit edilməmişdir. ABŞ-da da, bu spesifik məsələni tənzimləyən müvafiq qanunvericilik aktı yoxdur. Bu baxımdan da, hesab edirik ki, kosmik məkanda bu prosesin aparılması beynəlxalq hüquq və ekologiya üçün çoxsaylı naməlum suallar yaradır: Mədən işlərinin kosmosda necə aparılması və bu prosesə hər hansı beynəlxalq qurum tətəfindən nəzarətin həyata keçirilib-keçirilməməsi, həyata keçirilən fəaliyyətin ətraf mühitə, ekoloji tarazlığa zərərli təsir edib-etməməsi, ekoloji sistemdə olan ayrı-ayrı komponentlərin kəmiyyət və keyfiyyətcə dəyişilib-dəyişilməməsi və s. Bu suallardan da, göründüyü kimi, kosmik məkanda mədən işlərinin aparılmasının beynəlxalq səviyyədə hüquqi tənzimlənməsi məsələləri ilə bağlı hazırda hər hansı bir beynəlxalq hüquqi sənəd mövcud deyil. Bunun da, haqlı səbəbləri mövcuddur. Çünki "Kosmos haqqında" beynəlxalq sazişə əsaslanan dünya birliyi heç vaxt bu barədə düşünməmiş və kosmik məkanda aparılan tədqiqatları da, yalnız

elmi məqsədlə həyata keçirmişdir. Hesab edirik ki, ABŞ-da qəbul edilən və Lüksemburqda formalaşdırılan müvafiq qanunvericilik aktları isə "Kosmos haqqında" beynəlxalq sazişin tələblərini pozaraq və kosmik məkan üçün potensial təhlükə yaradaraq biznes xarakterli və qeyri-hüquqi yanaşma ortaya qoymuşdur.

Həqiqətən də, aparılan təhlillər onu göstərir ki, ABŞ-ın "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanunu beynəlxalq konvensiya ilə tam mənada ziddiyyət təşkil edir. Zənnimizcə, bu qanun uzun illər ərzində formalaşmış və beynəlxalq səviyyədə öz təsdiqini tapmış kosmos hüququnun istiqamətini tam mənada dəyişəcəkdir. Fikrimizcə, ABŞ-da qəbul edilən bu qanun gələcək üçün təhlükəli presedentin əsasını qoyur. Bunun nəticəsində bir çox dünya dövlətlərində də, belə qanun layihələrinin qəbulu ənənəsi başlana bilər. Bununla bağlı məqalədə vurğuladığımız kimi artıq Lüksemburq da, ABŞ-ın bu fəaliyyətinə dəstək verən normativ-hüquqi baza formalaşdırıb. İstənilən halda 1967-ci il tarixli "Kosmos haqqında" beynəlxalq sazişi ratifikasiya etmiş dövlət belə bir qanun qəbul etməməlidir. Sözsüz ki, beynəlxalq konvensiyada təsbit olunan müddəalar vaxtilə təfərrüatlı müzakirələrdən keçərək müvafiq mütəxəssislərin rəyləri əsasında və vahid yanaşma ilə qəbul edilmişdir. ABŞ-da bu cür qanunun qəbulu təkcə hüquqi tərəfdən deyil, həm də, ekoloji nöqteyi-nəzərdən müxtəlif problemlər yarada bilər. Ekoloqlar və kosmik tədqiqatlarla məşğul olan mütəxəssislər də, bu cür prosesin davam etməsinin Yer kürəsinin ekologiyası üçün təhlükə yaradacağını iddia edirlər. Hesab edirik ki, indiki halda ABŞ-da sadəcə biznes məqsədilə beynəlxalq hüquqi öhdəliklərə uyğun olmayan belə bir qanunun qəbul edilməsi Yer kürəsini yeni bir ekoloji təhlükə ilə üz-üzə qoyur.

"Komos haqqında" sazişlə ABŞ-ın yeni qanunu arasında ziddiyyətlər təkcə şərh olunanlardan ibarət deyil. Bu baxımdan adıçəkilən beynəlxalq sazişin digər hissələrində nəzərdə tutulan qeyri-hökumət təşkilatının kosmosdakı fəaliyyəti ilə bağlı müddəaları xüsusilə qeyd etməliyik. Bu cür ziddiyyətlər birbaşa olaraq ABŞ-ın yeni qanunundan irəli gələn öhdəliklərinin icrası ilə əlaqədardır. Məlum olduğu kimi, "Komos haqqında" beynəlxalq sazişin 6-cı maddəsi belə bir mühüm müddəanı təsbit etmişdi: "Müqavilə tərəfi olan dövlətlər, Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzada milli fəaliyyətin hökumət orqanları və ya qeyri-hökumət hüquqi şəxslər tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, hazırkı müqavilənin müddəalarına uyğun olaraq milli fəaliyyətin həyata keçirilməsinin təmin edilməsi üçün beynəlxalq məsuliyyət daşıyırlar. Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzada qeyri - hökumət hüquqi şəxslərin fəaliyyəti müqavilə tərəfi olan müvafiq dövlətin icazəsi və daimi nəzarəti altında həyata keçirilir". [4] Buradan da, göründüyü kimi, "Komos haqqında" beynəlxalq sazişin qeyd olunan maddəsi ölkələrdən onların qeyri-hökumət təşkilatları tərəfindən kosmosdakı fəaliyyətinə "icazə və davamlı nəzarəti" tələb edir. Bu məsələ isə ABŞ-da adətən kommersiya fəaliyyətinə lisenziya verilmək yolu ilə əldə edilir. ABŞ qanunvericiliyinə görə kosmosa buraxılış və təkrar daxil olmalar üçün Federal Mülki Aviasiya İdarəsi tərəfindən, rabitə üçün Federal Rabitə Komissiyası tərəfindən, məsafədən zondlama üçün Milli Okean və Atmosfer Administrasiyası tərəfindən müvafiq icazələr verilir. Yəni hazırda ABŞ qanunvericiliyi ilə asterioddə aparılan kəşfiyyat işləri, Aya enmə aparatları, peyk və kommersiya kosmik stansiyaları ilə əlaqəli xidmətlər və başqa kommersiya fəaliyyətləri ilə bağlı aşkar lisenziya səlahiyyətləri müəyyən edilməmişdir. Hazırki ABŞ qanunvericiliyinə görə bu cür missiyaların başlanması ilə bağlı müvafiq lisenziyalar hələ ki, təsdiq olunmayacaqdır. "Kosmik uçuşların rəqabət qabiliyyətliliyi haqqında" qanunun qəbulu ilə əlaqədar olaraq ABŞ Konqresi hələ 2016-cı ilin əvvəlində Ağ Evin Elm və Texnologiya Siyasəti üzrə Ofisinə təlimat vermişdi. [6] Sözügedən ofis 2016-cı ilin aprel ayında bu barədə tədqiqatı başa çatdıraraq Konqresə hesabat təqdim etdi. Hesabatdan aydın olur ki, "missiya icazəsi" kimi müəyyən olunan yeni bir anlayışın təsdiq olunması təklif olunur. Qeyri-ənənəvi kosmik fəaliyyəti planlaşdıran şirkətlərin müqavilə öhdəliklərinə,

eləcə də ABŞ-ın milli təhlükəsizlik və xarici siyasət maraqlarına riayət etməsini təmin edən belə uçuşlar (yəni “missiya icazəsi”) müvafiq lisenziyalaşdırma prosesinin bir hissəsi kimi ABŞ-ın Federal Mülki Aviasiya İdarəsi tərəfindən reallaşdırılacaqdır. Əgər bu prosedur hüquqi qüvvəyə minərsə Federal Mülki Aviasiya İdarəsi belə səlahiyyətlərin bir reyestrini özündə saxlayaraq aidiyyəti şirkətlərdən vaxtaşırı müvafiq yenilənməni tələb edəcək. Belə ki, Ağ Evin Elm və Texnologiya Siyasəti üzrə Ofisi inanır ki, hər hansı bir tənzimlənmə yükünün minimuma endirilməsi ilə ABŞ-ın “Komos haqqında” beynəlxalq sazişin 6-cı maddəsinə riayət etməsini təmin edə bilər. [7] Qeyd olunanlar bir daha göstərir ki, ABŞ “Komos haqqında” beynəlxalq sazişin 6-cı maddəsi üzrə nəzərdə tutulan öhdəliklərini müəyyən olunmuş qaydada həyata keçirə bilmir. Bununla da, ABŞ-ın hazırki hüquqtətbiqetmə təcrübəsindən məlum olur ki, ölkənin qanunvericiliyində bu sahədə olan münasibətlərin tənzimlənməsi baxımından hüquqi boşluq mövcuddur. Yəni ABŞ-da qəbul edilən yeni qanun üzrə qeyri-hökumət təşkilatlarının kosmosdakı fəaliyyətləri üçün lisenziya verilməsi ilə bağlı müvafiq norma nəzərdə tutulmamışdır. Bu səbəbdən də, hazırda ABŞ şirkətlərinin planlaşdırdığı bu fəaliyyət istiqamətində dövlətin müvafiq beynəlxalq saziş əsasında üzərinə götürdüyü öhdəliklər hüquqi tənzimlənmədən kənarda qalır. Şərh olunanlardan məlum olur ki, indiki halda ABŞ Hökumətinin “Komos haqqında” beynəlxalq sazişin 6-cı maddəsi üzrə öhdəliklərini tam şəkildə həyata keçirmək imkanı yoxdur.

ABŞ-ın yeni qanununun qəbulu ilə bağlı olan məsələlər Vyanada Kosmik fəzanın sülh məqsədləri ilə istifadə edilməsi üzrə BMT Komitəsinin hüquqi alt komitənin son görüşündə də, geniş müzakirə mövzusu oldu. ABŞ-ın Dövlət Departamentində qabaqcıl kosmik texnologiyalar üzrə direktor Kennet Hodkins “Secure World Foundation”-ın iclasında qeyd edib ki: “Bizim indi istəyimiz ondan ibarətdir ki, bu fəaliyyətin nə üçün “Komos haqqında” beynəlxalq sazişə uyğun olduğunu izah edək”. [7] ABŞ rəsmisinin bu açıqlamasından da, göründüyü kimi yeni qanunun beynəlxalq hüquqa uyğun olmaması fikrini onlar özləri də, qəbul edirlər. Sadəcə olaraq “Komos haqqında” beynəlxalq sazişin digər maddələrinin məzmununu fərqli formada analiz edərək yeni qanuna beynəlxalq hüquqi don geyindirməyə çalışırlar. Sözsüz ki, “Komos haqqında” beynəlxalq saziş aydın və konkret şəkildə kosmik məkandan istifadə ilə bağlı əsas məsələləri anlaşılıqlı məzmunda təsbit etmişdir. Yəni burada müəyyən olunan müddəalara öz məqsədinə uyğun şərh verilməklə məzmun dəyişilməyəcəkdir. Bu baxımdan da, hesab edirik ki, ABŞ-ın yeni qanunu beynəlxalq hüquq rejiminə tam şəkildə zidd olan birtərəfli normativ-hüquqi akt kimi qəbul oluna bilər. Digər tərəfdən bu qanun bir daha onu göstərir ki, ABŞ “Komos haqqında” beynəlxalq saziş üzrə müəyyən olunan vəzifə və öhdəliklərinə əməl etmir.

## Ədəbiyyat:

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkə gənclərinin bir qrupu ilə görüşü – 29 yanvar 2016-cı il, Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı - http://president.az/articles/17644
2. “Neft terminlərinin izahlı lüğəti” Himayədar Humanitar Təşkilatı, Bakı – 2005
3. “Yerin təki haqqında Azərbaycan Respublikasının Qanunu” Azərbaycan Respublikası Energetika Nazirliyinin rəsmi internet saytı.
http://www.minenergy.gov.az/db/Yerin+teki+haqqinda+Q.pdf
4. Договор о принципах деятельности государств по исследованию и использованию космического пространства, включая Луну и другие небесные тела
http://www.un.org/ru/documents/decl_conv/conventions/outer_space_governing.shtml
5. Barry Kellman, “On Commercial Mining of Minerals In Outer Space: A Rejoinder To Dr Ricky J. Lee” (2014) 39 Air and Space Law, Issue 6, pp. 411–420

6. “Filling in the details” by Jeff Foust, Monday, February 8, 2016 - http://www.thespacereview.com/article/2920/1
7. “Mining issues in space law” by Jeff Foust, Monday, May 9, 2016 http://www.thespacereview.com/article/2981/1
8. Planetary Resources Decides To Build The Company In Seattle, WA – 1 september, 2010, http://www.planetaryresources.com/2010/09/planetary-resources-decides-build-company-seattle-wa/
9. Ricky Lee, “Law and Regulation of Commercial Mining of Minerals in Outer Space” - Publisher: Springer Science + Business Media / Heidelberg, Germany 372 page, 2012.

## МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ АСПЕКТЫ ПРОМЫСЛОВО-ДОБЫВАЮЩЕЙ ДЕЯТЕЛЬНОСТИ В КОСМИЧЕСКОМ ПРОСТРАНСТВЕ

**Зафиг Халилов**

**РЕЗЮМЕ**

Данная статья посвящена анализу вопросов несоответствия международному праву нового нормативно-правового акта США, определяющего проведение промыслово-добывающей деятельности в космическом пространстве. В статье рассматривается терминологическое утверждение промыслово-добывающей деятельности в рамках космического права и определяются перспективы применения закона США “Акт конкурентоспособности космического права”, отражающий данную деятельность. В то же время в статье анализируются противоречия между законом США “Акт конкурентоспособности космического права” и международной конвенцией “О Космосе” , выявляются и существующие здесь пробелы. Вместе с этим четко и основательно обосновывается высшая юридическая сила Статей 2, 6 и 9 международной конвенции “О Космосе” над новым законом США. По результатам научных анализов, проведенных в статье, отмечается, что соответствующие законодательные акты, принятые в США в современный период и сформированные в Люксембурге, нарушают требования международной конвенции “О Космосе”, делают приоритетным для США неправовой подход в решении данного вопроса и коммерческие цели, создавая при этом экологическую угрозу для космического пространства. Принятие этого закона приводит к тому, что США не соблюдает свои обязанности и обязательства, вытекающие из международной конвенции “О Космосе”. В заключительной части статьи новый закон, принятый в США, характеризуется как односторонний нормативно-правовой акт, полностью противоречащий международному правовому режиму.

## INTERNATIONAL LEGAL ASPECTS OF MINING ACTIVITIES IN OUTER SPACE

**Zafig Khalilov**

**SUMMARY**

This article analyzes the issues of discrepancies of new regulatory legal act of the USA, which determines conducting of mining activities in outer space, to international law. The article deals with terminology defining of mining activities in the framework of space law and the perspectives of US law “Commercial Space Launch Competitiveness

Act" (CSLCA) which reflects this activity. At the same time, the article analyzes the contradictions between the US law "Commercial Space Launch Competitiveness Act" and the international convention "The Outer Space", and the shortcomings were also given. At the same time, the existence of the legal superiorities of Articles 2, 6 and 9 of the international convention "The Outer Space İnternational Treaty" on the new US law were clearly and thoroughly justified. According to the results of scientific analyzes carried out in an article, it was revealed that in the modern period the relevant legislative acts adopted in the United States and formed in Luxembourg violate the requirements of the international convention "The Outer Space İnternational Treaty" and by creating an environmental hazard for space it focuses on non-legal approach of business nature. By adoption this law the US does not comply with its obligations under the international convention "The Outer Space". In the conclusive part of the article, the new law passed in the United States is characterized as a unilateral legal act, which completely contradicts to the international legal regime.

**2016 - № 44**

# ДИСТАНЦИОННОЕ ОБУЧЕНИЕ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ

**С.А.Алиев**
Университет Одлар Юрду
Баку, ул.К.Рагимова 13
e-mail: salam.aliyev@oyu.edu.az

***Açar sözlər:*** distant təhsil, distant təlim, informasiya və telekommunikasiya texnologiyası, kompüter, internet, innovativ təhsil prosessi.
***Ключевые слова:*** дистанционное образование, дистанционное обучение, информационная и телекоммуникационная технология, компьютер, интернет, инновационный образовательный процесс.
***Keywords:*** distance education, distance learning, information and telecommunication technology, computer, Internet, innovative educational process.

С первого десятилетия XXI века стремительно развивается и распространяется информационные и коммуникационные технологии, получившие новый импульс в процес идущий во все сферы жизни страны – образовательную, экономическую, социальную, политическую, гуманитарно-культурную и др. Азербайджан не является исключением. Наряду с этим, как и в любой стране, в Азербайджане также существуют факторы, носящие по своему происхождению и сфере влияния региональный или внутренний характер, который имеет важное значение с точки зрения формирования эффективного образования. Сегодня процессы перемен в системе образования связаны с внедрением новых образовательных технологий.

Информатизация системы образования, в целом как одно из основных направлений построения образования на современном уровне, будет постоянно находиться в центре внимания. С этой целью была принята Государственная программа по информатизации образовательной системы в Азербайджанской Республике в 2013-2020 годах. В рамках Государственной программы все учебные заведения Азербайджана, в том числе образовательные заведения, находящиеся в отдаленных регионах.

Азербайджан, добившийся устойчивого темпа роста по всем направлениям в экономической и социальной сферах, достиг уровня быстроразвивающихся стран мира и в сфере ИКТ. Об этом говорил в обращении Президент Азербайджана Ильхам Алиев к участникам 19-й Азербайджанской международной конференции "Телекоммуникации и информационные технологии".

В современном мире в каждой стране образование воспринимается как важная составная часть концепции развития. С этой точки зрения осуществляемые в стране меры по развитию образования дают основание говорить, что Азербайджан желает видеть свое будущее более надежным и уверенным [1].

Современные технические средства стали широко применяться в обучении, с помощью чего осваиваются информационные технологии. Важнейшим современным устройствами ИКТ является компьютер и интернет. С помощью технических средств и всемирной паутины можно получать нетрадиционное образование на расстоянии на основе использования современных информационных и телекоммуникационных технологий. В нашу жизнь кроме очного и заочного образования входит дистанционное образование. Дистанционное

образование — это форма обучения, при использовании информационных технологий.

Дистанционное обучение заняло свое место в сфере образования, которое на сегодняшний день является универсальной технологией профессионального образования. Оно частично или полностью производится при помощи компьютеров и коммуникационных технологий. Образование происходит преимущественно в учебном процессе дистанционных технологий, форм, различных методов и средств обучения, с использованием необходимой информации и образовательных накоплений в сети Интернет.

Развитие дистанционного образования предъявляет новые требования к процессу обучения. Новые информационные технологии позволяют преподавателям и учащимся взаимодействовать на расстоянии, обеспечивая непосредственную и интерактивную коммуникацию между ними, которая была всегда определяющей в системе очного обучения и являлась ее неоспоримым преимуществом. Распределенное образование это данность для каждого учащегося, оно существует объективно, потому что каждый человек распределяет свое время, внимание, действие, образование по сегментам окружающего его мира.

Дистанционное обучение бывает интерактивным и неинтерактивным. С помощью интерактивной системы устанавливается связь между преподавателем и студентом: в режиме реального он-лайн времени учащиеся проходят проверку знаний или консультируются с педагогами. В неинтерактивным случаи учащемуся предоставляются необходимые материалы: книги, аудио- и видеозаписи, прохождение тестов. Более эффективный путь – интерактивное обучение, в рамках которого учащийся может связываться с преподавателем, участвовать в видеоконференциях, слушать лекции и даже выполнять лабораторные работы. [2].

Дистанционное обучение как инновационный образовательный процесс с использованием информационно-телекоммуникационных технологий помогает учащимся реализовывать собственные образовательные цели для повышения интеллектуального уровня, направленные на развитие личности.

До нынешнего времени в отдалённых регионах и сёлах Азербайджана были ограничены возможности компьютерных технологий, оставались проблемы по системному внедрению информационных технологий в процесс обучения. Именно на устранение этого пробела и нацелена нынешняя Концепция развития Азербайджана «Азербайджан– 2020: взгляд в будущее».

В ней планируется применение дистанционного образования для повышения уровня образования не только в городах, но и в сёлах и отдалённых регионах Азербайджана, кроме этого:

- так же будет созданы центры дистанционного образования в высших учебных заведениях;
- будут расширено применение дистанционного образования,
- будет продолжена эффективная интеграция ИКТ в управление образованием, путем создания единой информационной системы образования,
- будет достигнуто применение информационных механизмов управления;
- будут обеспечены интернетом, каждое учебное заведение;
- будет оснащено необходимым техническим оборудованием;
- будет реализовано подключение всех учебных заведений к единой Образовательной сети Азербайджана [3].

Необходимость эффективного использования ИКТ в образовательном процессе, а также наличие четких руководящих принципов, сделали еще более актуальной потребность в дистанционном образовании.

### Литература


1. http://www.trend.az/azerbaijan/politics/2312092.html, 15 СЕНТЯБРЯ 2014,
2. Катя Кожевникова // Дистанционное обучение: плюсы и минусы, 23 марта 2012, http://iledebeaute.ru/karera/2012/3/23/23506/
3. Концепция развития Азербайджана «Азербайджан– 2020: взгляд в будущее»
4. S.A.Əliyev, M.Ə.Vəliyev "Müasir informasiya texnologiyalari" Azərbaycan Respublikası Təhsil Nazirinin 16.05.2014-cü il tarixli 595 saylı əmri ilə təsdiq edilmişdir.Bakı, 2013
5. Əliyev S.A.,Süleymanov R.Ə.,Abuşov A.Ü.,Hüseynova İ.T.,Xüsusi qayğiya ehtiyacı olan uşaqlar üçün məsafədən təhsil üzrə müəllim vəsaiti Bakı: TN, 2012.


## TƏHSİL PROSESİNDƏ DİSTANT TƏLİM

**S.A.Əliyev**

**Xülasə**

Distant təhsil təhsilin inkişafı istiqamətinin aktual, müasir və perspektiv istiqamətidir. Bu proses müasir informasiya və telekommunikasiya texnologiyalarının istifadəsi əsasında bilik əldə etmə prosesdir. Bu proses müəllim və tələbələr arasında üzbəüz əlaqə olmadan məsafəli təhsili təşkil edir.

Distant təhsil müstəqil iş, laboratoriya işləri və digər müxtəlif tədris metodlarını özündə əks etdirə bilir. Bu məqalədə Azərbaycanın ucqar rayon və kəndlərində gənclərin intellektual səviyyəsini yüksəltmək üçün distant təhsilin istifadəsi təklif olunur.

## ДИСТАНЦИОННОЕ ОБУЧЕНИЕ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ

**С.А. Алиев**

**РЕЗЮМЕ**

Дистанционное образование - актуальное, современное и перспективное направление развития образования. Это процесс приобретения знаний, основанный на применении современных информационных и телекоммуникационных технологий. Оно представляет собой обучение на расстоянии, без личного контакта между преподавателем и учащимся.

Дистанционное обучение может органично сочетать различные методы обучения, такие как самостоятельная работа, лабораторные работы и др.

В данной работе предлагается применить дистанционное обучение для повышения интеллектуального уровня молодежи в удаленных районах и сёлах Азербайджана.

# DISTANCE LEARNING IN EDUCATIONAL PROCESS

**S.A.Aliyev**

**SUMMARY**

Remote education - the actual, modern and perspective direction of a development of education. It is the process of acquisition of knowledge based on application of modern information and telecommunication technologies. It represents training at distance, without personal contact between the teacher and the pupil.

Distance learning can organically combine various methods of training, such as independent work, laboratory works, etc.

In this work it is offered to apply distance learning to increase of intellectual level of youth in the remote areas and the villages of Azerbaijan.

2016 - № 44

# İQTİSAD DİVERSİFİKASİYA NƏQLİYYAT SEKTORUNUN YENİ İMKANLARI ASPEKTİNDƏN

**Vüqar Bayramov**
İqtisadi və Sosial İnkişaf Mərkəzi
email: vugarbayramov@cesd.az

***Açar sözlər:*** nəqliyyat, diversfikasiya, iqtisadi inkişaf, ekonometriya, qeyri-neft sektoru
***Key words:*** economic diversification, non-oil sector, transportation, economic development, econometrics
***Ключевые слова:*** диверсификации экономики, не нефтяной сектор, транспорт, экономическое развитие, эконометрика

Neftin dünya bazar qiymətinin aşağı düşməsi fonunda Azərbaycanda iqtisadi diversifikasiya imkanlarının və sektorlar üzrə müqayisəli üstünlüklərin qiymətləndirilməsi olduqca vacibdir. Məqalədə son zamanlar aktual olan və qeyri-neft sektorunda priortet hesab edilən nəqliyyat sektorundakı mövcud islahatlar və o cümlədən Azərbaycana valyuta daxil olmasının təşviq edilməsi məsələlərin toxunulmuşdur. Tədqiqatlar təsdiq edir ki, nəqliyyat sektoru müqayisəli üstünlüyə malik olan sferadır. Bu sektorun dövlət tərəfindən dəstəklənməsi və yeni iqtisadi şərtlərə uyğunlaşdırılması Azərbaycanın dövlət gəlirlərinin artırılması üçün yeni alternativ maliyyə mənbəsi formalaşdıracaq.

Post-neft dövründə iqtisadiyyatın diversifikasiyası məsələlərini daha da aktuallaşdırmışdır. Son dövrlər aparılan islahatların əsas məqsədi neftdən kənar sektorlardan ölkəyə daxil olan valyuta həcminin artırılmasına nai olmaq və Azərbaycanın ixrac potensialını gücləndirməkdir. Nəqliyyat sektoru və eləcə də tranzit yükdaşımalar məhz kontekstdən daha da əhəmiyyətini artırmışdır. Bu tədqiqat işində Azərbaycan üçün nəqliyyat sektoru üzrə müqayisəli analizi vasitəsilə mövcud vəziyyətdə diversifikasiya imkanlarının müəyyənləşdirilməsinə çalışılmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyev beynəlxalq tranzit yük daşımalarını və eləcə də nəqliyyat sektorunun inkişafını qeyri-neft sektorunda prioritet istiqamətlərdən biri kimi elan etmişdir. Post-neft dövründə nəqliyyat sektoru Azərbaycanın ixracatdan azalan gəlirlərini kompensasiya etmək üçün əsas sektorlardan birinə çevrilə bilər.

Avstriyanın Vyana Universitetinin tədqiqatçılarının apardıqları araşdırmalar nəqliyyat sektorunun iqtisadi diversikasiya və ixtisaslaşmada rolunun müəyyənləşdirməyə imkan vermişdir. Tətbiq edilən reqresiya metodu təsdiq edir ki, nəqliyyat sektoru inkişaf etməkdə olan ölkələrdə birbaşa və dolayı ixrac potensialına malik olan sektorlardandır [1. Səh. 35 − 43].

Yaşı 20-25 arasında tərəddüd edən praktiki sağlam şəxslər qrupunda ağız suyu nümunəıərində *Enterobacteriaceae* növlərinin koloniya əmələ gətirmə qabiliyyəti 3,88 ± 0,12 KƏV/ml olduğu halda, yaşı 26-34 arasında olan qrupda bu göstərici nisbətən artıq, 4,65 ± 0,10 KƏV/ml qeydə alınmışdır. Ağız suyu nümunələrində *Stomatococcus* mikroorqanizminin koloniya əmələgətirmə qabiliyyətinin müəyyən edilməsi istiqamətində aparılmış mikrobioloji sınaqlar zamanı isə bu növə mənsub mikroorqanizmlərin yaşı 20-25 arasında tərəddüd edən praktiki sağlam şəxslər qrupunda 5,61 ± 0,08, yaşı 26-34 arasında tərddüd qrupda isə 5,24 ± 0,07 KƏV/ml müəyyən edilmişdir. Aşağı yaş qrupuna mənsub şəxslərin ağız suyu nümunələrində *Staphylococcus* və *Streptococcus* növlərinin koloniya əmələgətirmə qabiliyyətləri uyğun olaraq, 5,15 ± 0,08 və 6,68 ± 0,04 KƏV/ml müəyyən edilmişdir. Yuxarı yaş qrupuna mənsub şəxslər qrupundan əldə olunmuş ağız suyu nümunələrində isə bu mikroorqanizmlərin koloniyalaşma qabiliyyətləri müvafiq olaraq, 5,23 ± 0,06 və 6,62 ± 0,06 KƏV/ml müəyyən olunmuşdur.

Tədqiqata cəlb edilmiş praktiki sağlam şəxslərin diş ərpi nümunələrində müxtəlif mikroorqanizm nümayəndələrinin kolononiyalaşma qabiliyyətlərinin öyrənilməsi üzrə

mikrobioloji müayinələr nəticəsində yaşı 20-25 arasında olan şəxslərin diş ərpi nümunələrində *Porphiromonas* növlərinin koloniyalaşma qabiliyyəti 6,16 ± 0,11 KƏV/ml olmasına baxmayaraq, yaşı 26-34 arasında olan şəxslərdə isə bir qədər az, 5,76 ± 0,07 KƏV/ml hesablanmışdır. *Fusobacterium* növünə mənsub mikroorqanizmlərə yaşı 26-34 arasında olan qrupdan götürülmüş diş ərpi nümunələrində koloniyalaşma nümayiş etdirsələr də, aşağı yaş qrupuna aid şəxslərdə bu göstərici 5,48 ± 0,11 KƏV/ml aşkarlanmışdır.

Yaşı 20-25 arası olan praktiki sağlam şəxslər qrupundan əldə olunmuş bioloji materiallarda *Bacteriodes, Veillonella, Neisseria, Corynebacterium* və *Peptococcus* növlərinin koloniyalaşma qabiliyyəti müvafiq olaraq, 5,77 ± 0,28, 7,12 ± 0,11, 3,53 ± 0,1, 2,36 ± 0,04 və 4,68 ± 0,07 KƏV/mq olduğu halda, yaşı 26-34 arasında tərəddüd edən qrupda bu göstəricilər uyğun olaraq, 5,1 ± 0,14, 6,06 ± 0,1, 2,51 ± 0,12, 2,33 ± 0,09 və 5,08 ± 0,08 KƏV/mq qeydə alınmışdır. Diş ərpi nümunələrinin müayinələri zamanı hər iki yaş qrupunda *Actinomyces* növlərinin koloniyalaşması demək olar ki, 0 –a yaxın olmuşdur.

*Peptostreptococcus* mikroorqanizminin diş ərpi nümunələrində koloniyalaşma qabiliyyəti yaşı 20-25 arası qrupda 5,35 ± 0,09 KƏV/mq olmasına baxmayaraq, bu göstərici yuxarı yaş qrupunda bir qədər artıq, 5,63 ± 0,18 KƏV/mq -a uyğun olmuşdur (cədvəl 2).

Diş ərpi nümunələrində *Candida* cinsli mikrogöbələkciklərin koloniyalaşma qabiliyyəti 20-25 yaş arasında olan prloniyalaşma qabiliyyəti 20-25 yaş arasında olan praktiki sağlam şəxslər qrupunda 2,62 ± 0,20 KƏV/mq, 26-34 yaş arasında olan şəxslərdə isə nisbətən aşağı, 1,66 ± 0,07 KƏV/mq qeydə alınmışdır. *Enterobacteriaceae* növlərinə yaşı 20-25 arasında olan praktiki sağlam şəxslərin diş ərpi nümunələrində koloniyalaşması 0 –a yaxın olsa da, 26-34 arasında olan şəxslərdə bu göstərici 2,81 ± 0,12 KƏV/mq qeydə alınmışdır.

***Cədvəl 2.*** *Müxtəlif yaş qruplarına mənsub praktiki sağlam şəxslərin diş ərpi nümunələrində müxtəlif mikroorqanizm növlərinin koloniya əmələgətirmə qabiliyyətləri (KƏV/mq -la).*

| *Parametrlər* | 20-25 yaş arası (n=12) | 26-34 yaş arası (n=13) |
|---|---|---|
| *Porphiromonas spp.* | 6,16 ± 0,11 | 5,76 ± 0,07 |
| *Fusobacterium spp.* | 5,48 ± 0,11 | 0 |
| *Bacteriodes spp.* | 5,77 ± 0,28 | 5,1 ± 0,14 |
| *Veillonella spp.* | 7,12 ± 0,11 | 6,06 ± 0,1 |
| *Neisseria spp.* | 3,53 ± 0,1 | 2,51 ± 0,12 |
| *Corynebacterium spp.* | 2,36 ± 0,04 | 2,33 ± 0,09 |
| *Peptococcus spp.* | 4,68 ± 0,07 | 5,08 ± 0,08 |
| *Actinomyces spp.* | 0 | 0 |
| *Peptostreptococcus spp.* | 5,35 ± 0,09 | 5,63 ± 0,18 |
| *Candida spp.* | 2,62 ± 0,20 | 1,66 ± 0,07 |
| *Enterobacteriaceae spp.* | 0 | 2,81 ± 0,12 |
| *Lactobacillus spp.* | 4,04 ± 0,14 | 3,24 ± 0,16 |
| *Micrococcus spp.* | 1,97 ± 0,07 | 3,11 ± 0,16 |
| *Staphylococcus spp.* | 3,74 ± 0,10 | 0 |
| *Streptococcus spp.* | 4,01 ± 0,06 | 4,42 ± 0,1 |

Diş ərpi nümunələrində *Lactobacillus* növlərinin koloniyalaşma qabiliyyəti KƏV/mq olmasına baxmayaraq, yaşı 26-34 arasında tərəddüd edən şəxslərdə uyğun parametr üzrə dəyərləndirilmənin nəticəsi bir qədər aşağı, 3,24 ± 0,16 KƏV/mq müəyyənləşdirilmişdir. *Micrococcus* növlərinin bioloji materiallarda koloniyalaşma qabiliyyəti yaşı 20-25 arası və 26-34 arasında olan şəxslər qruplarında uyğun olaraq, 1,97 ± 0,07 və 3,11 ± 0,16 KƏV/mq qeydə alınmışdır. Staphylococcus növlərinə isə aşağı yaş qrupundan götürülmüş bioptatlarda 3,74 ± 0,10 KƏV/mq olmaqla koloniyalaşma qabiliyyətinə malik olsa da, digər qrupda bu mikroorqanizmlərin KƏV göstəricisi 0 –a

qədər az olmuşdur. Streptococcus növlərinin KƏV göstəricisi isə yaşı 20-25 və 26-34 arasında olan qruplarda müvafiq olaraq, 4,01 ± 0,06 və 4,42 ± 0,1 hesablanmışdır. Alınmış nəticələr ağız suyu və diş ərpinin mikroflorası arasında müxtəlif fərqliliklərin olduğunu göstərmişdir. Ağız suyu daha mütəhərrik bioloji mühit olduğundan onun daxilində mikroorqanizmlərin daha zəif virulentliyə malik nümayəndələri üstünlük təşkil etməyinə baxmayaraq, diş səthinin yumşaq xarakterli çöküntüsü olan ərp özündə daha virulent mikroorqanizmləri cəmləməklə parodont toxumaları üçün daha patogen xarakterlidir. Dişərpi mühitində stafilokok və s. kimi şərti patogen mikroorqanizmlərin KƏV göstəricisinin aşağı olması mikrobiosenozda mikroorqanizmlərin özlərinin arasındakı qarşılıqlı əlaqələrin nəticəsində onların patogen mikroorqanizmlər tərəfindən sıxışdırılmasıdır. Beləliklə, diş ərpinin mineral tərkibinin əsas mənbəyi ağız suyudur. Buna baxmayaraq, ağız suyu və diş ərpi fərqli mikrobiosenoza malikdirlər. Onların arasındakı fərqi öyrənmək məqsədilə tərəfimizdən tədqiqat aparılmışdır. Tədqiqat nəticəsində diş ərpinin tərkibində daha virulent mikroorqanizmlərin olduğu sübut olunmuşdur.

## Ədəbiyyat


1. *Banas JA. Virulence properties of Streptococcus mutans. Front Biosci. 2004 May 1;9:1267-1277.*
2. *Chhour KL, Nadkarni MA, Byun R, Martin FE, et al. Molecular analysis of microbial diversity in advanced caries. J Clin Microbiol. 2005 Feb;43:843-849.*
3. *Zhulin IB (2009). It is computation time for bacteriology! J. Bacteriol, 191(1): 20–22.*
4. *Tsang P, Qi F, Shi W (2006). Medical approach to dental caries: fight the disease, not the lesion. Pediatr Dent, 28(2): 188–191.*
5. *Davies J, Davies D. Origins and evolution of antibiotic resistance. Microbiol Mol Rev 2010; 74: 417–33.*
6. *Sommer MOA, Dantas G, Church GM. Functional characterization of the antibiotic resistance reservoir in the human microflora. Science 2009; 325: 1128–31.*
7. *Vickerman MM, Flannagan SE, Jesionowski AM, Brossard KA, Clewell DB, Sedgley CM. A genetic determinant in Streptococcus gordonii Challis encodes a peptide with activity similar to that of enterococcal sex pheromone cAM373, which facilitates intergeneric DNA transfer. J Bacteriol 2010; 192: 2535–45.*
8. *Hannan S, Ready D, Jasni AS, Rogers M, Pratten J, Roberts AP. Transfer of antibiotic resistance by transformation with eDNA within oral biofilms. FEMS Immunol Med Microbiol 2010; 59: 345–9.*
9. *Liu L, Chen X, Skogerbo G, Zhang P, Chen R, He S, et al. The human microbiome: a hot spot of microbial horizontal gene transfer. Genomics 2012; 100: 265–70. doi: 10.1016/j.ygeno.2012.07.012.*
10. *Smillie CS, Smith MB, Friedman J, Cordero OX, David LA, Alm EJ. Ecology drives a global network of gene exchange connecting the human microbiome. Nature 2011; 480: 241–4. doi: 10.1038/nature10571.*
11. *Seville LA, Patterson AJ, Scott KP, Mullany P, Quail MA, Parkhill J, et al. Distribution of tetracycline and erythromycin resistance genes among human oral and fecal metagenomic DNA. Microb Drug Resist 2009; 15: 159–66.*

12. *Nielsen KM, Johnsen PJ, Bensasson D, Daffonchio D. Release and persistence of extracellular DNA in the environment. Environ Biosafety Res 2007; 6: 37–53.*
13. *Roberts AP, Mullany P. Oral biofilms: a reservoir of transferable, bacterial, antimicrobial resistance. Expert Rev Anti Infect Ther 2010; 8: 1441–50. doi: 10.1586/eri.10.106.*
14. *Naito M, Hirakawa H, Yamashita A, Ohara N, Shoji M, Yukitake H, et al. Determination of the genome sequence of Porphyromonas gingivalis strain ATCC 33277 and genomic comparison with strain W83 revealed extensive genome rearrangements in P. gingivalis. DNA Res 2008; 15: 215–25.*
15. *Tribble GD, Lamont GJ, Progulske-Fox A, Lamont RJ. Conjugal transfer of chromosomal DNA contributes to genetic variation in the oral pathogen Porphyromonas gingivalis. J Bacteriol 2007; 189: 6382–8.*
16. *Tribble GD, Rigney TW, Dao D-HV, Wong CT, Kerr JE, Taylor BE, et al. Natural competence is a major mechanism for horizontal DNA transfer in the oral pathogen Porphyromonas gingivalis. MBio 2012; 3: e00231–11. doi: 10.1128/mBio.00231-11.*
17. *Lo AW, Seers CA, Boyce JD, Dashper SG, Slakeski N, Lissel JP, et al. Comparative transcriptomic analysis of Porphyromonas gingivalis biofilm and planktonic cells. BMC Microbiol 2009; 9: 18.*
18. *Harmsen M, Lappann M, Knøchel S, Molin S. Role of extracellular DNA during biofilm formation by Listeria monocytogenes. Appl Environ Microbiol 2010; 76: 2271–9.*
19. *Lappann M, Claus H, van Alen T, Harmsen M, Elias J, Molin S, et al. A dual role of extracellular DNA during biofilm formation of Neisseria meningitidis. Mol Microbiol 2010; 75: 1355–71.*
20. *Thomas VC, Hiromasa Y, Harms N, Thurlow L, Tomich J, Hancock LE. A fratricidal mechanism is responsible for eDNA release and contributes to biofilm development of Enterococcus faecalis. Mol Microbiol 2009; 72: 1022–36.*
21. *Vilain S, Pretorius JM, Theron J, Brözel V*S. *DNA as an adhesin: Bacillus cereus requires extracellular DNA to form biofilms. Appl Environ Microbiol 2009; 75: 2861–8.*
22. *Enersen M. Porphyromonas gingivalis: a clonal pathogen? Diversities in housekeeping genes and the major fimbriae gene. J Oral Microbiol 2011; 3: 1–11. doi: 10.3402/jom.v3i0.8487.*

## DETERMINING THE MICROBIOLOGICAL CHARACTERISTICS OF ORAL FLUID AND DENTAL PLAQUE

**I.Erdogan, M.G.Aliev**

**SUMMARY**

The study involved 25 patients whose biological materials were taken - saliva and dental plaque, for the conduction of microbiological studies: Actinomyces SPP, Bacteriodes SPP, Corynebacterium SPP, Peptostreptococcus SPP, Candida SPP, Lactobacillus SPP, Neisseria SPP., Enterobacteriaceae SPP., Stomatococcus SPP., Staphylococcus SPP., Porphyromonas SPP., Fusobacterium SPP., Veillonella SPP.,

Micricoccus SPP., and Streptococcus. The results showed that there are differences between the saliva and dental plaque by microbial composition. In soft dental plaque on the tooth surface was dominated by representatives of more virulent microorganisms that are pathogenic for periodontal tissue.

## ИЗУЧЕНИЕ МИКРОБИОЛОГИЧЕСКИХ СВОЙСТВ РОТОВОЙ ЖИДКОСТИ И ЗУБНОЙ БЛЯШКИ

**И.Эрдоган, М.Г.Алиев**

**РЕЗЮМЕ**

В исследовании приняли участие 25 пациентов, у которых были взяты биологические материалы - слюна и зубная бляшка, для проведения микробиологических исследований: Actinomyces SPP., Bacteriodes SPP., Corynebacterium SPP., Peptostreptococcus SPP., Candida SPP., Lactobacillus SPP., Neisseria SPP., энтеробактерии SPP., Stomatococcus SPP., Staphylococcus SPP., Porphyromonas SPP., Fusobacterium SPP., Veillonella SPP., Micricoccus SPP., и стрептококков. Полученные результаты показали, что есть различия между слюной и зубной бляшкой по микробному составу. В мягких зубных отложениях на зубной поверхности преобладали представители более вирулентных микроорганизмов, которые являются патогенными для периодонтальной ткани.

2016 - № 44

# AZƏRBAYCAN-MİSİR İQTİSADİ-TİCARƏT ƏLAQƏLƏRİ (1991-2008)

**E.M.Məmmədzadə**
Azərbaycan Milli Elmlər Akademiyasının
Bakı, H.Cavid. 115

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xarici iqtisadi siyasətini artıq özü müəyyən etməyə başlamışdır. Ölkəmizin Asiya və Avropanın kəsişməsində çox əlverişli coğrafi mövqedə yerləşməsi bu siyasətin uğurla həyata keçirilməsinə müsbət təsirini göstərmişdir.

Azərbaycan dövləti son illər ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir. Artıq bu sahədə müsbət nəticələr əldə edilmiş, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün yeni istiqamətlər müəyyənləşdirilmişdir. Prezident İlham Əliyevin xarici dövlətlərə səfərləri, eləcə də Azərbaycanın və tərəfdaş ölkələrin müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı görüşləri hazırda bu işə güclü təkan vermişdir. Elə bunun nəticəsidir ki, Azərbaycanın beynəlxalq əlaqələrinin coğrafiyası ildən-ilə genişlənir. Ölkəmizin ikitərəfli əməkdaşlıqda dünya dövlətləri ilə iqtisadi əlaqələri mühüm əhəmiyyət daşıyır. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən rəsmi Bakı bu məqama xüsusi diqqət yetirmiş, iqtisadi əlaqələrin möhkəmlənməsi naminə səyini əsirgəməmişdir.

Qonşu ölkələr və Qərb dövlətləri ilə yanaşı, Yaxın Şərq, Asiya, Amerika və Afrika ölkələri ilə də əməkdaşlığımız genişlənir və bu regionlarla iqtisadi əlaqələrin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır. Bu baxımdan Yaxın Şərq və Afrika regionunun aparıcı iqtisadiyyatlarından olan Misir ilə iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsinə vacib əhəmiyyət verilir.

Misir ilə ikitərəfli iqtisadi əlaqələrin və əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi baxımından hökumətlərarası iqtisadi komissiyalarının rolu danılmazdır.

2002-ci ilin 03 oktyabr tarixində Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev 1994-cü il 07 aprel tarixində Qahirə şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş”in icrasını təmin etmək üçün Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Sərəncam imzalamışdır.

Müştərək Komissiyanın I Sessiyasının keçirilməsi ilə əlaqədar Komissiyanın Misir tərəfindən olan həmsədri MƏR Xarici İşlər üzrə Dövlət Naziri xanım Faizə Əbu Əl-Nəqə 2002-ci il 23-25 oktyabr tarixlərində Bakıda səfərdə olmuşdur. Səfər zamanı xanım Fəizə Əbu Əl-Nəqə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Baş Nazir A.Rasizadə, Milli Məclisin Sədri M.Ələsgərov, Xarici İşlər Nazirinin müavini X.Xələfovla görüşmüşdür [1].

Komissiyanın işi nəticəsində - Müştərək Komissiyanın Protokolu, Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında Saziş, Ticarət-Sənaye Palataları arasında razılaşma imzalanmışdır [2].

Azərbaycan – Misir Müştərək Komissiyasının II-ci iclasına hazırlıq məqsədilə 2005-ci ilin 27-29 iyul tarixlərində AR-MƏR işçi qruplarının Qahirədə görüşü keçirilmiş və

2005-ci ilin 25-26 dekabr tarixlərində Qahirədə Azərbaycan – Misir Hökumətlərarası Müştərək Komissiyanın II-ci iclası keçirilmişdir. İclasa Azərbaycan tərəfindən AR İqtisadi İnkişaf Naziri H.Babayev və Misir tərəfindən Beynəlxalq Əməkdaşlıq Naziri xanım F.Əbu Əl-Nəqə sədrlik etmişlər [3].

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Naziri, eyni zamanda İqtisadi və Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyasının həmsədri Heydər Babayevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin "Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyası"nın ikinci iclasının keçirilməsi məqsədilə 2005-ci ilin dekabr ayının 25-də Misir Ərəb Respublikasına işgüzar səfəri başlamışdır. Səfərin ilk günündə Nazir H.Babayev MƏR-in Beynəlxalq Əməkdaşlıq Naziri, "Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyası"nın Misirli həmsədri xanım Faizə Əbu Əl-Nəqə ilə görüşmüş və danışıqlar aparmışdır. Nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş danışıqlarda MƏR-in Beynəlxalq Əməkdaşlıq Naziri Faizə Əbu Əl-Nəqə bildirmişdir ki, iki ölkə arasında əməkdaşlıq üçün çoxsaylı imkanlar mövcuddur. Bu imkanlar barəsində danışaraq Misirli Nazir qeyd etmişdir ki, Misir Azərbaycanla səhiyyə, əczaçılıq, bina tikintisi, turizm, kənd təsərrüfatı, neft və neft avadanlıqları sahələrində hər iki ölkə və xalq üçün faydalı və mənfəətli əməkdaşlıq edə bilər. Sözünə davam edərək Misirli Nazir, onun 2002-ci ildə Azərbaycana səfəri zamanı əldə olunmuş razılıqlar barədə danışmış və bu razılıqların keçmiş 3 il müddətində tətbiq olunmadığını təəssüflə qeyd etmişdir.

Misirli Nazirin sözünə cavab olaraq, AR İqtisadi İnkişaf Naziri bildirmişdir ki, iqtisadi münasibətlərdə 3 il ərzində hökm sürən durğunluq müəyyən səbəblərlə bağlı olmuşdur və bu səbəblər artıq aradan qaldırılmışdır. Azərbaycanda son aylar ərzində Nazirlər arasında dəyişikliklər baş vermiş, və yeni təfəkkürlü insanlar bu vəzifələrə təyin edilmişlər. Bunları nəzərə alaraq, Azərbaycanla Misir arasındakı iqtisadi münasibətlərin tətbiq edilməsi üçün müsbət şərait yaranmışdır. Sözünə davam edərək H.Babayev bildirmişdir ki, Azərbaycanla Misir arasında çox sahələrdə əməkdaşlıq etmək mümkündür. Lakin əməkdaşlığın daha çox fayda verməsi baxımından Azərbaycan və Misir əməkdaşlıq imkanlarını 3-4 sahələr üzrə inkişaf etdirməlidir. Ölkələr arasındakı ticarət mübadiləsinin 4 milyona bərabər bəsit həcmdə olduğunu və bu rəqəmin heç bir vəchlə ölkələrin real imkanlarına uyğun olmadığını qeyd etmiş, hazırkı dövrdə Azərbaycanın Misirlə əczaçılıq, Misirdə istehsal olunan dava-dərmanların Azərbaycana ixrac edilməsi sahəsində əməkdaşlıq etməyə hazır olduğunu qeyd etmişdir. Əməkdaşlıq perspektivlərinə toxunaraq Azərbaycanlı Nazir Azərbaycan Neft Akademiyası filialının Misirdə təsis olunması təşəbbüsünü yüksək qiymətləndirmişdir.

İkitərəfli münasibətlərin qurulması tarixi barədə danışan Nazir xüsusi qeyd etmişdir ki, bu münasibətlərin bünövrəsi Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev və MƏR Prezidenti Hüsni Mübarək tərəfindən qoyulmuşdur və münasibətlərin məhz bu müstəvidə yaradılmasını nəzərə alaraq, Azərbaycan Misir əlaqələrinin inkişaf etdirilməsinə biganə mövqedən yanaşmaq qeyri-mümkündür. Nazirlərin görüşündən sonra hər iki tərəfin nümayəndə heyətləri arasında imzalanması nəzərdə tutulan və müzakirədə olan sənədlər üzərində işə başlanılmışdır.

Səfəri çərçivəsində Nazir H.Babayev MƏR-in Səhiyyə Naziri Avad Tacuddinlə görüşmüşdür. Görüşdə səhiyyə, əczaçılıq, vaksin preparatların və peyvəndlərin istehsalı, ailə sağlamlığı, yoluxucu xəstəliklərlə mübarizə sahələrində ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur. İkitərəfli iqtisadi münasibətlərdə 3 illik durğunluğun səbəbləri təfərrüatı ilə açıqlanmış, 2006-cı ilin münasibətlərin irəliyə doğru addımlamasında başlanğıc ili olacağı qeyd olunmuşdur. Görüş zamanı Nazir H.Babayev

Azərbaycan Hökuməti adından və AR-in yeni təyin olunmuş Səhiyyə Naziri adından Misirli Naziri 2006-cı ilin birinci rübündə Azərbaycana səfərə dəvət etmişdir. Nazir A.Tacuddin dəvəti məmnuniyyətlə qəbul etdiyini bildirmiş, səfərin 2006-cı ilin ilk aylarında həyata keçiriləcəyini vurğulamış və onunla birlikdə Azərbaycana Misirin səhiyyə və əczaçılıq üzrə görkəmli iş adamlarından ibarət çoxsaylı nümayəndə heyətinin gedəcəyini qeyd etmişdir. Görüşdən sonra Misir televiziyasına əldə olunmuş razılıqlar barədə geniş məlumat verilmişdir.

Nazir H.Babayev həmçinin Misirli həmkarı Nazir xanım F.Əbu Əl-Nəqənin də iştirak etdiyi Misir iş adamları assosiasiyasında keçirilən görüşdə iştirak etmişdir. Görüş zamanı assosiasiyanın prezidenti Camal Nazir, MƏR Beynəlxalq Əməkdaşlıq Naziri Faizə Əbu Əl-Nəqə və AR İqtisadi İnkişaf Naziri H.Babayev toplantı iştirakçıları qarşısında nitqlə çıxış etmişlər. Misirli Nazir F.Əbu Əl-Nəqə bu səfərin olduqca önəmli səfər olduğunu qeyd etmiş və bunun əsas səbəblərindən biri kimi Nazir H.Babayevin başçılıq etdiyi nümayəndə heyətinin tərkibində 5 Nazir müavinlərinin və Azərbaycan Dövlət Neft şirkəti Prezidentinin 1-ci müavinin olduğunu göstərmişdir.

Nazir H.Babayev öz növbəsində Azərbaycandakı iqtisadi durum, tətbiq olunan irimiqyaslı layihələr və əlverişli sərmayə şəraiti barədə söz açmışdır. Hal-hazırda Azərbaycanda bir neçə iri həcmli avtomobil və dəmir yolu layihələri üzərində işin aparıldığını qeyd edərək bildirmişdir ki, bu layihələrdən biri şimal, Azərbaycan-Rusiya istiqamətində, digər biri qərb, Azərbaycan-Gürcüstan-Türkiyə istiqamətində, digər biri isə cənub, Azərbaycan-İran istiqamətində həyata keçirilməkdədir. Ona verilən suallardan birinə cavab olaraq, Nazir H. Babayev bildirmişdir ki, hal-hazırda Azərbaycanda elektroenergetika sahəsində də həmçinin layihələr tətbiq olunur və bu layihələr çərçivəsində bir sıra su elektrik stansiyaları tikilir. Nazir H.Babayevin verdiyi bir sıra cavablar Misir iş adamları tərəfindən yüksək rəğbət və alqışlarla qarşılanmışdır.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Naziri, İqtisadi və Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyasının həmsədri Heydər Babayev Misirə səfəri zamanı Misir Ərəb Respublikasının Baş Naziri Əhməd Nazif ilə görüşərək danışıqlar aparmışdır. Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan-Misir əməkdaşlığı, Yaxın Şərq problemi və bölgədəki vəziyyət barədə fikir mübadiləsi aparılmışdır. Tərəflər iki ölkə arasında iqtisadi, ticarət, turizm, səhiyyə sahəsindəki münasibətlərə toxunaraq, bu münasibətlərin inkişaf etdirilməsinin hər iki ölkə üçün vacib olduğunu qeyd etmişlər. Nazir H. Babayev Azərbaycan Respublikasının Baş Naziri cənab Artur Rasi-zadənin MƏR-in Baş Naziri Əhməd Nazifə ünvanladığı dəvət məktubunu ona təqdim etmişdir. Baş Nazir dəvəti məmnuniyyətlə qəbul etdiyini qeyd etmiş, səfərin ən yaxın zamanda həyata keçiriləcəyini bildirmişdir.

Səfər zamanı Nazir H. Babayev Misir Ərəb Respublikasının Ticarət və Sənaye Naziri Rəşid Məhəmməd Rəşid ilə görüşmüşdür. Görüş zamanı AR və MƏR arasında iqtisadi ticarət əməkdaşlığının inkişafı, Misirin işgüzar dairələrinin nümayəndələri, iş adamları və sərmayəçilərinin Respublikamızın sosial-iqtisadi inkişaf layihələrində iştirakı məsələləri ətrafında fikir mübadilələri aparılmışdır. Eyni zamanda Azərbaycanda və Misirdə keçirilən ixtisaslaşdırılmış beynəlxalq sərgilərdə iştirak etmək məsələləri, neft və qaz sahəsində birgə layihələrin həyata keçirilməsi imkanları, hər iki ölkənin mövcud qanunvericiliyi çərçivəsində iş adamları tərəfindən iqtisadiyyat sahəsinə, xüsusilə də turizm sahəsinə qarşılıqlı sərmayə qoyuluşu Nazirlər arasında geniş müzakirə mövzusu olmuşdur. Nazir H. Babayev Rəşid Məhəmməd Rəşidi Azərbaycana dəvət etmiş, dəvətin məmnuniyyətlə qəbul edildiyi bildirilmişdir. Nazir H.Babayev İqtisadi və Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyasının III toplantısının 2006-cı ildə Bakıda

keçiriləcəyini Nazir Rəşid Məhəmməd Rəşidin diqqətinə çatdırmış və həmin toplantıda səhiyyə sahəsində Misirli iş adamlarının iştirak etməsinin təmin edilməsini xahiş etmişdir.

Daha sonra Azərbaycanın İqtisadi İnkişaf Naziri H.Babayev MƏR-in Sərmayələr Naziri Mahmud Muhyiddinlə görüşərək danışıqlar aparmışdır. Nazir H.Babayev Azərbaycandakı iqtisadi durum, əlverişli sərmayə şəraiti, həmçinin hal-hazırda Azərbaycan-Rusiya, Azərbaycan-Gürcüstan-Türkiyə və Azərbaycan-İran istiqamətlərində həyata keçirilən irimiqyaslı avtomobil və dəmir yolu layihələri barədə qarşı tərəfə geniş məlumat vermişdir. Nazir H. Babayev Mahmud Muhyiddini Azərbaycana dəvət etmiş, dəvət qəbul edilmişdir.

Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın iclası zamanı "Misir İş adamları Assosiasiyası"nda AR İqtisadi İnkişaf Naziri H.Babayevin Misir iş adamları ilə görüşü keçirilmişdir.

2005-ci ilin 21 mart tarixində MƏR-də ilk dəfə olaraq "Azərbaycan Günü" adlı İgtisadi Forum keçirilmişdir. Bu ilk iqtisadi forumda Azərbaycanda İnvestisiyaların Təşviqi və Məsləhət Fondunun prezident vəzifəsini icra edən E.Məcidov, Quba-Xaçmaz iqtisadi rayonunu təmsil edən "SAF ltd." şirkəti İdarə heyətinin Sədri E.Mirzəxanov, MƏR Beynəlxalq Sərgilər və Yarmarkaların təşkil Komitəsinin Sədri M.S Saleh, MƏR Xarici Ticarət Nazirinin müavini N.F.Xəlil, Misirin işgüzar dairələrinin, MƏR kütləvi informasiya vasitələrinin, müxtəlif dövlət və hökumət təşkilatlarının nümayəndələri, Qahirədə akkreditə olunmuş xarici dövlətlərin səfirləri və diplomatları iştirak etmişlər. "Azərbaycan Günü" İgtisadi Forumu MƏR KİV-də geniş şəkildə işıqlandırılmışdır [3].

2005-ci ilin iyun ayında "AzMis" müştərək müəssisəsi təsis edilmişdir. Müəssisə Abşeron iqtisadi rayonunun Sumqayıt şəhərinin turizm və sənaye sahələrinə Misir sərmayəçilərinin cəlb olunmasını təmin edəcəkdir.

İqtisadi sahəhə ikitərəfli əlaqələrin prioritet istiqamətlərindən hesab edilən neft və energetika sahəsində əməkdaşlıq son illər ərzində inkişaf etməkdədir.

1995-ci ilin noyabrında Misir Dövlət Neft Şirkəti İdarə heyətinin Sədri F.Əbdüləzizin başçılığı ilə MƏR nümayəndə heyəti Bakıda səfərdə olmuş və səfər əsnasında Misirə Azərbaycanın neftçıxarma avadanlıqlarının göndərilməsi haqqında müqavilə imzalanmışdır. 1996-cı ilin mart ayında isə AR Ticarət-Sənaye Palatası, Xarici iqtisadi əlaqələr nazirliyi, Dövlət neft şirkətinin nümayəndələrindən ibarət Azərbaycan nümayəndə heyəti Qahirədə Beynəlxalq sərgidə iştirak etmişdir [3].

Azərbaycan Respublikasının Yanacaq və Energetika Naziri M. Kərimov 2004-cü il 10-12 fevral tarixlərində Qahirədə keçirilmiş İnterqaz Beynəlxalq Konfransının işində iştirak etmişdir [2].

Hər iki ölkənin iqtisadi imkanları baxımından son illər Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında ticarət dövriyyəsi arzu olunan səviyyədə olmamışdır. Lakin, getdikcə ikitərəfli ticarət dövriyyəsinin artdığını müşahidə etmək mümkündür [4].

**2001-ci il üzrə ticarət dövriyyəsinin göstəriciləri (mln. ABŞ dolları)**

| cəmi | idxal | ixrac |
|---|---|---|
| 5.64 | 0.38 | 5.26 |

**2002-ci il üzrə ticarət dövriyyəsinin göstəriciləri (mln. ABŞ dolları)**

| cəmi | idxal | ixrac |
|---|---|---|
| 0.31 | 0.14 | 0.17 |

**2003-ci il üzrə ticarət dövriyyəsinin göstəriciləri (mln. ABŞ dolları)**

| cəmi | idxal | ixrac |
|---|---|---|
| 0.21 | 0.18 | 0.03 |

**2004-cü il üzrə ticarət dövriyyəsinin göstəriciləri (mln. ABŞ dolları)**

| cəmi | idxal | ixrac |
|---|---|---|
| 0.21 | 0.19 | 0.02 |

**2005-ci il üzrə ticarət dövriyyəsinin göstəriciləri (mln. ABŞ dolları)**

| cəmi | idxal | ixrac |
|---|---|---|
| 0.201 | 0.20 | 0.001 |

**2006-cı il üzrə ticarət dövriyyəsinin göstəriciləri (min. ABŞ dolları)**

| cəmi | idxal | ixrac |
|---|---|---|
| 1 340,8 | 1.311 | 29,8 |

**2007-ci il üzrə ticarət dövriyyəsinin göstəriciləri (min. ABŞ dolları)**

| cəmi | idxal | ixrac |
|---|---|---|
| 2 336,3 | 2 296,9 | 39,4 |

**2008-ci il üzrə ticarət dövriyyəsinin göstəriciləri (min. ABŞ dolları)**

| cəmi | idxal | ixrac |
|---|---|---|
| 36 117,8 | 1 069,0 | 35 048,8 |

Hər iki ölkənin kənd təsərrüfatı sahəsində geniş təcrübəyə malik olması nəzərə alınaraq, AR və MƏR Kənd Təsərrüfatı Nazirlikləri arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə "AR Kənd Təsərrüfatı Nazirliyi ilə MƏR Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında Azərbaycan-Misir Elmi Araşdırma Mərkəzinin yaradılması haqqında Protokol" və "AR Kənd Təsərrüfatı Nazirliyi ilə MƏR Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" imzalanmışdır.

Digər tərəfdən, AR İİN ilə Misirin Xarici Ticarət Nazirliyi arasında əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə 2005-ci il 25-26 dekabr tarixlərində Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın iclası zamanı "AR İqtisadi İnkişaf Nazirliyi

ilə MƏR Xarici Ticarət Nazirliyinin Misir Beynəlxalq Ticarət Mərkəzi arasında Anlaşma Memorandumu" imzalanmışdır.

Azərbaycan şirkətlərinin 39-cu Qahirə beynəlxalq sərgisində iştirak edilməsi ilə bağlı qeyd etmək lazımdır kı, 2006-cı ilin 19-23 mart Tarixlərində Misir Ərəb Respublikasının Qahirə şəhərində "39-cu Beynəlxalq Qahirə Sərgisi" keçirilmişdir [3].

Mart ayının 19-da sərginin rəsmi açılışı olmuşdur. Sərgidə dünyanın 76 ölkəsindən 4000 yerli və əcnəbi şirkət iştirak etmişdir. Bu Sərgidə Azərbaycanı iki şirkət - "AzeriConstruction" və "Azer Besina Food İndustries LTD.co" şirkətləri təmsil etmişlər.

Sərgidə Azərbaycanı təmsil edən "AzeriConstruction" və "Azer Besina Food İndustries LTD.co" şirkətlərinin rəhbərləri müxtəlif ölkələrdən olan şirkətlərin, o cümlədən Misir şirkətlərinin nümayəndələri ilə görüşlər keçirmiş, gələcəkdə qarşılıqlı ticarət əlaqələrinin aparılmasına dair razılıqlar əldə etmişlər.

Bununla yanaşı "39-cu Beynəlxalq Qahirə Sərgisi"ndə Azərbaycanı təmsil edən şirkətlərin iştirakı ilə Misir iş adamları assosiasiyasında toplantı keçirilmişdir. Toplantıda Azərbaycan ilə Misir arasında tikinti materialları və yeyinti məhsulları sahəsində iki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi, həmçinin qarşılıqlı ticarət mübadiləsinin artırılması məsələləri müzakirə olunmuşdur.

İsgəndəriyyə İş Adamları Assosiasiyası və Gəmiçilik Palatalarının Ümumərəb Federasiyası ilə aparılan danışıqların və keçirilən görüşlərin nəticəsi olaraq, İsgəndəriyyə İş Adamları Assosiasiyasının üzvü, Gəmiçilik Palatalarının Ümumərəb Federasiyasının Prezidenti, Kadmar Şirkətlər qrupunun Sədri, Dəniz Admiralı Mahmud Hatim Əl-Kadinin 2007-ci ilin 30 avqust 10 sentyabr tarixlərində Azərbaycana səfər etmişdir [2].

Azərbaycana səfəri çərçivəsində Dəniz Admiralı Mahmud Hatim Əl-Kadi Xəzər Dəniz Gəmiçiliyinin və Azərbaycan Respublikası Dəniz Administrasiyasının rəhbərləri ilə görüş keçirmiş, bu təşkilatlarla Gəmiçilik Palatalarının Ümumərəb Federasiyası arasında əməkdaşlıq perspektivləri müzakirə edilmiş və gələcək əməkdaşlığa dair Saziş imzalanmışdır.

Eyni zamanda Dəniz Admiralı Mahmud Hatim Əl-Kadi səfər zamanı Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasında İsgəndəriyyə İş Adamları Assosiasiyası ilə Azərbaycan-Misir ticarət əlaqələrinin yaradılması istiqamətində danışıqlar aparmış və nəticəsi olaraq, "Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə İsgəndəriyyə İş adamları Assosiasiyası arasında Əməkdaşlıq Sazişi" imzalanmışdır. Saziş Azərbaycan və Misir Ərəb Respublikasının müxtəlif sahələrində fəaliyyət göstərən iş adamlarının qarşılıqlı əməkdaşlıq əlaqələrinin yaradılmasına və inkişaf etdirilməsinə yardım göstərilməsi, Azərbaycan və Misirdə sahibkarlığın inkişaf etdirilməsi məqsədilə hər iki tərəfdən təmsil olunan iş adamları arasında görüşlərin, təcrübə mübadiləsinin, maarifləndirici tədbirlərin təşkil olunması və keçirilməsi, hər iki ölkə sahibkarlarının məhsullarının və xidmətlərinin təqdimatı və sərgilərin təşkil olunması, hər iki ölkənin, həmçinin digər ölkələrin müvafiq təşkilatlarının təşkil etdikləri sərgilərdə və yarmarkalarda birgə iştirak etmək, birgə müəssisələrin yaradılmasında təşkilatı, gömrük, vergi və başqa zəruri məsələlərin həlli və s. tədbirlərin yerinə yetirilməsinin təmin olunması və başqa sahələri əhatə edəcəkdir.

Belə bir Sazişin imzalanması Azərbaycan və Misir İş adamlarının qarşılıqlı iqtisadi əlaqələrinin qurulması, birgə sərgilərin, biznes-forumların, seminar və konfransların keçirilməsi, işgüzar səfərlərin təşkil olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Mahmud H.Əl-Kadi Azərbaycana səfəri zamanı Ali Dəniz məktəbinin məzunu kimi həmin məktəbi ziyarət etmiş və yüksək səviyyəli görüşlər keçirmişdir [5].

2007-ci ilin 26-30 dekabr tarixlərində "Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyası"nın növbəti üçüncü iclası Bakıda keçirilmişdir. Azərbaycan-Misir Müştərək Komissiyası"nın üçüncü iclasında iştirak etmək məqsədilə Misir Ərəb Respublikasının Beynəlxalq Əməkdaşlıq Naziri xanım Faizə Əbu Əl-Nəqənin başçılığı ilə böyük bir nümayəndə heyəti Azərbaycana səfər etmişdir. Eyni zamanda nümayəndə heyətinin tərkibində iş adamları və Abşeron Rayonu və Qalyubiyyə vilayəti arasında imzalanmış əməkdaşlıq haqqında "Anlaşma Memorandumu"na əsasən, Abşeronda yeni inşa edilmiş ərəbdilli məktəbin, Abşeronda təməl daşı qoyulacaq tibbi diaqnostika mərkəzinin, Misirdə istehsal olunan məhsulların satışı üçün yaradılmış daimi sərginin, Abşeron rayonu küçələrindən birinə verilmiş Qalyubiyyə küçəsinin, Qalyubiyyə adlı parkın açılış mərasimində iştirak etmək üçün Misirin Qalyubiyyə vilayətinin Qubernatoru Adli Hüseynin başçılığı ilə 10 nəfərdən ibarət nümayəndə heyəti də Misirin Beynəlxalq Əməkdaşlıq Nazirini Azərbaycana səfəri zamanı müşayiət etmişdir [2].

AR-MƏR müştərək Komissiyasının üçüncü iclası çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Beynəlxalq Əməkdaşlıq Naziri, "Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyası"nın Misirli həmsədri xanım Faizə Əbu Əl-Nəqənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Prezident İlham Əliyev Azərbaycan-Misir ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyini bildirmiş, Misirə səfərini və orada keçirdiyi görüşləri məmnunluqla xatırlayan dövlətimizin başçısı əlaqələrimizin möhkəmləndirilməsində bu səfərin əhəmiyyətini vurğulamış və ölkələrarası münasibətlərin genişlənməsində qarşılıqlı səfərlərin rolunu yüksək dəyərləndirmişdir.

Xanım Faizə Əbu Əl-Nəqə Misir Prezidenti Hüsni Mübarəkin salamlarını və bayram təbriklərini Prezident İlham Əliyevə çatdırmış və qeyd etmişdir ki, Prezident Hüsni Mübarək Azərbaycan Prezidenti İlham Əliyevin Qahirəyə səfərini yüksək dəyərləndirir və bu səfərdən sonra Misir ilə Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etməsindən məmnundur. Misirin Beynəlxalq Əməkdaşlıq naziri Misir Prezidentinin məktubunu dövlətimizin başçısına təqdim etmişdir.

Görüşdə, eyni zamanda iki ölkə arasında əməkdaşlıq üçün çoxsaylı imkanların mövcudluğu bildirilmiş, bu imkanlar barəsində danışaraq qeyd edilmişdir ki, Misir və Azərbaycan bir çox sahələrdə, o cümlədən, energetika, əczaçılıq, turizm, kənd təsərrüfatı, neft və neft avadanlıqları sahələrində hər iki ölkə və xalq üçün faydalı və mənfəətli əməkdaşlıq edə bilər.

Azərbaycan-Misir Müştərək Komissiyasının üçüncü iclasında AR İqtisadi İnkişaf Naziri Heydər Babayev qonaqlara Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti, aparılan islahatlar və qazanılmış uğurlar barədə ətraflı məlumat vermişdir.

Prezident İlham Əliyevin 2007-ci ilin mayında Misirə rəsmi səfərini xatırladan H.Babayev, bu səfərin ölkələrimiz arasında əlaqələrin genişlənməsinə və iqtisadi əməkdaşlığın inkişafına təkan verdiyini vurğulamışdır. Bildirilmişdir ki, Azərbaycan Misirlə iqtisadi əməkdaşlığın genişləndirilməsində maraqlıdır və bu prosesə hər cür dəstək verməyə hazırdır.

Nazir komissiya üzvlərinin sənədlər üzərində gərgin işlədiyini və imzalanacaq protokolların ölkələrimiz arasında bir çox sahələr üzrə əməkdaşlığın daha da inkişafına xidmət edəcəyini diqqətə çatdırmışdır.

Misirin Beynəlxalq Əməkdaşlıq Naziri xanım Faizə Əbu Əl-Nəqə ölkələrimiz arasındakı əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, ikitərəfli münasibətlərin, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın uğurla inkişaf etdiyini söyləmişdir. İlk dəfə Respublikamızda 2002-ci ildə olduğunu söyləyən qonaq bildirmişdir ki, hazırda

Azərbaycan sürətli iqtisadi inkişaf yolundadır. Qarşılıqlı səfərlərin əlaqələrin inkişafında faydalı olacağı, Hökumətlərarası Komissiyanın növbəti, 4-cü iclasının Qahirədə keçiriləcəyi də qeyd edilmişdir.

İclasda ölkələrimiz arasında əməkdaşlığın inkişaf perspektivləri, o cümlədən iqtisadiyyatın bir çox sahələrində əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır.

Tədbirdə "Azərbaycan Respublikası hökuməti ilə Misir Ərəb Respublikası hökuməti arasında gömrük məsələlərində və gömrük hüquqpozmaları ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq haqqında saziş", "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında Azərbaycan-Misir Elmi Araşdırma Mərkəzinin təşkili haqqında protokol", "Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu ilə Misir Ərəb Respublikasının Milli Kitabxanası və arxivləri arasında əməkdaşlığa dair protokol", "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Misir Televiziya və Radio Birliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası və Misir Ərəb Respublikası Hökumətlərarası Komissiyasının 3-cü iclasının yekunlarına dair Protokol" imzalanmışdır [2] .

Azərbaycan-Misir müştərək Komissiyasının üçüncü iclası çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Misir biznes forumu keçirilmişdir.

Biznes forumda Misir tərəfdən əczaçılıq, neft, ticarət, tikinti, toxuculuq və digər sahələri təmsil edən 15 şirkətin nümayəndələri, Azərbaycan tərəfdən isə müvafiq sahələrdə fəaliyyət göstərən 30-dək iş adamı iştirak etmişlər.

Misir nümayəndə heyətinin üzvləri - "AKDİMA" Beynəlxalq Ticarət Şirkəti idarə heyətinin sədri Midhət Şəravi, ölkənin İnvestisiyalar üzrə Agentliyinin baş tədqiqatçısı İbrahim Məhəmməd Şamlola belə tədbirlərin iş adamları arasında əlaqələrin daha da genişləndirilməsində mühüm rol oynadığını bildirmişlər.

Tədbirdə Misirin mebel, əczaçılıq və digər istehsal sahələri üzrə videofilmlər göstərilmiş, təqdimatlar keçirilmişdir.

2008-ci ilin 04-10 fevral tarixlərində Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun rəhbərliyi ilə AR nümayəndə heyəti Qahirə şəhərinin yaxınlığında yerləşən, Qəlyubiyyə vilayətinin tərkibinə daxil olan Qanatır Xeyriyyə şəhərində "Azərbaycan-Misir Dostluq Parkı"nın, həmin parkda ucaldılmış Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin heykəlinin və Azərbaycan küçəsinin açılışında iştirak etmək məqsədilə Misirdə bir həftəlik rəsmi səfərdə olmuşdur. Səfər çərçivəsində Z.Fərəcov Misirin birinci xanımı Suzan Mübarəklə görüşmüşdür. Görüş zamanı regionlarımız arasında münasibətlərin möhkəmlənməsinin iki ölkə arasında iqtisadi-ticarət əməkdaşlığının daha fəal inkişafına şərait yaradacağı qeyd edilmişdir.

Hesab edirik ki, iki ölkə arasında iqtisadi əlaqələrin siyasi əlaqələr müstəvisinə çatdırılması üçün geniş imkanlar mövcuddur. İkitərəfli iqtisadi-ticarət əməkdaşlığının çox böyük perspektivləri var. Misir Ərəb Respublikası istər Yaxın Şərqdə, istərsə də Afrika Qitəsində, ümumiyyətlə müsəlman aləmində aparıcı və nüfuzlu ölkələrdən biri hesab olunur. Eyni zamanda Misir aparıcı dövlət olmaqla yanaşı çox inkişaf etmiş iqtisadiyyata malik ölkədir. Bu ölkə ilə Azərbaycanın iqtisadi sahədə əməkdaşlığı üçün böyük imkanlar var.

Ümumiyyətlə, son illər həyata keçirilən iqtisadi siyasətin ən mühüm istiqamətlərindən biri xarici iqtisadi əlaqələrin genişləndirilməsi, investisiyaların, qabaqcıl texnologiyaların, idarəetmə təcrübəsinin cəlb olunmasıdır. Ölkədə bərqərar olmuş siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi

mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı dünya dövlətləri və xarici investorlar üçün ən cəlbedici ölkələrdən birinə çevirmişdir.

---

## Ədəbiyyat

[1] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet saytı (www.mfa.gov.az, Azərbaycan-Misir əlaqələri);

[2] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivinin materialları, qovluğun adı "Azərbaycan – Misir münasibətləri 1991-2008";

[3] Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı Səfirliyinin rəsmi internet saytı (www.azembassy.org.eg, Azərbaycan-Misir münasibətlərinin tarixi).

[4] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı (http://www.stat.gov.az/source/trade/).

[5] www.mideastweb.com

## RUSSIAN-EGYPTIAN ECONOMIC AND TRADE TIES

**E.M.Mamedzadeh**

**SUMMARY**

This article discusses the issues of trade and economic relations between Azerbaijan and the Arab Republic of Egypt. It highlights the nature, direction and history of trade and economic relations between Azerbaijan and Egypt during the period of restoration of Azerbaijan's independence. In this regard it is significant that Azerbaijan after the restoration of its independence attaches a great importance to comprehensive development of its relations and enlargement of cooperation in different fields with Arab countries, which are bound by historical, religious and cultural roots with Azerbaijan.

It should be noted that one of the main directions of economic policy in recent years is the expansion of foreign economic relations and attraction of investments, advanced technologies and management experience. The current political and macroeconomic stability, reliable protection of the rights of investors, favorable geographical location, rich natural resources, the presence of a highly skilled workforce has made Azerbaijan one of the most attractive countries for foreign investors.

# РОССИЙСКО-ЕГИПЕТСКИЕ ТОРГОВО-ЭКОНОМИЧЕСКИЕ СВЯЗИ

**Э.М.Мамедзаде**

**РЕЗЮМЕ**

В данной статье рассматриваются вопросы торгово-экономических отношений Азербайджанской Республики с Арабской Республикой Египет. Здесь освещается

характер, направление и хронология торгово-экономических отношений Азербайджана с Египтом в период после приобретения Азербайджаном своей независимости. В этой связи надо особо отметить что, Азербайджан после восстановления своей независимости придает большое значение развитию всесторонних отношений и расширению сотрудничества в различных областях с арабскими странами, которые связывают исторические, религиозные и культурные корни с Азербайджаном.

Следует отметить что, одним из основных направлений экономической политики, проводимой в последние годы является расширение внешнеэкономических связей, а также привлечение инвестиций, передовых технологий и управленческого опыта. Сложившаяся политическая и макроэкономическая стабильность, надежная защита прав инвесторов, выгодное географическое положение, богатые природные ресурсы, присутствие высококвалифицированной рабочей силы сделала Азербайджан одной из самых привлекательных стран для иностранных инвесторов.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# YUXARI SİNİF ŞAGİRDLƏRİNDƏ MƏNƏVİ DƏYƏRLƏRİN FORMALAŞMASINDA SİNİFDƏNXARİC TƏDBİRLƏRİN ROLU

**Q.N.Nəsirova**
Azərbaycan Müəllimlər İnstitutu
Bakı, Nərimanov, H.Əliyev. 104
ganga_51@ mail.ru

***Açar sözlər:*** mənəvi tərbiyə, sinifdənxaric iş, məşğələ, fərdi iş, kütləvi iş, pedaqoji proses,
***Ключевые слова:*** моральная воспитания, внеклассная работа, кружки , индивидуальная работа, массовая работа, педагогический процесс
***Key words:*** inkişafı- moral education, of class work , mugs, individual work, mass work, pedagogical process

"Mənəvi tərbiyə-tərbiyənin mühüm tərkib hissəsidir. İnsanın mənəvi inkişafı ömür boyu davam etsə də,onun başlıca keyfiyyətləri,əsasən uşaqlıq, yeniyetməlik və gənclik dövründə təşəkkül tapır,sonrakı yaşlarda isə qazanılmış müsbət keyfiyyətlərlə möhkəmlənir"(2,81)

Sinifdənxaric işlərin ümumtəhsil məktəblərinin yuxarı siniflərində təşkili və aparılması, ictimai təşkilatların (gənclər təşkilatı, şagird kollektivi) və valideynlərin bu məşğələlərin keçirilməsinə etdikləri dəstək nəticəsində şagirdlərin ümumi inkişafı, dünyagörüşü və tərbiyəlilik səviyyəsi yüksəlir. Sinifdənxaric işlərin ardıcıl keçirilməsi nəticəsində şagirdlərin müstəqillik, özfəaliyyət və özünüidarəsinin gücləndirilməsinə, mənəvi aləmlərinin zənginləşməsinə, ictimai fəallıqlarının artmasına, intizamın və kollektiv birliyin möhkəmləndirilməsinə nail olmaq mümkündür.

Sinifdənxaric tədbirlər yalnız o zaman qənaətbəxş hesab edilə bilər ki, o gənc nəsildə nəcib əxlaqi sifətlərin formalaşmasına kömək göstərsin, təlim- tərbiyə nöqteyi - nəzərindən məzmunlu olsun, məktəbin qarşısında duran təlimedici, tərbiyəedici və inkişafetdirici funksiyalar arasında əlaqə yaratmaq mahiyyəti daşısın. Məktəbdə il ərzində keçirilən sinifdənxaric işlərin sayı deyil, onların yuxarı sinif şagirdlərinin intizamına, davranış və rəftarına, şüuruna, tərbiyəlik səviyyəsinə göstərilən müsbət dəyişikliklərə diqqət yetirilməlidir. Buna nail olmaq üçün isə, sinidənxaric işin müxtəlif formalarına davamlı müraciət etməklə, yuxarı sinif şagirdlərində vətənpərvərlik, yoldaşlıq və dostluq, özünə və başqalarına, yaşlılara hörmət, düzgünlük, şəxsi və milli ləyaqət hisslərinin, qayğıkeşlik, cəsurluq, sadəlik, təvazökarlıq, xeyirxahlıq və s. kimi mənəvi keyfiyyətlərin inkişafının qayğısına qalmaq lazımdır.

"Şagirdlərin davranış mədəniyyətlərinin formalaşmasının əsasında, məktəb, ailə və cəmiyyətin birgə həyata keçirdiyi mənəvi tərbiyə durur."(3,311)

Müşahidələr göstərir ki, hansı məktəbdə sinifdənxaric tədbirlər ilin əvvəlində planlı surətdə, davamlı, şagirdlərin istəyi əsasında təşkil edilirsə, dərslə sinifdənxaric işlər arasında ahəngdarlıq varsa, onlar bir-birini məzmun və mənaca tamamlayırsa, dərsdə verilən biliklər sinifdənxaric tədbirlər vasitəsilə möhkəmlənirsə, bunun nəticəsi müsbət olur. Əlbəttə, burada mütləq şagirdlərin fərdi xüsusiyyətləri də nəzərə alınmalıdır.

Azərbaycan pedaqoqları gənc nəslin tərbiyəsində fərdi xüsusiyyətlərin nəzərə alınmasını vacib hesab edirlər. S.H.Axundov yazır:"Şəxsiyyət həmişə dəyişir,inkişaf edir,onda başqalarında mövcud olmayan yeni-yeni keyfiyyətlər əmələ gəlir. Bu, xarici şəraitdən, təlim-tərbiyənin təsirindən irəli gəlir. Məhz buna görə də səxsiyyətlər bir sıra ümumi xüsusiyyətləri ilə bir-birinə oxşasalar da, müxtəlif ictimai, tarixi, coğrafi, pedaqoji, əmək, ixtisas və s.şəraitdə, əmələ gələn bəzi xüsusiyyətlərə görə bir birindən fərqlənirlər.

Buna görə də pedaqoqları, bir tərəfdən, ümumi cəhətlər, digər tərəfdən, fərdi yanaşmada həlledici rol oynayan fərdi xüsusiyyətlər maraqlandırır."(1, 9).

Sinifdənxaric tədbirlərin bir sıra formalarının söhbət, müzakirə, disput, görüş, gecə, ekskursiya və s. həyata keçirilməsi zamanı, şagirdlərin fərdi xüsusiyyətləri nəzərə alınmaqla, onların tərbiyəlilik səviyyəsinin yüksəldilməsinə nail olmaq olar.

Sinifdənxaric işin formalarından biri olan disputların aparılmasında müəyyən sistemlilik gözlənilməlidir. Belə ki əvvəlcədən planlı şəkildə keçirilməsi nəzərdə tutulan disputların vaxtı və qısa proqramı əlvan rənglərlə işlənərək məktəbin foyesindən asılır. Keçiriləcək disputun mövzusu, dəvət olunmuş qonaqlar barəsində məlumat alan yuxarı sinif şagirdləri, sinifdənxaric işin keçirilməsinə məsuliyyət daşıyan müəllimlərdən məsləhətlər alırlar. Bu məsləhətlər keçiriləcək disputların məzmunundan asılı olaraq, müxtəlif olur və buna hazırlıq işləri əvvəlcədən aparılır.

Professor Y.R. Talıbov bu münasibətlə yazır: "Disput üçün mövzu seçmək müəllimin, sinif rəhbərinin öz sinfində apardığı tərbiyə işi ilə, şagird kolllektivinin həyatı tələbatı ilə, sinifdə baş verən yaxşı və pis hərəkətləri, həmçinin şagirdlərin yaş və marağı ilə müəyyən edilir. Disput üçün mövzu seçərkən, müəllim onun adı haqqında da ciddi düşünür.Yeniyetmə şagirdlər üçün mövzunun maraqlı və cəlbedici olması əsas şərtlərdən biridir» (4, 8).

Disputun demokratik ruhda keçirilməsi şagirdlərə öz fikrini çəkinmədən söyləməyə, həyatda, cəmiyyətdə, evdə gördükləri neqativ hallara qarşı öz münasibətlərini tam açıqlamağa real imkan yaradır.

Professor Y.Talıbov yazır:- "Disputu keçirərkən yaxşı faktlardan, nümunələrdən istifadə etmək lazımdır. Çünki yaxşı faktlar, nümunələr şagirdləri özünə cəlb edir, onları həmin nümunələr əsasında fəaliyyət göstərməyə yönəldir, yaxşı faktları görən və dinləyən şagirdlər necə hərəkət etməyi öyrənirlər» (4, 7).

Disputlar şagirdlərin daxili aləmi, mənəvi zənginliklərini aşkara çıxarmağa şərait yaratmaq baxımından cəlbedici və maraq doğuran tədbirlərdəndir. Disputlar şagirdlərdə mənəvi keyfiyyətlərin, nəcib əxlaqi sifətlərin, ləyaqətli düşüncə mədəniyyətinin formalaşmasına kömək edir.

Yuxarı sinif şagirdlərində əxlaqi sifətlərin və mənəvi keyfiyyətlərin aşılanmasına təsir edən sinifdənxaric işlərdən biri də müzakirələrdir. Şagirdlərin milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsində mühüm rol oynayan kitab və bədii əsərlərin müzakirəsi bu baxımdan çox önəmlidir. Bədii əsərlərin müzakirəsinin keçirilməsi şagirdlərin dünyagörüşünə iki istiqamətdə təsir göstərir.Bir tərəfdən o, şagirdlərin həyata baxışlarını, başqalarına münasibətini formalaşdırır, digər tərəfdən onları özünütərbiyə etmək sirlərinə yiyələndirir. Bədii əsərlərin müzakirəsi həm də şagirdlərin yaradıcı təfəkkürünü zənginləşdirir, təxəyyülünü inkişaf etdirir.

Çox vaxt müəllimlərimiz bədii əsərlərin müzakirəsi zamanı onun əsas qayəsini şagirdlərə başa salır, ancaq onların həyat üçün gərəkli olan milli-mənəvi dəyərlərinin üstündən sükutla keçirlər. Onlar belə zənn edirlər ki, əgər əsərdə bilavasitə səslənməyən, obrazların fikirlərində əks olunmayan tərbiyə məsələlərin təhlilinə üstünlük verərlərsə, bu elmi dildən uzaq düşər.Lakin müəllimlər unudurlar ki, elm ən sərt düsturları və anlayışları ilə bədiilikdən, tərbiyəlilikdən yan keçmir, çünki o, eyni zamanda hisslərin mənbəyi, onların təzahürüdür. Aristotel ədəbiyyatın idrak funksiyasını qiymətləndirərək yazmışdır ki, bədiilik, poeziya, tarixdən daha ciddi və fəlsəfidir.Aristotel bununla bədii ədəbiyyata yalnız zövq,emosiya mənbəyi kimi yox, təbiət, cəmiyyət hadisələrinin bədii dərki, tərbiyə çalarlarının aşılanması funksiyasından yanaşmağı da vacib sayırdı.

Orta ümumtəhsil məktəblərində bədii ədəbiyyatın müzakirəsi, milli-mənəvi dəyərlərin şagirdlərə geniş şəkildə aşılanması və onların bu ruhda tərbiyə olunmasına

imkan verir. İstər bədii əsərlərin, istərsədə hər hansı bir şeirin müzakirəsi, şagirdlərin mənəvi dünyasına təsir edir, onlarda saf əqidənin yaranmasına səbəb olur.

Müzakirələr zamanı həm də hadisələrə, təsvirlərə emosional münasibət yaranır. Şagird üçün əsərin başa düşülməsi gedişində emosiyaların və tərbiyənin təsir güçü böyük olur və o, daxili təlabata çevrilmək zərurəti yarada bilir. Bu tələbatın ödənilməsinə məhz estetik tərbiyəvi informasiya duyumunun olması kömək edir. Əsərin verdiyi müsbət informasiya qavranıldıqda aydın olur ki, doğrudan da əsər şagirdə tam tərbiyəvi əhəmiyyət göstərə bilir və hadisələrin tərbiyəvi imkanlarını emosional tablolarla ona ötürə bilir.

Bədii əsərlərin müzakirəsinə ciddi yanaşmaq lazımdır.Bunun üçün:

1. Müzakirəyəhazırlanan əsərin tərbiyəvi gücü duyulmalıdır, bu da müzakirə zamanı milli- mənəvi dəyərlərin daha qabarıq verilməsinə imkan yaradır;

2. Bədii əsərlər seçilərkən, milli-mənəvi dəyərləri daha çox özündə əks etdirən əsərlərə üstünlük verilməlidir;

3. Seçilən əsərlər şagirdlərin təlim materialı ilə uzlaşdırılmalı və bir növ onun davamı kimi qəbul eilməlidir;

4. Bədii əsərlərin müzakirəsi şagirdlərin yaşına uyğun səviyyədə təşkil olunmalıdır;

5. Müzakirə şagirdlərin arzu və istəklərinə uyğun olmalıdır.Müzakirə üçün əsərlərin şagirdlər tərəfindən seçilməsi məqsədəuyğun sayılır;

6. Seçilən bədii əsərlər şagirdlərin dünyagörüşünə uyğun müəyyənləşdirilməlidir;

7. Əsərlərin müzakirəsinin təşəbbüskarı və təşkilatçısı rolunu şagirdlər oynamalıdırlar;

8. Müzakirələr düşündürücü, maraqlı və əyləncəli notlar üzərində köklənməlidir;

9. Keçirilən hər bir müzakirənin nəticəsi ön plana çəkilməli və şagirdin fəaliyyəti qiymətləndirilməlidir.

Tədqiqat mövzusu ilə əlaqədar olaraq eksperimentə cəlb edlmiş Zərifə Əliyeva adına lisey, Zaqatala şəhər 1 saylı və Balakən şəhər Nizami Gəncəvi adına 1saylı orta məktəblərdə yuxarı sinif şagirdlərinin seçimi və maraqları əsasında bədii əsərlərin müzakirəsi keçirildi.

Zaqatala şəhər 1saylı məktəbin şagirdlərinin arzusu ilə Azərbaycanın böyük dramaturqu Cəfər Cabbarlının əsərlərinin müzakirəsi sinifdənxaric tərbiyə işinin əsas mövzusuna çevrildi.

Məktəbin böyük aktzalında keçirilən bu tədbirə yuxarı sinif şagirdləri (X-XI), tərbiyə işləri üzrə direktor müavini, valideynlər, ictimaiyyət və mediya nümayəndələri dəvət olunmuşdur.

Tədbiri giriş sözü ilə açan tərbiyə işləri üzrə direktor müavini Aynur Kərimova, məktəbdə keçirilən sinifdənxaric işlərin tərbiyəvi əhəmiyyətindən danışaraq, müzakirələrin bu baxımdan əvəzsiz olduğunu vurğuladı. Sonra söz məktəbin X sinif şagirdi, dərs fəalı Sevda Rəhimovaya verildi. O dedi:-"XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi, qısa ömrünü xalqın tərəqqisinə sərf etmiş qüdrətli dramaturq, dram əsərləri ilə yeni ədəbi məktəb yaratmış Cəfər Cabbarlı həm də lirik, satirik şerləri, mənzum hekayələri, maraqlı ssenariləri, gözəl təcrümələr müəllifi kimi məşhurdur. C.Cabbarlının bütün yaradıcılığı üçün zəhmətə, qurub yaratmağa, insanı, həyatı dərk etməyə, yenilik uğrunda fəal mübarizə aparmağa, mənəvi saflığa çağırış səciyyəvidir:

- Axar sular sən kiminsən?-Mənə körpü salanın,
- Doğan günəş sən kiminsən?- Məndən işıq alanın,
- Sonsuz fəza sən kiminsən? -Məndə qanad çalanın,
- Həyat söylə sən kiminsən?-Mən həyatı öyrənənin, bacaranın, alanın....

Söz XI sinif şagirdi Lətifə İbrahimovaya verilir. O ədəbiyyatımızda ana mövzusu, ananın müqəddəsliyinin tərənnümünün həmişə böyük yer tutduğunu qeyd etdi. Böyük

dramaturqumuz C.Cabbarlıbütün övladların ürək sözərini "Ana" şeirinin ölməz misralarında əbədiləşdirmişdir:

Bütün vücudum əsər, ruhum eyləyər pərvaz.
Uçar səmalara o, aləmi-xəyalətdə.
Yatar, ölər bədənim, nitqdən düşər bir söz:
-Ana...Ana...Sənə mən rahibəm itaətdə!..

C.Cabbarlının "Ana" şeiri onun şah əsəri sayıla bilər. Biz, bugünün, müasir dövrün gəncləri, ata-anaya hörmətlə yanaşmalıyıq, onların əziyyətini qiymətləndirməyi bacarmalıyıq. Ataya olan məhəbbət Allaha olan məhəbbətdir, ataya olan üsyan, Allaha üsyan kimi qiymətləndirilir. Vətənə olan məhəbbətin dərinliyi, anaya olan məhəbbətin ümmanı ilə eyni olduğu üçün "Vətən"və "Ana"məhfumları eyni bir ifadə kimi qoşa səslənir. Ana müqəddəs bir varlıqdır. Ona hörmət etmək hamımızın borcudur.Dahi şairin "Ana" şerinin aşağıda qeyd olunan misrası da bu fikri tamamlayır:

Ana!Ana!..O adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir.
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.

10-cu sinif şagirdi Lalə Hüseynovanın valideyni İlhamə xanıma söz verilir. O,sinifdənxaric işlərin Zaqatala şəhər 1 N-li tam orta məktəbində mütəmadi olaraq keçirildiyini və valideynlərin daim bura dəvət olunmasını müsbət hal kimi qiymətləndirdi. Övladının asudə vaxtının bu cür səmərəli keçirməsinə ürəkdən sevindiyini bildirdi. Mövzunun aktuallığına gəlincə isə, o qeyd etdi ki, müasir gənclər keçid dövründə özlərindən çox razı olur, valideynlərin verdikləri öyüd-nəsihətə o qədər də əhəmiyyət vermirlər. Birgə səy nəticəsində isə bu problemin həllinə nail olmaq mümkündür. Bugün məktəbinizdə C.Cabbarlının əsərləri müzakirə olunur. Anaya olan hörmət və ehtiram onun şeiri vasitəsilə şagirdlərə çatdırıldı. Zənnimcə, bugünkü tədbirin şagirdlərin tərbiyəsində böyük izi qalacaq, onların ən azı valideynlərinin verdiyi nəsihətlərə daha diqqətli olacaqlarına ümüd edirəm.

Sonda C.Cabbarlının "Sevil" əsərinin kinolenti gösrərildi. Azərbaycan qadınının azadlıq yolunu göstərən, keçmişin ağır yükündən qurtulmaq üçün, həyatın acılarını dadan "Sevil" obrazı öz mübarizliyi, təhsili, yeniliyi ilə müasir gənclərə həyat yollarında cəsarətli addımlar ataraq,müvəffəqiyyət qazanmaları üçün böyük həyat dərsi oldu.

Qarşıya qoyulan məqsəddən asılı olaraq, müzakirələr bu və ya digər əsərə həsr oluna bilər. Bədii əsərlərin müzakirə edilməsi gənclərdə vətənpərvərlik, xeyirxahlıq, vicdan, ədalət, şəxsi ləyaqət hissi, anaya, Vətənə, xalqa təmannasız xidmət etmək borcu kimi insani keyfiyyətlər aşılayır. Bunun üçün şagirdlərə tam müstəqillik verilməli, məktəbdə keçirilən dərslərin ahəngdarlığı qorunmaqla, müxtəlif tərbiyəvi mövzulara həsr olunmuş əsərlər şagirdlərin seçimi əsasında müzakirə olunmalıdır.

Müxtəlif tarixi günlər, tarixi hadisələrlə bağlı keçirilən yığıncaq və gecələr də şagirdlərin yaddaşında daim qalır və onlarda böyük qurur hissi oyadır.Bu gecələrin təsirindən uzun müddət ayrıla bilməyən yuxarı sinif şagirdləri həmin qəhrəmanlardan qurur hissi keçirir və özlərini onlar kimi igid olmağa hazırlayırlar.

### Ədəbiyyat


1. Axundov S.H. İstedadlı şagirdlərlə işin təşkili" Azərbaycan məktəbi» jurnal N1, Bakı : 1990, 25s.
2. Mustafayeva R.Ə.Gənclər siyasəti XXI əsrdə:Ali məktəb tələbələrinin tərbiyəsinin bəzi məsələləri,Bakı,2016 "APOSTROFF" Nəşriyyatı, 2016, 316 səh.
3. Сластёнин В.А., Исаев И.Ф.,Шиянов Е.Н.Педагогика,6-е изд. Издательский центр «Академия», 2007-576 с.

4. Talıbov Y.R. Məktəbdə disputlarıntəşkilivəkeçirilməsi.Bakı: Azərb.M.N.nəşri. 1979,181s.

## РОЛЬ ВНЕКЛАССНЫХ РАБОТ В ФОРМИРОВАНИИ НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ У СТАРШЕКЛАССНИКОВ

**Г.Н.Насирова**

**РЕЗЮМЕ**

Основная цель духовно-нравственного воспитательного процесса в школе - это создание эффективных условий для формирования духовности и нравственности школьников. Основные духовные ценности школьников: патриотизм, гражданственность, свобода, честь, милосердие, справедливость, доверие, стремление к миру во всём мире, межнациональному и межкультурному разнообразию, толерантности, прогрессу и сотрудничеству, стремление к знаниям, ценность семь, творчество, труд, вера, духовность, искусство.

## THE ROLE OF EXTRA-CURRICULAR ACTIVITIES IN THE FORMATION OF MORAL VALUES AMONG HIGH SCHOOL STUDENTS

**G.N.Nasirova**

**SUMMARY**

The main purpose of spiritual and moral upbringing in school is the creation of effective conditions for the formation of spirituality and morality of students.

Basic spiritual values of school are patriotism, civic freedom, honor, compassion, fairness, trust, commitment to world peace, inter-ethnic and inter-cultural diversity, tolerance, progress and cooperation striving for knowledge and creativity of the value of family labor of faith and spirituality of art.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# НЕЧЕТКИЙ АНАЛИЗ ИННОВАЦИОННОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА

**К.Иманов,**
Институт Систем Управления НАНА,
e-mail:korkmazi2000@gmail.com,
**Р.Акперов,**
Азербайджанский Государственный Экономический Университет,
e-mail:rovshankperov@yahoo.com,

**З.Асланов**
Университет Одлар Юрду
e-mail: aslanovzaur@hotmail.com

***Açar sözlər:*** innovasiya inkişafının aqreqir indeksi, səmərəliliyin nisbəti, intuitiv qeyri-səlis çoxluq, entropiya və çəkilər.

***Keywords:*** aggregate index of innovation development, efficiency ratio, intuitionistic fuzzy set, entropy and weights;

***Ключевые слова:*** глобальный индекс инновационного развития, коэффициент эффективности, интуитивное нечеткое множество, энтропия и веса.

## Введение.

Под инновацией понимается внедрение нового или значительно улучшенного продукта (товара или услуги) или процесса, нового метода маркетинга или нового организационного метода в бизнесе, организация новых рабочих мест и внешних связей[1].

Существуют различные методики измерения инновационного потенциала, наиболее известными из которых являются - Глобальный инновационный индекс [2], субиндекс инновационного потенциала Индекса глобальной конкурентоспособности, рассчитываемый Всемирным Экономическим Форумом [3], Индекс экономики знаний, разработанный Институтом Всемирного Банка [4], а также Табло инновационного союза, предложенное Европейской Комиссией [5].

С 2007 года Международная бизнес—школаINSEAD (Франция) рассчитывает Глобальный Индекс Инноваций для определения уровня инноваций в отдельных странах мира, чтопредставляет наиболее полный перечень показателей инновационного развития. Глобальный Индекс Инноваций [2] составляется на основании79 различных показателей и рассчитывается как взвешенная сумма оценок двух групп показателей:

1. Располагаемых ресурсы и условий для проведения инноваций - INT:
   - Институтов - INS;
   - Человеческого капитала и исследований - HC;
   - Инфраструктуры - INF;
   - Развития внутреннего рынка - MS;
   - Развития бизнеса - BS.
2. Достигнутых практических результатов осуществления инноваций - OUT:

- Развития технологий и экономики знаний - KTO;
- Результатов креативной деятельности - CRO.

Глобальный Индекс Инноваций (GII) представляет собой среднее значение подиндексоврасполагаемых ресурсов (INT) и условий, достигнутых практических результатов осуществления инноваций (OUT), а также коэффициента эффективности инноваций (IER). Как указано в методологической части глобальный индекс инноваций определяется как среднее арифметическое нормализованных показателей подиндексов. Однако необходимо отметить, что значения весов имеют большое значение при вычислении любых индексов, и эти веса зависят не только от времени, но также от ситуации, сложившейся в инновационной деятельности страны.

В настоящей работе проводится нечеткий подход к оценке весов подиндексов ($w_i$) Глобального Индекса Инноваций и коэффициента эффективности инновации в Азербайджанае в 2011-2015 годах. При проведении исследования нами использована информация сайта:
[https://www.globalinnovationindex.org/content/page/GII-Home].

**Нечеткая оценка глобального индекса инновации**

При нечетком подходе к глобальному индексу финансовой стабильности полученные значения подиндексов за 2005-2015-е годы разделены на следующие термы:

- низкая – L = (1,13,25);
- ниже среднего – LM = (24.9,37.45,50);
- выше среднего – UM = (49.9, 62.45, 75);
- высокая – H = (74.9; 87.45; 100).

Матрица лингвистических переменных за 2011-2015 годы дана в нижеследующей таблице 1.

**Матрица лингвистических переменных за 2011-2015 годы**

Таблица 1

| | | 2011 | | 2012 | | 2013 | | 2014 | | 2015 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Input | 1. INS | 35.3 | LM | 49.5 | LM | 52.7 | UM | 53.4 | UM | 56.2 | UM |
| | 2. HC | 57.9 | UM | 30.0 | LM | 25.5 | LM | 20.9 | L | 21.9 | L |
| | 3. INF | 22.0 | L | 26.2 | LM | 25.1 | LM | 32.4 | LM | 37.1 | LM |
| | 4. MS | 44.1 | LM | 44.9 | LM | 48.4 | LM | 59.9 | UM | 52.0 | UM |
| | 5. BS | 31.7 | LM | 33.5 | LM | 23.7 | L | 20.1 | L | 20.7 | L |
| Output | 1.KTO | 24.4 | L | 20.5 | L | 13.7 | L | 19.1 | L | 19.1 | L |
| | 2. CRO | 17.9 | L | 27.5 | LM | 32.1 | LM | 24.6 | L | 26.2 | LM |

Как было указано в методологической части глобальный индекс инноваций определяется как среднее арифметическое число нормализованных показателей подиндексов. Однако следует напомнить, что значения весов имеют большое значение при вычислении любых индексов, и эти веса зависят не только от времени, но и от ситуации, сложившейся в инновационной деятельности страны.Для определения весов отдельных подиндексов глобального индексаинноваций используются инструменты интуитивного нечеткого множества.

Интуитивное нечеткое множество предложено К.Атанассовым [6], которое является обобщением нечеткого множества Л.Заде. Интуитивное нечеткое множество определяется как:

$$A = \{< x, \mu_A(x), \nu_A(x) > | x \in X\},$$

где

$$\mu_A: X \to [0,1] \nu_A: X \to [0,1]$$

при условии

$$0 \leq \mu_A(x) + \nu_A(x) \leq 1 \qquad \forall x \in X$$

Числа $\mu_A(x), \nu_A(x) \in [0,1]$ означают соответственно степень принадлежности и не принадлежности $x$к$A$

Для каждого интуитивного нечеткого множества $X$ существует интуитивный индекс $x$ в $A$:

$$\pi_A(x) = 1 - \mu_A(x) - \nu_A(x)$$

Показатели подиндексов глобального индекса инновации Азербайджана за 2011-2015-е годы, соответствующие показателям интуитивного нечеткого множества представлены в таблице 2:

**Показателям интуитивного нечеткого множества**

Таблица 2

| | 2011 | | 2012 | | 2013 | | 2014 | | 2015 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | $\mu_A$ | $\nu_A$ | $\mu_A$ | $\nu_A$ | $\mu_A$ | $\nu_A$ | $\mu_A$ | $\nu_A$ | $\mu_A$ | $\nu_A$ |
| | **Ресурсы и условия для проведения инноваций** | | | | | | | | | |
| **1. INS** | 0.83 | 0.17 | 0.04 | 0.96 | 0.22 | 0.78 | 0.28 | 0.72 | 0.50 | 0.50 |
| **2. HC** | 0.64 | 0.36 | 0.41 | 0.59 | 0.05 | 0.95 | 0.34 | 0.66 | 0.26 | 0.74 |
| **3. INF** | 0.25 | 0.75 | 0.10 | 0.90 | 0.02 | 0.98 | 0.60 | 0.40 | 0.97 | 0.03 |
| **4. MS** | 0.47 | 0.53 | 0.41 | 0.59 | 0.13 | 0.87 | 0.80 | 0.20 | 0.17 | 0.83 |
| **5. BS** | 0.54 | 0.46 | 0.69 | 0.31 | 0.11 | 0.89 | 0.41 | 0.59 | 0.36 | 0.64 |
| | **Практические результаты осуществления инноваций** | | | | | | | | | |
| **1.KTO** | 0.05 | 0.95 | 0.38 | 0.62 | 0.94 | 0.06 | 0.49 | 0.51 | 0.49 | 0.51 |
| **2. CRO** | 0.59 | 0.41 | 0.21 | 0.79 | 0.57 | 0.43 | 0.03 | 0.97 | 0.10 | 0.90 |

В этой работе нами для определения весов подиндексовглобального индекса инновации (GII) использована обобщенная мера энтропии интуитивного нечеткого множества $F$, состоящего из $n$элементов и предложенная Е.Шмидтом и Й.Каспирчеком [7]:

$$E(A_i) = \frac{\max Count(A_i \cap A_i^c)}{\max Count(A_i \cup A_i^c)},\ (i=1,\dots,n).$$

Вычисление энтропии для показателей подиндексарасполагаемых ресурсов и условий инновации (Input)на 2011 год:

$$E(A_1) = \frac{(0.83,0.17,0) \cap (0.17,0.83,0)}{(0.83,0.17,0) \cup (0.17,0.83,0)} = \frac{0.17}{0.83} = 0.21$$

$$E(A_2) = \frac{(0.64,0.36,0) \cap (0.36,0.64,0)}{(0.64,0.36,0) \cup (0.36,0.64,0)} = \frac{0.36}{0.64} = 0.56$$

$$E(A_3) = \frac{(0.25,0.75,0) \cap (0.75,0.25,0)}{(0.25,0.75,0) \cup (0.75,0.25,0)} = \frac{0.25}{0.75} = 0.33$$

$$E(A_4) = \frac{(0.47,0.53,0) \cap (0.53,0.47,0)}{(0.47,0.53,0) \cup (0.53,0.47,0)} = \frac{0.47}{0.53} = 0.89$$

$$E(A_5) = \frac{(0.54,0.46,0) \cap (0.46,0.54,0)}{(0.54,0.46,0) \cup (0.46,0.54,0)} = \frac{0.46}{0.54} = 0.85$$

Далее по формуле$w_i = \frac{1-E(A_i)}{n-\sum_{i=1}^{n} E(A_i)}$определяются веса отдельных показателей подиндекса Input.

Для 2011 года веса отдельныхпоказателейподиндексаInput вычислены следующим образом:

$$w_1(2011) = \frac{1-0.21}{5-2.83} = \frac{0.79}{2.17} = 0.37$$

$$w_2(2011) = \frac{1-0.56}{5-2.83} = \frac{0.44}{2.17} = 0.20$$

$$w_3(2011) = \frac{1-0.33}{5-2.83} = \frac{0.67}{2.17} = 0.31$$

$$w_4(2011) = \frac{1-0.89}{5-2.83} = \frac{0.11}{2.17} = 0.05$$
$$w_5(2011) = \frac{1-0.85}{5-2.83} = \frac{0.15}{2.17} = 0.07$$

Вычисление энтропии для показателей подиндекса достигнутых практических результатов инновации (Output)на 2011 год дано ниже:

$$E(A_{10}) = \frac{(0.05,0.95,0) \cap (0.95,0.05,0)}{(0.05,0.95,0) \cup (0.95,0.05,0)} = \frac{0.05}{0.95} = 0.05$$
$$E(A_{20}) = \frac{(0.59,0.41,0) \cap (0.41,0.59,0)}{(0.59,0.41,0) \cup (0.41,0.59,0)} = \frac{0.41}{0.59} = 0.70$$

Для 2011 года веса отдельных показателей подиндексаOutput вычислены следующим образом:

$$w_{10}(2011) = \frac{1-0.05}{2-0.75} = \frac{0.95}{1.25} = 0.76$$
$$w_{20}(2011) = \frac{1-0.7}{2-0.75} = \frac{0.3}{1.25} = 0.24$$

Используя найденные веса показателей InputиOutput вычислены значения нечетких подиндексов, Глобального индекса инновации (GII) и коэффициент эффективности (IEI) на 2011 год:

$$\begin{aligned} Input &= 0.37(LM) + 0.2(UM) + 0.31(L) + 0.05(LM) + 0.07(LM) \\ &= 0.37(24.9,37.45,50) + 0.2(49.9,62.45,75) + 0.31(1,13,25) \\ &+ 0.05(24.9,37.45,50) + 0.07(24.9,37.45,50) = (22.51,34.87,47.25) = \\ &= L - LM \end{aligned}$$

$$\begin{aligned} Output &= 0.76(L) + 0.24(L) = 0.76(1,13,25) + 0.24(1,13,25) \\ &= (0.76,9.88,19) + (0.24,3.12,6) = (1,13,25) = LM \end{aligned}$$

$$GII = \frac{(22.51,34.87,47.25) + (1,13,25)}{2} = \frac{(22.51,47.87,72.25)}{2} = (11.26,23.94,36.13)$$
$$= L - LM$$

$$IEI = \frac{(22.51,34.87,47.25)}{(1,13,25)} = (0.9,2.68,47.25) = L - LM$$

Значения весов подиндексов и глобальных индексов финансовой стабильности за 2005-2015 годы приведены в таблице 3.

**Результаты расчетов весов подиндексов и глобального индекса инновации за 2011-2015 годы**

Таблица 3

| Годы / Показатели | **2011** | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|---|
| $w_1$ | 0.37 | 0.32 | 0.16 | 0.25 | 0.01 |
| $w_2$ | 0.20 | 0.1 | 0.22 | 0.99 | 0.23 |
| $w_3$ | 0.31 | 0.3 | 0.22 | 0.13 | 0.33 |
| $w_4$ | 0.05 | 0.1 | 0.02 | 0.31 | 0.28 |
| $w_5$ | 0.07 | 0.18 | 0.2 | 0.12 | 0.15 |
| $w_{10}$ | 0.76 | 0.35 | 0.79 | 0.04 | 0.04 |
| $w_{20}$ | 0.24 | 0.65 | 0.21 | 0.96 | 0.96 |
| **Input** | (21.5,34.9,47.3)=L-LM | (24.9,37.5,50)=LM | (24.1,36.6,49)=LM | (31.5,44,56.3)=LM-UM | (27.6,41,54.5)=LM-UM |
| **Output** | (1,13,25)=LM | (16.5,28.9,41.3)= L-LM | (6,18,30.3)=L-LM | (1,13,25)=L | (24.3,36.5,49)=LM |
| **GII** | (11.3,24,30.6)=L-LM | (20.7,33.2,43.9)= L+LM | (15,27.4,40)= L-LM | (16.3,28.4,40.6)= L-LM | (25.9,38.8,51.8)=LM-UM |
| **IER** | (1,2.7,47.3)= L-LM | (0.6,1.3,3)= L | (1,2,8)=L | (1.3,3.4,56.3)=L-UM | (1,1.2,2.2)=L |

**Заключение**

Результаты проведенных исследований дают возможность определить веса подиндексовглобального инновационного индекса, на основании которых определяются качество и эффективность инновационной деятельности страны, что позволяет лицам, занимающимся в соответствующих отраслях принимать оперативные решения для улучшения соответствующих параметров инноваций.

## Литература


1. Oslo Manual Guidelines forcollectingand interpreting innovation data. The Measurement of Scientific and Technological Activities, 3rd edition, OECD 2005, 163 p.
2. The Global Innovation Index 2015: Effective Innovation Policies for Development, Fontainebleau, Ithaca, and Geneva. Cornell University, INSEAD, and WIPO, 2015, 418 p.
3. The Global Competitiveness Report 2013–2014 Full Data Edition,Klaus Schwab, World Economic Forum, Geneva, 2013, 551 p.
4. World Bank's Knowledge assessment Methodology (KAM), http://.worldbank.org/kam
5. European Commission Innovation Union Scoreboard, 2015, 94 p.
6. K.Atanassov, Intuitionistic fuzzy sets, Fuzzy Sets and Systems 20(1), 1986, 87-96 pp.
7. E.Szmidt, J.Kacprzyk, Entropy for intuitionistic fuzzy sets. Fuzzy Sets and Systems, 118, 2001, 467-477 pp.
8. Oslo Manual Guidelines forcollectingand interpreting innovation data. The Measurement of Scientific and Technological Activities, 3rd edition, OECD 2005, 163 p.
9. The Global Innovation Index 2015: Effective Innovation Policies for Development, Fontainebleau, Ithaca, and Geneva. Cornell University, INSEAD, and WIPO, 2015, 418 p.
10. The Global Competitiveness Report 2013–2014 Full Data Edition,Klaus Schwab, World Economic Forum, Geneva, 2013, 551 p.
11. World Bank's Knowledge assessment Methodology (KAM), http://.worldbank.org/kam
12. European Commission Innovation Union Scoreboard, 2015, 94 p.
13. K.Atanassov, Intuitionistic fuzzy sets, Fuzzy Sets and Systems 20(1), 1986, 87-96 pp.
14. E.Szmidt, J.Kacprzyk, Entropy for intuitionistic fuzzy sets. Fuzzy Sets and Systems, 118, 2001, 467-477 pp.


## FUZZY ANALYSIS OF INNOVATION DEVELOPMENT

**K.Imanov, R.Akberov, Z.Aslanov**


### Summary

The article presents fuzzy analysis of the innovation development of Azerbaijan during the period of 2011-2015. For the purpose of in-depth analysis, weights of individual indicators that form the index of innovation development are determined by using the intuitionistic fuzzy set.

## AZƏRBAYCANIN İNNOVASİYA İNKIŞAFININ TƏHLİLİ

**K.İmanov, R.Əkbərov, Z.Aslanov**

**Xülasə**

Məqalədə Azərbaycanda 2011-2015-ci illər ərzində innovasiyanın inkişafının qeyri-səlis təhlili verilmişdir. Daha dərin təhlilin aparılması məqsədilə innovasiyanın inkişaf indeksini formalaşdıran fərdi göstəricilərin çəkiləri intuitiv qeyri-səlis çoxluqdan istifadə etməklə müəyyən olunmuşdur.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA TİCARƏT DÖVRİYYƏSİNİN DETERMİNANTLARI

**X.F.Abdullayeva**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət Idarəçilik Akademiyası
Bakı. M.Lermontov. 74
e-mail: f_abdullayeva@mail.ru

***Açar sözlər***:"qravitasiya modeli", müqayisəli üstünlüklər nəzəriyyəsi, biznes və investisiya mühiti, ixrac diversifikasiyası, Preferensial Ticarət Sazişi

Ticarət və sənaye siyasətləri öz effektini verərsə Azərbaycan tədricən texnologiya tutumlu məhsulların payını öz ixracatında artıra bilər. Burada diqqət yetirirlməli olan əsas məsələ müvəqqəti proteksionist addımların qısa müddətli faydası ilə yanaşı, iqtisadiyyata zərərini də müəyyən etmək, onlardan vaxtında imtina etməyi bacarmaqdır. Ölkələrin iqtisadi artım tempi yüksəldikcə, yəni milli iqtisadiyyatları böyüdükcə onların xarici ticarət həcmləri də arta bilər. Bu halda bu və ya digər ölkənin açıq iqtisadiyyata malik olması güman edilir. Beynəlxalq ticarət nəzəriyyəsindəki "qravitasiya modeli"nə əsasən iki ölkə arasındakı ticarət dövriyyəsi hər iki ölkənin iqtisadiyyatlarının böyüklüyü və onlar arasındakı məsafədən asılıdır.Preferensial Ticarət Sazişi iki ölkə arasında mübadilə olunan bəlli mallara güzəştli tariflərin tətbiqini nəzərdə tutur. İndiki məqamda belə bir sazişin imzalanması və ardıncada azad iqtisadi zonanın yaradılması Azərbaycan və Türkiyənin gələcəkdə vahid bazar formalaşdırmaqla tam iqtisadi inteqrasiyası üçün təməlləri daha da möhkəmlədər. Əgər iki ölkə arasında ticarət potensialı daha çox olan əmtəə və xidmətlər üzrə aparılan dəqiq hesablamalar göstərsə ki, güzəştli və ya azad ticarət sazişi üzrə birbaşa və dolayı xərclər yeni satış bazarlarının gətirəcəyi faydadan kiçikdir, onda bu cür sazişlər imzalana bilər və xeyli effektiv olar. Azərbaycanla Türkiyənin biznes və investisiya mühitinin bəzi komponentlərini müqayisə etdikdə görürük ki, Azərbaycanda biznesə başlamaq üçün qeydiyyat prosedurları Türkiyədən sadə olsa da, artıq biznes qurulanda sonra fəaliyyət göstərmək Türkiyədə daha rahatdır.

***Ticarət əlaqələrini şərtləndirən faktorlar***. İstənilən iki ölkə arasında ticarəti müəyyən edən mühüm determinantlar vardır:*ticarətin tariflər və nəqliyyat xərclərindən ibarət ümumi xərci; regional yaxınlaşma və iqtisadi inteqrasiya səviyyəsi; iqtisadiyyatların ümumi həcmi ("qravitasiya modeli"); coğrafi yerləşmə və yaxınlıq; koloniyal əlaqələr və mədəni (dil) oxşarlıqları; texnoloji innovasiyalar; biznes-investisiya mühiti.* İki ölkə arasındakı ticarətin dinamikasını izah edən ***"qravitasiya modeli"*** ticarət həcminin ölkələrin Ümumi Daxili Məhsulunun (ÜDM) həcmi ilə düz mütənasib, onlar arasındakı məsafə ilə isə tərsmütənasib olduğunu göstərir. Amma qeyd etməliyik ki, "qravitasiya modeli"nə yuxarıda göstərilən determinantlar da təsir edir. Habelə ölkələrin idxal və ixracının strukturu da burada önəmli faktordur. Ölkələrin emal olunmamış xammal, yoxsa emal olunmuş sənaye malları üzrə ixtisaslaşması onların hansı mallar üzrə müqayisli üstünlüyünün olmasından asılıdır. Həmdə bu müqayisəli üstünlük öz ölkəsi daxilində və beynəlxalq miqyasda iki ölkə arasında müəyyənləşdirilə bilər.

Beynəlxalq ticarətdə müqayisəli üstünlüklər nəzəriyyəsi əslində əmək məhsuldarlığının müxtəlifliyindən qaynaqlanan bir fenomendir. Bu fenomenə görə fərqli ölkələr fərqli əmək məhsuldarlığı nəticəsində malları fərqli xərclərlə istehsal edirlər. Fərqliliklərin səbəbi "Rikardonun müqayisəli üstünlüklər nəzəriyyəsi"ndə texnoloji fərqliliklərə gətirib çıxarır. ***"Heckshir-Ohlin modeli"ndə*** isə ("faktor təminatı") ölkələrin eyni texnoloji imkanlara çıxışının ola biləcəyi, əsas faktorun isə ölkələrin əmək və kapital kimi istehsal faktorlarına sahiblik dərəcəsinin fərqli olması göstərilir. Bu cür fərqli istehsal faktoru təminatları faktor qiymətləri və daxili qiymətlər vasitsilə ölkələrin xarici ticarətdə ixtisaslaşmasını təmin edir. Xam maddələr və emal olunmamış təbii resurslar üzrə ixtisaslaşan ölkələr uzunmüddətli periodda tələbin qiymət və gəlir elastikliyinin aşağı olması səbəbindən xammal qiymətlərinin azalması trendi ilə qarşılaşacaqlar. Yüksək texnologiyada isə trendlər kəskin ucuzlaşmanı nəzrdə tutmurdu. Müqayisəli üstünlüklər nəzəriyyəsinin müasir bir modifikasiyası kimi "aşkar müqayisəli üstünlük" anlayışı ortaya çıxmışdır. Aşkar müqayisəli üstünlük konkret sənaye sahəsində ixracın konkret bir ölkənin ixracında və dünya ixracında payının həmin ölkənin ümumi ixracı və dünya ixracına nisbəti kimi hesablanır. Hesablama nəticəsində ortaya çıxan rəqəmin 1-dən böyük olması bu sahədə ölkənin aşkar müqayisəli üstünlüyünün olması anlamına gəlir. Həm ümumi ixrac əsasında, həm də əlavə-dəyər ixracı əsasında Türkiyənin bu iki qrup mal üzrə daha çox aşkar müqayisəli üstünlüyü vardır: tekstil məhsulları, dəri vəayaqqabı; əsasmetallar vəhazırmetal məmulatları.

***"Heckscher-Ohlin-Samuelson (HOS) teoremi"nə***görə ölkələr onlarda daha çox olan istehsal faktorları (torpaq, təbii resurslar, kapital və s.) əsasında ticarət edirlər, yəni özündə bol olan istehsal faktorunun çox istifadə olunduğu məhsulu ixrac edir, özündə az olan istehsal faktorunun istifadə olunduğu məhsulu isə idxal edir. Bu baxımdan Azərbaycanın daha çox xammal və pre-fabrikat məhsulları Türkiyəyə ixrac edib, oradan isə daha çox maşın və avadanlıqlar idxal etməsi HOS teoreminə uyğun iqtisadi reallıqdır.

Ancaq ticarət və sənayesiyasətləri öz effektini verərsə Azərbaycanda tədricən texnologiya – tutumlu məhsulların payını öz ixracatında artıra bilər. Burada diqqət yetirirlməli olan əsas məsələ müvəqqəti proteksionist addımların qısa müddətli faydası ilə yanaşı, iqtisadiyyata zərərini də müəyyən etmək, onlardan "vaxtında" imtina etməyi bacarmaqdır. Xüsusən bazar iştirakçılarının sayı az olan sektorlarda subsidiya olmadan bazar iştirakçıları arasındakı "oyun" antaqonist xarakteralır və sektora daha sonradan girən istehsalçı mütləq mənada itirmək riski ilə üzləşir. Əks halda davamlı proteksionizm və dolayı subsidiyalar həm milli iqtisadiyyat üçün əlavə yük ola bilər və ciddi struktur problemlərinə səbəb olmaqla gözlənilənin əksinə olaraq konkret dəstəklənən sənaye sahəsində rəqabətliliyi azalda bilər. Bunun üçün Azərbaycanda prioritet elan olunan aşağıdakı sahələr[1] (iki ölkə arasında artıq ticarət predmeti olanlar və xidmət sahələri istisna olmaqla) üzrə daxili bazarın həcmi öyrənilməli və Türkiyə daxil olmaqla qonşu ölkələrə ixrac imkanları yendən gözdən keçirilməlidir: *kənd təsərrüfatı sektoru (bitkiçilik və heyvandarlıq);balıqçılıq və balıq sənayesi; qida (aqrar), tütünçülük və şərabçılıq sənayesi; yüngül sənaye, o cümlədən toxuculuq və ipəkçilik; tikinti materiallarının istehsalı və tikinti məmulatları sənayesi; kimya sənayesi; cihazqayırma sənayesi;*

***Azərbaycan və Türkiyə arasındakı ticarətə təsir edən faktorlar***. İstənilən iki ölkə (o cümlədən, Azərbaycan və Türkiyə) arasındakı xarici ticarət dövriyyəsi bir çox faktorlardan asılıdır ki, bunların da ən mühümləri bunlardır:

- *İnflyasiya*

[1]http://freeeconomy.az/prints/t-dqiqatlar/

Əgər bir ölkədə inflyasiya səviyyəsi onun ticarət tərəfdaşına nisbətən yüksəlirsə bu zaman digər şərtlərin sabit qalması halında cari hesablar balansı kəsiri daha da arta bilər. İstehlakçılar və korporasiyalar ölkədəki yüksək inflyasiya səbəbindən daha çox xarici ölkələrin mallarına yönəlirlər, nəticədə ölkənin ixracı azalır[2].

*- Milli gəlir*

Milli gəlirin artması da xarici mal və xidmətlərə tələbi artıra bilər ki, bu da cari hesablar balansına təsir edə bilər. Belə ki, faiz olaraq gəlirin artması daha çox xarici mallara tələbi artırar, nəinki yerli mallara.

*- Hökümətin proqramları*

Hökumətlər ixracatçıları subsidiyalaşdırmaq, idxala məhdudiyyətlər gətirmək və müəllif hüquqları vasitəsilə ticarət balansına böyük təsir edə bilərlər.

*- İxracatçılara subsidiyalar*

Bəzi ölkələr qlobal rəqiblərindən daha ucuz mal istehsal etmələri üçün daxili firmalara subsidiyalar verirlər. Bu cür şirkətlər zamanla ixracatı artıra bilər və qlobal bazardan daha çox pay ala bilərlər. Ancaq uzunmüddətli dövrdə bəzən bu cür subsidiyalar effektiv olmaya bilər.

*- İdxala məhdudiyyətlər*

Əgər ölkələr idxal olunan mallara vergi və rüsumlar (tarif) tətbiq edərlərsə bu zaman həmin malların qiyməti daha da bahalaşa bilər. Bu zaman öncəlikli sənaye sahələri daha çox proteksionist tədbirlərin hədəfi olur. Tariflərdən başqa hökumətlər kvotalar (minimum və maksimum limitlər) vasitəsilə də idxalatı azalda bilər.

*- Əqli mülkiyyət hüquqları və piratlığa qarşı mübarizə*

Bəzən hökumətlər əqli mülkiyyət hüquqlarının qorunmasını gücləndirərək. Və piratlığa qarşı məhdudiyyətləri yumşaldaraq beynəlxalq ticarət axınına neqativ təsir edə bilərlər.

*- Biznes-investisiya mühiti*

Azərbaycanla Türkiyənin biznes və investisiya mühitinin bəzi komponentlərini müqayisə etdikdə görürük ki, Azərbaycanda biznesə başlamaq üçün qeydiyyat prosedurları Türkiyədən sadə olsa da, artıq biznes qurulanda sonra fəaliyyət göstərmək Türkiyədə daha rahatdır.

**Cədvəl 1. DünyaBankının "Doing Business" hesabatınaəsasənbiznes-investisiyamühitigöstəriciləri**

| ***İndikator*** | ***Azərbaycan*** | ***Türkiyə*** |
|---|---|---|
| *Biznesəbaşlamaqprosedurları* | 2 | 8 |
| *Biznesəbaşlamaqüçüntələbolunanzaman* | 3 | 7.5 |
| *Biznesəbaşlamağınxərci (adambaşınadüşəngəlirə % nisbəti)* | 1.2 | 16.6 |
| *Minimum kapitaltələbi (adambaşınadüşəngəlirə % nisbəti)* | 0 | 11.0 |
| *Məhsulidxalıüçüntələbolunansaatlar* | 41 | 11 |
| *Məhsulidxalıüçüntələbolunansaatlar* | 35 | 2 |
| *Tikintiicazələrininalınmasıprosedurlarınasərfolunangünlərinsayı* | 203 | 103 |

*Mənbə: http://www.doingbusiness.org/data/*

*- Valyuta məzənnəsinin təsiri*

[2]http://www.yourarticlelibrary.com/foreign-trade/7-most-influential-factors-affecting-foreign-trade/5938/

Hər bir ölkənin milli valyuta vahidi digər ölkələrin milli valyuta vahidləri qarşısında müəyyən bir dəyərə sahibdirlər. Bu məzənnə dəyərinin dəyişməsi ilə beynəlxalq ticarət əməliyyatlarının həcmi də dəyişə bilər.

- *İqtisadi artım tempi*

Ölkələrin iqtisadi artım tempi yüksəldikcə, yəni milli iqtisadiyyatları böyüdükcə onların xarici ticarət həcmləri də arta bilər. Bu halda bu və ya digər ölkənin açıq iqtisadiyyata malik olması güman edilir. Beynləlxalq ticarət nəzəriyyəsindəki “qravitasiya modeli”nə əsasən iki ölkə arasındakı ticarət dövriyyəsi hər iki ölkənin iqtisadiyyatlarının böyüklüyü (və ya böyümə tempi) və onlar arasındakı məsafədən asılıdır.

**Qrafik 1. İki ölkənin iqtisadi artımı və ticarət dövriyyəsi**




*Mənbə: www.stat.gov.az; www.tuik.gov.az*

Bu baxımdan coğrafi baxımdan qonşu ölkə olan, amma quru ticarət əməliyyatları qarşısında bəzi logistik çətinliklər (Naxçıvan blokadası səbəbindən) olan Azərbaycan və Türkiyənin son 23 ildəki iqtisadi artım dinamikasını təhlil etsək müxtəlif daxili və xarici faktorların təsiri ilə ciddi bir fluktuasiya müşahidə edə bilərik. Amma iqtisadi artım fluktuasiyalarına baxmayaraq iki ölkə arasındakı ticarət dövriyyəsi 1996-2013-cü illər intervallarında artım trendi göstərmişdir (2008-2009-cu illərdəki ciddi azalma istisna olmaqla)[3].

Beynəlxalq əmək bölgüsündə ölkə ixracının ixtisaslaşması baxımından yararlanması ixracın şaxələndirilməsi və ya diversifikasiyası səviyyəsindən asılıdır. *İxracın diversifikasiyası* isə mövcud ixrac səbətindəki ayrı-ayrı malların xüsusi çəkisini dəyişməyə, ixrac səbətinə yeni əmtəələr təklif etməyə və yeni coğrafi bazarlara çıxışı nəzərdə tutan siyasətlərin məcmusudur[4].

[3]Kənan Aslanlı, Amin Çərkəzov, “Azərbaycan–Türkiyəiqtisadiəlaqələri: Mövcudvəziyyətvəinkişafperspektivləri” Hesabatı, ATİB 2009

[4]AkramEsanov. “Economic diversification”. Senior Economist, RWI, July 20-22, 2011, Istanbul

Apardığımız tədqiqatlarda tətbiq olunan "qravitasiya modeli" və çoxfaktorlu ekonometrik təhlil Azərbaycan və Türkiyə arasındakı ticarət dövriyyəsinin həcmi digər makro-iqtisadi indikatorlarla (ÜDM başda olmaqla) müvafiq qiymətləndirmədə potensiala adekvat deyil. Ticarət və iqtisadi əlaqələrin inkişafı isə institusional və hüquqi təkmilləşdirmədə dayanıqlılıq tələb edir.

Azərbaycan və Türkiyə arasında qaşılıqlı ticarət dövriyyəsi və investisiya qoyuluşları mütləq ölçüdə artsa da, bunun xüsusən son qlobal iqtisadi böhrandan sonra daha da təhlükəsiz bazarların arandığı dövrdə iqtisadi əməkdaşlığın tam potensialını əks etdirmir. İkitərəfli investisiya və ticarət əlaqələrinin qarşısında duran milli qanunvericiliklə bağlı, gömrük və vergi sistemlərinin tələbləri ilə bağlı, qarşılıqlı əməkdaşlıq üçün sənaye və kənd təsərrüfatı ilə yanaşı digər klasterlərin tam müəyyən edilə bilməməsi ilə bağlı problemlər geniş müzakirə olunmalıdır.Türkiyənin iqtisadi baxımdan aktiv regionlarında Azərbaycanın investisiya imkanlarının tanıdılması və eyni zamanda da, Azərbaycanda həmin işin görülməsi vacibdir[5].

Azərbaycan Xarici İşlər Nazirliyinin 2013-cü ilə olan məlumatına görə indiyə qədər iki ölkə arasında 180-ə yaxın rəsmi sənəd imzalanmışdır. 2007-ci il noyabrın 6-da Bakı şəhərində imzalanmış və 2008-ci ilin fevralında təsdiq edilmiş "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı və icra planı" sənədi xüsusi önəmlidir. Bu sənəddə aşağıdakı çox önəmli addımların atılması nəzərədə tutulur ki, bunların da gerçəkləşməsi önümüzdəki dönəmdə ölkələrimiz arasındakı iqtisadi əlaqələrə ciddi töhfələr verə bilər:

- *iki ölkə arasındakı ticarət əlaqələrinin daha da inkişafı üçün beynəlxalq öhdəliklər və milli qanunvericiliklər çərçivəsində qeyri-tarif maneələrinin aradan qaldırılması;*
- *iki ölkə arasında Preferensial Ticarət Sazişinin (Preferential Trade Agreement – PTA)imzalanması;*
- *iki ölkənin özəl sektora firmaları arasındakı iqtisadi və ticarət fəaliyyətindən irəli gələ biləcək problemlərin mümkün qədər tez və ədalətli həlli üçün işçi qrupunun yaradılması;*
- *ölkələrin gömrük orqanları, kənd təsərrüfatı üzrə qurumları, bankları və birjaları arasında əməkdaşlığın gücləndirilməsi;*
- *arasındakı əməkdaşlığın inkişafı davam etdiriləcək, ehtiyaca əsasən məlumat, təcrübə və mütəxəssis mübadiləsi həyata keçiriləcəkdir.*
- *Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması prosesində Türkiyə ilə davamlı məsləhətləşmələrin aparılması*
- *Azərbaycanda "Azərbaycan-Türkiyə azad iqtisadi zonası"nın yaradılması imkanlarının araşdırılması və layihələrin hazırlanması;*
- *Azərbaycanda informasiya texnologiyaları (İT) ilə əlaqədar "Azad İqtisadi Zona - İT Texnoparkı"nın yaradılmasında əməkdaşlıq edilməsi;*
- *müştərək turizm layihələrinin həyata keçirilməsi sahəsində hər iki ölkənin investorlarının təşviq edilməsi istiqamətində işlərin görülməsi.*

Preferensial Ticarət Sazişi iki ölkə arasında mübadilə olunan bəlli mallara güzəştli tariflərin tətbiqini nəzərdə tutur. İndiki məqamda belə bir sazişin imzalanması və ardıncada azad iqtisadi zonanın yaradılması Azərbaycan və Türkiyənin gələcəkdə vahid bazar formalaşdırmaqla tam iqtisadi inteqrasiyası üçün təməlləri daha da möhkəmlədər. Əgər iki

[5]Qeyd: yazıda istinad edilən əlavə mənbələr bunlardır: http://www.deik.org.tr; http://www.setav.org; http://www.sam.gov.tr

ölkə arasında ticarət potensialı daha çox olan əmtəə və xidmətlər üzrə aparılan dəqiq hesablamalar göstərsə ki, güzəştli və ya azad ticarət sazişi üzrə birbaşa və dolayı xərclər yeni satış bazarlarının gətirəcəyi faydadan kiçikdir, onda bu cür sazişlər imzalana bilər və xeyli effektiv olar.

İki ölkə arasındakı gümrük rüsumları və vergi yükünün ağırlığı ticarət həcminin artmasının önündəki ən böyük əngəldir. Gürcüstanla Türkiyənin tətbiq etdiyi "tərcihli ölke anlaşması" (*intercountry adoption agreement on trade preferences*) bu problemdən çıxış yoludur. Türkiyəyə idxal edilən Yunanıstan istehsalı olan polietilen Avropa Birliyi ilə Türkiyə arasındakı gömrük birliyi anlaşması əsasında gömrük rüsumundan azad olduğu halda, Azərbaycandan idxal edilən polietilenden gömrük rüsumu tutulur. Eynı şəkildə, Azərbaycana idxal edilən Rusiyada istehsal olunmuş sement gömrük rüsumundan azad olduğu halda, Türkiyədən idxal edilən sementdən gömrük rüsumu alınır.

Hansıki iki ölkə arasında "tərcihli ölke anlaşması" (*inter-country adoption agreement on trade preferences*) olarsa qarşılıqlı ticarət həcminin ən azı 2-3 dəfə artması, hətta gömrüklərdəki monopolist prosedurların da önünün böyük ölçüdə alınması realdır[6]. Həmçinin, xüsusi gömrük güzəştlərinin tətbiq ediləcəyi sənaye məhsullarının siyahısının hazırlanması və xüsusilə də, Türkiyədən idxalında son dövrlər fasilələr yaranan məhsulların idxalının təşviqi, hər iki ölkənin gömrük nümayəndələrinin iş adamları ilə (Türkiyə və Azərbaycan iş adamları) mütəmadi görüşüb cari vəziyyəti müzakirə etmələri, gömrük rüsumları ilə yanaşı, gömrük rrəsmiləşdirməsi, gömrük rejimlərinin seçimi və gömrük anbarlaşmasında da güzəştlərin tətbiq edilməsi mümkündür.

*İqtisadi inteqrasiya səviyyəsi* də iki ölkənin potensialına cavab vermir. Türkiyə tərəfi Azərbaycanda çalışan Türk şirkətlərinin güzəştli şərtlərlə kreditlərlə təmin olunmasına da diqqət ayırmalıdır. Hər iki ölkənin şirkətlərinin qarşılıqlı şəkildə özəlləşdirmə müsabiqələrinə daha aktiv şəkildə qoşulmalarına ehtiyac var. Standartlaşdırma, sertifikatlaşdırma sistemlərinin uyğunlaşdırılması, ticarət logistikası imkanlarından bərabər istifadə ilə bağlı əməkdaşlıq da gücləndirilməlidir.

Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrin, xüsusilə investisiya əlaqələrinin koordinasiyası və mövcud vəziyyətin müntəzəm nəzərdən keçirilməsi üçün "*Azərbaycan-Türkiyə İqtisadi/İnvestisiya Məşvərət Şurası*"nın təsis edilməsi (rəsmi iştirakçılıq əsas götürülməklə) iqtisadi inteqrasiyanı gücləndirən addım olardı. Naxçıvan-İqdır sərhəd bölgəsində azad iqtisadi zonanın formalaşdırılması istiqamətində iki ölkənin müvafiq qurumları arasında dialoq başlanmalıdır. Bu Naxçıvanın inkişafı ilə yanaşı, Türkiyənin yeni istehsal və sərmayə gücünə ehtiyacı olan iqtisadi rayonları hesab edilən Qars və İqdır şəhərlərinin də inkişafına dəstək verər.

## Ədəbiyyat


1. AkramEsanov. "Economic diversification". Senior Economist, RWI, July 20-22, 2011, Istanbul
2. Cavid Vəliyev, Rəşad Rəsullu, Kənan Aslanlı. "Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar (məqalələr toplusu)", SAM-ATİB, Bakı 2011
3. Kənan Aslanlı, Amin Çərkəzov, "Azərbaycan–Türkiyə iqtisadi əlaqələri: Mövcud vəziyyət və inkişaf perspektivləri" Hesabatı, ATİB 2009


[6]CavidVəliyev, RəşadRəsullu, Kənan Aslanlı. "Azərbaycan-Türkiyəəlaqələri son 20 ildə: uğurlarvəimkanlar (məqalələrtoplusu)", SAM-ATİB, Bakı 2011

4. http://www.ekonomi.gov.tr/index.cfm?sayfa=ulkeler&country=78BD8900-D8D3-8566-45203691C9967681
5. DünyaBankı "Doing Business" hesabatları (2014-2015) http://www.doingbusiness.org/data/
6. Smriti Chand. "XariciTicarətəTəsirEdən 7 ƏsasFaktor" (7 Most Influential Factors Affecting Foreign Trade).http://www.yourarticlelibrary.com/foreign-trade/7-most-influential-factors-affecting-foreign-trade/5938/

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# Z-ƏDƏDLİ XƏTTİ PROQRAMLAŞDIRMANIN BENZİN ÇIXIMININ OPTİMAL PLANLAŞDIRILMASINA TƏTBİQİ

**K.İ.CABBAROVA, N.İ.HƏSƏNOVA**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Bakı, Azadlıq prospekti 16/21
e-mail: konul.jabbarova@mail.ru

***Açar sözlər:*** Z-informasiya, diskret Z-ədəd, Differensial Təkamül, Xətti Proqramlaşdırma, optimal planlaşdırma.

***Keywords:*** Z-information, discrete Z-number, differential evolution optimization, linear programming, optimal planning

***Ключевые слова:*** Z-информация, дискретное Z-число, дифференциальная эволюция, линейное программирование, оптимальное планирование

## Giriş

Real vəziyyətləri ifadə edən xətti proqramlaşdırma modellərinə adətən ekspertlər tərəfindən təyin edilmiş bir sıra parametrlər daxil edilir. Klassik xətti proqramlaşdırma modellərində bu parametrlərin qiyməti dəqiq və sabit götürülür. Lakin indiki zamanda bir sıra hallarda lazım olan informasiyanın dəqiq qiymətini müəyyənləşdirmək qeyri-mümkün olur. İnterval analizi, bir və ikinci tip qeyri-səlis çoxluq nəzəriyyələri xətti proqramlaşdırmaya tətbiq olunmuşdur və onu real həyat məsələlərində qeyri-müəyyənliyi daha yaxşı ifadə edən metodlarla təmin etmişdir.

İnterval hesablanmaya əsaslanan XP(Xətti Proqramlaşdırma) üsuluna [1,2]-də baxılır. Qeyri-səlis xətti proqramlaşdırma konsepsiyası ilk dəfə olaraq [3]-də təklif olunub. Təkamül alqoritmi (Evolyusion alqoritmi) əsasında bütövlükdə qeyri- səlis xətti proqramlaşdırma məsələsinin həlli [4] –də verilmişdir. [5]-də müəlliflər qeyri-səlis xətti proqramlaşdırma məsələsinin həlli üçün qeyri-səlis xaos nəzəriyyəsini və onun məhsul istehsalı məsələsinə tətbiqini irəli sürürlər. [6]-da müəlliflər ikinci tip qeyri-səlis xətti proqramlaşdırma məsələlərini həll etmək üçün iki fazalı üsuldan istifadəni təklif edirlər.

Yuxarıda adları çəkilmiş bu işlərin zəif cəhəti odur ki, bu işlərdə lazım olan informasiyanın əminlik dərəcəsi nəzərə alınmır.

Qərar vermək üçün bu cür informasiyaya əsslanmaq daha etibarlıdır. Əsasən Z-ədəd konsepsiyası informasiyanın əminlik dərəcəsi problemi ilə bağlıdır. Z-ədədin (Z) iki komponenti var: $Z=(A,B)$. İlk komponent olan $A$ komponenti həqiqi qeyri-müəyyən X dəyişəninin aldığı qiymətlər üzərinə qoyulmuş məhdudiyyətdir. İkinci komponent $B$ isə birinci komponentin əminlik dərəcəsinin ölçüsüdür. Bir qayda olaraq $A$ və $B$ təbii dillə ifadə olunur. Z-ədəd konsepsiyasının bir sıra sahələrdə, xüsusilə idarəetmə, proqramlaşdırma və qərarların təhlili sahəsində tətbiqi çox vacibdir.

Bu məqsədlə məqalədə Z-ədəd hesabına əsaslanan üsul təklif edirik ki, bu yeni üsul xətti proqramlaşdırma çərçivəsində real məsələlərin həllini tapmaq üçün daha münasib tam Z-qiymətləndirməyə əsaslanır. Bunu üçün differensial təkamül optimallaşdırma üsulundan istifadə edilir.

Differnsial təkamül (DT) alqoritmi bərabər paylanma, differensial mutasiya, ehtimal calama və seçmə operatorları tərəfindən təsadüfi generasiya olunmuş ilkin populyasiyadan istifadə edir [7]. Fərdlərlə (individlərlə) birgə populyasiyalar $p_s$ hər bir generasiyada saxlanılır. Yeni vektor populyasiyanın üç müxtəlif fərdinin $r_1 \neq r_2 \neq r_3$ birinci və ikinci vektorların əmsallaşdırılmış fərqlərinin üçüncü ilə toplanmasının

köməyilə təsadüfi seçilməsindən mutasiya nəticəsində alınır. Mutasiya nəticəsində alınmış yeni fərd populyasiyanın yeni fərdini almaq üçün başqa vektorla calamaya uğradılır.

Sonra seçmə prosesi baş verir, bu da onunla nəticələnir ki, əgər test vektorunun məqsəd funksiyasının qiyməti populyasiyanın hər hansı ardıcıl seçilmiş üzvünün qiymətindən kiçik olarsa, axırıncı generasiya olunan vektor aşağıdakı generasiya ilə müqayisə olunan vektorla -yeni fərdlə əvəz olunur.

Bu generasiya yüksək yığılma xüsusiyyətləri olan adaptiv sxemdə təsadüfi yayınma nəticələrini generasiya etmək üçün populyasiyadan məsafənin və birbaşa informasiyanın əldə edilməsi ilə nəticələnir.Differensial təkamül (DT) optimalaşdırma üsulu təsvirlərin klassifikasiyası, klasterləşdirmə, optimallaşdırma və s. kimi geniş yayılmış məsələlərin həllində müfəffəqiyyətlə tətbiq edilmişdir.

Şəkil 1–də şəkildə populyasiya üzvlərinin $X_{r1}, X_{r2}, X_{r3}$ içərisindən təsadüfi seçilmiş yeni sınaq həllinin $X_{new}$vektorunun generasiyası prosesi göstərilmişdir. (Differensial təkamülün qiymət funksiyasında əvvəlki vektor yaxşı və ya pis nəticə göstərərsə, $X_4$ onu əvəz etmək üçün namizəd hesab olunan vektordur). Burada biz fərz edirik ki, həll vektoru iki ölçülüdür (başqa sözlə, iki optimallaşdırma parametri var).




Şək. 1. Differensial Təkamül Optimallaşdırmasının reallaşdırılması: iki ölçülü hal

Z-qiymətli qərar dəyişənləri və Z-qiymətli parametrlərlə Z-qiymətləndirməyə əsaslanan xətti proqramlaşdırma məsələsinin həll prosesinə baxaq.

Z-informasiya əsasında xətti proqramlaşdırma məsələsinin ümumi qoyuluşu aşağıdakı kimi ifadə olunur [8,9]:

$$Z_f(Z_{x_1}, Z_{x_2}, ..., Z_{x_n}) = Z_{c_1}Z_{x_1} + Z_{c_2}Z_{x_2} + ... + Z_{c_n}Z_{x_n} \to \min \quad (1)$$

$$Z_{a_{11}}Z_{x_1} + Z_{a_{12}}Z_{x_2} + ... + Z_{a_{1n}}Z_{x_n} \prec \quad {}_{1}$$
$$Z_{a_{21}}Z_{x_1} + Z_{a_{22}}Z_{x_2} + ... + Z_{a_{2n}}Z_{x_n} \prec \quad {}_{2} \quad (2)$$
$$...$$
$$Z_{a_{m1}}Z_{x_1} + Z_{a_{m2}}Z_{x_2} + ... + Z_{a_{mn}}Z_{x_n} \prec \quad {}_{m}$$

$$Z_{x_1}, Z_{x_2}, ..., Z_{x_n} \succ \quad {}^{Z} \quad (3)$$

Z-bərabərsizliklər (1)-(3) ifadələrinə uyğun olaraq aşağıda göstərilmiş məsələyə çevrilə bilər:

$$Z_f(Z_{x_1}, Z_{x_2}, ..., Z_{x_n}) = Z_{c_1}Z_{x_1} + Z_{c_2}Z_{x_2} + ... + Z_{c_n}Z_{x_n} \to \min \quad (4)$$

Məhdudiyyət şərtləri

$$Z_{a_{11}}Z_{x_1} + Z_{a_{12}}Z_{x_2} + ... + Z_{a_{1n}}Z_{x_n} \le Z_{b_1},$$
$$Z_{a_{21}}Z_{x_1} + Z_{a_{22}}Z_{x_2} + ... + Z_{a_{2n}}Z_{x_n} \le Z_{b_2}, \quad (5)$$
$$...$$
$$Z_{a_{m1}}Z_{x_1} + Z_{a_{m2}}Z_{x_2} + ... + Z_{a_{mn}}Z_{x_n} \le Z_{b_m},$$

$$Z_{x_1}, Z_{x_2}, ..., Z_{x_n} \ge 0^Z. \quad (6)$$

Burada qərar dəyişənləri və parametrləri Z-ədədlərlə ifadə olunur:

$$Z_{x_i} = (A_{x_i}, B_{x_i})$$

$$Z_{c_i} = (A_{c_i}, B_{c_i}),\ Z_{a_{ij}} = (A_{a_{ij}}, B_{a_{ij}}),\ Z_{b_j} = (A_{b_j}, B_{b_j}), i = 1,...,n, j = 1,...,m.$$

Z-qiymətləndirməyə əsaslanan xətti proqramlaşdırma məsələsini mahiyyətcə başa düşmək üçün *maksimum* $Z_f$ və Z ilə ifadə edilən bərabərsizliklərin nə olduğunu aydınlaşdırmalıyıq. Bu məsələdə $Z_f$ 4-cü tərifin terminləri ilə verılir. Hələ biz $Z_f$-in optimal (max və ya min ) qiymətini təyin edə bilən bir üsul tanımırıq. Ona görə də (4)-(6) Z-XP məsələsini həll etmək üçün Differensial Təkamül Optimallaşdırma (DTO) üsulundan istifadə edilir.

**1. Təriflər.**

**Tərif 1. Diskret Z-ədəd [10].** Diskret Z-ədəd $Z = (A, B)$ nizamlanmış cütlükdür, burada $A$ diskret qeyri-səlis ədədi $X$ qeyri-müəyyən dəyişənin ala biləcəyi qiymətinə qeyri-səlis məhdudiyyət rolunu oynayır və $B$ $A$- nın $P(A)$ ehtimal ölçüsünə qeyri-səlis məhdudiyyət rolunu oynayan $\mu_B : \{b_1, ..., b_n\} \to [0,1]$, $\{b_1, ..., b_n\} \subset [0,1]$ mənsubiyyət funksiyalı diskret qeyri-səlis ədəddir.

Diskret Z-ədəd konsepsiyası ilə sıx bağlı olan diskret $Z^+$-ədəd konsepsiyasıdır. Diskret Z-ədəd $Z = (A, B)$ verilibsə, $Z^+$ ədədi diskret qeyri-səlis ədəd $A$ və disket təsadüfi ədəd R-dən ibarətdir:

$$Z^+ = (A, R)$$

Burada $\tilde{A}$-nın rolu diskret Z-ədəddə $Z=(A,B)$ olduğu kimidir və R isə p ehtimal paylanması rolunu oynayır, harada ki, aşağıdakı şərt ödənir:

$$P(A)=\sum_{i=1}^{n}\mu_A(x_i)p(x_i),\ P(A)\in \mathrm{supp}(B)$$

**Diskret Z-ədədlərin toplanması**[9,11]. $Z_1=(A_1,B_1)$ və $Z_2=(A_2,B_2)$ diskret Z-ədədlər olsun. $Z_{12}=Z_1+Z_2$-in hesablanmasına baxaq:

1) $Z_1^+$ və $Z_2^+$ ədədlərə keçək.

$Z_{12}^+=Z_1^++Z_2^+$ müəyyən olunur:

$$Z_1^++Z_2^+=(A_1+A_2,R_1+R_2)$$

Burada $R_1$ və $R_2$ diskret ehtimal paylanmalar ilə təsvir olunur:

$$p_{R_1}=p_{R_1}(x_{11})\setminus x_{11}+p_{R_1}(x_{12})\setminus x_{12}+...+p_{R_1}(x_{1n})\setminus x_{1n},$$

$$p_{R_2}=p_{R_2}(x_{21})\setminus x_{21}+p_{R_2}(x_{22})\setminus x_{22}+...+p_{R_2}(x_{2n})\setminus x_{2n}$$

[14]-də təklif olunan üsula əsasən $Z_{12}$ tapılır:

$$Z_{12}=(A_1+A_2,B_{12})$$

**Diskret Z-ədədlərin çıxılması.** $A_1*A_2$ fərqi [12]-ə əsasən ($A_1-A_2$) kimi təyin edilir və $R_1*R_2$ aşağıdakı kimi təyin olunmuş konvolusiyadır:

$$p_{12}(x)=\sum_{x=x_1-x_2}p_1(x_1)p_2(x_2)$$

Beləliklə, $Z_{12}^+$ aşağıdakı kimi təyin olunur :

$$Z_{12}^+=(A_1-A_2,p_{12}).$$

[14]-də təklif olunan üsula əsasən $Z_{12}$ tapılır:

$$Z_{12}=(A_1-A_2,B_{12})$$

**Diskret Z-ədədlərin vurulması.** [12]-ə əsasən $A_1*A_2$ hasili $A_1\cdot A_2$ təyin edilir və $R_1*R_2$ aşağıdakı kimi təyin olunmuş konvolusiyadır.

$$p_{12}(x)=\sum_{x=x_1\cdot x_2}p_1(x_1)p_2(x_2)$$

Beləliklə də $Z_{12}^+$ aşağıdakı kimi olur:

$$Z_{12}^+=(A_1\cdot A_2,p_{12}),$$

[14]-də təklif olunan üsula əsasən $Z_{12}$ tapılır:

$$Z_{12}=(A_1\cdot A_2,B_{12})$$

**Tərif 2**. **Z-qiymətləndirməyə əsaslanan əlavə qalıq dəyişən.** Fərz edək ki, *i* –ci məhdudiyyət Z-qiymətləndirməyə əsaslanan xətti proqramlaşdırma məsələsində aşağıdakı kimidir:

$$\sum_{j=1}^{n} Z_{a_{ij}} Z_{x_j} \le Z_{b_i} \text{ ,}$$

Onda elə $Z_{x_{n+i}}$ dəyişəni, bunun üçün

$$\sum_{j=1}^{n} Z_{a_{ij}} Z_{x_j} + Z_{x_{n+i}} = Z_{b_i}, \quad Z_{x_{n+i}} \ge 0^Z$$

ödənir, Z qiymətli fiktiv dəyişən adlanır.

**Tərif 3. Z-qiymətləndirməyə əsaslanan əlavə izafi dəyişəni**. Fərz edək ki, $i$ – ci məhdudiyyət Z-qiymətləndirməyə əsaslanan xətti proqramlaşdırma məsələsində aşağıdakı kimimdir:

$$\sum_{i=1}^{n} Z_{a_{ij}} Z_{x_i} \ge Z_{b_j}$$

Onda elə $Z_{x_{n+i}}$ dəyişəni bunun üçün

$$\sum_{j=1}^{n} Z_{a_{ij}} Z_{x_j} - Z_{x_{n+i}} = Z_{b_i}, \quad Z_{x_{n+i}} \ge 0^Z$$

ödənir Z qiymətli izafi, qalıq dəyişəni adlanır.

**Tərif 4. Z-qiymətli mümkün həll.** (4)–(6) məsələsində istənilən $Z_X = (Z_{x_1}, Z_{x_2}, ..., Z_{x_n})$ (5)-(6) şərtlərini ödəyirsə, bu (4)-(6)-nın Z-qiymətli mümkün həlli adlanır.

**Tərif 5. Z-qiymətli optimal həll.** Fərz edək ki, $Z_s$ Z-qiymətləndirməyə əsaslanan (4)-(6) –nın mümkün həllər çoxluğudur, onda $Z_{X_0} \in Z_s$ Z-qiymətli mümkün həll üçün $Z_f(Z_{X_0}) \le^Z Z_f(Z_X)$ şərtini ödəyirsə, harada ki, $Z_x$ istənilən mümkün həlldir, onda bu $Z_{X_0}$ həlli Z-qiymətli optimal həlli adlanır.

(4)-(6) məsələlərini həll etmək üçün əvvəlcə Z-qiymətli fiktiv dəyişənləri $Z_{x_{n+i}}$ əlavə edirik:

$$Z_f(Z_{x_1}, Z_{x_2}, ..., Z_{x_n}) = Z_{c_1} Z_{x_1} + Z_{c_2} Z_{x_2} + ... + Z_{c_n} Z_{x_n} \to \min \tag{7}$$

Məhdudiyyətşərtləri

$$\begin{aligned} &Z_{a_{11}} Z_{x_1} + Z_{a_{12}} Z_{x_2} + ... + Z_{a_{1n}} Z_{x_n} + Z_{x_{n+1}} = Z_{b_1}, \\ &Z_{a_{21}} Z_{x_1} + Z_{a_{22}} Z_{x_2} + ... + Z_{a_{2n}} Z_{x_n} + Z_{x_{n+2}} = Z_{b_2}, \\ &... \\ &Z_{a_{m1}} Z_{x_1} + Z_{a_{m2}} Z_{x_2} + ... + Z_{a_{mn}} Z_{x_n} + Z_{x_{n+m}} = Z_{b_m}, \end{aligned} \tag{8}$$

$$Z_{x_1}, Z_{x_2}, ..., Z_{x_n}, Z_{x_{n+1}}, Z_{x_{n+2}}, ..., Z_{x_{n+m}} \ge 0^Z \tag{9}$$

Sonra (7) məqsədfunksiyasınınvə (8) məhdudiyyətlərinibirləşdirib (7)-(9) məsələsiniuyğunekvivalentformadayenidənyazırıq:

$$Z_g(Z_{x_1}, Z_{x_2}, ..., Z_{x_n}, Z_{x_{n+1}}, Z_{x_{n+2}}, ..., Z_{x_{n+m}}) = Z_{c_1} Z_{x_1} + Z_{c_2} Z_{x_2} + ... + Z_{c_n} Z_{x_n} +$$
$$+(Z_{b_1} - (Z_{a_{11}} Z_{x_1} + Z_{a_{12}} Z_{x_2} + ... + Z_{a_{1n}} Z_{x_n} + Z_{x_{n+1}})) +$$
$$+(Z_{b_2} - (Z_{a_{21}} Z_{x_1} + Z_{a_{22}} Z_{x_2} + ... + Z_{a_{2n}} Z_{x_n} + Z_{x_{n+2}})) +$$
$$...$$
$$+(Z_{b_m} - (Z_{a_{m1}} Z_{x_1} + Z_{a_{m2}} Z_{x_2} + ... + Z_{a_{mn}} Z_{x_n} + Z_{x_{n+m}})) \rightarrow \min \quad (10)$$

Məhdudiyyətşərtləri

$$Z_{x_1}, Z_{x_2}, ..., Z_{x_n}, Z_{x_{n+1}}, Z_{x_{n+2}}, ..., Z_{x_{n+m}} \geq 0^Z \quad (11)$$

Bu optimallaşdırmaməsələsinihəlletməküçünDifferensialTəkamülOptimallaşdırmaalqoritmindənistifadəetməkolar.

**2. Məsələnin qoyuluşu**

Formal şəkildə benzin çıxımının qeyri-müəyyənlik şəraitində optimallaşdırılması məsələsi aşağıdakı kimi qoyulur:

$$Z_{c_1} Z_{x_1} + Z_{c_2} Z_{x_2} \rightarrow \max \quad (12)$$

$$Z_{a_{11}} Z_{x_1} + Z_{a_{12}} Z_{x_2} \leq Z_{\text{əlavə}} \quad (13)$$

$$Z_{a_{21}} Z_{x_1} + Z_{a_{22}} Z_{x_2} \leq Z_{\text{balans}} \quad (14)$$

$$\begin{cases} Z_{y.a} \leq Z_{x_1} \leq Z_{y.y} \\ Z_{a.a} \leq Z_{x_2} \leq Z_{a.y} \end{cases} \quad (15)$$

Burada $Z_{c_1}, Z_{c_2}, Z_{a_{11}}, Z_{a_{12}}, Z_{a_{21}}, Z_{a_{22}}$ -sabit əmsallar, $Z_{x_1}, Z_{x_2}$ -kolonun aşağı və yuxarı temperaturlarıdır. (12) məqsəd funksiyası, (13) əlavə məhsula qoyulan məhdudiyyət, (14) balans məhdudiyyəti, (15) optimallaşdırma parametrlərinə qoyulan məhdudiyyətlərdir.

**3. Həllüsulu**

Optimallaşdırmaməsələsinihəlletməyəbaşlamazdanəvvəlbütünqərardəyişənləri $Z_X$ [-1,1] intervalındanyox, təsadüfiqiymətlərdənseçiləkilkinqiymətləndirilmişdir. OptimallaşdırmayabaşlamazdanəvvəlDifferensialTəkamülOptimallaşdırmanın (DTO) parametrləritəyinedilir, $Z_f$ məqsədfunksiyasıolan DTO qiymət (dəyər) funksiyasıtəyinedilirvəpopulyasiyaölçüsüseçilir (birqaydaolaraqoptimallaşdırmaparametrlərindən 10 dəfəartıqolur, yəni*10N*$_{par}$)[8,9].SonraDifferensialTəkamülOptimallaşdırmaprosesibaşlayır.

Əvvəlcə qərar dəyişənlərini ($Z_x$) bilmək üçün ölçmənin ($N_{par}$) şablon parametrlərini ($Z_x$) təyin edilir.

Sonra alqoritmin parametrlərini təyin edirik: mutasiya normasını (*F*), calama normasını (*CR*) və populyasiya ölçüsünü (*PN*). Qiymət (dəyər) funksiyasını məqsəd funksiyası kimi hesablayırıq.

Təsadüfi olaraq PN parametr vektorları generasiya edilir (məsələn, uyğun parametrlər fəzasından [-1, 1]) və populyasiya yaradılır : $P=\{Z_{X_1}, Z_{X_2}, \dots _{ps}\}$.

Sonda nəticə (ya təyin olunmuş generasiyaların sayı alınmalı ya da tələb olunan xəta səviyyəsi əldə olunmalıdır) gözlədiyimiz kimi olmasa yeni parametrlər coxluğu generasiya olunmalıdır. Növbəti vektor seçilir: $Z_{X_i}$ ($i$=1,...,*PopSize*). Sonra $P: Z_{X_{r1}}, Z_{X_{r2}}, Z_{X_{r3}}$ -dən 3 fərqli sınaq vektoru götürülür ki, onların hər biri cari $Z_{X_i}$ vektorundan fərqli olsun. Sınaq vektorunu generasiya edilir: $Z_{X_t} = Z_{X_{r1}} + F \cdot (Z_{X_{r2}} - Z_{X_{r3}})$. $Z_{X_t}$ Sınaq vektorundan yeni vektor generasiya edilir. $Z_{X_t}$–nin fərdi vektor parametrləri calama normasının ehtimalı ilə birgə $Z_{X_i}$ yeni vektora çevrilir. Əgər $Z_{X_{new}}$ -nun qiymət (dəyər) funksiyası $Z_{X_i}$–in minimallaşdırma meyarından daha yaxşı (və ya daha aşağı) olarsa, cari $Z_{X_i}$, funksiyası $Z_{X_{new}}$.–nun *P* populyası ilə əvəz olunur. Sonra *P* populyasiyadan ən yaxşı $Z_{X_{best}}$ dəyər funksiyası (məqsəd funksiyası) olan parametr vektoru seçilir. Sonra $Z_{X_{best}}$ –dən qərar dəyişənlərinin vektorlarını ayırırıq.

Sonra $Z_t$ sınaq vektorundan yeni vektor generasiya edilir. $Z_t$–nin fərdi vektor parametrləri calama normasının ehtimalı ilə birgə varis olur və $Z_{new}$ vektoruna aid edilir. $Z_{new}$–nun dəyər funksiyası $Z_i$ -nin dəyər funksiyasından daha yaxşı (və ya daha aşağı) olarsa, cari $Z_i$ $Z_{new}$–nun *P* populyasiyası ilə əvəz olunur. Sonra *P* populyasiyadan yüksək dəyər funksiyası ($Z_f$) olan $Z_{best}$ parametr vektoru (ən yaxşı qərar dəyişənlərini) seçilir. İndi isə $Z_{best}$ –dən bütün qərar dəyişənlərini ayırırıq.

## 4. Məsələnin həlli

İstənilən proqnozlaşdırma məsələsində olduğu kimi proqnoz qiyməti müəyyən xəta ilə alınır. Bu baxımdan neft məhsullarının, o cümlədən benzinin çıxımını planlaşdırarkən Z -ədələrdən istifadə etmək daha adekvat nəticə verər. Bu məqsədlə məqalədə xətti proqramlaşdırma çərçivəsində real məsələləri daha dolğun ifadə etmək qabiliyyətinə malik yeni usula Z-informasiyaya əsaslanan xətti proqramlaşdırma modeli (Z-XP) kimi yeni yanaşmaya baxacağıq. Z-qiymətləndirməyə əsaslanan xətti proqramlaşdırma məsələlərinin həlli üçün biz Z-ədəd hesabından və differensial təkamül optimallaşdırma üsulundan istifadə etməklə yeni üsul təklif edirik [13,14].

Bildiyimiz kimi benzinin çıxımı bir neçə texnoloji parametrlərdən, əsasən də katalitik krekinq qurgusunun rejim parametrlərindən asılıdır. Bu məqalədə benzin çıxımının planlaşdırılması Z-ədədlərə əsaslanan xətti proqramlaşdırma məsələsi kimi qoyulur. Məqsəd benzinin çıxımının maksimallaşdırılmasıdır. Lakin bu müəyyən məhdudiyyətlər çərçivəsində ola bilər. Məhdudiyyətlər kimi balans məhdudiyyəti və qurğudan çıxan ikinci dərəcəli məhsullara qoyulan məhdudiyyət, bir də benzin maksimallaşdırılmasını təmin edən rejim parametrlərinə qoyulan məhdudiyyətlərdir.

(13)-(15) modelində parametrlər aşağıdakı kimi tapılmışdır:

$$Z_{c_1} = ((0, 0.32, 1), (0, 0.8, 1));$$
$$Z_{c_2} = ((0, 0.28, 1), (0, 0.8, 1));$$
$$Z_{a_{11}} = ((0, 0.18, 0.19), (0, 0.8, 1));$$
$$Z_{a_{12}} = ((0, 0.2, 1), (0, 0.8, 1));$$
$$Z_{a_{21}} = ((0, 0.48, 0.98)(0, 0.8, 1));$$
$$Z_{a_{21}} = ((0, 0.5, 1)(0, 0.8, 1));$$
$$Z_{\text{əlavə}} = ((70, 73, 80), (0, 0.8, 1));$$
$$Z_{balans} = ((150, 180, 250)(0, 0.8, 1)) \div ((150, 190, 250)(0, 0.8, 1)).$$

Elə $Z_{x_1}$ və $Z_{x_2}$ tapmaq lazımdır ki, (12) maksimumluq və (13)-(15) məhdudiyyət şərtləri ödənsin. Məsələnin mürəkkəbliyi ondadır ki, xətti proqramlaşdırma (12)-(15) məsələsi Z-ədədlərlə verilib. Burada nə klassik xətti proqramlaşdırma, nə də qeyri-səlis proqramlaşdırma üsulları istifadə oluna bilməz. Məsələnin həlli üçün Differensial Təkamül Optimallaşdırma (DTO) üsulundan istifadə olunmuşdur. Nəticədə axtarılan parametrlərin aşağıdakı optimal qiymətləri tapılmışdır:

$$Z_{x_1} = ((126, 133, 136), (0, 0.8, 1))$$
$$Z_{x_2} = ((239, 245, 249), (0, 0.8, 1))$$

Bu optimal qiymətlərə müvafiq məqsəd funksiyasının qiyməti aşağıdakı kimi olacaq:

$$Z_f(Z_{x_1}, Z_{x_2}) = ((0, 113.61, 296.93), (0, 0.5, 0.5))$$

Tapılan optimal qiymətlərin məqsəd funksiyasına təsirini göstərək. $Z_{x_1}$ və $Z_{x_2}$-nin cüzi dəyişməsi məqsəd funksiyasının daha kiçik qiymətinə gətirir:

1. $Z_{x_1} = ((126, 131, 136), (0, 0.8, 1))$

$$Z_{x_2} = ((239, 244, 249), (0, 0.8, 1))$$
$$Z_f(Z_{x_1}, Z_{x_2}) = ((0, 112.68, 296.93), (0, 0.7, 0.9))$$

2. $Z_{x_1} = ((126, 130, 136), (0, 0.8, 1))$

$$Z_{x_2} = ((239, 248, 249), (0, 0.8, 1))$$
$$Z_f(Z_{x_1}, Z_{x_2}) = ((0, 113.52, 296.93), (0, 0.1, 0.1))$$

3. $Z_{x_1} = ((126, 130, 136), (0, 0.8, 1))$

$$Z_{x_2} = ((239, 246, 249), (0, 0.8, 1))$$
$$Z_f(Z_{x_1}, Z_{x_2}) = ((0, 112.94, 296.93), (0, 0.4, 0.6))$$

4. $Z_{x_1} = ((126, 130, 136), (0, 0.8, 1))$

$$Z_{x_2} = ((239, 247, 249), (0, 0.8, 1))$$

$$Z_f(Z_{x_1}, Z_{x_2}) = ((0, 113.23, 296.93), (0, 0.2, 0.2))$$

**4.Nəticə**

Bu məqalədə ilk dəfə olaraq benzin çıxımının planlaşdırılması üçün Z-ədədlərə əsaslanan xətti proqramlaşdırma məsələsi qoyulur və həll olunur. Məqsəd benzinin çıxımının maksimallaşdırılmasıdır. Müəyyən məhdudiyyətlər çərçivəsində bu məsələ həll olunub.

**5. Ədəbiyyat**


1. Allahdadi M., MishmastNehi H., The optimal solution set of the interval linear programming problems // Optimization Letters, 2013, v.7, pp.1893-1911
2. Fiedler M., Nedoma J., Ramik J., Zimmermann K. Linear optimization problems with inexact data. Berlin: Springer, 2003, 214 p.
3. Zimmermann H.J. Fuzzy programming and linear programming with several objective functions // Fuzzy Sets and Systems, 1978, v.1, No 1, pp.45-55
4. Buckley J., Feuring T. Evolutionary algorithm solution to fuzzy problems: fuzzy linear proframming // Fuzzy Sets and Systems, 2000, v.109, pp. 35-53
5. Aliev R.A., Akif V.A., Shirinova U.K. Fuzzy Chaos Approach to fuzzy linear programming problem / Proceedings of the 2nd International Conference on Soft Computing, Computing with Words and Perceptions in System Analysis, Decision and Control, Turkey, Antalya, 2003, pp.287-295
6. Dinagar S.D., Anbalagan A. Two-phase approach for solving Type-2 fuzzy linear programming problem // International Journal of Pure and Applied Mathematics, 2011, v.70, No. 6, pp. 873-888
7. Price K.V., Storm R.M., Lampinen J.A. Differential evolution –a practical approach to global optimization. New York: Springer Science+Business Media, 2005.538 p.
8. Cabbarova K.İ. Z-informasiyalı xətti proqramlaşdırma // Azərbaycan Texniki Universitetinın elmi əsərləri, 2014, №1, s.92-95
9. Aliev R.A., Alizadeh A.V., Huseynov O.H., Jabbarova K.I. Z-number based Linear Programming // International Journal Of Intelligent Systems, 2015, v.30, pp. 563–589
10. Wang G., Wu C., Zhao C.. Representation and operations of discrete fuzzy numbers // Southeast Asian Bulletin of Mathematics, 2005, v.28, pp. 1003-1010
11. Cabbarova K.İ. Z-ədədlərin qərar qəbuletmədə tətbiqi haqqında. Azərbaycan Dövlət Dəniz Akademiyasının elmi əsərləri,2014,№1,s.104-107
12. Aliev R.A., Alizadeh A.V., Huseynov O.H. The arithmetic of discrete z-numbers // Information Sciences, 2015, v.290, no 1, pp. 134-155
13. Zadeh L.A. A Note on Z-numbers // Information Sciences, 2010, v.181, pp. 2923–2932
14. Aliev R.A., Alizadeh A.V., Huseynov O.H. The arithmetic of discrete z-numbers // Information Sciences, 2015, v.290, no 1, pp. 134-155

## APPLICATION OF Z-NUMBER VALUED LINEAR PROGRAMMING FOR OPTIMALPLANNING OFGASOLINE PRODUCTION

**K.I.JABBAROVA, N.I.HASANOVA**

**SUMMARY**

In this paper a new approach for optimal planning of gasoline productionunder uncertainty is proposed. The proposed approach is based on fully Z-number valued linear programming problem. For solving of the problem, Differential Evolution Optimization method is used.

## ПРИМЕНЕНИЕ Z-ЗНАЧНОГО ЛИНЕЙНОГО ПРОГРАММИРОВАНИЯ ДЛЯ ОПТИМАЛЬНОГО ПЛАНИРОВАНИЯ ВЫПУСКА БЕНЗИНА

**К.И.ДЖАББАРОВА, Н.И.ГАСАНОВА**

**РЕЗЮМЕ**

В данной статье предложен новый подход к оптимальному планированию производства бензина в условиях неопределенности. Предложенный подход основан на задаче полностью Z-значного линейного программирования. Для решения задачи используется метод дифференциальной эволюции.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# BANK FƏALİYYƏTİ ƏLEYHİNƏ CİNAYƏTLƏRİ TÖRƏDƏNİN ŞƏXSİYYƏTİ

**S.O. Əliyev**
Azərbaycan Milli Elmlər Akademiyası
Bakı, Yasamal, H.Cavid 115
e-mail: sabuhi_yurist@mail.ru

***Açar sözlər:*** *bank; pul; kredit; cinayət.*
***Ключевые слова:*** *банк; деньги; кредит;преступление*
***Key words:*** *bank; money; bank loan; crime.*

Bank fəaliyyəti əleyhinə törədilən cinayətlərin kriminoloji aspektləri haqqında danışdığımız zaman, belə cinayətləri törədən cinayətkarın şəxsiyyəti məsələsinə də toxunmalıyıq. Yaddan çıxarmaq olmaz ki, səbəblər və profilaktika (cinayətkarlığı doğuran səbəblər və onun profilaktikası) ilə yanaşı istənilən cinayətin törədilməsinin kriminoloji tədqiqində bu məsələ, yəni cinayətkarın şəxsiyyəti xüsusi yer tutur. Cinayətkarlıq və onu doğuran səbəblər, habelə cinayətkarlığın qarşısını almağa yönələn tədbirlərlə bərabər, həm də cinayətkarın şəxsiyyəti xüsusi sosial-hüquqi elm sahəsi olan kriminologiya tərəfindən öyrənilir ki, bu da əlbəttə təbii olub, təsadüfi xarakter daşımır. Axı, ictimai münasibətlər sistemində cinayətkarın şəxsiyyəti xüsusi yer tutur və mühüm rol oynayır. Yaddan çıxarmamalıyıq ki, cinayətkarın şəxsiyyətinin kriminaloji-hüquqi əhəmiyyət kəsb etməsi hər kəsə aydın olub, necə deyərlər göz qabağında olan məsələdir: sosial hadisə olan cinayətkarlıq adamların cəmiyyətə zidd olan antiictimai davranışı ilə bağlıdır. Belə davranışı anlamaq, başa düşmək və izah etmək, onun səbəblərini müəyyənləşdirmək, eləcə də cinayətin qarşısını almağın effektiv yollarını və vasitələrini axtarıb tapmaq üçün hər şey dərindən və hərtərəfli öyrənilməlidir ki, bu da öz növbəsində cinayətkarı həm fərd, həm də şəxsiyyət kimi xarakterizə etməyə imkan verir.

Bildiyimiz kimi, cinayətkarlıqla mübarizə cəmiyyətdə prioritet əhəmiyyət kəsb edən məsələlərdən biri sayılır. Hüquq-mühafizə orqanlarının cinayətkarlıqla mübarizəyə həsr olunan fəaliyyəti məhz bu məsələnin həllinə yönəlmişdir. Lakin belə fəaliyyət cinayətkarlıqla mübarizənin heç də yeganə yolu sayılmır və cinayətkarlıqla mübarizə probleminin həlli üçün kifayət etmir. Həmin problemi həll etmək üçün iqtisadi, sosial, siyasi, tərbiyəvi, hüquqi və digər tədbirlərin görülməsi, cinayətkarlıqla mübarizəyə yönələn profilaktik tədbirlərin işlənib hazırlanması, habelə cinayətkarlıqla mübarizənin elmə söykənən düzgün konsepsiyasının müəyyən edilməsi ilə yanaşı, həm də cinayətkarın şəxsiyyəti öyrənilməlidir.

Cinayətkarın şəxsiyyəti kriminal davranışın mexanizmində mühüm və əsas həlqə sayılır. Kriminal davranış cəmiyyətə zidd olub, antisosial xarakter daşıyır. Kriminal davranışın xarakteri isə cinayət törədən şəxsin neqativ sosial-psixoloji xüsusiyyətləri ilə müəyyən edilir. Xarici mühitin şərait və amilləri ilə əlaqəli şəkildə kriminal davranışa təsir göstərən həmin xüsusiyyətlərin məcmusu kriminologiyada cinayətkarın şəxsiyyəti adlanır.

Şəxsiyyət ictimai münasibətlərin iştirakçısı və daşıyıcısı kimi insanın sosial və psixoloji xüsusiyyətlərinin tam və bütöv sistemidir. Ümumən, cinayətkarın şəxsiyyətini isə ictimai təhlükəli kriminal əməl törətmiş və buna görə də cinayət məsuliyyətinin subyekti olan şəxsə xas olan xüsusiyyətlərin (cəhət və keyfiyyətlərin) məcmusu kimi təsəvvür edilməlidir ki, həmin xüsusiyyətlər fərdi xarakterlidir.

Cinayətkarın şəxsiyyəti haqqında məsələyə baxarkən cinayətkarın şəxsiyyətinin

quruluşu ilə tanış olmaq və ona müraciət etmək lazımdır. Hər şeydən əvvəl, deməliyik ki, cinayətkarın şəxsiyyətinin quruluşunda aşağıdakı bir neçə əlamət fərqləndirilir: 1) biofizioloji əlamətlər; 2) sosial-demoqrafik əlamətlər; 3) psixoloji əlamətlər; 4) mənəvi əlamətlər; 5) sosial əlamətlər; 6) cinayət-hüquqi və kriminoloji əlamətlər.

Bu əlamətlər imkan verir ki, cinayətkarın şəxsiyyətində aşağıdakı struktur elementləri fərqləndirilsin: 1) şəxsiyyətin sosial strukturu; 2) şəxsiyyətin sosial funksiyası (rolu); 3) mənəvi-psixoloji xarakteristika.

Biofizioloji əlamətlərə cins, yaş həddi, səhhətin vəziyyəti, fiziki quruluşun və əsəb sisteminin xüsusiyyətləri və s. aiddir.

Sosial-demoqrafik əlamətlərə cins, yaş, təhsil, sosial mənşə, sosial vəziyyət, milliyət, peşə mənsubiyyəti, ailə vəziyyəti, maddi vəziyyət, kənd yaxud da şəhər əhalisinə mənsub olmaq və digər xüsusiyyətlər aid olunur.

Mənəvi-psixoloji əlamətlərə psixofizioloji, insanın genetik mənşəyi ilə bağlı xüsusiyyətlər aiddir. Psixoloji əlamətlər haqqında xüsusi olaraq danışmaq lazımdır ki, bu əlamətlərin bəziləri genetik xarakter daşıyır. Onlar fərdi əhatə edən mühitdən, konkret həyat şəraitindən və tərbiyədən, eləcə də digər hallardan asılıdır.

Sosial əlamətlər əsasında müəyyən edilir ki, şəxs hansı sosial rolları oynayır, yəni şəxsiyyətin sosial rolları nədən ibarətdir. Şəxsiyyətin sosial rolları isə cinayətkarın şəxsiyyətinin xarakterizə olunması üçün mühüm əhəmiyyət kəsb edir. Sosial rollar dedikdə, şəxsiyyətin yerinə yetirdiyi real funksiyalar başa düşülür ki, bu funksiyalar şəxsin müəyyən sosial qrupa mənsub olması və ictimai münasibətlər sistemindəki mövqeyi ilə şərtlənir.

Şəxsiyyətin sosial statusu da müəyyən edilməlidir. Nəzərdən qaçırmaq olmaz ki, bunun, yəni şəxsin sosial statusunun müəyyən edilməsinin cinayətkarın şəxsiyyətinin xarakteristikası üçün mühüm əhəmiyyəti vardır. Sosial statusa uyğun olaraq hər bir insandan tələb olunur ki, o, müəyyən qaydada davransın və hərəkət etsin. Başqa sözlə, tələb olunur ki, şəxs üzərinə düşən vəzifələri (rolları) yerinə yetirsin. Əks halda şəxslə cəmiyyət, yaxud da şəxslə onun əhatəsi arasında münaqişə yarana bilər.

Cinayətkarın şəxsiyyətinin quruluşuna həm də cinayət-hüquqi və kriminoloji əlamətlər (xüsusiyyətlər) daxildir. Belə əlamətlər cinayətkarın şəxsiyyətinin xarakterizə olunmasında, başa düşülməsində və anlanılmasında mühüm əhəmiyyətə malik olması şəksizdir. Həmin əlamətlər sosial deformasiyanı əks etdirir ki, sosial deformasiya cinayət törədən şəxsin vacib əlamətlərini ifadə etməyə imkan verir.

Qeyd olunanları nəzərə alsaq, cinayətkarın şəxsiyyətinin strukturunda aşağıdakı beş struktur elementi ayırmaq mümkündür: 1) birinci struktur element sosial-demoqrafik əlamətləri birləşdirir ki, buraya sosial mənşə, sosial vəziyyət, ailə vəziyyəti, qulluq (vəzifə) vəziyyəti, milli və peşə mənsubiyyəti, habelə maddi cəhətdən təmin olunmanın səviyyəsi kimi xüsusiyyətlər daxildir; 2) ikinci struktur elementə mənəvi keyfiyyətlər, şəxsiyyətin sosial mövqeyi, mənafeyi, maraqları, ehtiyac və tələbatları, adət və vərdişləri daxildir; 3) üçüncü struktur element özündə şəxsiyyətin əqli inkişaf səviyyəsini, təhsil-mədəni səviyyəni, bilik və bacarığı birləşdirir; 4) dördüncü struktur element şəxsiyyətin psixoloji (psixi) proseslərindən, onun vəziyyət və xüsusiyyətlərindən ibarətdir; 5) beşinci struktur element cins, yaş sağlamlıq vəziyyəti, fiziki quruluş xüsusiyyətləri və s. kimi biofizioloji əlamətləri birləşdirir.

Cinayətkarın şəxsiyyətinin quruluşunun ibarət olduğu struktur elementlər arasında birincisi, yəni sosial-demoqrafik əlamətlər haqqında ayrıca danışmaq lazımdır. Məhz həmin əlamətlər cinayətkarın şəxsiyyətinin sosial-demoqrafik xarakteristikasını verməyə imkan verir. Onlar əsasında cinayətkarın şəxsiyyətinin sosial-demoqrafik xüsusiyyətləri müəyyənləşdirilir. Bu xüsusiyyətlər isə şəxsiyyətin formalaşdığı şərait, onun həyat fəaliyyəti, şəxsiyyətin yerinə yetirdiyi sosial rollar və digər hallar nəzərə alınmaqla

müəyyən olunur. Onlar cinayətlərin profilaktikasına yönələn tədbirlərin işlənib hazırlanmasında və həmin tədbirlərin həyata keçirilməsində mühüm rola malikdir.

Bizim üzərimizə düşən vəzifə bundan ibarətdir ki, bank fəaliyyəti əleyhinə cinayət törədənlərin (cinayətkarların) şəxsiyyətinin quruluşuna aydınlıq gətirək. İlk növbədə, bank fəaliyyəti əleyhinə cinayət törədənlərin (cinayətkarların) şəxsiyyətinin sosial-demoqrafik xarakteristikasını verməliyik. Bundan ötrü müəyyən dövr ərzində bank fəaliyyəti əleyhinə cinayət törədənlərin sosial-demoqrafik xarakteristikasını verməliyik. Bunun üçün müəyyən dövr ərzində bank fəaliyyəti əleyhinə cinayət törədənlərə sosial-demoqrafik əlamətlər (cins, yaş, təhsil və digər əlamətlər) baxımından nəzər yetirməliyik. Belə halda bizim diqqətimizin obyekti bank fəaliyyəti əleyhinə cinayət törədənlərin şəxsiyyətinin sosial-demoqrafik xarakteristikasıdır ki, bu öz əksini bir neçə cədvəldə tapır.

Bank fəaliyyəti əleyhinə aid etdiyimiz cinayətlər əsasən iqtisadi fəaliyyət sahəsində olan cinayətlər olduğu üçün, statistik rəqəmləri göstərilən sahə üzrə təqdim edəcəyik:

***Cədvəl 1.***

***Azərbaycan Respublikasında iqtisadi fəaliyyət sahəsində cinayət törətmiş şəxslərin yaş bölgüsü***

***(2003-2013)***

| İllər | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi say | 359 | 481 | 267 | 286 | 268 | 437 | 449 | 397 | 497 | 502 | 571 |
| 14-18 | - | 1 | - | - | - | - | - | 4 | - | - | 1 |
| 18-25 | 11 | 18 | 5 | 9 | 9 | 11 | 35 | 33 | 33 | 24 | 34 |
| 25-30 | 26 | 44 | 27 | 33 | 45 | 44 | 53 | 41 | 44 | 53 | 63 |
| 30 yaş və | 322 | 418 | 235 | 244 | 214 | 382 | 361 | 319 | 420 | 425 | 473 |

***Cədvəl 2.***

***Azərbaycan Respublikasında iqtisadi fəaliyyət sahəsində törədilən cinayətlər üzrə məhkum olunanlar***

***(2005-2013)***

| İllər | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi say | 234 | 291 | 255 | 200 | 223 | 251 | 201 | 197 | 291 |
| O cümlədən: | | | | | | | | | |
| qadınlar | 8 | 18 | 17 | 11 | 8 | 13 | 13 | 10 | 19 |
| Məşğulluğu üzrə: | | | | | | | | | |
| fəhlə | 37 | 33 | 48 | 27 | 25 | 19 | 18 | 17 | 22 |
| qulluqçu | 29 | 13 | 14 | 9 | 8 | 7 | 6 | 1 | 2 |
| kəndli (fermer) təsərrüfatının üzvü | - | - | - | - | - | 3 | 4 | 2 | - |
| əmək qabiliyyətli olub işləməyən və oxumayanlar | 126 | 165 | 144 | 116 | 151 | 173 | 144 | 143 | 221 |
| digər | 42 | 80 | 49 | 48 | 31 | 36 | 16 | 24 | 46 |
| Təhsili üzrə: | | | | | | | | | |
| ali | 78 | 91 | 75 | 43 | 51 | 52 | 38 | 46 | 62 |
| orta və orta ixtisas | 147 | 190 | 170 | 151 | 166 | 193 | 160 | 141 | 208 |

***Cədvəl 3.***

***Azərbaycan Respublikasında iqtisadi fəaliyyət sahəsində törədilən cinayətlər üzrə məhkumlara tətbiq olunmuş cəza tədbirləri (2005-2013)***

| İllər | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi say | 234 | 291 | 255 | 200 | 223 | 251 | 201 | 197 | 291 |
| o cümlədən cəza növləri üzrə: | | | | | | | | | |
| müəyyən müddətə azadlıqdan məhrum olunanlar | 123 | 174 | 140 | 92 | 106 | 129 | 130 | 122 | 156 |
| islah işlərinə cəlb olunanlar | 11 | 7 | 10 | 9 | 15 | 5 | 16 | 25 | 30 |
| azadlığın məhdudlaşdırılması | 42 | 62 | 41 | 23 | 19 | 19 | 4 | - | - |
| şərti məhkum edilənlər | 26 | 19 | 27 | 26 | 11 | 46 | 27 | 29 | 54 |
| cərimə edilənlər | 30 | 29 | 35 | 49 | 72 | 52 | 24 | 21 | 45 |
| digər cəza növləri ilə cəzalandırılanlar | 2 | - | 2 | 1 | - | - | - | - | 6 |

***Cədvəl 4.***

***Azərbaycan Respublikasında iqtisadi fəaliyyət sahəsində cinayət törədən şəxslərin cinsi (2004-2013)***

| İllər | Kişi | Qadın | Faizlə |
|---|---|---|---|
| 2004 | 88,6 | 11,4 | 100 |
| 2005 | 95,9 | 4,1 | 100 |
| 2006 | 94,4 | 5,6 | 100 |
| 2007 | 92,2 | 7,8 | 100 |
| 2008 | 87,4 | 12,6 | 100 |
| 2009 | 92 | 8 | 100 |
| 2010 | 92,9 | 7,1 | 100 |
| 2011 | 92,6 | 7,4 | 100 |
| 2012 | 91,4 | 8,6 | 100 |
| 2013 | 93,5 | 6,5 | 100 |

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Digesta nəşriyyatı, 2015;
2. Сямяндяров Ф.Й. Kriminologiya. Цмими щисся. Дярслик. Бакы: 2003;
3. Щербаков, Александр Васильевич "Уголовно-правовые проблемы борьбы с преступлениями в банковской сфере", М: 2003 г, диссертасия;
4. Кутьин, Николай Георгиевич "Уголовно-правовые и криминологические проблемы борьбы с преступлениями в кредитно-банковской сфере", 2001 г, диссертасия;
5. Пинкевич Т.В. Криминологические и уголовно-правовые основы борьбы с экономической преступностью, М: 2003;
6. Герцензон А.А. Введение в советскую криминологию, М: 1965;
7. Кузнецова Н.Ф. Криминология, М: 1998;

# "BANK FƏALİYYƏTİ ƏLEYHİNƏ CİNAYƏTLƏRİ TÖRƏDƏNİN ŞƏXSİYYƏTİ"

**S.O. Əliyev**

**XÜLASƏSİ**

Bank sahibkarlıq subyekti olmaqla, mövcud və beynəlxalq şəraitə uyğun olaraq daim dəyişən, inkişaf edən və bu inkişafı ilə paralel olaraq hüquq sistemində yeniləşməni, uyğunlaşmanı tələb edən iqtisadiyyatın inkişaf etməsində mühüm vasitədir. Müasir bank çoxtərəfli fəaliyyət göstərərək, nəhəng pul dövriyyəsi ilə xarakterizə olunur və iqtisadiyyatın müxtəlif sahələrini maliyyələşdirməklə iqtisadi tərəqqiyə zəmin yaradır.

Pul və maliyyə dövriyyəsi, habelə bank fəaliyyəti ilə bağlı iqtisadi münasibətlərə, başqa sözlə, maliyyə-kredit sferasına (iqtisadiyyatın maliyyə-kredit sektoruna) qəsd edən cinayətlərlə mübarizə cinayət hüququnun ən aktual vəzifələrindən biri sayılır. Ölkədə bank fəaliyyətinin geniş vüsət aldığı və bu fəaliyyətə xüsusi diqqət yetirildiyi bir dövrdə, bu fəaliyyət növünün tənzimlənməsinin cinayət-hüquqi aspektləri barədə elmi araşdırmaların aparılması və bu barədə təkliflərin verilməsi olduqca zəruridir.

Bu mənada təqdim olunan məqalədə bank fəaliyətinə qarşı törədilən cinayətlərin kriminoloji xüsusiyyətləri, onların yaranma səbəbləri xarakterizə olunur, belə cinayətlərə görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət-hüquq normaları qısa təhlil edilir.

# ХАРАКТЕРИСТИКА ЛИЧНОСТИ ПРЕСТУПНИКА, СОВЕРШАЮЩЕГО ПРЕСТУПЛЕНИЯ ПРОТИВ БАНКОВСКОЙ ДЕЯТЕЛЬНОСТИ

**С.О.Алиев**

**Аннотация**

Являясь субъектом предпринимательства, банк выступает в роли важного посредника развития экономики, постоянно изменяющегося для адаптации к существующим обстоятельствам и международной среде, и параллельно требующего инноваций в правовой среде. Современный банк осуществляет многогранную деятельность, характеризуется крупным денежным оборотом и создает базу экономического прогресса, финансируя различные сферы экономики.

Борьба с преступлениями, посягающими на денежный и финансовый оборот, экономические отношения, связанные с банковской деятельностью, иными словами, на финансово-кредитную сферу (кредитно-финансовый сектор экономики), является одной из актуальных задач уголовного права. В период, когда банковская деятельность приобрела немалый масштаб внутри страны, и этой сфере уделяется особое внимание, крайне необходимо ведение научных исследований об уголовно-правовых аспектах регулирования данной деятельности и подготовка соответствующих предложений.

В данном контексте, представленная статья описывает характерные криминологические свойства преступлений против банковской деятельности и их причины, и кратко анализирует уголовно-правовые нормы, предусмотренные Уголовным Кодексом Азербайджанской Республики в отношении данного преступления.

# BANKING OFFENDER PERSONALITY

**S.O.Aliyev**

**Summary**

Being a subject of entrepreneurship, bank acts as a significant mediator for developing economy, constantly adapting to existing circumstances and to international community, in parallel demanding innovations and customization in the legal system. Contemporary bank engaged in wide ranges of activities, is characterized by large cash turnover and establishes the basis for economic progress via financing various areas of economy.

Prevention of crimes offending against cash and financial turnover, as well economic relations related to bank activity, financial-loan sphere (financial-loan sector of economy) is one of vital tasks of criminal law. Considering popularization of bank activity throughout the country, and special attention to this area, we stress the necessity of conducting scientific researches of criminal and judicial aspects of regulation of this type of activity and making relevant suggestions.

In the context presented, this article describes the criminological characteristics of crimes against bank activity and their causes, briefly analyses penal and legal norms against such crimes provided by the Criminal Code of the Republic of Azerbaijan.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# AQRAR-SƏNAYE MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**M.Ü.Əliyev**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakı, İstiqlaliyyət küç. 6
e-mail: arazqadimaliyev@mail.ru

***Açar sözlər***: Aqrar-sənaye müəssisələri, dövlət tənzimlənməsi, biznes və investisiya mühiti, kənd təsərrüfatı

Aqrar - sənaye müəssisələri insanın aclıq və susuzluq kimi fizioloji ehtiyaclarının ödənilməsi üçün zəruri istehlak məhsullarının böyük bir qismini təmin edir. Həmin məhsulların mühüm hissəsini ərzaq məhsulları təşkil edir.

Bu baxımdan hər bir ölkənin özünəməxsus, müstəqil aqrar siyasətinin olması ictimai bir vəzifə kimi meydana çıxır.

Yeyinti, toxuculuq kimi bir sıra sənaye sahələrində emal olunan əsas xammal resursları aqrar-sənaye müəssisələri tərəfindən istehsal edildiyindən onlar davamlı sənaye inkisafı baxımından da mühüm əhəmiyyət kəsb edir.

Hazırda bütün inkişaf etmiş ölkələrdə aqrar-sənaye müəssisələrnin fəaliyyətinin dövlət tənzimlənməsi iqtisadiyyatın bazar mexanizminin vacib tərkib hissəsidir.

Aqrar-sənaye istehsalının dövlət tənzimlənməsi dedikdə, dövlətin kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və realizəsinə iqtisadi təsiri, habelə aqrar-sənaye müəssisələrinə istehsal-texniki xidmət və maddi-texniki təmnat tədbirləri başa düşülür. [1]

İqtisadi ədəbiyyatda aqrar - sənaye istehsalının dövlət tənzimlənməsi sisteminin əsaslandığı bir sıra prinsiplər göstərilir:

Birincisi, bu sahəyə aid istehsalçılar adətən özünümaliyyələşdirmə əsasında çalışırlar və buna görə də onların himayəsi üzrə istənilən tədbir əlavə tədbir hesab oluna bilər;

İkincisi, subsidiyalar, dotasiyalar, güzəştlər və digər tənzimləyici rıçaq və alətlər onları daha səmərəli təsərrüfatçılığa istiqamətləndirməlidir;

Üçüncüsü, dövlət tənzimlənməsi sistemi məqsədli proqram yanaşmaya əsaslanmalıdır, yəni istənilən tədbir konkret dövlət proqramının tərkib elementi olmalıdır.

Dövlət tənzimlənməsinin vəzifələrinə aşağıdakılar aiddir: aqrar-sənaye müəssisələrinin fəaliyyətinin sabitləşdirilməsi və istehsalın səmərəliliyinin yüksəldilməsi, ölkənin ərzaq təhlükəsizliynin təmin edilməsi, ərzaqla təminatın yaxşılaşdırılması, aqrar-sənaye müəssisələrinin digər sahələrlə iqtisadi paritetdə fəaliyyətinin dəstəklənməsi,yerli istehsalçıların himayə edilməsi və s.

Xalq təsərrüfatının heç bir digər sahəsi aqrar-sənaye müəssisələri kimi özünəməxsus xüsusiyyətləri baxımından dövlət tənzimlənməsi və dəstəyinə ehtiyac duymur. Aqrar-sənaye müəssisələrinn dövlət tənzimlənməsinin rolunun güclənməsi zərurəti aşağıdakı cəhətlərlə şərtləndirilir:

- birincisi, sərbəst bazar münasibətləri şəraitində aqrar-sənaye müəsssələrinin məhsullarının qiymətləri digər sənaye məhsullarının qiymətlərinə nisbətən əhəmiyyətli dərəcədə gec artır;

[1] Экономика отраслей АПК / И.А. Минаков, Н.И. Куликов, О.В. Соколов и др.; Под ред. И.А. Минакова. – М.: КолосС, 2004. с 313.

- ikincisi, aqrar-sənaye müəssisələrində sahibkarlıq fəaliyyətinin yüksək risklərlə müşayiət olunması, gəlirliliyin müəyyən qədər təbii-iqlim şərtlərindən asılılığı müəssisələrin gəlirlliyinin mütərəddidliyinin artmasına səbəb olmaqla istehsalçıların rifahına ciddi təhlükə yarada bilər;

- üçüncüsü, əsas xammal təminatçısı olan kənd təsərrüfatında mövcud olan mövsümilik müəyyən qədər aqrar-sənaye müəssisələrinin fəaliyyətində də fasilələr yaratmaqla, obyektiv şəkildə əmək resurslarından daha düzgün istifadəni şərtləndirir;

- dördüncüsü, daxili və xarici ərzaq bazarında kifayət qədər böyük tələbatın olduğunu nəzərə alaraq aqrar-sənaye müəssisələrinin məhsullarının bazara çıxarılması üçün dövlət tərəfindən müvafiq tədbirlərin görülməsinə ehtiyacın növcudluğu və s.

Beləliklə, aqrar-sənaye müəssisələrinin fəaliyyətinin bu və digər özünəməxsus xüsusiyyətləri bu sahədə dövlət tənzimlənməsinin müxtəlif mexanizm və alətlər vasitəsilə həyata keçirilməsinin zəruriliyini şərtləndirir.

Aqrar-sənaye müəssisələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin əsas vəzifələrinə bu sahədə sabitləşdirilməsi və inkişafı, ölkənin ərzaq sahəsində təhlükəsizliyinin təmin edilməsi, əhalinin ərzaqla təminatının yazşılaşdırılması, kənd təsərrüfatı ilə iqtsadiyyatın digər sahələri arasında iqtisadi əməkdaşlığın dəstəklənməsi, aqrar-sənaye istehsalı sahəsində əmtəə istehsalçılarının fəaliyyətinin əlaqələndirilməsi aid edilə bilər.

Hazırda aqrar-sənaye müəssisələrinin fəaliyyətinin dövlət tənzimlənməsi bu sahədə qəbul edilmiş qanunlar və və digər normativ-hüquqi aktlar vasitəsilə həyata keçirilir. Aqrar-sənaye müəssisələrinin fəaliyyətinn dövlət tənzimlənməsi metodları dedikdə, dövlət qurumları tərəfindən aqraq sahədə hüquqi münasibətlərin bütün iştirakçılarına aid olan müəyyən təsir vasitələrinin məcmusunu əhatə edir.

Müasir dövrdə aqrar-sənaye müəssisələrinin fəaliyyətinin dövlət tənzimlənməsi üsul və vasitələrinin tədqiqi vacib əhəmiyyətə malikdir. Aqrar sahədə dövlət tənzimlənməsinin bir neçə metodu məlumdur. Əsas metodlara aşağıdakılar aid edlir:

- iqtisadi;
- inzibati

İnzibati metodlardan istifadə dedikdə dövlət qurumlarının aqrar-sənaye müəssisələrinə münasibətdə təbii resurslardan səmərəli istifadənin, xammal və kənd təsərrüfatı məhsullarının keyfiyyətinin və s. təmin edilməsi istiqamətində birbaşa göstərişləri və qadağaları başa düşülür.

Bununla yanaşı, müasir dövrdə aqrar-sənaye müəssisələrinin fəaliyyətinin müxtəlif istiqamətlərində dövlət tənzimlənməsinin iqtisadi metodlarla – aqrar münasibətlərin iştirakçılarının iqtisadi maraqlarına təsir etməyə imkan verən maliyyələşmə, vergiqoyma, kreditləşmə, qiymətəmələgəlmə və sığortalanma mexanizmləri vasitəsilə həyata keçirilməsi məsələsi kifayət qədər aktualdır.

İnzibati və iqtisadi metodlar bir-birini tamamladığından xüsusilə aqraq sahənin dövlət tənzmlənməsi məsələlərində onları qarşı-qarşıya qoymaq olmaz.

Habelə dövlət tənzimlənməsinin digər (inandırma, icazə, birbaşa göstəriş metodu, tövsiyə və s.) metodlarından istifadə də mühüm əhəmiyyət kəsb edir.

*Aqrar-sənaye* müəssisələri – tərkbində kənd təsərrüfatı məhsullarının sənaye emalını və saxlanmasını həyata keçirən ixtisaslaşmış müəssisələrdir.[2] Kənd təsərrüfatı xammalının emalı üzrə müəssisələrin tikintisinin faydalılığı bütün texnoloji prosesin,

[2] Экономика отраслей АПК / И.А. Минаков, Н.И. Куликов, О.В. Соколов и др.; Под ред. И.А. Минакова. – М.: КолосС, 2004. с 234.

hətta hazır məhsulun istehlakçıya çatdırılmasına qədər uyğunlaşdırılması ilə müəyyən olunur. Texnoloji prosesin bu şəkildə inteqrasiyası xüsusən tez xarab olan məhsulların – meyvə-tərəvəz, giləmeyvə, süd və s. istehsalı və emalı zamanı xüsusi əhəmiyyətə malikdir.

Adətən kənd təsərrüfatı müəssisələri böyük miqdarda, bəzən ümumi tədarük olunan məhsulun ¼-i qədər, qeyri-standart məhsul təhvil alırlar. Bununla əlaqədar olaraq, belə məhsulların emalı lə bağlı sex və zavodların tikilməsi istehsalın iqtsadi səmərəliliyini artırır.

Aqrar-sənaye müəsssələrinin digər inteqrasiya firmaları (aqrar-sənaye kombinatları və aqrar-sənaye brlikləri) də mövcuddur. Aqrar-sənaye kombinatları adətən şəkər çuğunduru, tərəvəz konservi habelə üzüm-şərab istehsalında daha geniş yayılır. Bu tip kombinatlar bir-birinə yaxın, ərazi, texnoloji və təşkilati baxımdan sıx əlaqədə olan kənd təsərrüfatı və sənaye sahələrini özündə birləşdirir. [3]

Aqrar bazarın iqtsadi tənzimlənməsi özündə geniş təkrar istehsalın subsidiyalaşdırılmasını, vergi və kredit stimullaşdırılmasını nəzərdə tutan dövlət proteksionizminə əsaslanır.

Aqrar bazarın iqtisadi stimullaşdırılması vəzifələrinin həlli aşağıdakı istiqamətlərdə həyata keçirilməlidir:

- dövlətin ərzaq təhlükəsizliyinin stimullaşdırılması:
- kənd təsərrüfatı ilə sənaye arasında elmi cəhətdən əsaslandırılmış ekvivalent əlaqələrin qurulması:
- kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin geniş təkrar istehsalı təmin edən səviyyədə saxlanılmasının təmin edilməsi:
- elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiqi və istehsalın səmərəliliyinin yüksəldilməsi üçün şəraitin yaradılması;
- ölkə daxilində vahid iqtisadi məkanın formalaşdırılması, yaxın və uzaq xarici bazarlara çıxışın təmin edilməsi.

Müasir dövrdə dövlətin aqrar siyasətinin daha yaxsı dərk edilmsi və səmərəliliyinin artırılması məqsədilə bu sahənin, o cümlədən aqrar-sənaye müəssisələrinin özünəməxsus xüsusiyyətlərinin və ölkə iqtisadiyyatında oynadıgı rolunun ətraflı öyrənilməsinə ehtiyac vardır.

Azərbaycan iqtisadiyyatının böyük potensiala malik olan sahələrindən biri kənd təsərrüfatıdır. Bu sahə özündə texniki bitkiçilik, meyvəçilik, tərəvəzçilik və bostançılıq, heyvandarlıq, cins maldarlıq, sənaye quşçuluğu, dənli bitkiçilik, baramaçılıq, balıqçılıq və arıçılıq sahələrini birləşdirir. Azərbaycanın əlverişli təbii-iqlim şəraiti kənd təsərrüfatında dənli və dənli-paxlalı bitkilər, kartof, tərəvəz və bostan məhsulları, şəkər çuğunduru, pambıq, meyvə, üzüm, çay, tütün və digər məhsulları becərməyə imkan verir. Əhalinin ən zəruri istehlak malları ilə təminatında həmişə mühüm rol oynamış kənd təsərrüfatı sahəsi həm də ölkə əhalisinin məşğulluğunda böyük rola malikdir. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2014-cü ildə ölkənin iqtisadiyyatında məşğul olan bütün əhalinin (4602,9 min nəfər) 1691,4 min nəfəri və ya 36,7 faizi kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı sahəsində çalışmışdır. Eyni zamanda, qeyd edək ki, bu göstərici 2005-ci ilin göstəricisindən (38,7 faiz) 2% aşağıdır.[4]

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında 1995-ci ildən başlayaraq aqrar sahənin bazar prinsipləri əsasında yenidən qurulması, sovxoz və

---

[3] Экономика сельского хозяйства: Учебник для студентов высших учебных заведений / Н.Я.Коваленко, Ю.И. Агирбов, Н.А. Серова и др. – М.: ЮРКНИГА, 2004. с 61.

[4] http://www.stat.gov.az/source/labour/az/002_1-2.xls ; http://www.stat.gov.az/source/labour/az/002_7-8.xls

kolxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın və əmlakın kəndlilərə paylanması kimi tədbirlər nəticəsində kənd təsərrüfatının sosial və sahəvi tərkibində ciddi struktur dəyişiklikləri baş verdi, sahə üzrə keyfiyyətcə fərqli münasibətlər formalaşdı. Ölkəmizdə 1995-ci ildə "Aqrar islahatının əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və 1996-cı ildə isə "Torpaq islahatı haqqında" qanunlar qəbul edilmişdir.[5]

Aqrar islahatların birinci mərhələsində torpağın və əmlakın özəlləşdirilməsi başa çatdırılmışdır. Xüsusi mülkiyyətə veriləcək torpaq sahələrinin 99,8 faizi, əmlakın isə 98,9 faizi özəlləşdirilmişdir. Ölkəmizdə həyata keçirilən aqrar islahatı nəticəsində 867 minə yaxın ailə torpaq payı almış, mülkiyyətçilər yaranmışdır. Aqrar sahədə yaradılmış əlverişli şərait nəticəsində 842 minə qədər xırda (ailə-kəndli) təsərrüfatı, 36 dövlət təsərrüfatı (məhdud məsuliyyətli cəmiyyət), 79-dan çox kənd təsərrüfatı istehsal kooperativi, 2409 kənd təsərrüfatı müəssisəsi (birgə təsərrüfatlar), 2571 fərdi sahibkarlar (hüquqi şəxs yaradanlar) və 220 sair kənd təsərrüfatı müəssisəsi (elmi-tədqiqat, tədris, təcrübə və s.) təsərrüfat formaları yaradılmışdır. Hazırda aqrar bölmədə özəl sektorun xüsusi çəkisi demək olar ki, 100%-ə çatmışdır.[6]

Bütün müsbət cəhətlərlə bərabər, son illərdə ölkəmizdə kənd təsərrüfatı məhsulunun həcminin azalması meyli müşahidə olunmaqdadır. Belə ki, DSK-nin məlumatlarına əsasən kənd təsərrüfatı məhsulunun illik həcmində artım 2005-2014-cü illərdə 107,5%-dən 97,4%-ə qədər aşağı düşmüşdür.[7]

**Cədvəl 1.**

**Ümumi daxili məhsul istehsalında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın payı, faktiki qiymətlərlə (mlyn. man.) və faizlə**

| Göstəricilərin adı | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|
| ÜDM, faktiki qiymətlərlə, mlyn man | 4718,1 | 12522,5 | 42465,0 | 52082,0 | 54743,7 | 58182,0 | 58977,8 |
| ÜDM istehsalında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, faktiki qiymətlərlə, mlyn man | 758,9 | 1137,9 | 2344,6 | 2643,5 | 2813,7 | 3122,2 | 3111,0 |
| ÜDM, faizlə | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| ÜDM istehsalında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, faizlə | 16,1 | 9,1 | 5,5 | 5,1 | 5,1 | 5,4 | 5,3 |

Mənbə: http://www.stat.gov.az/source/agriculture/az/001_4.xls

[5] http://www.agro.gov.az/index.php?cat=18&ses=59fed
[6] http://www.agro.gov.az/index.php?cat=18&ses=59fed
[7] http://www.stat.gov.az/source/system_nat_accounts/az/001.xls

Cədvəl 1.-in məlumatlarından da aydın olur ki, 2000-2014-cü illər ərzndə ÜDM istehsalında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələri dəyər ifadəsində 758,9 milyon mananatdan 3111,0 milyin manata qədər və ya 2,4 dəfə artmışdır.

Lakin qeyd olunan dövr ərzində ÜDM istehsalında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsinin payı 16,1%-dən 5,3%-ə qədər azalmışdır.

Digər tərəfdən, 2000-2014-cü llər əraində kənd təsərrüfatı müəssisələrinin sayı 2158-dən 1701-ə qədər azalmışdır.(Cədvəl 2.)

**Cədvəl 2.**

**Kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəriciləri**

| Göstəricilərin adı | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|
| **Müəssisələrin ümumi sayı, vahid** | **2158** | **1782** | **2043** | **1917** | **1774** | **1669** | **1701** |
| O cümlədən: gəlirlə işləyənlər | 1026 | 1579 | 1869 | 1761 | 1665 | 1590 | 1577 |
| zərərlə işləyənlər | 1132 | 203 | 174 | 156 | 109 | 79 | 124 |
| Mənfəətin məbləği, min manat | 608 | 7098 | 32385 | 41912 | 52250 | 56340 | 67331 |
| Zərərin məbləği, min manat | 3923 | 1207 | 4728 | 4992 | 4050 | 4057 | 3367 |
| Satışdan əldə edilən pul gəliri, min manat | 14714 | 70882 | 188635 | 207904 | 294726 | 333604 | 402402 |
| Ümumi gəlir (faktiki qiymətlərlə), min manat | 1118 | 14757 | 71604 | 71623 | 86045 | 91903 | 102723 |
| Təsərrüfatda çalışan işçilərin orta illik sayı, min nəfər | 23,7 | 16,6 | 17,0 | 16,2 | 16,1 | 14,6 | 14,7 |
| Kənd təsərrüfatının ümumi məhsulu, (müvafiq illərin faktiki qiymətləri ilə), min manat | 21558 | 79683 | 187694 | 198806 | 263180 | 304766 | 359315 |
| Kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri, min manat | 184156 | 172139 | 393995 | 373022 | 391091 | 379196 | 391319 |
| Bir təsərrüfata düşən kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri, min manat | 85,3 | 96,6 | 192,9 | 194,6 | 220,5 | 227,2 | 230,1 |
| Ümumi torpaq sahəsi, ha | 495647 | 296765 | 225998 | 218760 | 224472 | 227078 | 226512 |
| Ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi | 335410 | 197072 | 184632 | 183904 | 189885 | 195635 | 195535 |
| o cümlədən əkin yeri | 160083 | 59603 | 98400 | 89830 | 95007 | 95485 | 100316 |
| Orta hesabla bir kənd təsərrüfatı müəssisəsinə düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi, ha | 155,4 | 107,6 | 90,2 | 95,8 | 107,1 | 117,2 | 115,0 |

Mənbə: http://www.stat.gov.az/source/agriculture/az/km/001_1.xls

Qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan aqrar sektorun inkişafı olkə əhalisinin ərzaq təhlukəsizliyinin təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Aqrar-sənaye müəssisələrinin daha da inkişaf etdirilməsi məqsədilə dovlət tərəfindən investisiya layihələrinin reallaşdırılmasına, guzəştli kreditlərin verilməsinə xüsusi əhəmiyyət verilir.

Hazırda kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması, rəqabət qabiliyyətinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi və ixracının genişləndirilməsi məqsədilə ölkəmizdə dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilir. Azərbaycanın dövlət başçısı tərəfindən imzalanmış «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişafı üzrə Dövlət Proqramı», «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulalrı ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın uğurla həyata keçirilməsi kənd təsərrüfatının inkişafına öz müsbət nəticələrini göstərir.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalçılarına birbaşa (yardımlar, subsidiyalar və s.) və dolayı (vergi güzəştləri, güzəştli kreditlər və s.) yolla dövlət tərəfindən dəstəklənir. Kənd təsərrüfatı məhsullarının istehsalçılarını stimullaşdırmaq məqsədilə dövlət büdcəsi tərəfindən ümumilikdə aqrar sahəyə bir neçə istiqamətdə subsidiyalar edilməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 23 yanvar 2007-ci il tarixli 1907 nömrəli Sərəncamının icrası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 fevral 2007-ci il tarixli 32 nömrəli və 16 noyabr 2007-ci il tarixli 181 nömrəli qərarları ilə "Qaydalar" təsdiq olunmuşdur. Bu Qaydalara uyğun olaraq 2007-ci ildən başlayaraq istehsalçılara hər hektar əkin sahəsinin və çoxillik əkmələrin (növündən asılı olmayaraq) becərilməsində sərf olunan yanacaq və motor yağlarına görə 40 manat, habelə hər hektar buğda və çəltik səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına əlavə olaraq 40 manat məbləğində yardım verilir.

Regionların sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsində kredit təşkilatlarının rolu kifayət qədər böyükdür. Dünya təcrübəsi göstərir ki, iqtisadiyyatın real sektorunun kreditləşməsi bankların kredit strategiyasının ən risqli istiqamətlərindən biridir. Hətta bəzi ölkələrdə real sektor müəssisələrinin kreditləşməsi ilə məşğul olmaq banklar üçün kifayət qədər risqli sayılır. Bununla yanaşı, əksər ölkələrdə real sektorun kreditləşməsi ilə əsas etibarilə regional banklar məşğul olurlar. Ölkədə bazar yönümlü iqtisadi bazasının formalaşması prosesinin sürətlənməsi ölkənin maliyyə-bank sisteminin qarşısında yeni vəzifələr qoyur.

Azərbaycan Respublikasının Prezidentinin müvafiq Fərmanları ilə təsdiq olunmuş Regionların sosial-iqtisadi inkişafının I, II Dövlət Proqramları yerinə yetirilmişdir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" bütün əsas sahə və göstəricilər üzrə müvəffəqiyyətlə yerinə yetirilir.

Nazirlər Kabinetinin 2007-ci il 16 noyabr tarixli 181 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalara uyğun olaraq 2015-ci ilin məhsulu üçün 2014-cü ilin payızında 426,3 min hektar sahədə aparılan buğda və çəltik səpininə görə 129 min istehsalçıya 17,1 milyon manat yardım verilmişdir.

Nazirlər Kabinetinin 15 fevral 2007-ci il tarixli 32 nömrəli və 01 avqust 2014-cü il tarixli 270 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalara uyğun olaraq "Aqrolizinq" ASC, digər hüquqi və fiziki şəxslər tərəfindən ölkə üzrə 32325 nəfər kənd təsərrüfatı

məhsulları istehsalçılarına 17616 min manat dəyərində 45736 ton mineral gübrə güzəştli şərtlərlə satılmışdır.

Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin vəsaiti hesabına kənd təsərrüfatının inkişafı məqsədilə ölkənin 35 rayonunda aqrar sektorda çalışan 355 sahibkara 9,3 milyon manat məbləğində güzəştli kreditlər verilmişdir (1,6 milyon manat Dövlət büdcəsindən və 7,7 milyon manat əvvəlki illərdə verilmiş kreditlərin qayıdışı hesabına).

Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun (İFAD) krediti hesabına maliyyələşmiş, 2007-ci ildə yekunlaşmış "Dağ və Yüksək Dağlıq Ərazilərin İnkişaf Etdirilməsi Proqramı"nın və 2011-ci ildə yekunlaşmış "Şimal-Şərq İnkişaf Layihəsi"nin kredit komponentinin davam etdirilməsi məqsədi müvəkkil kredit təşkilatları tərəfindən aqrar sektorda çalışan 29 nəfərə 587,0 min manat məbləğində mikro, kiçik və böyük həcmli güzəştli kreditlər verilmişdir.

İFAD-ın və İslam İnkişaf Bankının krediti hesabına maliyyələşən "Kənd Yerlərinin Kompleks İnkişaf Layihəsi" Müəssisələrin İnkişafı üçün kənd maliyyə xidmətləri komponenti çərçivəsində cari ilin I rübündə "Mədəd Kredit" və "Viza Kredit" BOKT tərəfindən 38 üzvdən ibarət 8 BB qrupuna 110,7 min manat məbləğində, "Aqrarkredit" və "Qafqaz Kredit" BOKT tərəfindən isə 160 nəfərə 772,5 min manat məbləğində fərdi kredit verilmişdir.

2013-cü il ərzində Sahibkarlığa Komək Milli Fondunun vasitəsilə dovlətin guzəştli kreditləri hesabına maliyyələşdirilməsi məqsədilə muvəkkil kredit təşkilatlarına muraciət etmiş sahibkarlıq subyektlərinin investisiya layihələrinin 4340-ı (96.1%) aqrar sektorun inkişafı (guzəştli kredit tələbatı 177 320.8 min manat (65.1%)), sahələrini əhatə etmişdir. [8]

2013-cü il ərzində sahibkarlıq subyektlərinə dovlətin güzəştli kreditlərinin verilməsi məqsədilə müvəkkil kredit təşkilatları tərəfindən Sahibkarlığa Komək Milli Fonduna təqdim edilmiş investisiya layihələrinin sayı otən ilin müvafiq dövrü ilə müqayisədə 1,8 dəfə çox olmuşdur ki, bu da Sahibkarlığa Komək Milli Fondunun dovlətin iqtisadi siyasətinin həyata kecirilməsində yaxından iştirak etməsi, sahibkarlara güzəştli kreditlərlə maliyyə dəstəyinin verilməsi istiqamətində uğurlu fəaliyyətinin nəticəsidir.

"2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dovlət Proqramı"nın icrası ilə əlaqədar Fondun vasitəsi ilə 45 investisiya layihəsinin maliyyələşdirilməsinə 5 milyon manat, o cumlədən müasir texnologiyaların tətbiqi ilə 469 ha üzüm əkilməsinə mərhələlərlə 4.5 milyon manat guzəştli kredit verilmişdir. [9]

Sahibkarlığa Kömək Milli Fondu dövlətin iqtisadi siyasətində yaxından iştirak etməklə qeyri-neft sektoru sahələrinin inkişafı istiqamətində daha yeni layihələrin güzəştli şərtlərlə maliyyələşdirilməsini davam etdirir. Bu layihələrin reallaşması sahibkarlığın inkişafına yeni perspektivlər açaraq ölkədə istehsal olunan məhsulların keyfiyyətinə, istehsal həcminin və çeşidinin artırılmasına, daxili tələbatın maksimum dərəcədə yerli məhsullar hesabına ödənilməsinə, ixrac imkanlarının xeyli genişləndirilməsinə öz müsbət təsirini göstərməklə, Azərbaycan iqtisadiyyatının dinamik inkişafına layiqli töhfəsini verəcəkdir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidentinin 23 oktyabr 2004-cü il tarixli 468 nomrəli "Aqrar bolmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən yaradılmış "Aqrolizinq" ASC və onun

---

[8] 2013 illih hesabat. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu. s.25.
[9] 2013 illih hesabat. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu. s.37.

regionlarda fəaliyyət gostərən onlarla filialı aqrar bolmənin müasir texnika, texnoloji avadanlıq, aqrokimyəvi maddələr və yuksək reproduksiyalı buğda toxumları ilə təchizatında mühüm rol oynayır. "Aqrolizinq" ASC-nin xətti ilə respublikamıza idxal olunan kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq, mineral gübrələr və yüksək məhsuldar damazlıq heyvanlar kənd təsərrüfatı məhsullarının istehsalçılarına, emal və xidmət sahələri ilə məşğul olan sahibkarlara lizinq yolu ilə verilir və ya güzəştli şərtlərlə satılır. Hazırda respublikanın bütün rayonlarında "Aqrolizinq" ASC-nin aqroservis filialları, onlarla mexanikləşdirilmiş dəstələri fəaliyyət göstərir.[10]

Kənd təsərrüfatı sahəsində səmərəli təsərrüfatçılığın, sahibkarlığın inkişafının təmin edilməsi məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, onlara müddətli vergi tətillərinin verilməsinə başlandı. Bununla yanaşı, kənd təsərrüfatı məhsulu istehsalçıları 2014-cü ilə qədər torpaq vergisindən başqa bütün digər vergi ödəmələrindən azad edildilər.[11]

Bütün qeyd olunan tədbirlər ölkəmizdə kənd təsərrüfatının inkişafına müsbət təsir göstərmişdir. Belə ki, daxili istehsal hesabına əhalinin bir sıra kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi mümkün olmuş, təkcə 2007-2010 ildə kənd təsərrüfatının ümumi məhsulunun artım tempi orta hesabla 2,5 faiz təşkil etmişdir.[12]

Azərbaycan üçün bu gün ən mühüm strateji məqsədlərdən biri ölkə iqtisadiyyatının neftdən asılılığını aradan qaldırmaq və iqtisadi inkişafın daha çox regionlara yayılmasını təmin etməkdən ibarətdir. Kənd yerlərində yoxsulluğun azaldılmasına əsaslı təsir edən sahə kimi kənd təsərrüfatı bu məqsədə nail olmaq üçün geniş imkanlara malikdir. Bunu nəzərə alaraq Azərbaycan Respublikasının Prezidentinin 12 yanvar 2015-ci il tarixli Sərəncamına əsasən 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilmişdir. Lakin müsbət nəticələrlə yanaşı kənd təsərrüfatı sahəsində hələ də bir sıra həlli vacib olan problemlər mövcuddur.

Hazırda Azərbaycanda istehsal olunan bir sıra keyfiyyətli, təmiz, təbii kənd təsərrüfatı məhsulları artıq dünya standartlarına cavab verdiyindən özümüzü təmin etməklə yanaşı, həm də ixrac edilməkdədir. Azərbaycanın qloballaşan dünya iqtisadiyyatına interasiyasının ildən-ilə genişləndiyi müasir mərhələdə kənd təsərrüfatının neft ixracına alternativ bir sahə kimi formalaşdırılmasına aktual bir vəzifə kimi gündəlikdə durmaqdadır. Ölkəmizin kənd təsərrüfatının inkişafının prioritet istiqamətləri sırasına həm bitkiçilik, həm də heyvandarlıqda xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafının dəstəklənməsi, rəqabət qabiliyyətli məhsul istehsalının artırılmasının stimullaşdırılması, sahənin maliyyə vəziyyətinin yaxşılaşdırılması, habelə elmi-metodiki təminatının və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi aid edilir.

Hesab edirik ki, aqrar-sənaye müəssisələrinin fəaliyyətinin dövlət tənzimlənməsi istiqamətləri aşağıdakı kimi müəyyən edilə bilər:

1) kənd təsərrüfatı məhsulları, xammal və ərzaq malları bazarının formalaşdırılması və fəaliyyət göstərilməsi;

2) müəssisələrin maliyyələşdirilməsi, kredtləşdirilməsi, sığortalanması və güzəştli vergiqoyma;

3) xarici iqtisadi fəalyyət zamanı yerli əmtəə istehsalçılarının maraqlarının müdafiəsi;

4) aqrar-sənaye istehsalı sahəsində elmi fəaliyyətin inkişafı.

[10] http://agro.gov.az/statstka-v-hesabatlar/dvlt-proqramlar-v-digr-siyast-sndlri-zr-hesabatlar/

[11] http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=18%3Aeconomy&catid=27&showall=1

[12] http://www.agro.gov.az/index.php?cat=32&ses=eed05

Nəzəri ümumiləşmələr belə nəticəyə gəlməyə əsas verir ki, ölkəmizdə aqrar-sənaye müəssisələrinin inkişafını respublikanın beynəlxalq əmək bölgüsündəki üstünlüklərinə uyğun şəkildə ixtisaslaşması, istehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi, milli ixracatçıları stimullaşdıran şəraitin yaradılması, istehsalda yüksək texnologiyalardan istifadə və digər amillər hesabına təmin etmək mümkündür. Hesab edirik ki, aqrar-sənaye məhsullarının səmərəli, yəni tullantısız və itkisiz istifadə olunmasına, onun istehsalının artmasına kömək edən mütərəqqi texnologiyalardan istifadə edilməsinə xüsusi fikir verməK lazımdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu. İllik hesabat, 2011-2014-cü illər.
2. Allahverdiyev H.B, Qafarov K.S, Əhmədov Ə.M., "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi", Bakı, 2007.
3. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Metodik vəsait. Bakı: "İqtisad Universiteti", – 2011. -120 səh.
4. Əliyev A.A., Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid: Dövlətin aqrar siyasəti. Bakı, Az.DİU, 2002.
5. Экономика отраслей АПК / И.А. Минаков, Н.И. Куликов, О.В. Соколов и др.; Под ред. И.А. Минакова. – М.: КолосС, 2004. – 464 с
6. Экономика сельского хозяйства: Учебник для студентов высших учебных заведений / Н.Я.Коваленко, Ю.И. Агирбов, Н.А. Серова и др. – М.: ЮРКНИГА, 2004. – 384 с.
7. Экономика предприятий и отраслей АПК: учебник / П.В.Лещиловский, В.Г. Гусаков, Е.И.Кивейша (и др.); под ред. П.В.Лещиловского, В.С. Тонковича, А.В. Мозоля. – 2-е изд., перераб. и доп. – Минск: БГЭУ, 2007. 574 с.
8. http://www.agro.gov.az
9. http://www.stat.gov.az

2016 - № 44

# DÖVLƏT MÜƏSSİSƏSİNİN HÜQUQİ VƏZİYYƏTİNİN ƏSASLARI

**Eldar Orucov**
Azərbaycan Milli Elmlər Akademiyası
Bakı, H.Cavid 115
e-mail: eldar.orujov@gmail.com

**Açar sözlər:** hüquqi vəziyyət, hüquqi status, dövlət müəssisəsi, unitar müəssisə, hüquq qabiliyyəti, fəaliyyət qabiliyyəti, hüquq subyektliyi, nizamnamə kapitalı

**Keywords:** legal status, legal status, government, unitary enterprise, legal capacity, ability, personality, registered capital

**Ключевые слова:** правовое положение, правовой статус, государственное учреждение, унитарное предприятие, правоспособность, дееспособность, правосубъектность, уставный капитал

Dövlət müəssisələrinin hüquqi vəziyyətinin əsaslarından danışarkən, ilk növbədə, onların anlayışı, hüquqi status və hüquqi vəziyyət anlayışları (onların qarşılıqlı nisbəti), dövlət müəssisələrinin hüquqi təbiəti və hüquq subyektliyi ilə bağlı əsas məsələlər müəyyən edilməlidir.

Hüquq ədəbiyyatının və qanunvericiliyin təhlili göstərir ki, dövlət müəssisələri xüsusi və özünəməxsus hüquqi təbiətə malik olan hüquqi kateqoriyalardan biri kimi çıxış edir.

Müasir dövrdə dünya ölkələrinin təcrübəsində dövlət müəssisələrinin hüquqi təşkilinin üç əsas formasını fərqləndirmək olar:

1) ticarət yoldaşlıqları formasında mövcud olan müəssisələr (başlıca olaraq səhmdar cəmiyyətləri və məhdud məsuliyyətli cəmiyyət);

2) kapitalı səhmlərə və paylara bölünməyən, prinsip etibarilə ayrıca əmlakı və müstəqil əmlak məsuliyyəti ilə hüququn müstəqil subyekti kimi çıxış edən müəssisələr;

3) nə təsərrüfat, nə maliyyə, nə də hüquqi müstəqilliyi olmayan xəzinə müəssisələri; onların maliyyələşdirilməsi və gəlirləri dövlət büdcəsi hesabına təmin olunur (12, s. 173).

Dövlət müəssisələri cəmiyyət və dövlətin tələbatları ilə şərtlənən sosial-iqtisadi vəzifələrin həlli məqsədilə aşağıdakı hallarda yaradılır:

1) milli təhlükəsizliyin, dövlətin müdafiə qabiliyyətinin və cəmiyyətin maraqlarının müdafiəsinin başqa cür mümkün olmaması;

2) dövlətə məxsus strateji obyektlərin istifadəsi və saxlanılması;

3) dövlət inhisarına aid edilmiş sahələrdə fəaliyyətin həyata keçirilməsi;

4) rəqabətin olmadığı və ya kifayət qədər inkişaf etmədiyi ictimai istehsal sahələrində əmtəələrin istehsalına ictimai tələbatın olması (30).

Dövlət müəssisələri xüsusi və ümumi başlanğıcların özünəməxsus uzlaşması olmaqla, publik iqtisadiyyatın mövcudluğu haqqında danışmağa, müasir təsərrüfat dövriyyəsində müstəqil sektorun fərqləndirilməsinə imkan verir (17, s. 5).

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə” Dövlət Proqramında həmin Dövlət Proqramının məqsədləri üçün dövlət müəssisəsi dedikdə, tamamilə dövlət mülkiyyətində olan, səhmlərinin (paylarının) və ya əmlakının 2/3 hissəsindən çoxu birbaşa və dolayısı dövlətə məxsus olan hüquqi şəxslər başa düşülür/ Dövlət müəssisələri, bir qayda olaraq, açıq və qapalı səhmdar cəmiyyətləri, habelə məhdud məsuliyyətli cəmiyyətlər formasında təsis olunur.

Azərbaycan Respublikası adından dövlət müəssisələrinin və nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərin təsisçisi və iştirakçısı (səhmdarı, payçısı) kimi Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi çıxış edir. Dövlət müəssisələrinin və nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərin yaradılması, yenidən təşkili, təşkilati-hüquqi formasının və adının dəyişdirilməsi, nizamnaməsində hər hansı dəyişikliklərin edilməsi, hüquqi şəxsin nizamnamə kapitalında dövlətə məxsus payın həcminin dəyişdirilməsi zamanı, qanunvericiliyin bu barədə qərar qəbul etməyə imkan verdiyi halda dövlət qeydiyyatı və digər dövlət qurumlarına müraciətlər Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən həyata keçirilir (2).

Avropa Dövlət Sahibkarlığı Mərkəzi dövlət müəssisələrinə aşağıdakı kimi tərif verir: dövlətin mülkiyyətində olduğuna, kapitalında dövlətin iştirak etdiyinə və ya idarə olunması qaydalarına görə dövlət hakimiyyətinin birbaşa və ya dolayı yolla təsir göstərə biləcəyi bütün fəaliyyətdə olan müəssisələr dövlət müəssisələridir (11).

İ.V.Baranova hesab edir ki, dövlət (bələdiyyə) müəssisəsi dövlət və ya yerli özünüidarə orqanları tərəfindən sahibkarlıq və ya xüsusi əhəmiyyətli malların istehsalı (işlərin görülməsi və xidmətlərin göstərilməsi) məqsədləri ilə yaradılan və əmlakı dövlət (bələdiyyə) mülkiyyətində olan hüquqi şəxsdir (8, s. 12-17).

N.İ.Kosyakova hesab edir ki, dövlət müəssisələri mülki hüquq münasibətlərinin xüsusi hüquq subyektliyinə malik olan, qanunvericiliyə və mülkiyyətçinin tapşırıqlarına uyğun olaraq müəyyən fəaliyyət növünü həyata keçirən fəal subyektləridir. Müəllifin fikrincə, dövlət müəssisələri yalnız satış, icarə, yenidən təşkil, ləğvetmə və özəlləşdirmə zamanı hüquq münasibətlərinin obyekti kimi çıxış edir (21, s. 11).

İqtisadi ədəbiyyatlarda (6; 7; 36) müəssisələr aşağıdakı meyarlara görə dövlət müəssisələrinə aid olunur: dövlət büdcəsi ilə qarşılıqlı əlaqə (dövlət müəssisələrinin gəliri tam və ya qismən dövlət büdcəsinə daxil olmalıdır); müəssisələrin fəaliyyətinə dövlət nəzarəti; hüquqi muxtariyyət.

Hər bir dövlət və yerli özünüidarə orqanının, o cümlədən ictimai (publik) funksiya yerinə yetirən digər təsisatın hüquq normaları ilə tənzim edilən vəziyyəti onların hüquqi statusunu təşkil edir. «Status» - hüquqda, o cümlədən konstitusiya hüququnda geniş istifadə olunan anlayışdır. Bu anlayış orqanın, təşkilatın, birliyin, vəzifəli şəxsin, vətəndaşın normativ aktla rəsmiləşdirilmiş vəziyyəti, başqa sözlə, hüquqi vəziyyətidir. Status göstərilən subyektlərin təbiətini, ictimai münasibətlər və hüquq subyektləri sistemində yerini, mühüm hüquq və vəzifələrini, onların realizəsi və bu zaman qəbul edilən aktlar və icra edilən hərəkətləri xarakterizə edir. Hüquq ensiklopediyasında status vətəndaşın, yaxud hüquqi şəxsin hüquqi vəziyyəti kimi izah edilir (4, s. 946). Dövlət müəssisələrinin hüquqi statusu hər şeydən əvvəl onun vəzifələrində ifadə olunan sosial təyinatını müəyyən edir. Əksər müəlliflər «hüquqi statusun (vəziyyətin) strukturu» terminindən istifadə etməklə onu elementlərin məcmusu (sistemi) kimi nəzərdən keçirirlər. Bununla yanaşı, hüquq ədəbiyyatında «elementlər» terminınə sinonim olan «ünsürlər», «tərkib hissələri» terminləri də geniş yayılmışdır. Dövlət müəssisələrinin hüquqi statusunun mühüm elementi onun funksiyalarını və konkret vəzifələrini nəzərdə tutan səlahiyyətləridir.

Dövlət və hüquq nəzəriyyəsində göstərilir ki, «status» və «vəziyyət» anlayışları etimoloji baxımdan bir-birinə uyğun gəlir, «hüquqi status» «hüquqi vəziyyətlə» oxşardır. Onlar qanunvericilikdə və hüquqtətbiqi praktikasında məhz bu rakursda tətbiq edilirlər (33, 231-232).

O.E.Kutafin hüquqi statusu konstitusiya hüququnun subyektinə hüquq normalarının realizəsi prosesində yaranan hüquq münasibətlərinin subyekti kimi həvalə olunan hüquq, azadlıq və vəzifələrin məcmusu kimi xarakterizə edir və daha sonra qeyd edir ki, statusa həm də ümumi status prinsipləri daxildir (10, s. 163).

V.A.Kuçinskiy hüquqi statusun xarakterik xüsusiyyətlərini, birincisi, onun dövlət iradəsini ifadə etməsində, məzmununun müəyyən sabitliyi (statikliyi) ilə fərqlənməsində, şamil olunduğu ayrı-ayrı subyektlərin deyil, qanunvericinin iradəsi ilə dəyişməsində görürdü. İkincisi, hüquqi statusun tərkib hissələri (elementləri) – statut hüquqları, vəzifələri, hüquqi məsuliyyət hüquqi göstərişlər şəklində ifadəsini taparaq mövcud olur, yəni obyektiv hüquqa aiddir. Nəhayət, üçüncüsü, hüquqi statusun elementləri ümumilik, miqyaslılıq xassələrinə malikdir, bununla əlaqədar konkret şəxslərin hüquqi vəziyyətinin təşəkkül tapdığı, vətəndaşların subyektiv (şəxsi) hüquq və vəzifələrinin formalaşdığı çərçivələrin hüdudlarını müəyyən edir. Göründüyü kimi, müəllif hüquqi statusun tərkibinə üç elementi - əsas (statut) hüquqlarından və statut vəzifələrindən başqa, həm də hüquqi məsuliyyəti daxil edir (22, s. 115).

Hüquq ədəbiyyatında bəzi müəlliflər hüquqi status və hüquqi vəziyyət anlayışlarının fərqləndirilməsini təklif edirlər. Həmin müəlliflərin fikrincə, status hüquq subyektinin vəziyyətinin tərkib hissəsi (nüvəsi) kimi çıxış edir (9, s. 25-34; 22, 119-135; 26, s. 30).

Z.N.Aslanov hesab edir ki, hüquqi status və hüquqi vəziyyətin nisbəti tamın hissəyə olan nisbəti kimidir, burada hüquqi status tam, hüquqi vəziyyət isə hissə kimi çıxış edir. Hüquqi vəziyyət şəxsin hüquq və vəzifələrinin məcmusunu və onun öz hüquq və vəzifələrini reallaşdırması prosesini ifadə edir. Hüquqi status istənilən hüquq institutuna, eyni zamanda hüquqi vəziyyət kimi yalnız hüquq münasibətlərinin konkret subyektinə aid ola bilər. Müəllifin fikrincə, «hüquqi status» kateqoriyası ideal xarakter daşımaqla bu və ya digər şəxsin hüquqi vəziyyətinin mahiyyətini və məzmununu əks etdirir və özünə yaxın subyektlər sistemində onun yerini müəyyən edir. Onun daşıyıcıları kimi hüququn subyektləri çıxış edir (1, s. 64-65).

V.A.Kuçinskiyin fikrincə, hüquq vəziyyət yalnız hüquqi təsbiti deyil, həm də müəyyən hüquqi formalarda realizəni ifadə edən statik və dinamik, obyektiv və subyektiv məqamların vəhdətidir (22, s. 133-134).

Z.A.Əsgərov yazır ki, şəxsiyyətin hüquqi statusu kifayət qədər geniş anlayışdır. Buraya insanın həyatda əmələ gələn və müxtəlif amillərin təsiri altında dəyişən, inkişaf edən bütün hüquq və azadlıqları daxildir (3, s. 118).

Y.A.Lukaşovaya görə dövlət və fərd arasında yaranan mürəkkəb əlaqələr və insanların bir-biri ilə qarşılıqlı münasibətləri dövlət tərəfindən hüquqi formada – insanın və vətəndaşın hüquqi statusunu təşkil edən hüquqlar, azadlıqlar və vəzifələr formasında təsbit olunur. İnsanın və vətəndaşın hüquqi statusu dövlət tərəfindən konstitusiyada və digər normativ-hüquqi aktlarda təsbitini tapan hüquq və vəzifələr sistemi kimi xarakterizə oluna bilər (29, s. 91-96).

A.Q.Berejkov hüquqi status dedikdə, şəxsiyyətin qanunvericiliklə müəyyən edilmiş və vəhdət halında götürülmüş hüquq, azadlıq və vəzifələrini başa düşür. Bu zaman «hüquqi vəzifələr» anlayışı hüquqi məsuliyyətin anlayışı ilə sıx surətdə bağlıdır. O, həmçinin bütün vətəndaşlara şamil olunan ümumi hüquqi statusu və əhalinin ayrı-ayrı kateqoriyaları barəsində təşəkkül tapan xüsusi hüquqi statusu fərqləndirir (25, s. 476).

A.V.Mitskeviç hüquqi statusa dövlət orqanlarının və vəzifəli şəxslərin konstitusiya və qanunlarla tanınan, habelə hüququn bu və ya digər subyektlərinin

birbaşa təsbit edilən səlahiyyətlərinin sistemi kimi anlayış verir. Hüquq subyektinin hüquqi statusu bilavasitə onun hüquq subyektliyini və fəaliyyət qabiliyyətini ifadə edir (31, s. 47; 24, s. 125).

Hüquqi status ictimai həyatın bütün cəhətlərini deyil, yalnız hüquqi vəziyyətin əsaslarını müəyyən edən prinsipial tərəflərini tənzimləyir. Hüquqi status hüquq subyektinin daimi xassəsidir. Buraya hüquq qabiliyyəti, fəaliyyət qabiliyyəti, müəyyən sosial nemətlərə olan əsas hüquqlar, habelə bütün hüquq subyektlərinin üzərinə qoyulan əsas vəzifələr aiddir (27, s. 74-76).

İ.A.İvannikov hesab edir ki, hüquqi status konstitusiya və dövlətin digər aktları ilə tanınan insanın ilkin, ayrılmaz hüquq və vəzifələrinin, dövlət orqanlarının və vəzifəli şəxslərin səlahiyyətlərinin məcmusudur (19, s. 67).

Dövlət müəssisələrinin hüquqi statusu (vəziyyəti) yalnız mülki deyil, həm də inzibati, əmək, maliyyə, vergi və digər qanunvericilik sahələri vasitəsilə formalaşır. Bu baxımdan İ.Q.Zaborovskaya haqlı olaraq qeyd edir ki, dövlət müəssisələrinin hüquq qabiliyyəti kompleks xarakter daşıyır. Onun məzmunu mülki hüquqla yanaşı konstitusiya, inzibati, əmək, maliyyə (vergi) və bir sıra digər hüquq sahələrinin normaları ilə müəyyən olunur. Mülki hüquqların bu subyektinin hüquq qabiliyyətinin belə xarakteri müasir mülki dövriyyədə dövlət müəssisələrinin mövcudluğunu şərtləndirən publik məqsədlərlə izah olunur (17, s. 15). N.İ.Kosyakovanın fikrincə, dövlət müəssisələrinin hüquqi statusunun nəzəri tədqiqi bir neçə səbəblə şərtlənir. Birincisi, dövlət müəssisələri dövlətin iqtisadi strukturunda möhkəm yer tutur və onun daha mühüm və strateji əhəmiyyətli məhsullara olan tələbatını təmin edir. Lakin dövlət müəssisələri haqqında ayrıca qanunun olmaması dövlət müəssisələrinin hüquqi təminatı probleminin həllinə mənfi təsir göstərir, bu isə iqtisadiyyatın dövlət sektorunun fəaliyyətinin səmərəliliyini azaldır. İkincisi, əmlakının mülkiyyətçisi dövlət olan dövlət müəssisələri yalnız mülki-hüquqi deyil, həm də inzibati-hüquqi, dövlət-hüquqi və əmək münasibətlərində iştirak edir. Ona görə də kompleks hüquqi statusa malik olan və yalnız mülki hüququn deyil, həm də digər hüquq sahələrinin kifayət qədər uzlaşmayan və bəzi hallarda bir-birinə zidd olan normaları əsasında fəaliyyət göstərən dövlət müəssisələrinin hüquqi statusunun nəzəri və praktiki təhlili zəruri əhəmiyyət kəsb edir. Üçüncüsü, dövlət müəssisələrinin statusunu tənzim edən publik və xüsusi hüquq normalarının tədqiqi dövlətin yalnız publik deyil, həm də xüsusi hüququn subyekti kimi rolunun müəyyən edilməsi baxımından zəruridir. Dördüncüsü, dövlət müəssisələrinin statusunun bir çox məsələləri (yenidən təşkili, dövlət əmlakının idarə olunması rejimi, dövlət hakimiyyəti orqanları tərəfindən dövlət müəssisələrinə rəhbərliyin həyata keçirilməsi, dövlət müəssisələrinin idarəetmə orqanlarının səlahiyyətləri, müəssisələrin hüquq və qanuni maraqlarının müdafiəsi) qanunvericiliyin diqqətindən kənarda qalmışdır. Bu vəziyyət dövlət müəssisələrinin idarə olunmasının və iqtisadiyyatın səmərəliliyinə mənfi təsir göstərir (21, s. 6).

Dövlət müəssisələri ikili hüquqi təbiətə malikdirlər. Belə ki, o bir tərəfdən hüquqi şəxslərin bir növü kimi hüququn subyekti, digər tərəfdən isə əmlak kompleksi kimi hüququn obyekti kimi çıxış edir. Kifayət qədər mübahisəli olan bu məsələ ilə bağlı hüquq ədəbiyyatında müxtəlif fikirlər irəli sürülür.

E.A.Suxanov göstərir ki, inqilabaqədərki hüquqda müəssisələr qeyd-şərtsiz olaraq ticarət (sahibkarlıq) hüququnun subyekti deyil, obyekti hesab olunurdu. Bu tam başa düşülən və izah olunan idi. Belə ki, normal əmlak, xüsusən də ticarət (sahibkarlıq) dövriyyəsində yalnız müvafiq əmlakın (o cümlədən əmlak komplekslərinin) mülkiyyətçisi olan subyektlər çıxış edə bilərdi. Qanunverici mülkiyyətçi olmayan

hüquqi şəxsləri dövriyyəyə cəlb edə bilməzdi. Sonradan bu, labüd şəkildə "məhdud əşya hüquqları", məhz – "təsərrüfat idarəetməsi", "operativ idarətmə" və s. kimi süni nəzəri konstruksiyaların işlənib hazırlanmasını tələb etdi. Məsələ ondadır ki, mülkiyyətçi olmayan dövlət hüquqi şəxslərinin hüquq qabiliyyətinin əmlak statusunun məhdudlaşdırılması bazar təsərrüfatının və normal əmlak dövriyyəsinin təşkilinin əsas prinsiplərinə ziddir. Ona görə ki, mülkiyyətçi olmayan subyektlər ona verilmiş əmlaka öz mülkiyyəti kimi sərəncam verə bilməz və deməli, onların (reallıqda isə mülkiyyətçinin) maraqlarının əlavə mühafizəsi tədbirlərinə ehtiyac yaranır (32, s. 174-180).

Müəlliflərdən A.Q.Didenkoya görə "müəssisə" terminindən danışarkən qeyd etmək lazımdır ki, qanunverici onu iki mənada işlədir. Bir tərəfdən, dövlət müəssisələri hüquqi şəxsin təşkilati-hüquqi formasıdır, hüququn subyektidir. Digər tərəfdən isə bu terminlə hüququn obyekti, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün istifadə olunan əmlak kompleksi ifadə olunur, yəni müəssisə əşyadır. Bir "müəssisə" termininin iki fərqli mənada işlədilməsi zamanı labüd şəkildə yaranan məna qarışıqlığını aradan qaldırmaq üçün rus qanunvericiliyi dövlət müəssisəsini mülki hüququn subyekti kimi ifadə edərək "unitar müəssisə" söz birləşməsindən istifadə edir. Müəllifin fikrincə, dövlət müəssisələrini (dövlət idarələri ilə birlikdə) hüquqi şəxslərin "dövlət təşkilatları" kimi ifadə oluna bilən xüsusi qrupuna aid etmək olar (14, s. 79).

İ.Q.Zaborovskayanın fikrincə, dövlət müəssisələrinin hüquqi vəziyyətinin əsas cəhətlərindən biri ondan ibarətdir ki, onlar unitar xarakterə malikdir, yəni qarışıq mülkiyyət formasına əsaslana bilməz və yalnız dövlət mülkiyyəti növü əsasında yaradıla bilər. Dövlət əmlakının mülkiyyətçisi dövlət müəssisəsi yaratmaqla ona zəruri maddi resurslar verir, lakin bu zaman təsərrüfat cəmiyyətlərində və ortaqlıqlarında, habelə istehsal kooperativlərində olduğu kimi həmin resurslar üzərində hüquqları itirmir. Beləliklə, dövlət müəssisələrini digər hüquqi şəxslərdən fərqləndirən əsas əlamətlərdən biri odur ki, o, başqasının əmlakına sahiblik və istifadə edir və bu əmlak bölünməzdir. Müəssisəyə verilmiş əmlak üzərində mülkiyyət hüququnun onun yeganə olan təsisçisində qalması bu hüquqi şəxsin unitar təbiətini formalaşdırır (17, s. 11).

S.Cəfərov göstərir ki, MDB ölkələrində bələdiyyə müəssisələri digər müəssisələrdən fərqlənir və bunlar adətən, unitar müəssisələr hesab olunur. Unitar müəssisə Məhdud Məsuliyyətli Cəmiyyətlərdən, Səhmdar Cəmiyyətlərdən fərqləndirən əsas cəhət odur ki, ikincilərin nizamnamə kapitalı pay bölgüsü əsasında formalaşır. Unitar müəssisələrdə isə nizamnamə kapitalı onu yaradan dövlət və ya bələdiyyə qurumu tərəfindən qoyulur. Həmçinin unitar müəssislərin bir mühüm xüsusiyyəti də var ki, bu da əldə olunan gəlirlərin yalnız nizamnamə tələbləri əsasında xərclənməsi ilə bağlıdır. Unitar müəssisələri yalnız bir qurum – dövlət və ya bələdiyyə tərəfindən yaradılır. Məhdud Məsuliyyətli Cəmiyyətlərdə isə təsisçilərin sayı bir neçə nəfər ola bilər. Digər fərq isə odur ki, unitar müəssisələr əsasən, müəyyən sahələr üzrə ixtisaslaşmış olur. Dövlət və bələdiyyə müəssisələri yaradılarkən bu xüsusiyyətlər mütləq nəzərə alınmalıdır. Həmçinin Mülki Məcəlləyə unitar müəssisə anlayışı daxil edilməlidir və kommersiya müəssisələrinin bir növü kimi qanunda öz təsdiqini tapmalıdır. Əks halda belə çıxır ki, bələdiyyə müəssisə yaradır və onun əldə etdiyi gəlir bölüşdürülməlidir. Unitar tipli müəssisələrdə isə bələdiyyə əldə etdiyi gəliri istədiyi kimi xərcləyə bilməz və bu vəsaitləri yalnız nizamnamədə nəzərdə tutulan istiqamətlərə xərclənməlidir. Əslində unitar müəssisə bir qayda olaraq, dövlət və bələdiyyə tərəfindən yaradılmış müəssisələrə şamil olunur. Bu müəssisələrin kommersiya qurumlarından fərqi odur ki, əldə olunan gəlir yalnız nizamnamə fəaliyyətinə yönəldilir. Digər bir fərq

ondadır ki, əgər MMC-lərdə mülkiyyətə sahiblik və sərəncam vermək hüququ varsa, unitar müəssisədə onun əmlaka sərəncam vermək hüququ yoxdur, ancaq istifadə etmək hüququ var. Yəni MMC öz binasını istədiyi şəxsə sata və ya icarəyə verə bilər. Unitar müəssisə isə həmin inzibati binadan yalnız istifadə edə bilər. Bu baxımdan unitar müəssisənin yaradılması bələdiyyələr və dövlət qurumları üçün daha çox fayda verə bilər (38).

Dövlət müəssisənin hüquqi vəziyyətinin əsas xüsusiyyətlərindən biri kimi unitarlıq prinsipinin mahiyyəti ondan ibarətdir ki, yaradılan müəssisə əmlakın mülkiyyətçisi olmur, müəssisəyə verilən və onun öz fəaliyyəti gedişində əldə etdiyi əmlak vahid təsisçiyə məxsusdur. Belə hüquqi şəxsin əmlakı, nizamnamə fondu bölünməzdir, onları işçilər arasında, habelə hissələr, paylar, əmanətlər və s. şəklində bölüşdürmək olmaz (35).

Göründüyü kimi, dövlət müəssisələrinin hüquqi statusunun (vəziyyətinin) əsasını təşkil edən elementlərdən biri ondan ibarətdir onlar özlərinə məxsus olan əmlakın mülkiyyətçisi kimi çıxış etmirlər.

M.Q.Lepina göstərir ki, mülki hüquq münasibətlərinin iştirakçısı kimi dövlət müəssisəsinin mülki-hüquqi statusu hüquq subyektliyi kateqoriyası ilə bağlı olduğu halda, onun hüquqi vəziyyətinin xüsusiyyətləri müvafiq xüsusi hüquqi fəaliyyətin, yəni onların bağladığı müqavilələrin özünəməxsusluğu ilə şərtlənir. Hüquqi vəziyyət daha geniş anlayış olmaqla, həm statik tərəfi (hüquqi statusu), həm də dinamik tərəfi (hüquqi hərəkətləri) özündə əks etdirir. Müəllif belə nəticəyə gəlir ki, dövlət müəssisəsinin mülki-hüquqi statusu özünün hüquqi təbiətinə görə onun hüquqi şəxsin əlamətləri vasitəsilə müəyyən olunan hüquq və vəzifələrinin məcmusunu özündə əks etdirir, dövlət müəssisəsinin hüquqi vəziyyəti isə onun digər hüquq subyektləri ilə real hüquq münasibətlərini xarakterizə edir (23, s. 16).

Dövlət müəssisələrinin hüquqi vəziyyəti özəl müəssisələrin hüquqi vəziyyətindən fərqlənir: özəl müəssisələr publik-hüquqi təsisatlar tərəfindən deyil, fiziki və ya hüquqi şəxslər tərəfindən yaradılır; o gəlirli fəaliyyətlə yalnız o halda məşğul ola bilər ki, belə hüquq onun təsis sənədlərində nəzərdə tutulmuş olsun, bu zaman belə fəaliyyətdən əldə edilən gəlirlər və bu gəlirlər hesabına alınmış əmlak müstəqil sərəncama daxil olur; onlar digər əmlaka yalnız mülkiyyətçinin razılığı ilə sərəncam verə bilər; əmlakın mülkiyyətçisi dövlət müəssisəsinin pul vəsaitləri yetərli olmadıqda onun öhdəlikləri üzrə subsidiar məsuliyyət daşıyır (18, s. 24). Lakin İ.P.Qreşnikov hesab edir ki, tarixən dövlət müəssisələrinə hüquqi şəxs hüququ müstəsna olaraq yalnız səlahiyyətli orqanların hərəkətlərinə görə məsuliyyətin onların üzərinə qoyulması və mülkiyyətçini – dövlət və ya digər publik-hüquqi təsisatı bu məsuliyyətdən azad etmək məqsədi ilə verilmişdir. Bu zaman dövlətin müəssisə üzərində tam nəzarəti və onun hüquqi taleyini həll etmək və əmlakına sərəncam vermək hüququ saxlanılır (13, s. 195).

V.S.Yakuşevin fikrincə, sırf hüquqi planda müəssisənin hüquq subyektliyində əsas məqam ona hüquqi şəxs hüquqlarının verilməsi ilə bağlıdır. Hüquqi şəxs statusu müəssisənin əmlak dövriyyəsində iştirakına imkan yaradır. Müəssisədə hüquqi şəxs hüquqlarının olması o deməkdir ki, hüquqi şəxs statuslu bütün sosial təsisatların hüquq subyektliyinə daxil olan qaydalar – öz adından çıxış etmə, öz əmlakı ilə məsuliyyət daşıma və s. ona da şamil olunur. Hüquqi şəxs statuslu sosial təsisatların hüquq subyektliyini müəyyən edən belə ümumi qaydalar, məlum olduğu kimi, mülki qanunvericilikdə təsbit olunur. Lakin müəssisənin hüquqi şəxs statusu öz-özlüyündə onun hüquq subyektliyinin konkret məzmununu, xüsusi xarakterini izah etmir.

Müəssisənin hüquq subyektliyinin formalaşmasında sonrakı addım müəssisə haqqında nizamnamələrin qəbul edilməsidir (37, s. 5-17).

Nizamnamə təsisçi (müvafiq dövlət orqanının şəxsində publik mülkiyyətçi) ilə hüquqi şəxsin özü arasında münasibətlərin tənzimlənməsinə yönəlir. Təsisçi dövlət müəssisəsinə nizamnamə fondu təqdim edir. Bu, təminat funksiyasını yerinə yetirir, çünki dövlət müəssisəsinin əmlakının kreditorların tələblərini təmin edəcək minimal həcmini özündə əks etdirir. Ona görə də, təsərrüfat idarəetməsi hüququna əsaslanan dövlət müəssisələrində nizamnamə fondunun yaradılması məcburi xarakter daşıyır (20, s. 51).

Dövlət müəssisəsinin əsas təsis sənədi olan nizamnamədə müəssisənin firma adı, təsisçisi, yerləşdiyi yer, fəaliyyət predmeti və məqsədləri, müəssisə rəhbərinin səlahiyyətləri, iş rejimi, əmlakın formalaşdırılması qaydası, müəssisənin yenidən təşkili və ləğvi qaydası və s. öz əksini tapmalıdır. Nizamnamədə qanunvericiliyə zidd olmayan digər müddəalar da göstərilə bilər. Dövlət müəssisəsinin firma adında onun dövlət mülkiyyəti növünə məxsusluğu ilə bağlı göstəriş öz əksini tapmalıdır.

Dövlət müəssisələri xüsusi hüquq subyektliyinə malikdir. Bunun mahiyyəti ondan ibarətdir ki, hüquqi şəxs kimi o, təsərrüfat fəaliyyətinin yalnız onun nizamnaməsində bilavasitə göstərilən növlərini həyata keçirə bilər.

Hüquq ədəbiyyatında dövlət müəssisələrinin hüquqi statusunun bir sıra özünəməxsus xüsusiyyətlərinin olduğu qeyd edilir. Əmlak dövriyyəsində mülkiyyətçi olmayan, lakin həmin dövriyyənin müstəqil iştirakçısı olan hüquqi şəxslərin (idarə və müəssisələrin) çıxış etməsi bu dövriyyənin keçid xarakterinin birbaşa təsirini, hüquqi şəxslərin bu növünü də ehtiva edən dövlətiləşdirilmiş iqtisadiyyatın elementlərinin saxlanılmasını özündə əks etdirir. Bəzi müəlliflərin fikrincə, adi təsərrüfat dövriyyəsi baxımından belə konstruksiya məqbul deyildir, çünki bu dövriyyənin iştirakçıları öz əmlakına müstəqil sərəncam verən mülkiyyətçilər olmalıdır. Bu halda dövriyyədə əmlaka tam həcmdə sərəncam verilməsi üzrə bütün səlahiyyətlərə malik olmayan şəxslər iştirak edir, bu əmlakın mülkiyyətçisinin səlahiyyətləri isə, öz növbəsində, qanunvericiliklə məhdudlaşdırılır (20, s. 15). Lakin biz hesab edirik ki, mövcud olduğu bütün müddət ərzində dövlət mülkiyyətinin səmərəli idarə edilməsi zərurəti və bunun bilavasitə dövlətin sosial-iqtisadi və müdafiə funksiyalarının uğurlu həyata keçirilməsi ilə şərtlənməsi baxımından dövlət müəssisəsi konstruksiyasının saxlanılması istənilən halda labüddür. Ona görə də nə qədər ki, dövlət var, dövlət mülkiyyəti var və strateji əhəmiyyət kəsb edən sahələr var, dövlət müəssisəsi konstruksiyasına da tələbat olacaqdır.

Bəzi müəlliflər belə bir fikir irəli sürürlər ki, dövlət müəssisələrini kommersiya təşkilatlarına aid etmək olmaz. Çünki onların əsas məqsədi gəlir əldə etmək deyil, əmlak üzərində mülkiyyət hüquqları yoxdur, öz fəaliyyət məqsədlərinə və mülkiyyətçinin tapşırıqlarına uyğun hərəkət edirlər, onların yaradılması və ləğvi mülkiyyətçinin iradəsindən asılıdır (35). Bir qayda olaraq, dövlət müəssisələrinin yaradılması və fəaliyyətinin əsas məqsədi gəlir əldə edilməsindən deyil, dövlətin ümumi maraqlarının (16, s. 156), ictimai tələbatların təmin edilməsi, siyasi məqsədlərə nail olunması, bilavasitə dövlət tənzimetməsi tələb edən məsələlərin həll edilməsindən ibarət olur (35).

Müasir dövrdə təsərrüfat idarəetməsinə əsaslanan dövlət unitar müəssisələrinin sayının azaldılması siyasəti həyata keçirilir. Onların əhəmiyyətli hissəsinin yenidən təşkili, ləğvi və ya əmlak kompleksi kimi satılması planlaşdırılır. Təsərrüfat idarəetməsi hüququnun daşıyıcılarına belə münasibətin səbəbi onunla şərtlənir ki, hökumətin fikrincə, belə əşya hüququ müəssisəyə mülkiyyətçi olan dövlətin əmlakına sahiblik,

istifadə və sərəncam üzrə olduqca geniş səlahiyyətlər verir. Buna görə də çoxu öz müstəqilliyindən sui-istifadə edən minlərlə müəssisəyə nəzarət etmək dövlət üçün çətinləşir, dövlət orqanlarının dövlət müəssisələrinin (onların rəhbərlərinin) fəaliyyətinə müdaxilə imkanları isə məhduddur (8, s. 12-17).

V.A.Dozortsev hesab edir ki, təsərrüfatçılıq hüququna əsaslanan dövlət müəssisələrinin hüquq sistemində saxlanılmasını təsərrüfat fəaliyyətinin səmərəliliyinə mənfi təsir göstərir. Müəllifin fikrincə, mövcud dövlət müəssisələri bütün səhmləri dövlətə məxsus olan səhmdar cəmiyyətlərinə çevrilə bilərlər. Bu o deməkdir ki, hüququn obyekti kimi bu müəssisələrə dövlət mülkiyyət hüququ xitam olunur və yeni yaradılmış səhmdar cəmiyyətlərinin mülkiyyət hüququnun obyektinə çevrilir. Bu halda mülkiyyət hüququ ilə hüquq subyektliyi arasında uyğunsuzluq olmayacaq və müəssisə iqtisadiyyatda bütün digər subyektlərlə eyni əsaslarla fəaliyyət göstərməyə başlayacaq (15, s. 252).

Lakin bu yanaşmaya əks olan mövqedən çıxış edən müəlliflər də vardır. Məsələn, hüquq sistemində dövlət müəssisələrinin saxlanılmasının tərəfdarı olan Y.K.Tolstoy qeyd edir ki, iqtisadiyyatda dövlət müəssisələrinin inkişaf perspektivləri mövcuddur (34, s. 110-111).

S.Q.Abramov və D.A.Qertsev hesab edir ki, iqtisadiyyatın müəyyən sahələrində hüquqi şəxslərin növü kimi dövlət müəssisələrinin – dövlət təsərrüfat subyektlərinin saxlanılması sadəcə olaraq zəruridir. Müəlliflər haqlı olaraq qeyd edirlər ki, dövlət müəssisələri, ilk növbədə, təsərrüfatın öz təbiətinə görə gəlirli sahələrində - energetika, neft və qaz sənayesində, uzunmüddətli dövlət investisiyası tələb edən elmtutumlu sahələrdə lazımdır (5, s. 38).

D.V.Petrov haqlı olaraq göstərir ki, mülki dövriyyə təcrübəsində peşəkarlıq, işlərə işgüzar və məsuliyyətli yanaşma genişləndikcə dövlət müəssisələri dövlət mülkiyyəti hüququnun mühüm sosial-iqtisadi funksiyalar yerinə yetirən zəruri peyki kimi qəbul olunacaqdır (28, s. 229).

Beləliklə, bütün yuxarıda qeyd edilənlərin ümumiləşdirilməsi aşağıdakı nəticələrə gəlməyə imkan verir.

Dövlət iqtisadiyyatında mülkiyyətçi olmayan hüquqi şəxslərin meydana çıxması əmlakın mühüm növlərinin əsas mülkiyyətçisi kimi dövlətin birbaşa təsərrüfat subyekti kimi çıxış edə bilməməsi ilə bağlı olmuşdur.

Müasir dövrdə dövlət müəssisələrinin yaradılması dövlət tərəfindən müəyyən fəaliyyət növlərinin həyata keçirilməsi zərurəti ilə şərtlənir. Belə ki, dövlət müəssisələri dövlət əmlakı əsasında yaradılır və onların yaradılması xüsusi təyinata malik olmaqla, ictimai və dövlət maraqlarının reallaşdırılması zərurəti ilə şərtlənir. Bu baxımdan dövlət müəssisələrinin fəaliyyətinin əsas məqsədi gəlir əldə etməkdən deyil, dövlətin ümumi maraqlarını, ictimai ehtiyac və tələbatları təmin etməkdən ibarət olmalıdır.

Dövlət müəssisəsi mülki hüququn subyektidir. Lakin "müəssisə" həm də hüququn obyekti kimi çıxış edir. Dövlət müəssisələrinin hüquqi təbiətinin belə ikili xarakteri onun hüquqi vəziyyətinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir.

Dövlət müəssisəsinin əsas təsis sənədi onun nizamnaməsidir. Nizamnamədə müəssisənin firma adı, təsisçisi, yerləşdiyi yer, fəaliyyət predmeti və məqsədləri, müəssisə rəhbərinin səlahiyyətləri, iş rejimi, əmlakın formalaşdırılması qaydası, müəssisənin yenidən təşkili və ləğvi qaydası və s. öz əksini tapmalıdır. Nizamnamədə qanunvericiliyə zidd olmayan digər müddəalar da göstərilə bilər. Dövlət müəssisəsinin firma adında onun dövlət mülkiyyəti növünə məxsusluğu ilə bağlı göstəriş öz əksini tapmalıdır.

Dövlət müəssisələri xüsusi hüquq qabiliyyətinə malik olurlar. Belə ki, dövlət müəssisələri öz nizamnamələrində nəzərdə tutulmuş fəaliyyət predmetinə və məqsədlərinə uyğun hüquqlar həyata keçirir və vəzifələr daşıyırlar.

Qeyd etmək lazımdır ki, respublikamızda dövlət müəssisələrinin yaradılmasının məqsəd və vəzifələrini, habelə fəaliyyət qaydasını və bütövlükdə hüquqi vəziyyətini müəyyən edən normativ-hüquqi baza olduqca məhdud xarakter daşıyır. Qanunvericilikdə və bir çox dövlət qurumlarının təsis sənədlərində "dövlət müəssisəsi" və ya "dövlətə məxsus müəssisə" terminindən istifadə olunsa da dövlət müəssisələrinin leqal anlayışı və hüquqi vəziyyətinin əsasları dəqiq və konkret şəkildə müəyyən edilməmişdir.

Beləliklə, qeyd edilənlərin ümumiləşdirilməsi əsasında dövlət müəssisəsinin hüquqi statusuna (vəziyyətinə) hüququn (xüsusən də, mülki, inzibati, əmək, maliyyə hüququnun və s.) digər subyektləri sistemində bu institutun mövqeyini, onun hüquqi təbiətini müəyyən edən və dövlət müəssisələrinə dair qanunvericiliyinin normaları ilə nəzərdə tutulan (dövlət müəssisələrinin yaradılması, qeydiyyatı, yenidən təşkili və ləğvi qaydalarını, onların fəaliyyət predmetini, hüquq və vəzifələrini, məsuliyyətini və təminatlarını təsbit edən) hüquqi müddəaların məcmusu kimi anlayış vermək olar.

## Ədəbiyyat


1. Aslanov Z.N. Azərbaycan Respublikasında İnsan hüquqları üzrə müvəkkilin fəaliyyətinin konstitusiya hüquqi əsasları. Monoqrafiya. Bakı: Avropa, 2011, 204 s.
2. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə" Dövlət Proqramı / http://e-qanun.az/framework/13421
3. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2011, 760 s.
4. Quliyev A.İ. Hüquq ensiklopediyası. Bakı: Qanun, 2007, s. 1108 s.
5. Абрамов С.Г., Герцев Д.А. Правовой статус унитарных предприятий (к вопросу об исключении данной организационно-правовой формы юридических лиц из действующего законодательства) // Бизнес в законе, 2007, № 3, с. 35-38
6. Аткинсон Э.Б., Стиглиц Д.Э. Лекции по экономической теории государственного сектора. М.: Аспект–Прогресс, 1995, 354 с.
7. Ахмадеева М.М., Витчукова Е.А. Управление государственными унитарными предприятиями. Йошкар-Ола: МарГТУ, 2004, 223 с.
8. Баранова И.В. Проблемы реализации прав государства по эффективному управлению государственной собственностью // Сибирская финансовая школа, 2007, № 2, с. 12-17
9. Витрук Н.В. Основы теории правового положения личности в социалистическом обществе. М.: Юридическая литература, 1979, 223 с.

10. Государственное право России. Учебник / Под ред. О.Е.Кутафина. М.: Юридическая литература, 1996, 584 с.
11. Государство в рыночной экономике. Введение в рыночную экономику. Учебное пособие / Под. ред. А.Я.Лившица, И.Н.Никулина М.: Высшая школа, 1994, 289 с.
12. Гражданское и торговое право капиталистических государств / Отв. ред. Васильев Е.А. М.: Международная отношения, 1993, 560 с.
13. Грешников И.П. Субъекты гражданского права: юридическое лицо в праве и законодательстве. СПб.: Юридический центр Пресс, 2002, 331 с.
14. Диденко А.Г. Гражданское право. Общая часть. Курс лекций. Алматы: Нур- пресс, 2006, 722 с.
15. Дозорцев В.А. Принципиальные черты права собственности в Гражданском кодексе Российской Федерации // Гражданский кодекс России. Проблемы. Теория. Практика. М.: МЦФЭР, 1998, с. 228-270
16. Ершова И.В. Правовой режим государственного имущества в хозяйственном обороте: теоретические основы и пути совершенствования. М.: Юриспруденция, 2001, 304 с.
17. Заборовская И.Г. Гражданско-правовое положение государственных унитарных предприятий: Автореф. дис. ... канд. юрид. наук. Екатеринбург, 2004, 27 с.
18. Землин А.И., Землина О.М., Пищелко А.В. Правовое положение государственных учреждений, подведомственных Министерству транспорта Российской Федерации и Фе-деральному агентству железнодорожного транспорта. М.: Юридический институт МИ-ИТа, 2013, 106 с.
19. Иванников И.А. Толковый словарь по теории права. Ростов н/Д.: Феникс, 2006, 123 с.
20. Комментарий к законодательству о федеральных государственных унитарных предприятиях. 3-е изд., перераб. и доп. / Под ред. Ю.П.Орловского, Н.А.Ушаковой. М.: Юстицинформ, 2002, 423 с.
21. Косякова Н.И. Правовое положение государственного унитарного предприятия: Дис. ... д-ра юрид. наук. СПб., 2001, 382 с.
22. Кучинский В.А. Личность, свобода, право. М.: Юридическая литература, 1978, 208 с.
23. Лепина М.Г. Гражданско-правовой статус казенных предприятий: Автореф. дис. … канд. юрид. наук. Казань, 2006, 27 с.
24. Общая теория государства и права / Под ред. проф. М.Н.Марченко. В 2 т. Т.2. Теория права. М.: Зерцало, 1998, 620 с.
25. Общая теория государства и права. Академический курс в 3-х т. Т.3. Государства, права, общество / Под ред. М.Н.Марченко. М.: Норма, 2007, 712 с.
26. Общая теория прав человека / Отв.ред. докт. юрид. наук. Е.А.Лукашева. М.: Норма, 1996, 520 с.
27. Пашков А.С., Хрусталев Б.Ф. Обязанность трудиться по советскому праву. М.: Юридическая литература, 1970, 197 с.
28. Петров Д.В. Право хозяйственного ведения и оперативного управления. СПб.: Юридический центр Пресс, 2002, 361 с.

29. Права человека. Учебник для вузов / Отв. ред. Е.А.Лукашева. М.: НОРМА-ИНФРА-М, 2001, 579 с.
30. Правовое положение государственных предприятий / http://www.pvl.adilet.gov.kz/ru/node/80162
31. Правотворчество в СССР / Под ред. проф. А.В.Мицкевича. М.: Юридическая литература, 1974, 196 с.
32. Суханов Е.А. О понятии юридического лица и предприятия // Законодательство России в 21 веке: по материалам научно-практической конференции. Москва, 17 октября 2000 г. М.: Городец-издат, 2002, с. 174-180
33. Теория государства и права. Учебник для юридических факультетов и вузов / Под ред. В.М.Корельского и В.Д.Перевалова. М.: ИНФРА М-НОРМА, 1997, 570 с.
34. Толстой Ю.К. К разработке теории юридического лица на современном этапе // Проблемы современного гражданского права. Сборник статей. М.: Городец, 2000, с. 81-112
35. Фархтдинов Я. Ф., Файзуллина Г.Д. Особенности правового статуса субъектов права хозяйственного ведения. Вестник ТИСБИ, 2004, № 4 / http://www.law.edu.ru/doc/document.asp?docID=1218970
36. Эволюция государственного предпринимательства в условиях единого рынка / Под ред. И.В.Клиновой. М.: Общество и экономика, 1997, 245 с.
37. Якушев В.С. Правосубъектность государственного производственного предприятия – правовая основа его деятельности в области обмена // Вопросы совершенствования хозяйственного законодательства на современном этапе. Свердловск: Издательство СЮИ, 1977, с. 5-17
38. http://www.sei.az/news-996.html

## DÖVLƏT MÜƏSSİSƏSİNİN HÜQUQİ VƏZİYYƏTİNİN ƏSASLARI

**Eldar Orucov**

**Xülasə**

Bu məqalədə dövlət müəssisəsinin hüquqi vəziyyətinin əsasları nəzərdən keçirilmişdir. Müəllif öz fikirlərini ümumiləşdirərək göstərir ki, respublikamızda dövlət müəssisələrinin yaradılmasının məqsəd və vəzifələrini, habelə fəaliyyət qaydasını və bütövlükdə hüquqi vəziyyətini müəyyən edən normativ-hüquqi baza olduqca məhdud xarakter daşıyır. Qanunvericilikdə və bir çox dövlət qurumlarının təsis sənədlərində "dövlət müəssisəsi" və ya "dövlətə məxsus müəssisə" terminindən istifadə olunsa da dövlət müəssisələrinin leqal anlayışı və hüquqi vəziyyətinin əsasları dəqiq və konkret şəkildə müəyyən edilməmişdir.

## ОСНОВЫ ПРАВОВОГО ПОЛОЖЕНИЯ ГОСУДАРСТВЕННОГО ПРЕДПРИЯТИЯ

**Эльдар Оруджев**

**Резюме**

В данной статье рассмотрены основы правового положения государственного предприятия. . Обосновывая свои мнения автор показывает, что нормативно-правовая база , определяющая цели, задачи, а также правила действия и в целом правовое положение создания в республике государственного предприятия носит достаточно ограниченный характер .Несмотря на то, что в законодательстве и учредительных документах государственных структур используются такие термина, как «государственное предприятие», «принадлежащие государству предприятия» конкретно не дано легального определения государственному предприятию и конкретно не определены основы их правового положения.

## FUNDAMENTALS OF THE LEGAL STATUS OF A STATE ENTERPRISE

**Eldar Orujov**

**Summary**

This article describes the basics of the legal status of a state enterprise. . Justifying their views, the author shows that the legal framework that defines the goals, objectives and rules of action and the overall legal position established in the republic state enterprise is rather limited .Nesmotrya the fact that the law and the constituent documents of government agencies use such terms like "state enterprise", "state-owned enterprise" is not specifically given legal definition of state enterprises and not specifically defined the basis of their legal status.

2016 - № 44

# INCOME AND CONSUMPTION INEQUALITIES DURING RECESSION

**N.R.Rustamova**
Azerbaijan Diplomatic Academy
Bakı, A.Ağaoğlu, 11
e-mail: aliyev.mais@mail.ru

## Introduction

For the decades of globalization and integration of modern economies development of each state has acquired great importance. The latter is explained by the increasing cooperation, extending international trade and developing unique global markets among countries. On the one hand, such integration has important advantages, which ensue from such economic theories as comparative advantages theory and ensure support programs for those countries, which lag behind in development.

However, on the other hand, such close collaboration and mutual interdependence result in transferring of economic problems in one state to other ones. For instance, a state, which plays an important role in global markets, may face any kind of problems in its local economy. In such case other countries, which are in close cooperation with this state do suffer losses as well. A bright example of such situation is global financial crisis, which occurred during 2007-2012. The crisis, which is often referred to as a global or great recession, started in the United States in 2007. The recession entailed a sharp decline in the volume of international trade and as a result an increase in unemployment rate and decrease in commodity prices due to decreasing demand. With the following years depression spread to other developed countries (Germany, Luxembourg, etc.) and covered a significant portion of global economy.

In order to prevent such undesirable occurrences, each and every state is expected to take measures, which would guarantee stable development of economy, and prevent or at least decrease the probability of any collapses in their local economies. One of the methods of achieving such stability is to evaluate whether the necessary measures are taken by authorities. For instance, one of the most important criteria for stable development of a state is providing equality of consumption and income distribution among population. In the countries with reliable economic systems wealth is relatively equally distributed among people. Equality of income distribution is often assessed by Gini index, which is close to 0 if the allocation of wealth is equal and 1 otherwise. Along with this changes in consumption might as well serve as a signal about economic situation in the state. For instance, if a country is entering recession stage, consumption is expected to decrease. The explanation is that during the period, when economy is in depression, most of the productions are closing, state has less money to pay wages. As a result unemployment increases and population has less money to spend. Consequently, demand on commodities and their consumption decreases. However, such changes in consumption are observed for short term and unanticipated recessions. In the case, when recession was anticipated, people could increase their savings in the earlier periods and sustain the same level of consumption as in the earlier periods. Furthermore, if the recession is long run one, people gradually adjust their consumption and achieve stable point of consumption, which was equal to the prerecession one.

Not surprisingly, the question of correlation between the change in income distribution and consumption during recession periods is still discussed by economists. Some of the scientists claim that during depression periods changes in income

distribution and consumption move in the same direction. While others observe an opposite situation, concluding that income allocation and consumption have opposite trends during recession periods.

However, most of those studies are based on the U.S. economy and does not cover cross section of other countries. *In my paper I plan to evaluate changes in income distribution and consumption during recession periods across different countries and whether there exists correlation between income distribution and consumption.* Furthermore, I expect the impact of crisis on income and consumption to be of different magnitude for developed and developing countries. The possible explanation is that in less developed countries population is more sensitive to changes in economy. The latter could be due to a lower savings rate, which prevent them from sustaining the same consumption level. Another reason could be a smaller amount of financial reserves of the state, which limits the possibilities of authorities to smooth the consequences of recession for population. Due to this reasons, I plan to account for differences between developed and developing countries, which I did not observe in earlier studies.

In thispaper I implement econometric modeling by developing standard least squares regression for each research question. In order to ensure unbiased estimation random selection of countries is conducted. The data for the study is obtained from The World Bank Database, The World Factbook and Eurostat.

My paper consists of introduction, three sections and conclusion. The first section – Literature review summarizes some of the studies on the given topic, which were conducted before, as well as difference of my paper in comparison with them. The second section – Data depicts the variables, data as well as the sources, which were implemented within the study. The third section – Modeling describes econometric models for the assessment of the changes in income distribution and consumption during recession periods. Finally, Conclusion summarizes the results and findings of the given paper.

## I. Literature Review

Changes in consumption and income inequality have been of great interest for economists within the assessment of economic performance of states. However, a new approach is to the question is evaluation of the tendencies in these indicators during recession periods. While some others propose that consumption and income inequality move in the same direction during recession periods, others believe that they have opposite trends.

One of the works, which discusses changes in consumption and income inequality during recession, is the paper “Consumption and Income Inequality and the Great Recession” written by Meyer and Sullivan (2013). The paper studies changes in the given indicators in the U.S. during the Great Recession and a short period afterwards. Using the dataset for 2000-2011, which is provided by the Current Population Survey (CPS) Annual Social and Economic Supplements and Consumer Expenditure (CE) Interview Survey, the authors studied the trend lines of income distribution and consumption. According to their findings, income distribution and consumption had different trends during the Great Recession.Being more precise, during studied time frame income inequality was increasing, while consumption was almost constant. Even though reliable data sources were referred to for the given research, concentration on the one country only and conclusion based on comparison without due modeling could be considered as shortcomings of the paper. In my paper I conduct cross country study and implement econometric approach in order to obtain more reliable results.

Another work, which refers to the question of distribution of income and consumption, is performed by Krueger and Perri (2005). For their study the authors

refer to the data for the U.S. from Consumer Expenditure Survey, which covers every year from 1980 till 2003. According to their findings income inequality increased significantly within the studied time frame. Furthermore, according to the data significant consumption inequality has not been observed. Coherently, the authors obtained the results, indicating that changes in income inequality and consumption do not move in the same direction, which are similar to the ones presented in the work by Meyer and Sullivan (2013).In contrast to the Meyer and Sullivan (2013), Krueger and Perri use macroeconomic model, which is similar to the one developed by Kehoe and Levine (2001). However, the authors did not include any kind of shocks to their model. The latter leaves the question of changes in income inequality and consumption during recession periods, which I address in my paper, open.

Different results were obtained by Attanasio, Hurst and Pistaferri (2012) in their paper "The Evolution of Income, Consumption, and Leisure Inequality in The US, 1980-2010". According to the authors, most of the earlier works were based on the data, which was obtained from Consumer Expenditure Survey. However, later evidence indicating that given data suffered from a serious non-classical measurement error was found. As a result findings based on the given dataset could not be considered reliable. In order to obtain more informative results, Attanasio, Hurst and Pistaferri implemented different techniques to overcome the measurement error. For instance, they based their assessment on the categories, in which the measurement error occurred to be 'less of an issue'. According to their findings, consumption and income inequality changed in the same direction by increasing by the approximately same amount. However, given study concentrated on the U.S. only and did not consider differences across countries. In contrast to this work, I include cross country analysis to my paper, account for the difference in the development level of countries. Furthermore, my analysis implements econometric modeling and has an empirical nature.

Another paper, which indicates that consumption and income inequalities have similar trends, is written by Aguiar and Bils (2011). For their study the authors use the data set, which is provided by Consumer Expenditure Survey and covers period from 1980-2007. Similarly to Attanasio, Hurst and Pistaferri (2012) the authors account for the measurement error in the given dataset. The authors refer to econometric modeling and develop a regression with double differencing, which allows to correct mismeasurement changing over time by good and income groups. Even though given paper provides interesting and reliable results, it still does not refer to the question of changes in consumption and income inequality during recession periods.

A number of studies have been conducted in order to determine how consumption and income inequality change. Most of them are addressing changes in the United States and are based on the Consumer Expenditure Survey. However, only few of those studies are considering changes in consumption and income inequality during recession period, which is the main question in my paper. Furthermore, my paper is based on cross country analysis and econometric modeling.

## II. Data

The data for the 85 randomly selected countries is obtained from three main sources: World Bank database, World Factbook and Eurostat. The data on consumption, income inequality and Gini index is obtained from World Bank database. Furthermore, classification of the countries based on development level is based on the information, which is provided by the World Factbook. Finally, according to the Eurostat data, countries, which suffered from great recession during 2007-2013 were determined.

The regression models include variables, which are classified as following:

-

- consumption – an average of household final consumption expenditure, which is the market value of all goods and services, including durable products (such as cars, washing machines, and home computers), purchased by households, except purchases of dwellings. Expenditures also include payments and fees to governments to obtain permits and licenses;
- income distribution – an average of the 90/10 ratio, which is the fraction of income share held by highest 10%(those earning more than 90 percent of other workers) of employees compared to the lowest 10%;
- Gini index – measurement of the degree of income or consumption expenditure among individuals or households within an economy deviation from a perfectly equal distribution;
- development level – an indicator, which takes value 1 if a country is classified as developed one, 0 otherwise;
- recession – an indicators, which takes value 1 if a country suffered from the great recession within any time period from 2007 to 2013.

**III. Modeling**

Given analysis consists of two parts: assessing the changes in the consumption and income distribution during the recession periods and determining whether there exists correlation between the two indicators. For the assessment purposes three regressions, which are based on ordinary least square model, are developed. Random selection of the countries, which are included to the model, is expected to ensure relatively unbiased estimation and provide reliable results.

In order to address the first part of the research question and evaluate changes in the consumption and income distribution during the recession periods following two regressions are run. The first one (see equation 1) evaluates how consumption changes during recession period.The second equation (see equation 2) assesses the changes in the income distribution given a state is experiencing recession.

$\boldsymbol{consumption_i = \beta_0 + \beta_{1i} * recession_i + \beta_{2i} * development_i + \beta_{3i} * Gini\ index_i + \omega_i(1)}$,where $\beta_0$ is a constant term, which stands for an intercept, $\omega_i$ is an unobserved term, $\beta_{1i}\ldots\beta_{3i}$ are coefficients of the corresponding variables and *i* is an index for each cross section.

$\boldsymbol{incomedistribution_i = \alpha_0 + \alpha_{1i} * recession_i + \alpha_{2i} * development_i + \alpha_{3i} * Giniindex_i + \theta_i}$ **(2),**

where $\alpha_0$ is a constant term, which stands for an intercept, $\theta_i$ is an unobserved term, $\alpha_{1i}\ldots\alpha_{3i}$ are coefficients of the corresponding variables and *i* is an index for each cross section.

In order to determine whether there exist correlation between in consumption and income distribution during recession periods simple regression analysis conducted for the countries, which did experienced crisis. Being more precise consumption (dependent variable) is regressed on income distribution (independent variable) (see equation 3). Such variables as development level and Gini index are not included to the current regression they are correlated with independent variable, while one of the important assumptions for ordinary least squares estimation is independent variables being independent. From this point of view, even though eliminating given variables from regression increases an unobserved term, more precise specification of model is achieved. $\boldsymbol{incomedistribution_i = \gamma_0 + \gamma_{1i} * consumption_i + \vartheta_i}$ **(3),**where $\gamma_0$ is a constant term, which stands for an intercept, $\vartheta_i$ is an unobserved term, $\gamma_{1i}$ is a coefficient of the corresponding variables and *i* is an index for each cross section.

**Conclusion**

According to the results of regression analysis from equation (1), recession does not have any significant impact on the in consumption. However, variables Gini index and development level of the country are significant at the 95% confidence level. Being more precise, according to the estimation results an increase in Gini index by 1 leads to an increase in consumption by 0.53. Which is explained by the fact that the more equally income is distributed; the higher is average income and, correspondingly consumption possibilities of the people.Along with this if the country is developed consumption decreases by 8.85. Given result might seem illogical from the first view. However, the explanation of such outcome could be that in developed countries population have more financial sources, which enables them to spend more on savings and less on consumption. The second regression presents no significant coefficients, which means that recession period does not have any impact on income distribution either at the confidence interval of 95%.

However, an important finding is that during recession period consumption and income distribution are correlated at 90% confidence interval. The regression results indicate that an increase in income distribution by 1leads to an increase in consumption by 13.9. Furthermore, correlation analysis also indicates positive, still very small correlation (0.22) between these two indicators.

The reliability of the results, which are obtained in the given paper, could be ambiguous due to a number of reasons. The main drawback of the current work is a poor dataset, primarily a small sample of countries, which are included to the study. The issue arises from the fact that not complete list of countries, which suffered from the crisis, was found. Furthermore, absence of any evidence of recession impact on consumption and income distribution could be explained by temporary nature of the shock. Furthermore, for most of the countries the great recession was anticipated shock and their population had time to prepare and adjust their consumption. The latter could result in unchanged consumption level and income distribution across population. However, absence of the data on long term shock and unanticipated shocks is another example of poor dataset and disadvantage of the given paper.

Inclusion of broader cross section and longer time span could provide more informative results of the analysis. Furthermore, classification of shock based on permanent and temporary as well as anticipated and unanticipated ones could also improve the quality of research. Further studies of the given research question could also be based on more advanced econometric models and use panel data instead of cross section.

**References:**

1. Aguiar M. & Bils M. (2011). “Has Consumption Inequality Mirrored Income Inequality.” National Bureau of Economic Research Working Paper 16807
2. Dirk K. & Perri F. (2006). “Does Income Inequality Lead To Consumption Inequality? Evidence And Theory.” Review of Economic Studies, 73(1): 163-193
3. Jonathan F., Johnson D. & Smeeding T. (2013). “Inequality of Income and Consumption: Measuring the Trends in Inequality from 1985-2010 for the Same Individuals.” Unpublished.

Jonathan H., Perri F. & Violante G. (2010). “Unequal we stand: An empirical analysis of economic inequality in the United States, 1967–2006.” Review of Economic Dynamics,13(1): 15-51.

4. Meyer B.D. & Sullivan J.X. (2013). "Consumption and Income Inequality and the Great Recession". American Economic Review: Vol. 103 No. 3
5. Orazio A., Hurst E. & Pistaferri L. (2012). "The Evolution of Income, Consumption and Leisure Inequality in the US, 1980-2010." National Bureau of Economic Research Working Paper 17982
6. The World Bank Database, http://data.worldbank.org/indicator
7. The World Factbook 2008. Washington, D. C.: Central Intelligence Agency; 2008 http://www.ncbi.nlm.nih.gov/books/NBK44558/
8. Eurostat, http://ec.europa.eu/eurostat/data/database

## Appendixes

### Equation 1

| | Coefficients | Standard | t Stat | P-value | Lower 95% | Upper | Lower | Upper |
|---|---|---|---|---|---|---|---|---|
| Intercept | 36,15665 | 4,195904 | 8,61713 | 4,97E-13 | 27,80654 | 44,50677 | 27,80654 | 44,50677 |
| recession | 19,15947 | 3,906389 | 4,904649 | 4,83E-06 | 11,38551 | 26,93343 | 11,38551 | 26,93343 |
| Gini | 0,535538 | 0,149698 | 3,577452 | 0,000593 | 0,237629 | 0,833447 | 0,237629 | 0,833447 |
| developed | -8,85087 | 3,866758 | -2,28896 | 0,024719 | -16,546 | -1,15578 | -16,546 | -1,15578 |

**Equation 2**

| | Coefficients | Standard | t Stat | P-value | Lower 95% | Upper | Lower | Upper |
|---|---|---|---|---|---|---|---|---|
| Intercept | 0,017706 | 0,012129 | 1,459824 | 0,148254 | -0,00643 | 0,041842 | -0,00643 | 0,041842 |
| recession | -0,00079 | 0,011292 | -0,07023 | 0,944187 | -0,02326 | 0,021678 | -0,02326 | 0,021678 |
| developed | -0,00362 | 0,011177 | -0,32373 | 0,746985 | -0,02586 | 0,018625 | -0,02586 | 0,018625 |
| Gini | 0,015202 | 0,000433 | 35,13204 | 2,18E-50 | 0,014341 | 0,016063 | 0,014341 | 0,016063 |

**Equation 3**

| | Coefficients | Standard | t Stat | P-value | Lower 95% | Upper | Lower | Upper |
|---|---|---|---|---|---|---|---|---|
| Intercept | 55,62556 | 2,144974 | 25,93298 | 5,99E-34 | 51,33348 | 59,91764 | 52,04111 | 59,21001 |
| income | 13,86748 | 7,820793 | 1,773155 | 0,081365 | -1,78189 | 29,51685 | 0,798206 | 26,93675 |

2016 - № 44

# DAŞINMAZ ƏMLAKA HÜQUQLARIN MƏHKƏMƏ MÜDAFİƏSİ İLƏ BAĞLI İŞLƏRƏ BAXILMASININ PROSESSUAL XÜSUSİYYƏTLƏRİ

**Günay Axundova**
Bakı Dövlət Universiteti
Bakı, Z.Xəlilov küç. 23
e-mail: g.s.akhundova@gmail.com

**Açar sözlər:** daşınmaz əmlak, məhkəmə baxışı, iddia icraatı, sədrlik edən, sübutlar, qətnamə, əmlakın bölünməsi

**Keywords:** litigation, real estate, civil proceedings, evidence decision, division of property

**Ключевые слова:**, судебное разбирательство, недвижимость, исковое производство, доказательства, решение, раздел имущества

Məhkəmə baxışı mülki prosesin əsas və mərkəzi mərhələsi kimi çıxış edir. Çünki mülki mühakimə icraatının əsas vəzifəsi, mülki işlər üzrə ədalət mühakiməsi məhz məhkəmə baxışı mərhələsində həyata keçirilir. Digər mərhələlər isə məhz məhkəmə baxışının vəzifələrinin dolğun şəkildə təmin edilməsinə yönəlmişdir. Məhkəmə baxışının əsas vəzifələri tərəflər arasında yaranmış mübahisənin həlli, hüquq pozuntusunun aradan qaldırılması, pozulmuş hüququn müdafiə və bərpa edilməsindən ibarətdir. Məhkəmə baxışı mərhələsində müəyyən hallarda qanunların ictimai faydalılığını və ədalətliliyini göstərməklə məhkəmə mühüm tərbiyəvi funksiya yerinə yetirir, vətəndaşlarda hamılıqla qəbul edilmiş norma və qaydalara hörmət ruhu aşılayır, məhkəmənin şəxsində dövlətin mülki, əmək, ailə, mənzil, torpaq və s. hüquq münasibətləri sahəsində hüquq pozuntularına reaksiyasını bariz şəkildə ifadə edir. Mühakimə icraatının açıqlığı və aşkarlığı, ümumi yurisdiksiya məhkəmələrinin fəaliyyəti barədə cəmiyyətin vaxtında, keyfiyyətli və obyektiv məlumatlandırılması məhkəmə quruluşu və mühakimə icraatı ilə bağlı hüquqi maarifləndirmənin səviyyəsini artırır, ədalətli məhkəmə baxışını, məhkəmə hakimiyyətinin fəaliyyəti üzərində ictimai nəzarəti təmin edir. Həmçinin açıq məhkəmə baxışı cəmiyyətin məhkəməyə etimadının saxlanılması vasitələrindən biri kimi çıxış edir. V.İ.Anişina hesab edir ki, ədalət mühakiməsinin həyata keçirilməsində aşkarlıq, açıqlıq, şəffaflıq məhkəmənin müstəqilliyinin və sərbəstliyinin əhəmiyyətli təminatı, habelə konkret iş üzrə məhkəmə qərarlarının qanuniliyinin, obyektivliyinin və ədalətliliyinin təminatıdır. Aşkarlıq, açıqlıq eyni zamanda həm də məhkəmə orqanlarının işi üzərində ictimai nəzarəti həyata keçirmə formasıdır, məhkəmə hakimiyyətinin həqiqi müstəqilliyi onun elə qüsursuz fəaliyyətini (həm də forma baxımından) nəzərdə tutur ki, müstəqilliyin istədiyini etməyə, özbaşınalığın ifadəsinə və qanunsuzluğa çevrilməsinə gətirib çıxarmasın [7, s. 21-23]. A.V.Remiqaylonun fikrincə, ədalət mühakiməsi dövlətin mütləq hakimiyyətinin təbii sərhədidir, bununla belə məhkəmənin özünün də dövlət institutu kimi ictimai nəzarətə ehtiyacı var. Ədalət mühakiməsinin hamı üçün açıqlığı, aşkarlığı vətəndaş cəmiyyətinin dövlət üzərində prioritetini təmin edir. Ona görə də, informasiyaya açıq çıxış imkanı birbaşa demokratiyanın və informasiya texnologiyalı sivilizasiyanın zəruri şərtlərindən biridir [16, s. 269-275].

Məhkəmə baxışı funksiyası böyük həcmli prosessual hərəkətləri özündə əks etdirir və işə baxılması və həll olunmasını nəzərdə turur. Işə baxılması mühakimə

icraatının hərəkətinə, işdə iştirak edən şəxslərə subyektiv hüquqlarının həyata keçirilməsində zəruri hüquqi yardımın göstərilməsinə, baxılan işin materiallarının, tərəflərin mövqelərinin, işin həqiqi hallarının və təqdim edilmiş sübutların tədqiqinə yönəlmiş hərəkətləri əhatə edir. İşin həlli isə müvafiq hüquq normalarının tətbiqindən ibarət olmaqla qərar və ya qərardadın çıxarılması, onun elan olunması və izah edilməsi ilə yekunlaşır [6, s. 68].

Məhkəmə baxışı məhkəmə iclası olmadan həyata keçirilə bilməz. Məhkəmə iclası məhkəmə baxışının prosessual qanunvericiliklə müəyyən olunmuş prosessual formasıdır [11, s. 182]. Məhkəmə baxışı və məhkəmə iclası anlayışlarının qarşılıqlı nisbəti məzmun və formanın nisbəti kimidir.

Məhkəmə baxışında bütün mülki prosesin yekun vəzifələri həll olunur. Birinci instansiya məhkəməsində məhkəmə baxışının vəzifələri bütövlükdə ədalət mühakiməsinin vəzifələri ilə üst-üstə düşür və işin hallarının tədqiqi, qanuni, əsaslandırılmış və adalətli qərarın qəbul edilməsi yolu ilə işin mahiyyəti üzrə həll olunmasından ibarətdir. Yalnız məhkəmə baxışı mərhələsində bütün proses iştirakçılarının eyni vaxtda və eyni yerdə toplanılması, onların mövqelərinin müqayisə edilməsi və beləliklə, məsələyə obyektiv qiymət verilməsi imkanı təmin olunur.

Bütövlükdə isə məhkəmə baxışının vəzifələri kimi əsasən aşağıdakılar çıxış edir: araşdırma əsasında məhkəmə zalında mülki hüquq pozuntusunun və onun hallarının olub-olmamasının müəyyən edilməsi; mülki və mülki-prosessual qanunvericilik baxımından bu hallara hüquqi qiymət verilməsi; pozulmuş mülki hüququn bərpası barədə qərar (qətnamə) qəbul edilməsi.

Göründüyü kimi, məhkəmə baxışının əhəmiyyəti, qısa olaraq, əsasən aşağıdakılarda ifadə olunur: burada mülki işlər üzrə ədalət mühakiməsinin başlıca vəzifəsi (mülki işlərə düzgün və vaxtında baxılması və həll olunması vəzifəsi) həll edilir; vətəndaşlarda qanuna hörmət ruhu aşılanır; ədalət mühakiməsinin əsas prinsipləri bu mərhələdə daha bariz şəkildə təzahür edir və s.

Daşınmaz əmlaka müxtəlif hüquqların müdafiəsinin əsas mexanizmi məhkəmə qaydasında iddia icraatı çərçivəsində daşınmaz əmlaka hüququn özünün və onun yaranma əsasının mübahisələndirilməsindən ibarətdir.

Hüquq ədəbiyyatında daşınmaz əmlaka mülkiyyət hüququnun müdafiəsi ilə bağlı işlərə məhkəmə baxışının aşağıdakı xüsusiyyətləri fərqləndirlir:

- mlüki, mənzil, torpaq, dəniz, hava, meşə, daxili sular, inzibati, ailə və mülki prosessual qanunvericiliyin normalarının qarşılıqlı əlaqəsi;
- müdafiə üsullarının seçilməsi;
- hüquq obyektinin – daşınmaz əmlakın hüquqi rejimi;
- mülkiyyətçilərin, digər qanuni sahiblərin və başqa şəxslərin hüquqi statusu;
- mübahisənin məhkəməyə qədər həlli qaydası [8, s. 75].

Daşınmaz əmlaka hüquqların müdafiəsi ilə bağlı işlərə həm iddia, həm də qeyri-iddia icraatı (xüsusi icraat və ya ümumi hüquq münasibətlərindən əmələ gələn işlər üzrə icraat-inzibati məhkəmə icraatı) qaydasında baxıla bilər. *İddia icraatı* qaydasında daşınmaz əmlaka dair əqdlərin etibarsız hesab edilməsi, daşınmaz əmlakdan istifadə qaydasının müəyyən olunması, daşınmaz əmlaka hüquqların pozulması hallarının aradan qaldırılması, daşınmaz əmlakın özgənin qanunsuz sahibliyindən geri tələb olunması, predmetini daşınmaz əmlak təşkil edən müqavilənin pozulması, daşınmaz əmlaka mülkiyyət hüququnun xitam olunması, daşınmaz əmlaka hüquqda payın ayrılması və s. üzrə işlərə, *xüsusi icraat* qaydasında daşınmaz əmlaka dair xüsusi əhəmiyyəti olan faktların (məsələn, daşınmaz əmlaka sahiblik və ondan istifadə faktının

və ya daşınmaz əmlak növündə mirasın qəbul edilməsi faktının) müəyyən edilməsi, daşınmaz əşyaların üzərində dövlət mülkiyyət hüququnun tanınması barədə işlərə, *ümumi hüquq münasibətlərindən əmələ gələn işlər üzrə icraat* qaydasında müvafiq icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarları və hərəkətləri (hərəkətsizliyi) ilə əlaqədar mübahisələrə dair işlərə baxılır. Lakin sonuncu icraat növü ilə bağlı qeyd etmək lazımdır ki, 20 aprel 2012-ci il tarixli 329-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu [1; 2] ilə Azərbaycan Respublikası MPM-nin ikinci bölməsinin "Ümumi hüquq münasibətlərindən əmələ gələn işlər üzrə icraat" adlanan ikinci yarımbölməsi ləğv edilmişdir. Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsi qəbul olunduqdan sonra həmin işlərə inzibati məhkəmə icraatı qaydasında baxılır. Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2-ci maddəsinin məzmununun təhlilinə əsasən belə nəticəyə gəlmək olar ki, inzibati məhkəmə icraatı qaydasında daşınmaz əmlaka dair aşağıdakı iddialara baxıla bilər:

- şəxsin daşınmaz əmlakla bağlı hüquq və vəzifələri ilə bağlı inzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktın mübahisələndirilməsinə (ləğv olunmasına və ya dəyişdirilməsinə) dair iddialara (mübahisələndirmə haqqında iddia);
- inzibati orqanın üzərinə inzibati aktın qəbul edilməsi ilə bağlı müvafiq öhdəliyin qoyulmasına dair iddialara və ya inzibati orqanın hərəkətsizliyindən müdafiəyə dair iddialara (məcburetmə haqqında iddia);
- inzibati orqan tərəfindən inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan müəyyən hərəkətlərin edilməsinə dair iddialara (öhdəliyin icrası haqqında iddia);
- inzibati orqanın inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan və bilavasitə şəxsin daşınmaz əmlakla bağlı hüquq və azadlıqlarını pozan qanunsuz müdaxiləsindən müdafiəyə dair iddialara (müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia);
- daşınmaz əmlaka dair inzibati aktın etibarsız sayılmasına dair iddialara (müəyyən etmə və ya tanınma haqqında iddia);
- inzibati mübahisələrin həlli ilə bağlı əmlak tələbinə, habelə inzibati orqanların qanunsuz qərarları (inzibati aktları) və ya hərəkətləri (hərəkətsizliyi) nəticəsində daşınmaz əmlaka vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi tələbinə dair iddialara və s.

Daşınmaz əmlaka dair işlərə baxılmasının ümumi qaydası Mülki Prosessual Məcəllə, ayrı-ayrı prosessual xüsusiyyətləri isə Mülki Məcəllə, Torpaq Məcəlləsi, Mənzil Məcəlləsi, İnzibati Prosessual Məcəllə və daşınmaz əmlaka dair məsələləri təsbit və tənzim edən digər normativ hüquqi aktlarla müəyyən edilir.

AR MPM-nin 172-ci maddəsinə görə ərizə məhkəməyə daxil olduğu vaxtdan sonra 3 aydan gec olmayan müddətdə işə baxılmalı və həmin işin həllinə dair qətnamə və ya qərardad çıxarılmalıdır. Ayrı-ayrı kateqoriya işlərə baxılması və onların həllinə dair qətnamə və ya qərardad çıxarılması üçün qanunla qısaldılmış müddətlər müəyyən edilə bilər. Mülki prosessual hüquq ədəbiyyatında göstərildiyi kimi, qanun işə məhkəmə baxışına hazırlıq üçün müddət müəyyən etmir, deməli, məhkəmə baxışına və ona hazırlığa bir müddət müəyyən edir [5, s. 236].

İşə, işdə iştirak edən şəxslər mütləq xəbərdar edilməklə, məhkəmə iclasında baxılır.

Məhkəmə baxışı mərhələsində iddiaçı və cavabdeh arasında mübahisənin mahiyyəti üzrə həlli, ədalət mühakiməsinin bütün prinsiplərinə əməl olunması, maraqlı şəxslərin pozulmuş hüquqlarının məhkəmə müdafiəsi, prosesin səmərəliliyi sədrlik edən

hakimdən asılıdır. AR MPM-nin 12.1-ci maddəsinə əsasən mülki işlərə və iqtisadi mübahisələrə birinci instansiya məhkəmələrində hakim tərəfindən təkbaşına baxılır.

İşə təkbaşına baxan hakim sədrlik edən sayılır. Sədrlik edən işin bütün hallarının, tərəflərin hüquq və vəzifələrinin tam, hərtərəfli və obyektiv surətdə aydınlaşdırılmasını təmin edərək məhkəmə iclasına rəhbərlik edir, baxılan işə aidiyyəti olmayan hər şeyi məhkəmə baxışından çıxarır. Prosesdə iştirak edən şəxslərdən hər hansı biri sədrlik edənin hərəkətlərinə qarşı etiraz etdiyi hallarda, bu etiraz məhkəmə iclasının protokolunda yazılır. Sədrlik edən öz hərəkətləri ilə bağlı şərhlər verir. Sədrlik edən məhkəmənin iclasında müvafiq qaydaya riayət olunmasını təmin etmək üçün zəruri tədbirlər görür. Onun göstərişləri prosesin bütün iştirakçıları, habelə məhkəmə iclası zalında olan şəxslər üçün məcburidir. Məhkəmə işə baxarkən iş üzrə sübutları bilavasitə tədqiq etməyə, tərəflərin və üçüncü şəxslərin izahatlarını, şahidlərin ifadələrini, ekspertlərin rəylərini dinləməyə, yazılı sübutlarla tanış olmağa, maddi sübutları müayinə etməyə, səs yazılarına qulaq asmağa, video yazılara baxmağa və işə baxılması ilə əlaqədar digər hərəkətləri etməyə borcludur. Zəruri hallarda iş üzrə sübutların tədqiqi zamanı məhkəmə mütəxəssisin məsləhəti və şərhini dinləyir. İşə şifahi və hakimlərin dəyişilməz tərkibində baxılır (AR MPM-nin 173-175-ci maddələri).

M.V.Stolnikova qeyd edir ki, ədalət mühakiməsinin həyata keçirilməsi yalnız qanunlara ciddi surətdə əməl edilməsini deyil, həm də yüksək səviyyədə məhkəmə fəaliyyəti mədəniyyətinin olmasını nəzərdə tutur. Müəllifin fikrincə, mülki mühakimə icraatı mədəniyyətinin səviyyəsi, ilk növbədə, məhkəmə işçilərinin, xüsusən də hakimlərin təhsil, məlumatlılıq və mədəniyyət səviyyəsi ilə müəyyən olunur [17, s. 311]. Konkret mülki işlərin, o cümlədən daşınmaz əmlaka hüquqların müdafiəsi ilə bağlı işlərin həlli zamanı hüquqi mədəniyyət, digər aspektlərlə yanaşı, məhkəmə iclasında qaydaya nə dərcədə əməl olunmasında özünü göstərir. Həmin qayda AR MPM-nin 176-cı maddəsində təsbit edilmişdir. Həmin maddəyə görə məhkəmə (hakim) iclas zalına daxil olduqda məhkəmə iclası katibi «məhkəmə gəlir» elan edir və məhkəmə iclasında iştirak edənlərin hamısı ayağa qalxır. İclas zalında olan bütün şəxslər məhkəmə qətnaməsini və ya iş qətnamə çıxarılmadan qurtardıqda məhkəmə qərardadlarını ayaq üstə duraraq dinləyirlər. Prosesdə iştirak edən şəxslər hakimə «möhtərəm hakim» sözləri ilə müraciət edir, ifadə və izahat verərkən ayaq üstə dayanırlar. Bu qaydadan kənara çıxmağa yalnız hakimin icazəsi ilə yol verilə bilər. İşə məhkəmənin normal işləməsini və proses iştirakçılarının təhlükəsizliyini təmin edən şəraitdə baxılır. Bu şəraitin təmin edilməsi üçün zəruri hallarda işə icra məmurları cəlb edilir. Məhkəmə iclası başlanandan sonra sədrlik edənin razılığı olmadan məhkəmə iclası zalına daxil olmaq və oradan çıxmaq olmaz. İşdə iştirak edən şəxslərin və açıq məhkəmə iclasında olan şəxslərin məhkəmə iclası zalında əyləşdikləri yerdən məhkəmə baxışının gedişini yazılı formada, həmçinin məhkəmənin icazəsi ilə kompyuterdən istifadə etməklə istifadə etməklə qeydə almaq hüququ vardır. Məhkəmə iclasında qeydlərin səsyazan vasitələrdən istifadə etməklə aparılmasına, habelə kino və fotoçəkilişə, videoyazıya, canlı yayıma (o cümlədən, mobil rabitə vasitələri ilə) işdə iştirak edən şəxslərin rəyi nəzərə alınmaqla məhkəmənin icazəsi ilə yol verilir. Göstərilən hərəkətlər məhkəmə baxışının normal gedişinə mane olmamalıdır və vaxtla məhdudlaşdırıla bilər. İşdə iştirak edən şəxslər, prosesin digər iştirakçıları və məhkəmə iclası zalında olan bütün şəxslər sədrlik edənin müəyyən etdiyi qaydaya və tapşırıqlara riayət etməyə borcludur.

İşə baxılması üçün təyin olunmuş vaxtda hakim məhkəmə iclasını açır və məhkəmənin hansı işə baxmalı olduğunu elan edir. Məhkəmə iclası ardıcıllıqla bir-birini

əvəz edən hissələrdən ibarətdir. Hər bir hissə öz vəzifəsi, məqsədi və məzmunu ilə fərqlənir. Məhkəmə baxışı aşağıdakı hissələrdən ibarətdir: hazırlıq, işə mahiyyəti üzrə baxılma, məhkəmə nitqləri və replikalar, qətnamənin çıxarılması və elan edilməsi.

Məhkəmə baxışının hazırlıq hissəsi işin mahiyyəti üzrə baxılmasının mümkünlüyünə yönəlmiş prosessual hərəkətlər sistemidir [5, s. 238]. Həmin prosessual hərəkətlər AR MPM-nin 178-189-cu maddələrində təsbit edilmişdir. Onlara aşağıdakılar aiddir:

- Məhkəmə prosesi iştirakçılarının gəlməsini yoxlama.
- Tərcüməçiyə onun vəzifələrinin izah edilməsi.
- Şahidlərin məhkəmə iclası zalından çıxarılması.
- Məhkəmə tərkibinin elan olunması və etiraz etmək hüququnun izah edilməsi.
- İşdə iştirak edən şəxslərə onların hüquq və vəzifələrinin izah olunması.
- İşin və mübahisənin vəziyyətinin müzakirə edilməsi. İşdə iştirak edən şəxslərin vəsatətlərinin həlli.
- İşdə iştirak edən şəxslərin və nümayəndələrin məhkəmə iclasına gəlməməsinin nəticələri.
- Şahidlərin, ekspertin və mütəxəssisin məhkəmə iclasına gəlməməsinin nəticələri.
- Ekspertə və mütəxəssisə onların hüquq və vəzifələrinin izah edilməsi.
- İşə baxılmasının təxirə salınması.
- İşə baxılması təxirə salındıqda şahidin dindirilməsi və prosessual hərəkətlərin edilməsi.

Mülki işlər üzrə ədalət mühakiməsinin vəzifələrinə yalnız mülki qanunvericiliyin normalarına ciddi surətdə əməl etməklə nail olmaq olar. Məhkəmə iclasına rəhbərlik etməklə sədrlik edən prosesi elə təşkil edir ki, prosessual qanunun tələbləri bütün proses iştirakçıları tərəfindən yerinə yetirilsin. Bunun üçün o, aşağıdakı prosessual hərəkətləri edir: tərəflərə onların hüquq və vəzifələrini izah edir; sübutların tam və hərtərəfli tədqiq olunması, işin hallarının araşdırılması üçün şərait yaradır; işə aidiyyəti olmayan şəxslərin prosesdən kənarlaşdırılması məsələsini həll edir; öz hərəkətləri barədə izahatlar verir; proses iştirakçılarına suallar verir; məhkəmə iclasında qaydanı pozanlara xəbərdarlıq edir və s.

Sədrlik edən məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin izahatlarını, ifadələrini, vəsatətlərini tərcümə etmək, həmin şəxslərə isə işdə iştirak edən şəxslərin və şahidlərin ifadələrini, izahatlarını, vəsatətlərini, işdə olan və elan edilən sənədlərin, səsyazmaların, ekspert rəylərinin, mütəxəssis məsləhətlərinin məzmununu, habelə sədrlik edənin sərəncamlarını, məhkəmə qərardad və qətnamələrini tərcümə etmək vəzifəsini ona izah edir (AR MPM-nin 180.1-ci maddəsi). Tərcüməçilərlə bağlı ciddi tələblər irəli sürülməlidir. Tərcüməçi üçün iki dilin sintaksisini və qrammatikasını bilmək hələ azdır, onların həm də hüquqi, tibbi, texniki terminologiya sahəsində müəyyən biliklərə, lazımi lüğət ehtiyatına malik olmaları, yazılı və ya şifahi ifadə olunmuş fikrin mahiyyətinin tərcüməsi zamanı dəqiqliyə riayət etməsi də vacibdir [19, s. 60-61]. Tərcüməçinin məhkəmə baxışında iştirakı məsələsəni həll etməzdən əvvəl onun iş üzrə icraatda istifadə olunacaq dili nə dərəcədə sərbəst bilməsini, bir dildən başqa dilə tərcümə etmək təcrübəsi və vərdişlərinə malik olub-olmamasını aydınlaşdırmaq zəruridir. Sübutların düzgün qiymətləndirilməsi çıxışların, sual və cavabların, habelə sənədlərin tərcüməsinin dəqiqliyindən asılıdır. Tərcüməçiyə izah edilməlidir ki, o, dilin qrammatik quruluşunu qorumalıdır və tərcümə etdiyi izahatları, sual və cavabları, sənədləri şərh etmək hüququ yoxdur [14, s. 17].

AR MPM-nin 186-cı maddəsinə uyğun olaraq şahidlər, ekspertlər və ya mütəxəssislər məhkəmə iclasına gəlmədikdə, məhkəmə onların iştirakı olmadan işə baxmağın mümkün olması haqqında işdə iştirak edən şəxslərin mülahizəsini dinləyir və məhkəmə araşdırmasını davam etdirmək və ya işə baxılmasını təxirə salmaq haqqında qərardad çıxarır. Çağırılmış şahid, ekspert və ya mütəxəssis məhkəmə tərəfindən üzürsüz hesab edilən səbəblərə görə məhkəmə iclasına gəlmədikdə, o, *yüz on manatadək* cərimə edilə bilər. Şahid üzürsüz səbəbdən ikinci dəfə gəlmədikdə məcburi qaydada gətirdilə bilər.

İşə mahiyyəti üzrə baxılması sədrlik edənin məruzəsi ilə başlanır. Bundan sonra sədrlik edən irəli sürülmüş tələblər üzrə tərəflərin və üçüncü şəxslərin mülahizəsini aydınlaşdırır.

S.Z.Jentel və A.V.Nikiforov qeyd edir ki, işə mahiyyəti üzrə baxılmasına daha çox vaxt sərf olunur. Çünki məhz bu zaman məhkəmə mübahisənin mahiyyətini, konfliktin tez həll olunması imkanını müəyyən edir, işin bütün hallarını öyrənir və sübutları tədqiq edir [12, s. 155].

İşi məruzə etdikdən sonra hakim iddiaçını və onun tərəfində iştirak edən üçüncü şəxsi, cavabdehi və onun tərəfində iştirak edən üçüncü şəxsi, habelə işdə iştirak edən digər şəxsləri dinləyir. İşdə iştirak edən şəxslər sədrlik edənin icazəsi ilə bir-birinə suallar verməyə haqlıdırlar. İşdə iştirak edən şəxslərin yazılı izahatları və Mülki Prosessual Məcəllənin 83 və 85-ci maddələri ilə nəzərdə tutulan qaydada məhkəmənin aldığı sübutlar sədrlik edən tərəfindən elan olunur (AR MPM-nin 192-ci maddəsi).

Hakim işdə iştirak edən şəxslərin izahatlarını dinləyib onların mülahizəsini nəzərə alaraq, sübutların tədqiq edilməsinin ardıcıllığını müəyyən edir.

Daşınmaz əmlaka hüquqların müdafiəsinə dair işlərə baxılan zaman yerində müayinəyə zərurət yarana bilər. Çünki daşınmaz əmlak obyektlərinin məhkəməyə gətirilməsi obyektiv olaraq mümkünsüzdür. Məhkəməyə gətirilə bilməyən və ya gətirilməsi çətin olan maddi və yazılı sübutlar, olduqları və ya saxlandıqları yerdə müayinə və tədqiq edilir. Məhkəmə, yerində müayinə aparılması haqqında qərardad çıxarır. İşdə iştirak edən şəxslər və nümayəndələr yerində müayinənin vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməməsi müayinənin aparılmasına mane olmur. Zəruri hallarda ekspertlər, mütəxəssislər və şahidlər də çağırılır. Müayinənin nəticələri məhkəmə iclasının protokoluna yazılır. Müayinə zamanı tərtib olunmuş və yoxlanılmış planlar, sxemlər, çertyojlar, hesablamalar, sənədlərin surətləri, müayinə zamanı çəkilmiş videoyazılar, yazılı və maddi sübutların fotoşəkilləri, habelə ekspertin yazılı rəyi və mütəxəssisin şərhi protokola əlavə edilir (AR MPM-nin 202-ci maddəsi).

Məhkəmə baxışının ən mühüm elementlərindən birini məhkəmə çıxışları təşkil edir.

Məhkəmə çıxışları işdə iştirak edən şəxslərin, onların nümayəndələrinin və vəkillərinin nitqlərindən ibarətdir. Məhkəmə iclasının bu hissəsində işdə iştirak edən şəxslər sübutların qiymətləndirilməsi ilə əlaqədar fikirlərini söyləyirlər, faktlara hüquqi qiymət verirlər, tutduqları mövqeyi əsaslandıraraq iddianın təmin edilib-edilməməsinə dair fikirlərini söyləyirlər. Beləliklə, iş üzrə faktiki hallar və sübutlar nəticəyə gətirilir və bu, məhkəməyə işin hərtərəfli və tam baxılmasında köməklik edir [5, s. 252].

Məhkəmə çıxışlarının ardıcıllığı AR MPM-nin 210-cu maddəsi ilə müəyyən olunmuşdur. Həmin maddəyə görə əvvəlcə iddiaçı və onun nümayəndəsi, sonra cavabdeh və onun nümayəndəsi çıxış edir. Artıq başlanmış prosesdə mübahisə predmetinə dair müstəqil tələblər irəli sürən üçüncü şəxs və onun nümayəndəsi tərəflərdən və onların nümayəndələrindən sonra çıxış edir. Mübahisə predmetinə dair

müstəqil tələblər irəli sürməyən üçüncü şəxs və onun nümayəndəsi, tərəfində üçüncü şəxsin işdə iştirak etdiyi iddiaçıdan, yaxud cavabdehdən sonra çıxış edir. İşdə iştirak edən şəxslərin vəkilləri də həmin ardıcıllıqla çıxış edirlər. Digər şəxslərin qanunla qorunan hüquq və mənafelərinin müdafiəsi üçün məhkəməyə müraciət etmiş dövlət orqanının və yerli özünüidarə orqanının nümayəndələri məhkəmə çıxışlarında birinci çıxış edirlər.

Məhkəmə çıxışlarında tərəflər və onların nümayəndələri məhkəməni iş üzrə əhəmiyyət kəsb edən hallar üzrə məhz öz mövqelərinin düzgünlüyünə inandırmağa çalışırlar.

Mühakimə icraatının bu mərhələsində çəkişmə prinsipi özünün daxili məzmunu və zahiri təzahürünü daha bariz şəkildə göstərir, bir-biri ilə qarşı-qarşıya duran tərəflər xeyli müddət ərzində yetərincə böyük əmək sərf etdikləri sübutların tədqiqi prosesi nəticəsində ortaya çıxmış olan işin halları barəsində özlərinin yekun rəylərini məntiqi cəhətdən əsaslandırmaqla, məhkəməyə bildirirlər. Bu keyfiyyətləri nəzərə alan A.F.Koni məhkəmə çıxışlarını məhkəmə çəkişməsinin məzmun etibarilə ən qızğın, hərəkətli və çevik hissəsi kimi xarakterizə edir [13, s. 366]. Tərəflərin çəkişməsi məhkəmə iclasının açılmasından başlayaraq, məhkəmənin iş üzrə hökm qəbul etməkdən ötrü müşavirə otağına getməsinədək davam etsə də, çəkişmənin ən yüksək forması məhkəmə çıxışlarıdır. Məhz bu mərhələdə tərəflərin çəkişməsi özünün kulminasiya nöqtəsinə çatır. Onlar özlərinin yekun mövqelərini formulə edir, təkliflərini irəli sürür, digər tərəfin mövqeyini təkzib edir və ya dəqiqləşdirir. Müxtəlif rəylərin və qiymətləndirmələrin mübarizəsi tərəflərin nitqlərində və replikalarında öz ifadəsini tapır və bu mübarizə məhkəmə araşdırmalarının, o cümlədən məhkəmə çıxışlarının predmetini təşkil edən bütün məsələlər ətrafında baş verir [15, s. 15-16].

Müəlliflərdən A.D.Boykov çəkişməni ədalət mühakiməsinin əhəmiyyətli prinsipi kimi qiymətləndirir, lakin mübahisənin həqiqəti məhv edə biləcəyini göstərərək, çəkişmənin əhəmiyyətinin həddindən artıq şişirdilməsi barədə xəbərdarlıq edir. Müəllif göstərir ki, çəkişmə məhkəmə idrakının heç də birmənalı olmayan nəticəyə səbəb olan vasitəsidir [9, s. 65].

Çıxışların bütün iştirakçılarının nitqlərindən sonra onlar nitqlərdə deyilənlərlə əlaqədar olaraq çıxış edə bilərlər. Son replika hüququ cavabdehə və onun nümayəndəsinə məxsusdur.

Məhkəmə çıxışları zamanı və bundan sonra, məhkəmə iş üçün əhəmiyyətli olan yeni halların aydınlaşdırılmasını və ya yeni sübutları tədqiq etməyi zəruri hesab edərsə, o, işə mahiyyəti üzrə baxmağın təzələnməsi barədə qərardad çıxarır, həmin qərardad protokola yazılır. İşə mahiyyəti üzrə baxılması qurtardıqdan sonra məhkəmə çıxışları ümumi qaydada olur.

İclas zalında iştirak edənlərə elan etməklə hakim, məhkəmə çıxışlarından sonra qətnamə çıxarmaq üçün müşavirə otağına gedir.

AR MPMM-nin 214.1-ci maddəsinə əsasən qətnaməni qəbul etdikdən və imzaladıqdan sonra hakim məhkəmə iclası zalına qayıdır, qətnaməni elan edir, qətnamənin məzmununu, ondan şikayət etmə qaydası və müddətini izah edir. Hüquq ədəbiyyatında göstərildiyi kimi, qərarın məzmununu başa düşməyən tərəf işi həll edən məhkəməyə həmin qərarın izah edilməsi xahişi ilə ərizə vermək hüququna malikdir [18, s. 141].

"G.Həsən-zadənin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2 aprel 2014-cü il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan

Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 20 aprel 2015-ci il tarixli qərarında qeyd edilir ki, qətnamədə işin məhkəmə tərəfindən müəyyən edilən halları, işin halları barədə məhkəmənin əsaslandırıldığı sübutlar və məhkəmənin bu və ya digər sübutları və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər, habelə məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və normativ hüquqi aktlar göstərilməlidir. Bununla yanaşı, məhkəmə sübutları sadalamaqla kifayətlənməməli, qəbul etdiyi hər bir sübutun məzmununu qətnamədə şərh etməli, sübutları əlaqələndirməli, araşdırılan sübutların qəbul edilib-edilməməsinin səbəblərini aydın göstərməlidir [20]. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında qeyd edilmişdir ki, milli məhkəmələr tərəfindən öz qərarlarını əsaslandırmaq tələbinə əməl olunmaması ədalətli məhkəmə araşdırması zamanı tərəflərin mövqelərinin bərabərlik prinsipi gözlənilməklə dinlənilməsinin sübuta yetirilməməsi ilə nəticələnir (“Kuznetsov və digərləri Rusiyaya qarşı” işi üzrə 21 yanvar 2007-ci il tarixli Qərar [21]).

Məhkəmə baxışı ilə bağlı bütün məlumatlar, məhkəmənin və proses iştirakçılarının bütün mühüm hərəkətləri baş vermə ardıcıllığı ilə dəqiq və dolğun şəkildə məhkəmə iclas protokolunda öz əksini tapır. A.A.Vlasova görə protokol çəkişməli mühakimə icraatı iştirakçılarının subyektiv hüquqlarının reallaşdırılmasının hüquqi təminatlarından biridir. Çünki yalnız protolun məzmunu nəzərə alınmaqla məhkəmə qərarının qanuniliyi, əsaslılığı qiymətləndirilir [10, s. 309].

Daşınmaz əmlaka hüquqların məhkəmə müdafiəsi ilə bağlı işlərə yuxarıda təhlil edilən mülki məhkəmə prosesi qaydalarına uyğun olaraq baxılır və hər bir daşınmaz əmlak obyektinə hüququn müdafiəsi ilə bağlı işlərə baxılması xüsusiyyətlərinin bir yarımfəsil çərçivəsində nəzərdən keçirilməsi obyektiv olaraq qeyri-mümkündür və fəlsəfə doktoru dissertasiyaları üçün qoyulmuş həcm məhdudiyyəti buna icazə vermir. Ona görə də daşınmaz əmlaka hüquqların məhkəmə müdafiəsi ilə bağlı, sadəcə olaraq, bir neçə məsələyə toxunmaq istərdik.

Daşınmaz əmlakın başqasının qanunsuz sahibliyindən geri tələb olunması haqqında mülkiyyətçi titulu əhəmiyyətsiz əqdə və yaxud da dövlət və ya bələdiyyə orqanının qanunvericiliyə zidd aktına əsaslanan şəxslər tərəfindən irəli sürülmüş iddialar üzrə işlərə baxılan zaman məhkəmə, əqdin və ya aktın etibarsız hesab edilməsi barədə tələb irəli sürülüb-sürülməməsindən asılı olmayaraq, belə əqdə qiymət verməkdə və ya göstərilən orqanların müvafiq aktlarını qəbul etməməkdə haqlıdır. Əgər iddiaçı mülkiyyət hüququnu əhəmiyyətsiz əqd və ya qanunvericiliyin tələblərinə uyğun gələməyən akt əsasında əldə etmişdirsə, onun əmlakı tələb etmək üçün hüquqi əsası yoxdur. Əmlakın başqasının qanunsuz sahibliyindən geri tələb olunması haqqında mübahisəyə baxılması gedişində mülkiyyətçinin hüququnun mübahisələndirilən əqdə əsaslandığı aydınlaşdırılarsa, məhkəmə eyni prosesdə iddiaçının qarşılıqlı iddiası olmadan əqdə hüquqi qiymət verə və onu etibarsız hesab edə bilməz. Çünki təqsirləndirilən əqd yalnız mülki qanunvericilikdə göstərilən məhdud şəxslər dairəsinin iddiası ilə etibarsız hesab edilə bilər [8, s. 50].

Daşınmaz əşyalar üzərində dövlətin mülkiyyət hüququnun tanınması haqqında işlərə ərizəçinin və digər maraqlı şəxslərin iştirakı ilə baxılır. Əgər məhkəmə iclasında əşyanın sahibi müəyyən edilərsə və o, həmin əşyaya hüququnu iddia edərsə, hakim işi baxılmamış saxlayır. Çünki burada mübahisə yaranır və tələb ümumi iddia icraatı qaydasında baxılmalıdır.

Məhkəmə daşınmaz əşyanın mülkiyyətçisinin olmadığını, yaxud əşyanın mülkiyyətçisi tərəfindən onun üzərində mülkiyyət hüququnu saxlama niyyəti olmadan

qoyulduğunu və müəyyən edilmiş qaydada uçota alındığını müəyyən edərsə, daşınmaz əşyanın sahibsiz hesab edilməsi və onun üzərində dövlət mülkiyyəti hüququnun tanınması barədə qətnamə çıxarır (AR MPM-nin 326.3-cü maddəsi).

Məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdən sonra əşyanın mülkiyyətçisi həmin əşyanı müstəqil iddia ərizəsi ilə tələb edə bilər [5, s. 350].

Daşınmaz əmlakın bölünməsi haqqında işlərə baxılan zaman müəyyən əmlakın olmasının təsdiqi üçün iddiaçı aşağıdakı yazılı sübutlara istinad edə bilər: hüquq müəyyənedici sənədlər – alqı-satqı müqavilələri, mübadilə sazişləri, mülkiyyət hüququ haqqında şəhadətnamələr, qeydiyyat vəsiqələri, barışıq sazişlərinin təsdiqi haqqında məhkəmə qətnamələri və qərardadlarının surətləri, kooperativ üzvlüyünə qəbul haqqında və yaşayış yeri (qaraj boksu) ayrılması haqqında mənzil və qaraj tikinti kooperativlərinin ümumi yığıncaqlarının qərarlarının surətləri, daşınmaz obyektin mənsubiyyəti barədə daşınmaz əmlaka hüququn təsdiqi haqqında dövlət qeydiyyatı orqanlarının arayışları; mühasibat sənədləri – pay haqqında, vergi, sığorta, kommunal ödənişlərin keçirilməsi haqqında sənədlər; texniki nəzarət orqanlarının sənədləri – daşınmaz obyektin istismara qəbul edilməsi haqqında aktlar; bölünməli olan əmlakın siyahıya alınması aktları; şahid ifadələri və i [4, s. 165-166].

Mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir. Məhkəmə ər-arvadın ümumi əmlakını bölərkən onların tələbi ilə hər birinə çatacaq əmlakı müəyyən edir. Ər-arvaddan birinə, dəyəri ona çatası payın dəyərini aşan əmlak verildikdə, bunun əvəzində digərinə müvafiq məbləğdə pul və ya başqa kompensasiya verilə bilər. Ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir. Ayrı-ayrı hallarda məhkəmə yetkinlik yaşına çatmayan uşaqların mənafeyini və (və ya) ərin (arvadın) diqqətəlayiq mənafeyini, o cümlədən ər-arvaddan biri üzürsüz səbəbdən gəlir əldə etmədiyi və ya birgə mülkiyyəti ailənin mənafeyinə zidd olaraq sərf etdiyi hallarda nəzərə alıb onların birgə mülkiyyətinin bölünməsi zamanı payları bərabər bölməyə bilər. Ümumi əmlak bölünərkən ər-arvadın ümumi borcları onun payına uyğun olaraq müəyyən edilir (AR Ailə Məcəlləsinin 36-37-ci maddələri).

Məhkəmə təcrübəsinə əsaslanaraq qeyd etmək olar ki, arvadın ərlə birlikdə nikah zamanı yaşadıqları mənzildə boşanmadan sonra yaşayış və istifadə hüququnun mövcud olması barədə mübahisə həll edilərkən ilk öncə mənzilin hüquqi vəziyyəti qiymətləndirilməlidir. Mülki Məcəllənin tələbinə görə yaşayış binasının tərkib hissəsindən istifadə hüququnun əmələ gəlməsi üçün mülkiyyətçi ilə bağlanmış, notariat qaydasında təsdiqlənmiş yazılı razılaşma zəruridir. Bu müddəa ilə bağlı Konstitusiya Məhkəməsi tərəfindən bir neçə Plenum qərarı qəbul edilmişdir. Bəzi hallarda məhkəmələr öz qərarlarında bu növ mübahisələrə qiymət verərkən mülkiyyətçi ilə birgə yaşayan ailə üzvünün yaşayış sahəsindən istifadə hüququnun yaranması üçün tərəflər arasındakı etibarlı ailə əlaqələrinin əsas rol oynadığını göstərirlər. Məsələn mülkiyyətçi ər olarsa, bu halda arvadın onlar arasında etibarlı ailə əlaqələrinin olması məhkəmələr tərəfindən əsas kimi qəbul edilir [3].

Məhkəmə torpağa mülkiyyət hüququnu tanıması üçün təsdiq etməlidir ki, mülkiyyət hüququ haqqında sənədlərin başqa üsulla əldə edilməsi və ya itirilmiş, korlanmış sənədlərin bərpası mümkün deyildir. Sübutlar iddia ərizəsinə birləşdirilməlidir. İddia ərizəsində torpaqdan istifadə hüququ faktının müəyyən edilməsini zəruri edən məqsəd göstərilməlidir.

Özbaşına tikintiyə mülkiyyət hüququnun tanınması barədə mübahisələrə baxılarkən, ilk növbədə, obyektin daşınmaz əmlak olması müəyyən edilməlidir. Bu zaman konkret əmlakın daşınmaz olması məsələsi onun təyinatı nəzərə alınmaqla həll olunmalıdır.

Beləliklə, bu yarımfəsildə qeyd olunan fikirlərin ümumiləşdirilməsi əsasında aşağıdakı nəticələrə gəlmək olar:

1. Məhkəmə baxışı aşağıdakı hissələrdən ibarətdir: hazırlıq, işə mahiyyəti üzrə baxılma, məhkəmə nitqləri və replikalar, qətnamənin çıxarılması və elan edilməsi. Hər birinin öz məzmunu və xüsusi vəzifələri olan bütün bu tərkib hissələr qarşılıqlı əlaqədə olmaqla, ardıcıllıqla bir-birini əvəz edir və məcmu halında vahid məhkəmə baxışı mərhələsini əmələ gətirirlər. Məhkəmə baxışı mülki mühakimə icraatının mərkəzi mərhələsidir. Çünki bu mərhələdə iş mahiyyəti üzrə həll olunur. Məhkəmə baxışı mərhələsində mülki mühakimə icraatının əsas prinsipləri daha tam şəkildə həyata keçirilir. Məhkəmə baxışının mərkəzi mərhələ olması həm də onunla şərtlənir ki, prosesin digər mərhələləri ona münasibətdə təminedici, köməkçi xarakter daşıyır. Məhkəmə baxışı işin hallarının gerçəkliyə uyğun şəkildə müəyyən olunmasını təmin etməli, həmin hallara mülki və mülki prosessual qanunvericilik baxımından düzgün hüquqi qiymət verməli, hüquq pozuntusunun törədilməsinə şərait yaradan səbəblərin və şərtlərin aydınlaşdırılmasını və pozulmuş mülki hüququn bərpasını təmin etməlidir.

2. Fikrimizcə, məhkəmə baxışı mülki mühakimə icraatının mülki prosessual hüquq normaları ilə tənzimlənən və sübutların tədqiqi və qiymətləndirilməsi əsasında işin faktiki hallarının müəyyən edilməsinə, konkret hüquq münasibətləri çərçivəsində tərəflərin hüquq və vəzifələrinin müəyyən edilməsinə və işə mahiyyəti üzrə baxılıb yekun məhkəmə qərarının (qətnaməsinin) çıxarılmasına yönələn müstəqil prosessual funksiyasıdır.

3. Məhkəmə baxışının sosial-hüquqi əhəmiyyəti aşağıdakılarda ifadə olunur: bu mərhələdə mülki prosesin əsas vəzifələri həll olunur; yalnız məhkəmə baxışı mərhələsində bütün proses iştirakçılarının eyni vaxta eyni yerdə toplanılması, onların mövqelərinin müqayisə edilməsi və beləliklə, məsələyə obyektiv qiymət verilməsi imkanı təmin olunur; bu mərhələdə mülki proses iştirakçılarının hüquq və azadlıqlarının, cəmiyyətin və dövlətin maraqlarının səmərəli hüquqi mühafizəsi təmin olunur; bu mərhələdə mülki hüquqi mübahisə mahiyyəti üzrə həll olunur; mülki işin hərtərəfli, tam və obyektiv araşdırılması həyata keçirilir; toplanmış sübutlara yekun qiymət verilir; bu mərhələdə vətəndaşların qanunlara hörmət ruhunda tərbiyələndirilməsi və maarifləndirilməsi funksiyası daha bariz şəkildə özünü göstərir və reallaşdırılır; məhkəmə baxışı mərhələsi real və potensial hüquq pozucularına ciddi profilaktik təsir göstərir; məhz bu mərhələdə mülki mühakimə icraatınınn bütün demokratik prinsipləri tam və bariz şəkildə təzahür edir.

## Ədəbiyyat

1. "Azərbaycan" qəzeti 12 may 2012-ci il, № 103
2. Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2012-ci il, № 05, maddə 411
3. Boşanmadan sonra yaranan ən böyük problem əmlak bölgüsü zamanı meydana gəlir / http://news.day.az/society/383376.html
4. Dəmirçiyeva M.D. Mülki məhkəmə icraatı: ayrı-ayrı kateqoriya mülki işlərə baxılmasının prosessual xüsusiyyətləri. Bakı: Qanun, 2008, 216 s.

5. Mövsümov M.A. Mülki prosessual hüquq. Dərslik. Bakı: Qanun, 2011, 416 s.
6. Алимова Н.А.Участие гражданина в гражданском процессе. М.: ЮРАЙТ, 2008, 107 с.
7. Анишина В.И. Принципы гласности, открытости и транспарентности судебной власти: проблемы теории и практики реализации // Мировой судья, 2006, № 11, с. 21-23
8. Беспалов Ю.Ф., Егорова О.А., Егорова А.С. Судебная защита прав на недвижимое имущество. Процессуальное и материально-правовые аспекты. Учебное пособие. М.: Закон и право, 2010, 239 с.
9. Бойков А.Д. Третья власть в России. Очерки о правосудии, законности и судебной реформе 1990-1996 г.г. М.: Изд-во НИИСЗ, 1997, 264 с.
10. Власов А.А. Гражданский процесс. Учебник. М.: Издательство Юрайт, 2013, 555 с.
11. Егорова О.А., Коршунов Н.М., Лабыгин А.Н., Мареев Ю.Л. Гражданский процесс. Учебник / Под ред. Н.М.Коршунова. М.: ЮНИТИ-ДАНА: Закон и право, 2011, 431 с.
12. Женетль С.З., Никифоров А.В. Гражданский процесс. Учебник. 3-е изд. М.:РИОР:ИНФР-М, 2012, 432 с.
13. Кони А.Ф. Собрание сочинений. Т.4. М.: Юридическая литература, 1967, 528 с.
14. Кочетков В. Рассмотрение уголовных дел с участием переводчика // Советская юстиция, 1975, № 5, с. 17-18
15. Перлов И.Д. Судебные прения и последнее слово подсудимого в советском уголовном процессе. М.: Госюриздат, 1957, 202 с.
16. Ремигайло А.В. Транспарентность деятельности арбитражного суда г. Москвы // Проблемы транспарентности правосудия. М.: ЛексЭст, 2005, с. 269-275
17. Стольникова М.В. Практика подготовки и ведения гражданских дел. – М.: Проспект, 2009, 640 с.
18. Туманова Л.В. Гражданское процессуальное право. Учебное пособие. М.: Проспект, 2009, 304 с.
19. Фирсова А. Работе переводчиков в судопроизводстве – организационную базу // Социалистическая законность, 1972, № 2, с. 60-61
20. http://www.constcourt.gov.az/decisions/331
21. http://europeancourt.ru/resheniya-evropejskogo-suda-na-russkom-yazyke/kuznecov-i-drugie-protiv-rossii-postanovlenie-evropejskogo-suda/

## DAŞINMAZ ƏMLAKA HÜQUQLARIN MƏHKƏMƏ MÜDAFİƏSİ İLƏ BAĞLI İŞLƏRƏ BAXILMASININ PROSESSUAL XÜSUSİYYƏTLƏRİ

**Günay Axundova**

**Xülasə**

Bu məqalədə daşınmaz əmlaka hüquqların məhkəmə müdafiəsi ilə bağlı işlərə baxılmasının prosessual xüsusiyyətləri təhlil edilmişdir. Müəllif apardığı təhlil və araşdırmalar nəticəsində məhkəmə baxışını mülki mühakimə icraatının mülki prosessual hüquq normaları ilə tənzimlənən və sübutların tədqiqi və qiymətləndirilməsi əsasında

işin faktiki hallarının müəyyən edilməsinə, konkret hüquq münasibətləri çərçivəsində tərəflərin hüquq və vəzifələrinin müəyyən edilməsinə və işə mahiyyəti üzrə baxılıb yekun məhkəmə qərarının (qətnaməsinin) çıxarılmasına yönələn müstəqil prosessual funksiyası kimi xarakterizə edir.

## ПРОЦЕССУАЛЬНЫЕ ОСОБЕННОСТИ РАССМОТРЕНИЯ ДЕЛ В СВЯЗИ С СУДЕБНОЙ ЗАЩИТОЙ ПРАВА НА НЕДВИЖИМОСТЬ

**Гюнай Ахундова**

**Резюме**

В данной статье рассмотрены процессуальные особенности рассмотрения дел в связи с судебной защитой права на недвижимость. В результате проведенного исследования автор характеризует судебное расследование в порядке гражданского судопроизводства, регулируемое нормами гражданско-процессуального права и направленное на основании изучения и оценки доказательств определения прав и обязанностей в контексте конкретного правоотношения , ирассмотрение дела по существу и вынесение судебного решения (постановления) как независимую процессуальную функцию.

## REMEDIAL FEATURES OF CONSIDERATION OF CASES RELATED TO THE JUDICIAL PROTECTION OF THE RIGHT TO PROPERTY

**Gunay Ahundova**

**Summary**

This article describes the procedural peculiarities of cases in connection with the judicial protection of property rights . The study author characterizes judicial investigation in civil proceedings governed by the rule of civil procedure law and directed based on the study and evaluation of evidence determination of rights and obligations in the context of a particular legal relationship, consideration of the merits and the judgment (decision) as an independent procedural function.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# SAHƏLƏR ÜZRƏ QİYMƏTƏMƏLƏGƏLMƏNİN MÖVCUD PROBLEMLƏRİ

**A.M.Mustafayev**
Azərbaycan Milli Elmlər Akademiyası
Bakı, H.Cavid 115
e-mail: asif5252@rambler.ru

**T.M.Qurbanov**
Azərbaycan Milli Elmlər Akademiyası
Bakı, H.Cavid 115
e-mail: tariyel188@box.az

**Açar sözlər:** qiymət, qiymətəmələgəlmə, tənzimləmə, bazar mexanizmi, dövlət mexanizmi, dövlət sektoru

**Key words:** price, price forming, the regulating, state sector, mechanism state of mechanism of market,

**Ключевые слова:** цена, ценообразование, регулирование, рыночный механизм, государственный механизм, государственный сектор

***Giriş.*** İqtisadiyyatda qiymət problemi və onun həlli ilə bağlı məsələlər daimi dövlətin diqqət mərkəzində olmuşdur. Qiymətlərin real (istehsalçı baxımından) və sosial effektləri, onların təmin olunması prosesində maraqların toqquşması zəruri etmişdir ki, problemin həlli istiqamətində arzu olunan ən optimal variant seçilsin. Hesab edirik ki, optimal variantın seçilməsi qiymətəmələgəlmə mexanzimi və qiymətlərin tənzimlənməsi arasında olan münasibətlərin öyrənilməsi yolu ilə əldə edilə bilər. Təqdim olunmuş məqalədə əsasən bu iki problemin iqtisadiyyatın sahələri üzrə dinamikası, mövcud vəziyyəti və təhlili verilməklə həllinin tapılması nəzərdə tutlumuşdur.

*Qiymətəmələgəlmə və tənzimləmənin sahələr üzrə bölgüsü.*

Qiymətəmələgəlmə və qiymətlərin dövlət tənzimlənməsində bir sıra sahələr xüsusilə seçilməkdədir. Bu sahələr bir çox ölkələrdə dövlət sektoru qiymət tənzimlənməsi obyekti kimi də özünü göstərir. Azərbaycanda qiymət tənzimlənməsinin əsas subyekti olan Tarif Şurasının tənzimlənən qiymət növlərinə baxdıqda bu sahələri əyani surətdə qruplaşdırmaq olar: səhiyyə; təhsil və elm; mənzil kommunal təsərrüfatı; nəqliyyat; rabitə; yanacaq enerji kompleksi; reklam və xidmət; su və digər sahələr.

Səhiyyə üzrə qiymətləri tənzimlənən aşağıdakı xidmət növləri xarakterikdir:

- Profilaktik, diaqnostik və monitorinq xarakterli.
- Müalicə xidmətləri.
- Müalicə əhəmiyyətli prosesləri müşayət edən digər xidmətlər.
- Aptek xidmətləri (dərman pereparatları və s.).

Respublikamızda dərman vasitələrinin və maddələrinin dövlət qeydiyyatına alınması xidmətlərinin müəyyən olunması Tarif Şurasının qərarına əsasən aşağıdakı qiymətlərlə tənzimlənir.

Təhsil və elm sferası üzrə qiymətəmələgəlmə və tənzimləmənin həyata keçirilməsi digər ölkələrdən fərqli olaraq zəif tənzimləmə ilə xarakterik olmuşdur. Son dövrlər Tarif Şurasının qiymət tənzimlənməsi tədbirlərinə nəzər saldıqda aydın olur ki, kifayət qədər bu sahə tənzimləmə obyektinə çevrilməmişdir. Lakin, bununla yanaşı aşağıdakı bu sahə üzrə bir tədbiri göstərmək olar: İxtira, faydalı model və sənaye nümunəsi ilə bağlı iddia sənədinin qəbulu və onların ekspertizasının təşkili üzrə xidmətlərin tariflərinin

tənzimlənməsi barədə Azərbaycan Respublikası Tarif Şurasının 7 saylı qərarı (01 avqusat 2014-cü il).

Perspektivdə ölkənin elmi-texniki və humanitar inkişafını müəyyən edən ən vacib sahələrdən biri kimi özünü göstərən elm və təhsil sferasında normalda qiymətlərin tənzimlənməsi iki əsas prinsipin müqayisəsinə dayanır. Bunlar faydalı effekt və onların reallaşmasına çəkilən xərclərdir. Faydalı effekt özlüyündə aşağıdakı amilləri birləşdirir:

- fərdin bilik əldə etməsi;
- fərdin qabiliyyəti;
- fərdin yenilikləri;
- yeni sferalar üzrə peşəkarlığı;
- öncəki bilik səviyyəsini artırmaqla hal-hazırki sahə üzrə peşəkarlıq səviyyəsinin yüksəldilməsi və s.

Çəkilən xərclərin müəyyən olunması amilləri isə aşağıdakılar aid edilir:

- konkret xidmət növü üzrə xərcin hesablanması (kalkulyasiyası);
- elm və təhsil işçilərinin əmək haqqlarının hesablanması;
- əsas fondların amortizasiyasının hesablanması;
- əsas fondların icarə haqqlarının hesablanması;
- maddi-texniki təminat və elmi-tədris prosesi xərclərinin hesablanması;
- inzibati idarəetmə və xidməti heyətin xərclərinin hesablanması;
- dövlət və bələdiyyə büdcələri üzrə hesablanma;
- digər xərclərin hesablanması.

Ümumiyyətlə götürdükdə istər bazar mexanizmi, istərsə də dövlət mexanizmi əsasında formalaşan və tənzim olunan qiymətlər onların sosial effekti ilk növbədə istehlak malları bazarında öz əksini tapır. Nəzərə almaq lazımdır ki, dövlət sektoru üzrə tənzimləmə istehlak malları bazarına nisbətdə 2 istiqamətdə həyata keçirilir. Onlara aşağıdakıları aid edə bilərik:

- Birincisi, tənzimlənən qiymətlərin sözü gedən bazara standart formada daxil olması və istehlak mallarının qiymətlərində əks olunması. Bu hal standart hal olmaqla xarakterizə edilə bilər.
- İkincisi isə istehlak malları bazarında qiymət dəyişikliyi və dinamikasından asılı olaraq tənzimlənmənin zəruri olması (və ya ona ehtiyac duyulmaması). Bu hal isə real hal olmaqla xarakterizə edilə bilər.

*Tənzimlənən qiymətlər üzrə dinamika.*

Təqdim olunmuş qrafikdə (bax. qrafik 1) son 8 il üçün istehlak malları bazarında qiymətlərin dinamikası verilmişdir. Burada son 3 il üçün qiymətlərin ümumi səviyyəsində bir o qədər də nəzərə çarpacaq dəyişiklik müşahidə edilməmişdir. Lakin, qiymətlərin 2008-ci il üçün dəyişikliyinə nəzər saldıqda görürük ki, qlobal maliyyə böhranının təsiri istehlak malları bazarında kifayət qədər təsir effekti yarada bilmişdir.

**İstehlak malları bazarında qiymətlərin dinamikası. Qrafik 1**






Qeyd: Qrafik DSK-nın məlumatları əsasında tərtib edilmişdir. (http://www.stat.gov.az/source/price_tarif/)

Həmçinin, təqdim olunmuş qrafikdən o da aydın surətdə görünür ki, 2008-ci ildən 2009-cu ilə keçiddə qiymətlərin kəskin aşağı düşməsi halı müşahidə edilmişdir. Bunun effekt baxımından bir sıra səbəbləri ola bilər ki, onlar yenə bazarın və dövlətin tənzimlənməsi mahiyyəti ilə xarakterizə edilə bilər. Ərzaq məhsullarının tərkibinə nəzər saldıqda isə qida və pullu xidmətlər istisna olmaqla son 8 ilin qiymətlər dinamikasında köklü dəyişikliklər müşahidə edilməmişdir (bax qrafik 2).

**Ərzaq məhsulları bazarında qiymətlərin dinamikası. Qrafik 2**




Qeyd: Qrafik DSK-nın məlumatları əsasında tərtib edilmişdir. (http://www.stat.gov.az/source/price_tarif/)

Şübhəsiz ki, 2008-ci il qlobal maliyyə böhranının Azərbaycanın istehlak malları bazarına mənfi effektdə öz əksinin tapmamasının əsas səbəbi kimi dövlətin tənzimlənməsi götürülsədə, bu tənzimləmədə əsas vasitə maliyyə-valyuta aləti götürülmüşdür. Buna isə səbəbiyyət verən ölkənin kifayət qədər valyuta ehtiyatı olması göstərilir.

Qiymət tənzimlənməsi ilə əlaqədar söyləmək lazımdır ki, dövlətin tədbirlərində yanacaq- enerji məhsulları xüsusi ilə seçilmişdir. Tarif Şurasının demək olar ki, hər il qiymət tənzimlənməsi ilə qərarları istər daxili bazar, istərsə də dünya bazarı konyukturasına adekvat xarakter daşıması dəfələrlə iqtisadi təhlillərdə qeyd edilmişdir. Son 6 il üçün qiymət dəyişkənliyinə baxdıqda qrafik olaraq aşağıdakı xətti hərəkətliliyi müşahidə etmək olar (bax qrafik 3).

**Əsas növ yanacaq energetika məhsullarının istehsalçı qiymətləri indeksi (əvvəlki ilə nisbətən, faizlə)**
**Qrafik 3**




Qeyd: Qrafik DSK-nın məlumatları əsasında tərtib edilmişdir. (http://www.stat.gov.az/source/price_tarif/)

Təqdim olunmuş qrafikdən aydın surətdə görünür ki, qiymət dəyişikliyi kəskin olaraq 2009 və 2014-cü illərdə müşahidə edilmişdir. 2009-cu il üçün xam neftin qiymətinin əvvəlki ilə nisbətən 11,2 faiz artması fonunda təbii qazın 0,1 faiz azalması müşahidə edilmişdir. 2011-ci il üçün xam neftin, təbii qazın, soba mazutunun qiymətlərinin artması müşahidə edilsə də, digər nov yanacaq qiymətlərində dəyişiklik olmamışdır. Lakin, 2014-cü ilə nəzər saldıqda aydın olur ki, xam neftin qiymətində kəskin azalma (əvvəlki ilə nisbətən 7,4 faiz, 2009-cu ilə nisəbətən isə 10 faiz azalma müşahidə edilmişdir) xarakterik olsa da, digər yanacaq növlərinin istehsalçı qiymətlərində kəskin artma müşahidə edilmişdir. 2014-cü ildə dünya bazarında gedən proseslərə əks olaraq respublikamızda öncəki ilə nisbətən təbii qaz 1 faiz, avtomobil benzini 14,2 faiz, dizel yanacağı 0,6 faiz, soba mazutu 34,9 faiz, mühərrik yağı 64 faiz, ağ neft 5,1 faiz, bitum isə 45,4 faiz artmışdır. Şübhəsiz ki, dünya bazarında gedən proseslərə uyğunluq, adekvatlıq və ya əks tədbirlər yanacaq qiymətlərinin daha çox dövlət tənzimlənməsi ilə sıx bağlı olmasının nəticəsi kimi dəyərləndirmək lazımdır.

Nəqliyyat, poçt və telekommunikasiya tariflərinin səviyyəsi və dinamikasına nəzər saldıqda ümumi meyil kimi 2010-cu ildən dəyişikliyin baş verdiyini görmək olar (bax qrafik 4).

**Nəqliyyat və poçt tarifləri indeksi (əvvəlki ilə nisbətən, faizlə). Qrafik 4**




Qeyd: Qrafik DSK-nın məlumatları əsasında tərtib edilmişdir. (http://www.stat.gov.az/source/price_tarif/)

Kəskin artım 2010-cu ildən etibarən poçt və kuryer tariflərində müşahidə edilmişdir. Bu artım 2011-ci ildən etibarən azalmağa başlamışdır. Müvafiq olaraq qrafikdə nəqliyyat və poçt tarifləri indeksi belə dəyişilmişdir: Əvvəlki ilə nisbətən 2010-cu ildə nəqliyyatda sərnişindaşıma tarifləri indeksi istisna olmaqla bütün bəndlərdə azalma müşahidə edilmişdir. 2011-ci ildə telekommunikasiya tarifləri indeksi istisna olmaqla bütün bəndlərdə artım, 2012-ci ildə sərnişindaşıma və telekommunikasiya tarifləri indekslərində azalma, digərlərində artım, 2013-cü il əsasən nəqliyyat və poçt tarifləri indeksində 3 faizlik azalma və 2014-cü ildə isə sərnişindaşımada 2 faizlik artmdan başqa digər bəndlərdə azalma xarakterik olmuşdur.

İqtisadiyyatın digər aparıcı sahəsi olan tikintinin qiymət dəyişikliyi ilə əlaqədar vəziyyətinə nəzər saldıqda digər sahələrə nisbətdə kəskin fərqlərin müşahidə olunduğunu söyləmək olmur (bax qrafik 5).

**Tikinti sahəsində qiymətlərin səviyyəsi və dinamikası (əvvəlki ilə nisbətən, faizlə)** **Qrafik 5**




Qeyd: Qrafik DSK-nın məlumatları əsasında tərtib edilmişdir. (http://www.stat.gov.az/source/price_tarif/)

Təqdim olunmuş qrafik üzrə dəyərləndirmə apardıqda aydın olur ki, son 5 il üçün tikinti işləri üzrə ümumi qiymət indeksi, yerüstü tikintilər və sosial təyinatlı binaların qiymətlərində nəzərəçarpacaq dəyişiklik baş verməmişdir. Lakin, istehsal təyinatlı obyektlərin tikintisi və sənaye obyektləri üzrə qiymətlərin dinamikasında 3 faizlik artım yalnız 2014-cü ildə müşahidə edilmişdir ki, bu da tikinti üzrə qiymət dəyişikliyinin ən fərqləndirici səviyyəsi hesab olunur. Ümumən dəyərləndirmə apardıqda deyə bilərik ki, dövlət sektorunun 2014-cü il üçün 15,7 faizlik (ÜDM-ə xüsusi çəkisi) xüsusi çəkinin fonunda təsir gücünün aşağı olması müəyyən mənada obyektiv hal kimi qiymətləndirmək olmaz. Çünki, tikinti sektoru sosial, nəqliyyat və rabitə sferasından sonra dördüncü böyük sahə kimi dövlət sektorunu özündə birləşdirir. Bu baxımdan hesab etmək olardı ki, həm nəqliyyat və rabitə, həm də tikinti sferasında dövlət sektorunun tənzimləyici gücü digər sahələrə nisbətdə daha qabarıq olsun.

Ümumiyyətlə, dövlət sektorunun son illər xüsusi çəkisinin azalması müşahidə edilməkdədir. Bunu biz aşağıda təqdim olunmuş qrafikdə əyani surətdə görə bilərik (bax qrafik 6)

**Qrafik 6**




Qeyd: Qrafik DSK-nın məlumatları əsasında tərtib edilmişdir. http://www.stat.gov.az

Təqdim olunmuş qrafikdən görünür ki, bir sıra sahələr vardır ki, 2008-ci ildən başlayaraq dövlət sektorunun ÜDM-də xüsusi çəkisi baxımından artmağa doğru meyilli olmuşdur. Belə ki, son 7 ilin ümumi çəkisində dövlət sektoru 2008-ci ildəki paydan (15,5 faiz) 2,6 faizlik artımla (18,1) 2014-cü ili tamamlamışdır. Sahələr üzrə sənayedə artım təxmini 4 faiz, tikintidə 2,7 faiz, nəqliyyatda 3,5 faiz, rabitədə 3 faiz artımla müşahidə edilmişdir. Yalnız ticarətdə 0,7 faiz, kənd təsərrüfatında 0,8 faiz və sosial sferada isə 15,5 faizlik gerləmə olmuşdur. Digər sahələrdə baş verən dəyişikliyi obyektiv və ya normal hal kimi qəbul etmək olar. Lakin, sosial sferanın (hansı ki, dövlət sektorunun formalaşmasının əsas mənbəyi kimi çıxış edir) özəl sektorun hesabına ÜDM-də xüsusi çəkisinin artması gözlənilən hal kimi qiymətləndirə bilmərik. Nəticə olaraq aşağıdakı məsələlərin həllinin vacib olduğunu diqqətə çatdırmaq istəyirik:

- İqtisadiyyatda qiymət amilinin öyrənilməsinə ikili yanaşma olmalıdır: klassik və ənənəvi yanaşma.
- Klassik yanaşmada qiymətəmələgəlmə problemi dərindən öyrənilib tədqiq edilməlidir. Ənənəvi yanaşma ilə isə qiymətlərin tənzimləmə hüdudları müəyyən olunmalıdır.
- Bazar iqtisadiyyatı sistemi zəruri edir ki, iqtisadiyyatda qiymətlərin tənzimlənməsi üzrə ənənəvi yanaşma dəqiq təsbit edilsin. Belə ki, bazar mexanzminin ünsürləri və onların fəaliyyət sahəsinə müdaxilə olunmasın.
- Azərbaycanda hər iki yanaşmadan istifadə olunduğunu lakin, qiymətlərin tənzimlənməsi üzrə ənənəvi sistemin təsir gücünün daha effektiv olduğunu söyləmək olar. Bunu təqdim edilmiş qrafiklərdən görmək olar.
- Tənzimlənmənin daha effektiv olması üçün təklif edilir ki, tənzimləməyə dövlət sektorunun əsas ünsür elementi kimi yanaşılsın. Bu hal ölkədə dövlət sektorunun həm fəaliyyətini effektiv edər, həm də bazar ünsürlərinə görə sərhədləri dəqiq olar.
- Son illərdə qiymətlərin tənzimlənməsi üzrə əsas hədəf-obyekti sosial amil olmuşdur. Halbuki, qiymətlərin tənzimlənməsinin əsas hədəfi stimullaşdırma hesab olunmalıdır.

## ƏDƏBİYYAT

Ахинов Г.А., Жильцов Е.Н. Экономика общественного сектора. М.:ИНФРА-М, 2008.- 345 с.
1. Çudakov A.D. Qiymətlər və qiymətin əmələ gəlməsi. Bakı, 2009, 447 səh.
2. Абрютина М. С. Ценообразование в рыночной экономике. – М, 2002, - 256 с.
3. Герасименко В.В. Ценообразование. ИНФРА-М, 2011.- 422 с.
4. Липсиц И.В. Ценообразование: Юрайт – М, 2014,- 376 с.
5. http://www.stat.gov.az/
7. http://www.tariffcouncil.gov.az

## SAHƏLƏR ÜZRƏ QİYMƏTƏMƏLƏGƏLMƏNİN MÖVCUD PROBLEMLƏRİ

**A.M.Mustafayev, T.M.Qurbanov**

**Xülasə**

Təqdim olunmuş məqalədə qiymət problemi və onun həlli istiqamətləri araşdırılmışdır. İlk öncə qiymətəmələgəlmə və qiymətlərin tənzimlənməsi məsələləri araşdırılır. Daha sonra məqalədə iqtisadiyyatın sahələri üzrə tənzimlənən qiymətləri təhlil edilir və müəyyənləşdirilir ki, qiymətlərin tənzimlənməsinə dövlət sektoru çərçivəsində yanaşılmalıdır.

## ПРОБЛЕМЫ ЦЕНООБРАЗОВАНИЯ ПО ОТРАСЛЯМ ЭКОНОМИКИ

**А. М.Мустафаев, Т.М.Гурбанов**

**Резюме**

В представленной статье исследована проблема ценообразования и пути ее решения. Автор в первую очередь рассматривает вопросы ценообразования и регулирования цен. Затем в статье проводится анализ регулируемых цен по отраслям экономики. Автор приходит к выводу, что вопрос регулирования цен необходимо решать в рамках государственного сектора.

## PRICE ON AREAS EXISTING PROBLEMS OF THE FORMING

**A.M.Mustafayev, T.M.Gurbanov**

**Summary**

Directions of problem of price and his solution have been investigated in the represented article. The first price form at first and problems of regulation of the prices are investigated. It is analysed and defined prices regulated in the article later on areas of the economy that must be approached cam to regulation of the prices in the frame of state sector.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2016 - № 44

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏXLAQ TƏRBİYƏSİNİN PEDAQOJİ-PSİXOLOJİ ƏSASLARI

**Q.E.Arslan**
Bakı Slavyan Universiteti
Bakı, S.Rüstəm küçəsi 33
e-mail: t.gaye@hotmail.com

***Açar sözlər:*** məktəbəqədər yaşlı uşaqlar, psixoloji-pedaqoji əsaslar, folklor nümunələri, mənəvi tərbiyə, yaş psixologiyası

***Keywords:*** preschool-aged children, psycho-pedagogical bases, folkloric examples, moral education, age-related psychology

***Ключевые слова:*** дети дошкольного возраста, психолого-педагогические основы, фольклорные образцы, нравственное воспитание, возрастная психология

İstər Azərbaycanda, istər Türkiyədə, istər Rusiyada, istər Avropada, istərsə də dünyanın müxtəlif ölkələrində məktəbəqədər yaşlı uşaqlara pedaqoji cəhətdən yanaşmanın psixoloji cəhətdən düzgün əsaslandırılmasının sistemi mövcuddur. Dünyanın aparıcı pedaqoqları psixoloji ədəbiyyata istinad edərək, "Pedaqoji-psixologiya" mövzusunda əsərlər yazmaqla pedaqoji prosesdə uşaqlara göstərilən psixoloji təsirin elmi əsaslarını müəyyənləşdirmişlər.

Azərbaycan pedaqoji ədəbiyyatında uşaqların tərbiyəsinin pedaqoji əsasları ilə bağlı Azərbaycan pedaqoqlarının müəyyən fikirləri vardır. Yəni bir sıra müəlliflər uşaqların hərtərəfli inkişafı üçün ümumpedaqoji üsullar, prinsiplər, imkanlar, yollar, vasitə və formalar müəyyənləşdirmişlər. Lakin bu pedaqoji əsasların heç biri folklor nümunələrindən istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması işinə aid edilməmişdir. Unutmaq olmaz ki, 3-6 yaş dövründə Azərbaycan və türk folklorunun uşaqların əxlaq tərbiyəsi üçün yararlı olan nümunələrini onlara öyrədərkən, müəyyən pedaqoji əsaslara istinad etmək çox vacibdir. Ona görə ki, əgər bir tərəfdən uşaqlar üçün folklor materialları seçərkən onların yaş, fərdi, cinsi, fizioloji və qavrama xüsusiyyətlərinin nəzərə alınması vacib hesab olunursa, digər tərəfdən həmin etnopedaqoji materiallardan istifadə etməklə onların əxlaq tərbiyəsini inkişaf etdirməyin prinsiplərinin və üsullarının düzgün müəyyənləşdirilməsinə də ehtiyac vardır. Bunları nəzərə alaraq, biz həmin pedaqoji əsasları iki istiqamət üzrə müəyyənləşdirməyi məqsədəuyğun hesab etdik.

Folklor materiallarının öyrədilməsi zamanı məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsini müəyyən prinsiplərə istinad etməklə formalaşdırmaq mümkündür. Həmin prinsipləri isə aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. Folklor materiallarının öyrədilməsi zamanı üzə çıxan əxlaq tərbiyəsinin müasir həyat, əmək və müstəqil dövlət quruculuğu ilə əlaqələndirilməsi.
2. Əxlaq tərbiyəsi ilə bağlı məqsədəuyğun folklor materiallarının seçilməsi.
3. 3-6 yaşlı uşaqların əxlaq tərbiyəsinə uyğun olan Azərbaycan və türk folkor nümunələrinin seçilməsi.
4. Uşaqların əxlaqının saflaşmasına təsir edən folklor nümunələrinin ardıcıl, sistemli

və mütəmadi olaraq seçilib işlədilməsi.

5. Folklor nümunələri vasitəsilə 3-6 yaşlı uşaqların əxlaqının saflaşdırılması işinə nikbinliklə yanaşılması.

6. Folklor nümunələrinin öyrədilməsi zamanı 3-6 yaşlı uşaqlara hörmət və tələbkarlığın göstərilməsi.

7. Folklor materiallarının 3-6 yaşlı uşaqlara öyrədilməsi zamanı onlara əxlaq tərbiyəsi elementləri aşılayarkən tələblərdə vahidliyin gözlənilməsi

3-6 yaşlı uşaqların folklor materialları ilə tanış edilməsi prosesində onları ictimai fəallığa cəlb etməklə əxlaqının saflaşdırılması üçün göstərilənlərin hər biri pedaqoji əsaslar kimi valideynlərə və tərbiyəçilərə məktəbəqədər yaşlı uşaqların əxlaqının saflaşdırılması və bu prosesdə onların şifahi xalq yaradıcılığı nümunələrinə yaxınlaşdırılması, folklora məhəbbət hissi aşılanması işində çox böyük köməklik göstərmiş olur. Eyni sözləri tərbiyənin üsulları ilə bağlı demək olar. Çünki istər ailədə, istərsə də bağçada uşaqları folklor nümunələrindəki əxlaq normalarına, nağıl personajlarının igidliyinə, qoçaqlığına, qəhrəmanlığına, dastanlardakı vətənpərvər oğlanların yurdsevərliyinə inandırmaq üçün tərbiyə üsullarının nəzəri müddəalarından bəhrələnmək lazım gəlir. Hər hansı folklor materialının tərbiyəvi cəhətdən faydalı olmasını uşaqlara inandırmaq üçün bir sıra tərbiyə üsullarına istinad etmək olar.

Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin formalaşmasına təsir edən folklor nümunələrinin faydalı olmasını uşaqlara təlqin edən həmin üsulları aşağıdakı şəkildə sistemləşdirmək olar:

- folklor nümunələri əsasında öyüd verməklə inandırma;
- folklorun əxlaq tərbiyəsi nümunələri əsasında nəsihət verməklə inandırma;
- əxlaqi söhbətlər aparmaqla dilə tutma;
- əxlaqi söhbətlər aparmaqla başa salma və inandırma;
- əxlaqi söhbətlər əsasında tövsiyə vermə və inandırma;
- fərdi əxlaqi söhbətlərə cəlb etməklə inandırma;
- folklor nümunələri vasitəsilə əxlaqın müsbət təzahürlərini üzə çıxarmaqla inandırma.

Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsini inkişaf etdirməyə kömək edən Azərbaycan və türk folklor nümunələrindən istifadənin imkanlarını üzə çıxarmaq üçün onların psixoloji əsaslarının öyrənilməsinə də zəruri ehtiyac duyulur.

Bədii yaradıcılıq (ədəbiyyat və incəsənət sahəsində) psixologiyasnın və estetik qavrayışın əhəmiyyəti şübhə doğurmayan, lakin hələlik olduqca zəif öyrənilmiş sahənin adını çəkmək lazımdır.

Əgər psixologiyanın qollarının təsnifat əsası kimi inkişafın psixoloji aspektlərini qəbul etsək, onda qarşımıza onun problemlərində inkişaf prinsipi həyata keçirilən bir sıra yeni sahələri çıxar. Elə bu sahələrdən biri də yaş psixologiyası ilə bağlı olan sahədir. Bədii yaradıcılıq nümunələrinin yaş psixologiyası dövründə öyrənilməsi geniş tədqiq edilməsə də, yaş psixologiyasının aparıcı problemlərindən biri olan təlim materiallarının əqli inkişafa təsiri məsələləri geniş tədqiq edilmişdir.

Müşahidələr və tədqiqatlar göstərir ki, yaş psixologiyası psixi proseslərin yaş xüsusiyyətlərini biliklərin düzgün mənimsənilməsi fonunda öyrəndikdə daha böyük səmərə əldə etmək olur. Psixoloqlar bu təcrübəni elmi ideyalara istinad etməklə belə şərh edirlər:

Yaş psixologiyası psixi proseslərin yaş xüsusiyyətlərini, biliklərin mənimsənilməsi-

nin yaş imkanlarını, şəxsiyyətin inkişaf amillərini və i.a. tədqiq edir. Yaş psixologiyasının mərkəzi problemlərindən biri təlim və əqli inkişaf, həmçinin onların qarşılıqlı asılılığı problemidir. Bu problem əqli inkişafın etibarlı meyarlarının axtarılması və təlim prosesində səmərəli əqli inkişafa nail olmağa imkan verən əlverişli şəraitin müəyyən olunması ilə məşğul olan psixoloqlar tərəfindən geniş müzakirə edilir və araşdırılır. Araşdırmalar isə göstərir ki, yaş psixologiyasının ən aparıcı problemlərindən biri də odur ki, uşaqlara tərbiyə elementləri onların müəyyən tələbatlarına uyğun olaraq verilməlidir.

Deməli, mənşəyinə görə təbii olan tələbat, eyni zamanda, predmetinə görə maddi tələbat ola bilər. Mənşəyinə görə, mədəni olan tələbat predmetinə görə ya maddi, ya da mənəvi ola bilər. Beləliklə, həmin təsnifat tələbatların olduqca müxtəlif növlərini əhatə edir və onların insan şüurunun inkişaf tarixinə və yönəldikləri obyektlərə münasibətini ifadə edir". Tələbatların yönəldikləri obyektin folklor mühiti olması uşaqların gələcək inkişafı üçün həm də stimul rolunu oynayır. Əgər belədirsə, o zaman tərbiyəçilər folklor materiallarından istifadə edilməsinə geniş meydan verməlidirlər.

"Tələbatlarda şəxsiyyətin konkret varlıq şəraitindən asılılığı özünün fəal tərəfi ilə motivlər sistemi kimi meydana çıxır. Motivlər fəaliyyətə müəyyən tələbatların təmin olunması ilə bağlı olan təhriklərdir. Əgər tələbatlar bütün insan fəallığı növlərinin mahiyyətini, mexanizmini təşkil edirsə, motivlər bu mahiyyətin konkret təzahürləri kimi meydana çıxır".

Tərbiyəçinin yaratdığı problemli vəziyyət zamanı folklor nümunələrini öyrənməyə meyil edən uşaqların bu təbii tələbatları əxlaq motivləri fonunda üzə çıxırsa, onlarda bu situasiyaya maraq yaranmış olur. Hər hansı yaranmış şəraitə uşaqların göstərdikləri maraqlar onların idrak fəallığını da üzə çıxarmış olur. Uşaqlar nağıl qəhrəmanlarının yaxşı hərəkətlərinə sevinir, onun qəhrəmanlığına heyran qalır, pislərə isə nifrət bəsləməyə başlayır. Deməli, maraqlar uşaqlara həm də yeni müsbət həyat təcrübəsi qazanmağa kömək edir.

Qeyd etdiyimiz kimi, tələbatlar əsasında yaranan fəaliyyət motivləri maraqların üzə çıxmasını təmin edir. Əgər uşaq bağçasında uşaqlar Azərbaycan və türk folklorunda vətənpərvərlik motivlrini özündə əsk etdirən folklor materialını öyrənirsə, qəhrəmanların hansı səbəbdən Vətən uğrunda qurban getmələrini öyrənməyə maraq göstərirlər. Deməli, məktəbəqədər yaşlı uşaqlar üçün vətənpərvərlik motivləri əsasında tərbiyəçilərin hazırladıqları folkor materialları onların fəaliyyət motivlərini üzə çıxarır. "Motiv" dedikdə tələbatların təmin olunması ilə əlaqədar olaraq insanı fəaliyyətə təhrik edən amillər nəzərdə tutulur. O, bu və ya digər hərəkəti (işi, əməli) nəyin naminə icra edir?" Bu sualı aydınlaşdırmaq üçün iki bağça uşağı təsəvvür edək. Hər ikisi 6 yaşında olan bu oğlan uşaqlarının biri Vətən nəğməsini məlahətli səsi ilə oxuyaraq hamını valeh edir. İkincisinin məlahətli səsi olmasa da, daxili vətənsevərlik, genetik yurdsevərlik hislərinin gücü ilə əzəmətli səs çıxarmağa çalışmaqla oxuyur. Birinci uşağın məqsədi öz səsini, qabiliyyətini, istedadını nümayiş etdirməkdirsə, ikinci uşağın məqsədi vətənə, torpağa, yurda olan elementar sevgisini izhar etməkdir. Buradan belə qənaət hasil olur ki, uşaqların fəaliyyəti motivdən əvvəl onların məqsədləri əsasında müəyyənləşir.

Motivlə məqsədin dialektik əlaqəsi belədir. Lakin bütün hallarda motivin psixoloji funksiyası eynidir: o, insanı fəaliyyətə təhrik edir və onun fəaliyyətinin istiqamətini müəyyənləşdirir. Bu iki cəhət (təhriketmə və istiqamətləndirmə) bir-biri ilə vəhdət təşkil edir və motivin əsas funksiyaları kimi meydana çıxır.

Tələbatların və həmin tələbatlara təhrik edən motivlərin əsas predmeti tərbiyə amil-

ləri ilə bağlı olduqda şəxsiyyətin inkişafının bünövrəsi düzgün qoyulmuş olur. Axı bağça uşaqları da bir növ şəxsiyyətdirlər, yəni formalaşmamış, lakin formalaşmağa doğru istiqamət alan kiçik şəxsiyyətlər. Bu kiçik şəxsiyyətlərin fəaliyyət motivləri tərbiyə amilləri fonunda müəyyənləşirsə, deməli, kiçik uşaq şəxsiyyətinin inkişafı üçün zəmin yaranmış olur. Belə bir təqdirdə çalışmaq lazımdır ki, uşaqların tərbiyəsinin ilkin istiqamətləri əxlaqi hislərin oyadılmasına yönəldilmiş olsun. Ona görə ki, uşaqlarda yaradılan yaxşı əxlaqi hislər onların nümunəvi hərəkət və rəftarının təməlini təşkil edir.

"*Əxlaqi hislər* müəyyən cəmiyyət miqyasında mövcud olan əxlaq normalarına bəslənən subyektiv münasibətlə bağlıdır.

Əxlaqi hislərin obyekti ayrı-ayrı adamlar, insan qrupları, insanlar arasındakı münasibətlər, ictimai həyat hadisələri və qanunları, eləcə də adamın öz hərəkət və rəftarları ola bilər.

Məktəbəqədər yaşlı uşaqların əxlaqi hislərinin düzgün tənzimlənməsi yeni forma və məzmun kəsb edən tədbirlərdən çox asılıdır. Həmin tədbirlərdə ümumtürk folklorunda mövcud olan vətənsevərlik, yurdsevərlik, igidlik, qoçaqlıq, qəhrəmanlıq, dönməzlik, düşmənlə barışmazlıq, əqidə saflığı kimi əxlaqi normalarını beşik nəğmələri oxumaqla, rəqs etməklə, bayatı söyləməklə, rəqs etməklə, düzgün söyləməklə, tapmaca deməklə, nağıl danışmaqla tərənnüm etməyi hər bir uşaq böyük məhəbbətlə arzulayır. Bu zaman onların estetik-bədii zövqlərinin inkişafı üçün zəmin yaranmış olur.

"*Estetik hislər* təbiətin, incəsənət əsərlərinin gözəlliyini qavramaq, dərk etməklə əlaqədardır. Çünki insanlar ictimai təcrübədə dünyanın gözəlliyini əks etdirmək qabiliyyəti əldə etmişlər. Bu zəmində insanda müxtəlif estetik hislər təşəkkül tapmışdır.

Bədii yaradıcılıq nümunələri uşaqların estetik-bədii zövqlərini inkişaf etdirməklə yanaşı, onların əyani-əməli təfəkkürünü inkişaf etdirir. Psixoloqların dediyi kimi, hər hansı bədii yaradıcılıq nümunəsini hər bir uşaq əvvəlcə duymalı, sonra onu hərtərəfli qavramalıdır. Belə olmasa, həmin bədii nümunə onun hafizəsində qala bilməz. Hafizəsində saxladığı nümunəni uşaqlar əvvəlcə təfəkkür süzgəcindən keçirirlər. Bu zaman əyani-obrazlı təfəkkür işə düşür.

"*Əyani-obrazlı* təfəkkür prosesində fikri fəaliyyət qavrayış və təsəvvür materiallarına, başqa sözlə, obrazlı materiala istinad edir. Yəni bu halda cisim və hadisənin qavrayış və təsəvvür surətləri təhlil edilir, müqayisədən keçirilir və s."

*Əyani-əməli təfəkkür* ən çox bilavasitə təsir edən cisim və hadisələrin dərk edilməsi ilə əlaqədardır, yəni əşyalar üzərində praktik fəaliyyətlə bağlı təfəkkür növüdür. Təfəkkürün bu növü 3 yaşına qədər uşaqlarda üstün mövqe tutur. Əyani-əməli təfəkkür daha çox hərəkətlərin köməyi ilə həyata keçirilir. Məsələn, kiçik uşaqdan: "Bu körpünü necə qurmusan?" deyə soruşduqda "Bax belə" deyə quraşdırdığı körpünü uçurub, yenidən qurmağa başlayır. Bu zaman uşaq öz fikrini hərəkətlərin köməyi ilə ifadə edir. Yalnız ontogenez inkişafda deyil, filogenezdə də əvvəlcə əşyəvi təfəkkür olmuş, insan bilavasitə əşyalarla əməliyyat aparmışdır, fikri məsələ fəaliyyət prosesinin özündə həll edilmişdir. İnsanda təfəkkürün inkişafı məhz bu növdən başlamışdır. Onun ilk əmək fəaliyyəti prosesində fikri fəaliyyət əşyəvi-praktik fəaliyyətdən ayrılmamışdır. Ontogenezdə də uşaq təfəkkürünün inkişafı bundan başlayır.

Didaktik oyunlar zamanı uşaqların yaratdıqları personajlar, nağıl qəhrəmanları onların əyani-obrazlı fəaliyyətindən əməli fəaliyyətə doğru inkişafı prosesində təcəssümünü nü tapmış olur.

Təcrübə göstərir ki, nümunəvi ailələrdən uşaq bağçasına gələn uşaqlara kişi və qadın

personajları barədə izahat verərkən tərbiyəçilər heç bir çətinlik çəkmirlər. Müşahidələr göstərir ki, qadın dayələr tərəfindən evlərdə tərbiyə olunan və bağçalara gətirilən uşaqlar daha passiv olmaqla yanaşı, qadın personajlarına münasibətlərində heç bir səriştəlilik elementləri nümayiş etdirə bilmirlər. Belə vəziyyətlərdə tərbiyəçilərin diqqətli olması lazımdır. Çünki məktəbəqədər dövrdən etibarən qızlara zərif cinsə məxsus əlamətlərin, oğlanlara isə kişilərə məxsus keyfiyyətlərin aşılanması mühüm əhəmiyyət kəsb edər. Psixoloqların mülahizələrinə görə, sonrakı dövrlərdə qazanılan keyfiyyətlərin hansı səviyyədə olması, əlbəttə ki, 6 yaşa qədərki dövrlərdə qazandıqlarından çox asılıdr.

"Oğlan və qızlar həmyaşıd uşaqlarla və yaşlılarla ünsiyyət şəraitində kişi və qadın stereotiplərini mənimsədikcə öz cinslərini dərk edirlər. Bu baxımdan 6 yaşından sonrakı dövrdə uşağın psixologiyasında ilk mühüm dəyişikliklər əmələ gəlir". Ona görə çalışmaq lazımdır ki, 3-6 yaşlarında uşaqlara folklor nümunələrini cinsi fərqlərə uyğun olan bir tərzdə vermək lazımdır.

Zahiri görkəm qızlar üçün əsas məsələdir. Qızda sadəlik, təvəzökarlıq kimi keyfiyyətlər tərbiyə edərkən onun yaraşıqsız, kifir olmasını qeyd etmək və nəzərə çarpdırmaq olmaz. Belə söhbətlər qızlara son dərəcə ağır təsir göstərir. Qızlar zahiri görkəmi gözəl görünmək, başqalarının diqqətini cəlb etmək üçün ən etibarlı vasitə hesab edirlər.

"Qızlar öz imkanlarını qiymətləndirərkən daha ağıllı və realist hərəkət edirlər. Müəyyən edilmişdir ki, oğlanlar öz imkanlarını, adətən, həddindən artıq qiymətləndirirlər. Qızlar isə əksər hallarda özlərinə tənqidi yanaşmağı bacarırlar. Oğlanlar çox vaxt hərəkətin özündən artıq onun effekti - ətrafdakı adamlara necə təsir göstərməsi ilə maraqlanırlar. Onların bir çox hallarda nalayiq hərəkətlər etməsi məhz bununla əlaqədardır. Lakin müxtəlif alimlərin apardıqları müşahidələr göstərir ki, oğlanlar qızlardan az utancaq deyillər. Onlar əgər yaxşı sözlər işlətmirlərsə və ya nə isə nalayiq hərəkət edirlərsə, bunu ya dəcəllik, ya da "özünü göstərmək" naminə edirlər. Qızlar da öz hərəkətlərinin effekti ilə az maraqlanmırlar, lakin onlar oğlanlardan fərqli olaraq bu və ya digər hərəkətin özünə də əhəmiyyət verirlər. Bu, aydın şəkildə göstərir ki, qızlar hərəkətlərini qiymətləndirərkən özlərinə oğlanlara nisbətən daha çox tənqidi yanaşırlar".

Təcrübə və müşahidələr göstərir ki, məktəbəqədər yaşlı qızlar analarına, oğlanlar isə atalarına məxsus əxlaqi keyfyyətləri təqlid etməyi daha çox xoşlayırlar. Bəzən bağçada təşkil olunan didaktik oyunlar zamanı hər hansı personajin rolunu aparan oğlan bütün hərəkətlərində atasına məxsus müsbət əxlaqi çalarları nümayiş etdirməyə cəhd göstərir. Belə hərəkətlər onu göstərir ki, ailədə ata öz oğluna əxlaqın müsbət təzahürlərindən bir sıra elementləri aşılamışdır. Nikbinlik hissi ilə demək lazımdır ki, belə ataların sayı çox olmalıdır. Bütün atalar məktəbəqədər yaş dövründən etibarən oğlan övladlarına kişi ləyaqətini özündə əks etdirən keyfiyyətlər aşılamağı bacarmalıdır.

Oğlan uşağı üçün ata ağıl, iradə qüvvəsi, kişi əzəməti nümunəsidir. Ata oğlunu tərbiyə etməklə, həm də özünü tərbiyə edir və dəyişir. Öz oğlunun simasında gələcək kişinin formalaşmasını görmək və ona bu sahədə ən yaxşı davranış nümunəsi göstərmək o deməkdir ki, ata özünün kişi ləyaqətini qoruyur, daha da inkişaf etdirir.

Qızların da həyatında atanın rolu böyükdür. Əlbəttə ki, bunu inkar etmək olmaz. Ata əzmkarlıq, səbirlilik, müdriklik, qeyrətlilik simvolu olaraq ailənin başında durursa, deməli, o, öz ağlı, fərasəti, işgüzarlığı, övladsevərliyi, ailəcanlılığı ilə övladlarına və eyni zamanda, qızlarına nümunə olmalıdır. Belə örnək cəhətləri qızlar atasından ən erkən vaxt-dan öyrənir. Deməli, ana qızlarına ismətlilik rəmzi olduğu kimi, ata da qeyrətlilik rəmzi

olmalıdır.

Ailədə ana və atanın uşaqlarına folklor nümunələri vasitəsilə tərbiyə verməsi, onlara ən zəruri əxlaqi keyfiyyətlər aşılaması ailədəki mənəvi mühiti daha da zənginləşdirir. Lakin istər Azərbaycanda, istərsə də Türkiyədə ana və atalar bu missiyanı çox nadir hallarda öhdələrinə götürürlər, özü də uşaqlara əgər folklor materiallarının öyrədilməsi lazım gəldikdə bu vəzifə yalnız analara həvalə edilir. Əksər hallarda isə folklor nümunələrinin öyrədilməsi, xüsusilə nağıl söylənilməsi nənələrin üzərinə qoyulur. Unutmaq olmaz ki, elə etnopedaqoji nümunələr var ki, onları yalnız analar öyrətməlidirlər. Elələri də var ki, həmin folklor nümunələrini yalnız atalar öyrətməlidirlər. Burada istisnaların gözlənilməsini də diqqətdən kənara qoymaq olmaz. Yəni elə folklor materialları vardır ki, onları analar və ya nənələr yalnız qızlara öyrətməyə borcludurlar. Elə folklor nümunələri də var ki, onları yalnız babalar və atalar oğlan nəvələrinə öyrədə bilərlər.

İstər analar və nənələr, istərsə də babalar və atalar folklor materiallarını öyrədərkən düzgün seçim etməyə borcludurlar. Elə etnopedaqoji materiallar seçilməlidir ki, həmin etnopedaqoji nümunələrdəki əxlaqi keyfiyyətlər məktəbəqədər yaşlı uşaqların maraq və meyillərinə uyğun olmalıdır. Əgər uşaqlar öz maraqlarına uyğun olan nağılı dinləyib bəyənirlərsə, həmin nağıldakı əxlaqi keyfiyyətləri də bəyənmiş olurlar. Yeri gəlmişkən deməliyik ki, maraqlar – şəxsiyyətin fəaliyyətinin motivləşməsinin mühüm, lakin yeganə olmayan cəhətidir. Davranışın mühüm motivi əqidələridir.

Əqidələr – şəxsiyyətin onu öz baxışlarına, prinsiplərinə, dünyagörüşünə müvafiq olaraq hərəkət etməyə təhrik edən dərk olunmuş tələbatlar sistemidir. Əqidə formasında meydana çıxan tələbatların məzmunu ətraf aləm-təbiət və cəmiyyət haqqında biliklərdən, onların müəyyən şəkildə başa düşülməsindən ibarətdir. Bu biliklər qaydaya salınmış və daxilən təşkil edilmiş baxışlar sistemini (fəlsəfi, estetik, etik, təbii-elmi və başqaları) təşkil etdikdə, onlar insanın dünyagörüşü kimi nəzərdən keçirilə bilər. Əgər nağıldakı əxlaqi keyfiyyətlər məktəbəqədər yaşlı uşaqları məftun edə bilərsə, deməli, həmin nağılın müsbət personajlarının hərəkətlərindəki əxlaqi elementlər uşaqlara təsir göstərə bilər.

Buradan belə qənaət hasil olur ki, məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində rol oynayan Azərbaycan və türk folkloru nümunələrindən istifadənin imkanlarını üzə çıxarmaq üçün məsələnin pedaqoji-psixoloji əsaslarını öyrənib, üzə çıxarıb, müəyyənləşdirib onlara istinad etmək vacibdir. Bütün bunlara rəğmən deyilənləri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

- məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində rol oynayan Azərbaycan və Türkiyə folkloru nümunələrinin imkanlarından istifadə edərkən müvafiq ümumpedaqoji prinsiplərə istinad edilməsi, müəyyən üsulların gücündən istifadə edilməsi, tələblərin qoyulması, formaların tətbiq edilməsi faydalı olar;
- Türkiyə və Azərbaycan folklorunun məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişafı üçün yararlı olan nümunələrindən istifadə edən zaman onların duyulması, qavranılması, hafizədə saxlanılması, təfəkkür və təxəyyül süzgəcindən keçirilərək nitq vasitəsilə ifadə edilməsi, şeir, mahnı və rəqs vasitəsilə təqdim edilməsi haqqında danışılan məsələnin müvəffəqiyətli həllinə kömək etmiş olar;
- məktəbəqədər yaşlı oğlan və qızların bədii yaradıcılıq qabiliyyətləri ilə bağlı iş aparan zaman folklor materiallarındakı əxlaq motivlərini, bədii nümunələri ifa etməyə olan maraq və meyillərin səviyyəsini üzə çıxarmaq, habelə uşaqların əxlaqi və estetik hisslərini tənzimləmək haqqında danışılan problemin həllinə kömək edən amillər hesab olunur.

## PSYCHO-PEDAGOGICAL BASES OF MORAL EDUCATION OF PRESCHOOL-AGED CHILDREN

**G.E.Arslan**

**SUMMARY**

This article is dedicated to the study of psycho-pedagogical bases of moral education of preschool-aged children. It is noted that, in Azerbaijan and other countries, there is a system of correct psychological approach to the study of preschool-aged children from an educational point of view. It is also stressed that during the study of folklore materials one can form moral education of preschool-aged children by following some principles. The author arrives at a conclusion that in order to reveal opportunities for the use of examples of Azeri and Turkish folklore, which are playing an important role in the moral education of preschool-aged children, it is required to reveal and explore the psycho-pedagogical bases of the matter and refer to them.

## ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

**Г.Э.Арслан**

**РЕЗЮМЕ**

Статья посвящена изучению психолого-педагогических основ нравственного воспитания детей дошкольного возраста. Отмечается, что в Азербайджане и других странах существует система правильного психологического обоснования подхода к детям дошкольного возраста с педагогической точки зрения. Также подчеркивается, что во время изучения фольклорных материалов можно сформировать нравственное воспитание детей дошкольного возраста путем следования определенным принципам. Автор приходит к выводу, что для выявления возможностей использования образцов азербайджанского и турецкого фольклора, играющих важную роль в нравственном воспитании детей дошкольного возраста, необходимо выявить и изучить психолого-педагогические основы вопроса и ссылаться на них.

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2016 - № 44**

# MƏDƏNİ İRSİN QORUNMASI SFERASINDA HÜQUQİ MƏSULİYYƏT

**S.A.Süleymanlı**
AMEA Fəlsəfə və Hüquq İnstitutu
Bakı, H.Cavid prospekti 31
e-mail: s.suleymanli@hotmail.com

***Açar sözlər:*** mədəni irsin qorunması, mədəni sərvətlər, hüquqi məsuliyyət, mədəni irsin müdafiəsi, hüquqi qoruma, qanunvericilik, beynəlxalq müqavilə
***Keywords:*** protection of cultural heritage, cultural wealth, legal responsibility, preservation of cultural heritage, legal protection, legislation, international treaty
***Ключевые слова:*** охрана культурного наследия, культурные богатства, правовая ответственность, защита культурного наследия, правовая защита, законодательство, международный договор

Hüquqi müdafiə fəaliyyəti hüquqları pozulmuş şəxsin və səlahiyyətli dövlət orqanlarının (o cümlədən beynəlxalq oqanların) hüquq pozuntusunun aradan qaldırılması və təqsirkarın cəzalandırılması istiqamətində tədbirləri özündə ehtiva edir. Mədəni irsin qorunması sferasında mövcud olan hüquq normalarının pozulmasının qarşısının alınması istiqamətində hüquqi müdafiə tədbirlərinin tətbiqinin nəticəsi olaraq hüquq pozucusunun bərpaedici və cəza formasında məsuliyyəti yaranır.

Məsuliyyətin yaranması üçün hüquqi əsas mədəni irsin qorunması sferasında hüquq normalarıdır. Həmin normaların pozulması hüquqi məsuliyyətin faktiki əsasını təşkil edir. Faktiki əsas qismində çıxış edən hüquq pozuntusunun təhlükəlilik dərəcəsindən, yaranacaq hüquqi məsuliyyətin cəza və ya bərpaedici xarakterli olmasından asılı olaraq, inzibati, cinayət, mülki və beynəlxalq hüquqi məsuliyyət yarana bilər.

Mədəni irsin qorunması sferasında hüquqi məsuliyyətin yaranması istər beynəlxalq müqavilələrdə, istərsə də dövlətdaxili qanunvericilikdə nəzərdə tutulur. AR-in müvafiq qanunlarında AR qanunvericiliyini pozan şəxslərin qanunvericiliyə uyğun olaraq cinayət, inzibati, intizam və mülki məsuliyyət daşımaları qeyd olunur. Hərçənd qanunlarda hüquqi məsuliyyətin növləri fərqli müəyyən edilir. Məsələn, *Tarix və mədəniyyət abidələrinin qorunması haqqında* Qanunda [1] yuxarıda qeyd olunan dörd məsuliyyət növü nəzərdə tutulduğu halda, *Mədəniyyət haqqında* Qanunda [1] yalnız inzibati və cinayət məsuliyyətinin yaranması qeyd olunur. Doğrudur, intizam məsuliyyəti bir o qədər əhəmiyyətli olmasa da, mülki məsuliyyətin nəzərdə tutulmaması qeyri-məntiqidir. Belə ki, oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəni sərvətlər haqqında 1995-ci il UNİDRUA Konvensiyasında (bundan sonra 1995-ci il Konvensiyası) bir qayda olaraq məhz mülki məsuliyyətdən bəhs olunur. Hərçənd mədəni sərvətlərin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında 1970-ci il Konvensiyasının [9, s.60-70] (bundan sonra 1970-ci il Konvensiyası) 8-ci maddəsində iştirakçı dövlətlərin 6(b) və 7(b) maddələrində nəzərdə tutulmuş qadağaların pozulmasına görə cavabdeh olan şəxslərin cinayət və ya inzibati qaydada cəzalandırılması öhdəliyinə malik olmaları nəzərdə tutulur.

Yeri gəlmişkən, AR-in İnzibati Xətalar Məcəlləsində [1] yalnız bir neçə maddə (*folklor nümunələrindən istifadə tələblərinin pozulması (m.50-2); tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə qaydalarının pozulması (m.47); arxiv sənədlərinin, sənəd kolleksiyalarının saxlanması, qeydiyyatı və ya istifadə edlməsi qaydalarının pozulması (m.192)*) təsbit olunmuşdur. Qanunvericilikdə xəta tərkiblərinin azlığını mədəni irsin qoruması sferasındakı hüquq pozuntularının cəmiyyət üçün daha ictimai təhlükəli hesab edilməsi baxımından əsaslı hesab etmək olar.

AR-in Cinayət Məcəlləsində mədəni irsin qorunması sferasında bir çox tərkiblər *(folklor nümunələrindən istifadə tələblərinin pozulması, m.165-2; xüsusi dəyəri olan əşyaları talama, m.183; tarx və mədəniyyət abidələrini qəsdən məhv etmə və korlama, m.246; AR-in və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları AR-ə qaytarmama, m.207)* təsbit edilir. 1970-ci il və 1995-ci il konvensiyaları baxımından 183-cü və 207-ci maddənin ayrıca cinayət tərkibi kimi müəyyən edilməsi məqsədəuyğundur. Bundan başqa, 206.2-ci maddədə mədəni sərvətlərin qaçaqmalçılıq predmeti kimi müəyyən edilməsi də bir sıra beynəlxalq müqavilələrin məzmununa uyğun gəlir. Hüquq ədəbiyyatında qaçaqmalçılığın beynəlxalq xarakterli (transmilli) cinayət kimi səciyyələndirilməsi, mədəni sərvətlərin qaçaqmalçılığının da bu və ya digər dövlətin milli mədəni maraqlarına zərər vurduğu kimi, beynəlxalq birliyin, yəni ümumbəşəri mədəni irsin qorunması maraqlarına da zərər vurması nəticəsinə gəlmək olar. Baxmayaraq ki, qaçaqmalçılıq iqtisadi və ya gömrük cinayəti hesab olunur və onun birbaşa obyektini iqtisadi maraqlar təşkil edir.

Mədəni sərvətlərin oğurlanması, qanunsuz əldə edilməsi kimi əməllər artıq beynəlxalq cinayət hüququnun tənzimetmə sferasına düşür. Bu sferaya yalnız beynəlxalq cinayətkarlıqla mübarizə deyil, həmçinin cinayətkarlıqla mübarizədə beynədxalq əməkdaşlıq, cinayət işləri üzrə hüquqi yardımın həyata keçirilməsi kimi məsələlər də daxildir. Mədəni sərvətlərin qanunsuz dövriyyəsi beynəlxalq cinayət hüququna aid olan istər cinayət tərkiblərini müəyyən edən, istərsə də hüquqi yardım göstərilməsi haqqındakı beynəlxalq müqavilələrin tənzimetmə predmetinə daxildir. Məsələn, *Mədəni sərvətlərə aid hüquq pozuntuları haqqnıda* 1985-ci il Avropa Konvensiyası da mədəni dəyərlərin oğurlanması, onların qanunsuz əldə olunması və s. hüquq pozuntusu kimi müəyyən olunur. Konvensiyadakı bəzi cinayət tərkibləri özgəninkiləşdirilməsi qadağan olunan (res extra commersium) mədəni sərvətlərlə aiddir [6, s.155-156]. Bu istiqamətdə müqavilələrin bağlanmasına BMT-nin 1990-cı ildə qəbul etdiyi Daşınar mədəni sərvətlər və onların restitusiyası ilə bağlı cinayətlərə dair Nümunəvi müqaviləsi müəyyən təsir etməkdədir.

Silahlı münaqişələr zamanı mədəni sərvətlərin müdafiəsi haqqında 1954-cü il Haaqa Konvensiyasına [9,s.5-60](bundan sonra 1954-cü il Konvensiyası) II Protokol Konvensiyanın və Protokolun ciddi pozulması kimi qiymətləndirilən və mədəni sərvətlərə qarşı yönələn hərəkətlərə görə beynəlxalq cinayət məsuliyyətinin yaranmasını nəzərdə tutur (m.15). Burada təsbit olunan əməllərə görə milli qanunvericilikdə məsuliyyət müəyyən edilərkən hüququn və beynəlxalq hüququn ümumi prinsiplərinin dövlətlər tərəfindən nəzərə alınması qeyd olunur. Bu baxımdan AR Cinayət Məcəlləsinin 116-cı maddəsinin məhz "silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma" adlandırılması və 11 dekabr 2012-ci il tarixli 493-IVQD nömrəli AR Qanunu ilə Cinayət Məcəlləsinin 116.0.8-ci maddəsinə müvafiq əlavələrin edilməsi, fikrimizcə təqdi-

rəlayiqdir. Bu əlavələrə müvafiq olaraq: 1) hərbi zərurət olmadan qəsdən mədəni sərvəti, o cümlədən gücləndirilmiş mühafizə altında olan mədəni sərvəti hücum obyektinə çevirmə,



yaxud gücləndirilmiş mühafizə altında olan mədəni sərvətdən və ya ona bilavasitə bitişik ərazilərdən hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə etmə (m, 116.0.8-1); 2) mədəni sərvəti qəsdən böyük həcmdə dağıtma və ya mənimsəmə, yaxud mədəni sərvətə münasibətdə oğurluq, soyğunçuluq, qanunsuz mənimsəmə və ya vandalizm aktları törətmə (m, 116.0.8-2); 3) mədəni sərvəti işğal edilmiş ərazidən qanunsuz çıxarma, yaxud həmin ərazidə olan mədəni sərvətə mülkiyyət hüququnu başqasına vermə və ya ona xitam vermə; mədəni sərvətin bilavasitə qorunması, uçotu və ya saxlanılması tələb edildiyi hallar istisna olmaqla, işğal edilmiş ərazidə hər hansı arxeoloji qazıntı aparma; mədəni sərvətin mədəni, tarixi və ya elmi xarakterini gizlətmək və ya məhv etmək məqsədi ilə onu modifikasiya etmə və ya ondan istifadə növünü dəyişdirmə (m, 116.0.8-2) silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma hesab edilərək cinayət kimi müəyyən edilir. Bu məzmunda AR Cinayət Məcəlləsinin 116-cı maddəsinin məzmunu 1954-cü il Konvensiyasına II Protokolun 15-ci maddəsinin məzmununu tam ehtiva edir. Bu, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində olan mədəni sərvətlərimizə qarşı törədilən əməllərin beynəlxalq cinayət kimi qiymətləndirilməsi baxımından da əhəmiyyətlidir.

Məsuliyyətlə bağlı Layihədə ödəmə forması və ya məsuliyyət forması olaraq restitusiya, kompensasiya və satisfaksiya (m.35) fərqləndirilir. 43-cü maddəyə əsasən, restitusiya qeyri-hüquqi hərəkət baş verənə qədər mövcud olan faktiki vəziyyətin (*status quo*) hüququ pozan tərəfindən bərpa edilməsidir. Mövcud vəziyyətin pozulması nəticəsində dəymiş zərərin natura formasında ödənilməsini nəzərdə tutan restitusiya, qanunsuz çıxarılmış və ya mənimsənilmiş mədəni irs obyektlərinin qaytarılmasında ifadə olunur. Restitusiya (*restitutio*) latın sözü olub "bərpa etmək" mənasını verir və 1995-ci il Konvensiyasında da (m.1) oğurlanmış mədəni dəyərlərə münasibətdə tətbiq edilməsi nəzərdə tutulur.

Layihədə restitusiya dövlətlərin beynəlxalq maddi məsuliyyət forması kimi nəzərdə tutulsa da, mədəni sərvətlərin hansı qanunsuz çıxarılma hallarında dövlətin belə bir məsuliyyətinin yaranması mübahisə doğurur. Bundan başqa, 1970-ci il Konvensiyasında nəzərdə tutulan hallarda dövlətin belə bir məsuliyyətinin yaranması və ya 1995-ci il Konvensiyasındakı restitusiya ilə bağlı müddəaların dövlətin məsuliyyətinə şamil edilməsi də birmənalı qəbul edilə bilməz. Əvvəlcədən qeyd edək ki, mədəni irsin qorunması sferasındakı beynəlxalq müqavilələrin heç birində dövlətin belə bir məsuliyyətə cəlb edilməsi nəzərdə tutulmur. Yalnız beynəlxalq cinayətlərin baş verməsi zamanı belə bir məsuliyyətin yarana bilməsi mümkündür. Belə ki, təcavüz nəticəsində hər hansı bir dövlətin ərazisini və ya onun bir hissəsini işğal edən dövlət (*məsələn, Azərbaycanın Qarabağ ərazisini işğal edən Ermənistan*) 1970-ci il Konvensiyasına görə də (m.11) qeyri-qanuni hesab edilən həmin işğal edilmiş ərazilərdən mədəni sərvətlərin çıxarılmasına görə maddi məsuliyyətə cəlb edilməlidir. Hərçənd, nə 1954-cü l Konvensiyasında, nə də Protokollarda bu nəzərdə tutulmur. Buna baxmayaraq, 1919-cu il Versal, 1947-ci il Paris sülh Müqavilələrində işğal nəticəsində çıxarılmış mədəni sərvətlərin qaytarılması təsbit edilir [6,s.246-255]. Restitusiyanın beynəlxalq hüquqi məsuliyyət olması Rusiya Federasiyasının II dünya müharibəsi nəticəsində SSR İttifaqına gətirilən və Rusiya Federasiyasının ərazisində olan mədəni sərvətlər haqqında 1998-ci il Qanununda [11] (m.4) təsbit olunur. Qanuna müvafiq olaraq, restitusiya - təcavüz və ya

digər beynəlxalq-hüquqi hərəkət etmiş dövlətin, əvvəlki vəziyyətin bərpa edilməsi, o cümlədən özünün silahlı qüvvələri tərəfində işğal olunmuş ərazilərdə talan edilmiş və qa-



nunsuz çıxarılmış əmlakın qaytarılması yolu ilə diğər dövlətə vurulmuş maddi ziyanın azaldılması və ya aradan qaldırlmasında ifadə olunan beynəlxalq-hüquqi maddi məsuliyyət növüdür.

Restitusiyanın xüsusiyyəti ondadır ki, o, qanunsuz çıxarılmış və ya talan edilmiş (1998-ci il Qanununa uyğun) mədəni sərvətlərin natura formasında qaytarılmasını nəzərdə tutur. Əgər mədəni sərvət məhv edilmişsə və ya həmin mədəni sərvətin özünü qaytarmaq mümkün deyildirsə, onun əvəzinə digər mədəni sərvətin qaytarılması restitusiya hesab edilirmi?

N.A.Uşakov qeyd edir ki, restitusiya – hüquq pozan dövlət tərəfindən mənimsənilən maddi sərvətlərin zərərçəkmiş dövlətə qaytarılması, bunu etmək mümükün olmadıqda isə, itirilmiş maddi sərvətlərin eyni dəyərə malik olan maddi sərvətlərlə əvəzinin ödənilməsidir (əvəzləyici kompensasiya) [10, s.142]. 1998-ci il RF Qanunuda (m.4) əvəzləyici restitusiya ayrıca beynəlxalq hüquqi məsuliyyət növü kimi təsbit olunur. Qanuna görə, zərərçəkmiş dövlətə vurulmuş maddi zərəri adi restitusiya formasında ödəmək mümkün olmadıqda, təcavüzkar dövlətin zərərçəkmiş dövlətin ərazisindən qanunsuz çıxarılan və talan edilən mədəni sərvətlərin eynisinin həmin dövlətə qaytarılmasında ifadə olunan beynəlxalq-hüquqi məsuliyyət növüdür.

Hüquq ədəbiyyatında “restitution in kind” (bərabər dəyərli restitusiya) kimi qəbul edilən bu məsuliyyət növü II Dünya müharibəsi dövründə keçirilən konfransların bəyannamələrində, Nəzarət Şurasının sənədlərində nəzərdə tutulur [6, s.253-265]. Prof. K.A.Bekyaşevin redaktorluğu ilə nəşr olunan Beynəlxalq ümumi hüquq dərsliyində restitusiyanın bir növü kimi substiyusiya fərqləndirlir. Substitusiya qanunsuz olaraq məhv edilmiş və ya zədələnmiş əmlakın, tikili, nəqliyyat vasitələri, bədii sərvətlər və şəxsi əmlakın və s. əvəzinin verilməsidir [8, s.622]. Təbii ki, bu əvəzetmə təyanatı və qiyməti baxımından oxşar olan əmlakla (*o cümlədən mədəni sərvətlə*) ola bilər [5, s.104]. Əvəzləyici restitusiyanın müstəqil məsuliyyət növü kimi qəbul edilən əvəzin ödənilməsindən (kompensasiyadan) fərqi ondadır ki, burada əvəzetmə pul formasında deyil, bərabər dəyərə malik olan əmlak vasitəsilə natura formasında həyata keçirilir. Hərçənd, hüquq ədəbiyyatında mədəni sərvətlərlə bağlı əvəzedici restituisyanın tətbiqinin əleyhinə olan mövqeyə də rast gəlinir [4].

Bu məsələ ilə bağlı mübahisəni genişləndirmədən qeyd edə bilərik ki, beynəlxalq müqavilələrdə nəzərdə tutulmasa belə, təcavüz nəticəsində hər hansı dövlətin mədəni irsinin kasadlaşmasına səbəb ola biləcək hər hansı hərəkət qeyri-qanunidir və bu halda işğala məruz qalmış dövlətin mədəni irsinə vurulmuş zərər bu və ya diğər formada bərpa edilməlidir. Bu zərəri pul formasında ödəmək mədəni irsin qorunması baxımından heç bir əhəmiyyət daşımır. Dəymiş zərər natura formasında, həmin mədəni irs obyektini qaytarmaq mümkün olmadıqda isə, eyni dəyərli mədəni sərvətlərlə ödənilə bilər. Əvəzləyici, geniş mənda restitusiya, 1995-ci il Konvensiyasında nəzərdə tutulan hallarda şamil edilmir. Digər tərəfdən, restitsiya qaydasında alınmış mədəni sərvətlər zərər görmüş milli mədəni irsi bərpa etsə də, eyni zamanda ümumbəşəri irs obyekti olaraq qalır. Fikrimizcə, onların milli mənsubiyyəti gizlədilməməli və beynəlxalq ictimaiyyətin həmin sərvətlərdən istifadə etməsi məhdudlaşdırılmamalıdır.

1995-ci il Konvensiyasında nəzərdə tutulan restitusiya beynəlxalq hüquqi məsuliyyətdən daha çox mülki-hüquqi xarakter daşıyır. Başqa sözlə, bu Konvensiyada dövlətin re-

stitusiya formasında məsuliyyəti deyil, qanunsuz çıxarılmış mədəni sərvətlərin qaytarılmasının mülki (xüsusi) hüquqi mexanizmi nəzərdə tutulur. Hərçənd, dövlətlər 1970-ci il Kon-



vensiyasına müvafiq olaraq mədəni sərvətlərin qaytarılması üzrə müəyyən öhdəliklərə malikdir və həmin öhdəliklərin pozulmasına görə məsuliyyət daşıya bilər. Təbii ki, bu mexanizmin fəaliyyəti beynəlxalq hüquqi tənzimetmə sferasına daxildir.

Mədəni sərvətlərin restitusiyasının mülki hüquq çərçivəsində həyata keçirilməsinin həcmi hüquq ədəbiyyatında müəyyən mübahisələr doğursa da [7, s.314-322], bu mexanizm bir qayda olaraq vindikasiya iddiası çərçivəsində baş verir. Əslində AR qanunvericiliyində mədəni sərvətlərin restitusiyası ilə bağlı müddəa nəzərdə tutulmur və birmənalı qeyd etmək olar ki, bu termin bizim qanunvericiliyimizə məlum deyldir. Ancaq nəzərə alsaq ki, AR 2000-ci ildən 1995-ci il Konvensiyasında iştirak edir, o halda həmin Konvensiya AR qanunvericiliyinin tərkib hissəsini təşkil edir və onun müddəaları (*özüicraedilən olduğundan-müəllif*)AR-in və onun mədəni sərvətlərin mülkiyyətçisi olan fiziki və hüquqi şəxslərinin mədəni sərvətlərin oğurlanaraq ölkədən çıxarılması hallarında, həmin sərvətlərin restitusiyası halında iddia ilə çıxış etməsi üçün hüquqi əsas qismində çıxış edir. Qeyd edək ki, Konvensiyaya əsasən, iddiaçı qismində dövlətlə yanaşı, mülkiyyətçi olan xüsusi şəxslər də çıxış edə bilər. Restitusiya isə istənilən oğurlanmış mədəni sərvətin qaytarılmasına münasibətdə tətbiq olunur. Restitusiya ilə bağlı Konvensiyada təsbit olunan əsas prinsip odur ki, oğurlanmış mədəni sərvətin sahibi onu qaytarmalıdır (m.3).

Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, terminoloji fərqlərin olmasına baxmayaraq bütün hallarda qanunsuz olaraq ölkə ərazisindən çıxarılmış mədəni sərvətlərin qaytarılmasından söhbət gedir. Hərçənd, restitusiya qaytarılmanın bir üsulu olmaqla milli mədəni irs üçün daha ciddi təhlükə hesab edilən təcavüz və oğurluq və s. hallarında məsuliyyət forması qismində tətbiq edilir. Bu baxımdan qanunvericilikdə istifadə edilən "mədəni sərvətlərin qaytarılması" daha geniş mənaya malikdir. Amma, 1995-ci il Konvensiyasında "restitusiya" termini ilə yanaşı istifadə edilən "qaytarılma" termini də "mədəni sərvətlərin qaytarılması"nı tam ehtiva etmir. Çünki, Konvensiyaya əsasən (m.5), qaytarılma termini mənşə dövlətinin qanunvericiliyinə müvafiq verilmiş icazəyə uyğun olaraq sərgilər, tədqiqatlar, yaxud bərpa işləri məqsədi ilə müvəqqəti kənara çıxarılan və bu icazənin şərtlərinə müvafiq olaraq qaytarılmayan mədəni sərvətlərə şamil edilir. Məsələn, burada istifadə edilən "qaytarılma" termini Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan və Bremen Muzeyinə məxsus olan rəsm əsərlərinin AR tərəfindən Almaniya Federativ Respublikasına verilməsini əhatə etmir [3, c.2, s.386]. Qeyd edək ki, bu, 1995-ci il 22 dekabr tarixli *Mədəni əməkdaşlıq haqqında AR Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında* Sazişin müddəalarına uyğun olaraq *Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan və Bremen Muzeyinə məxsus olan rəsm əsərlərinin Almaniya Federativ Respublikasına verilməsi haqqında* AR Prezidentinin 16 noyabr 1999-cu il tarixli Sərəncamı əsasında həyata keçirilmişdir. Həmin rəsm əsərlər 1947-ci ildə II Dünya müharibəsi iştirakçısı olan əsgərdən müsadirə olunmuş və Azərbaycan Dövlət İncəsənət Muzeyinə təhvil verilmişdir. 1992-ci ildə Muzeydən oğurlanmış bu əsərlərin ABŞ məhkəməsinin qərarı əsasında AR-ə qaytarılması isə Konvensiyada nəzərdə tutulan restitusiya formasında olmuşdur.

Hərçənd, qaytarılma üsulları arasında müəyyən fərqlər ola bilər: 1) restitusiya halında mədəni sərvətlər tələb edilir, qaytarılmada isə xahiş edilir; 2) restitusiya halında müvafiq tələblə həm dövlət, həm də mülkiyyətçi olan subyektlər çıxış edir, qaytarılmada isə

Belə ki, qaytarılmaya aid Konvensiyanın müəyyən etdiyi müddəalar aşağıdakı hallarda tətbiq olunmur: 1) Qaytarılma haqqında xahiş təqdim edilərkən mədəni sərvətin çıxarılması artıq qanunsuz olmadıqda; 2) sərvət, onu yaratmış şəxsin sağlığında, yaxud ölümündən 50 il keçdikdən sonra çıxarıldıqda.

Qeyd olunan tələb və xahiş üzrə mədəni sərvətlərin hüquqi müdafiəsi məhkəmə və qeyri-məhkəmə formasında ola bilər. 1995-ci il Konvensiyasının 8-ci maddəsinə əsasən, restitusiya və qaytarılma haqqında tələb və xahiş mədəni sərvətin olduğu dövlətin məhkəməsinə və ya digər səlahiyyətli orqanına ünvanlana bilər. Bundan başqa, tərəflər mübahisəni digər məhkəməyə və arbitraja vermək barəsində razılığa gələ bilərlər. 16-cı maddəyə müvafiq olaraq hər bir Razılığa gələn Dövlət imzalama, ratifikasiya, qəbuletmə, bəyənmə, yaxud qoşulma zamanı bəyan edə bilər ki, dövlətin, 8-ci maddəyə müvafiq olaraq, restitusiya tələbi, yaxud qaytarılma haqqında xahişi ona aşağıdakı bir və ya bir neçə proseduraya müvafiq surətdə verilə bilər: a) bilavasitə bəyanat verən dövlətin məhkəmələrinə, yaxud digər səlahiyyətli orqanlarına; b) həmin dövlətin bu cür tələbləri, yaxud xahişləri almağa müvəkkil etdiyi orqan və ya orqanlar vasitəsilə bu dövlətin məhkəmələrinə, yaxud digər səlahiyyətli orqanlarına; c) diplomatik, yaxud konsulluq kanalları vasitəsilə.

Bu maddəyə uyğun AR-in bəyanatı haqqında AR Prezidentinin 29 aprel 2003-cü il tarixli Sərəncamına əsasən, restitusiya tələbi, yaxud mədəni dəyərin qaytarılması haqqında xahiş AR-ə münasibətdə Konvensiyanın 16-cı maddəsinin 1-ci bəndinin b) və c) yarımbəndlərində nəzərdə tutulmuş prosedurlara uyğun olaraq verilə bilər. Konvensiya üzrə AR-in səlahiyyətli orqanının Mədəniyyət və turizm Nazirliyi olmasını nəzərə alsaq, o halda AR-ə münasibətdə tələb və xahişlər ya Nazirlik, ya da diplomatik kanallar vasitəsilə verilməlidir. Məsələn, 1995-ci Konvensiyasına (m.5) müvafiq olaraq Nazirliyin iddiası əsasında Nyu-Yorkun cənub dairəsi məhkəməsinin qərarı ilə 1992-ci ildə Azərbaycan Dövlət İncəsənət Muzeyindən oğurlanmış və ABŞ-da aşkar edilmiş 272 əsərdən 204-ü AR-ə qaytarılmışdır.

Beləliklə, mədəni irsin qorunması sisteminin tərkibi ünsürü olmaqla hüquqi müdafiə mədəni irsin qorunması üzrə müəyyən edilmiş qaydaların pozulması halında müəyyən hüquqi məsuliyyətin yaranmasını şərtləndirir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. www.e-qanun.az
2. Azərbaycan Respublikasının mədəniyyət və turizm qanunvericiliyi toplusu. I cild, Bakı, 2011; II cild, Bakı, 2011
3. Beynəlxalq sənədlər toplusu. I cild. Bakı, Qanun, 2008; II cild. Bakı, Qanun, 2008; III cild. Bakı, Qanun, 2008; IV cild. Bakı, Qanun, 2008; V cild. Bakı, Qanun, 2009
4. Барышев В. Международно-правовые и нравственные аспекты компенсаторной реституции культурных ценностей // Журнал международного права и международных отношений, 2008, № 2. http://lostart.ru/move/
5. Бирюков П.Н. Международное право. М. 2000
6. Богуславский М.М. Культурные ценности в международном обороте: правовые аспекты. М, Юристь, 2005

7. Маковский А.Л. Проблемы реституции и добросовестного приобретения культурных ценностей // «Трудная судьба культурных ценностей". Материалы международной конференции. Частное право и проблемы реституции перемещенных

культурных ценностей. М, 2002, с.314-322
8. Международное публичное право. Учебник / п.р. К.А.Бекяшева. М, Проспект, 2003
9. Нормативные акты ЮНЕСКО по охране культурного наследия (Конвенции, протоколы, резолюции и рекомендации). М, ЮниПринт, 2002
10. Ушаков Н.А. Международное право. М, Юристь, 2000
11. http://base.garant.ru

## LEGAL RESPONSIBILITY IN THE FIELD OF PROTECTION OF CULTURAL HERITAGE

**S.A.Suleymanli**

### SUMMARY

In this article, the essence of the protection of cultural heritage is defined and legal responsibilities in this field are discussed. For this purpose, a comparative analysis of the existing international instruments in the field of cultural heritage protection and legislation of the Republic of Azerbaijan is carried out. Types of liability that may arise in the field of protection of cultural heritage, including the issues of international legal responsibility, are studied. Ways of restitution and return of illegally exported cultural heritage are explored. Through analysis of the concepts used in international instruments and domestic legislation, the purpose of their use is examined. The possibilities of harmonizing the legislation of the Republic of Azerbaijan in the field of cultural heritage with the international legal norms are determined.

## ПРАВОВАЯ ОТВЕТСТВЕННОСТЬ В СФЕРЕ ОХРАНЫ КУЛЬТУРНОГО НАСЛЕДИЯ

**С.А.Сулейманлы**

### РЕЗЮМЕ

В статье определяется сущность охраны культурного наследия и обсуждается правовая ответственность в данной сфере. С этой целью проводится сравнительный анализ международных документов, существующих в сфере охраны культурного наследия и законодательства Азербайджанской Республики. Исследуются виды правовой ответственности, которые могут возникнуть в сфере охраны культурного наследия, в том числе вопросы международно-правовой ответственности. Изучаются способы реституции и возвращения незаконно вывозимых объектов культурного наследия. Проведен анализ понятий, используемых в международных документах и внутригосударственном законодательстве, исследована цель их использования. Определяются возможности согласования законодательства Азербайджанской Республики в области охраны культурного наследия с нормами международного права.

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2016 - № 44**

# ALTERQLOBALİZM VƏ SİVİLİZASİYA İDENTİKLİYİ

**Z.Z.Həbibova**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
Bakı, M.Lermontov küçəsi 74
e-mail: dia.library@mail.ru

***Açar sözlər:*** alterqlobalizm, sivilizasiya identikliyi, sivilizasiyalararası dialoq
***Keywords:*** alter-globalism, civilizational identity, intercivilizational dialogue
***Ключевые слова:*** альтерглобализм, цивилизационная самобытность, межцивилизационный диалог

Qloballaşma şəraitində, dünya informasiya sivilizasiyasının təşəkkülü prosesində müxtəlif mədəni-fəlsəfi dəyərləri olan cəmiyyətlərin qarşılıqlı əlaqəsi problemi aktuallaşır ki, bu da "ümumi" universal dəyərlərin və fəlsəfi mədəniyyətlərin əsaslarının axtarılmasına təkan verməklə bərabər, həm də müəyyən cəmiyyətlər üçün ənənəvi dəyərlərin dəstəklənməsi və əsaslandırılması yolunda problemlər yaradır. Əxlaq, din, hüquq, fəlsəfə və "rigorist" tipli mədəniyyət polisubyekt sosiallığı şəraitində işləmir, çünki rəngarəng həyat tərzləri və mədəniyyətlər artıq real fakta çevrilmişdir və buna görə də ideal insani münasibətlər modelinə, cəmiyyətin və dünyanın strukturuna, şüurun "məzmununa" yönüm götürmüş maarifçilik idealı artıq özünü doğrultmur.

Tədqiqatçı A.S.Kolesnikovun düzgün olaraq qeyd etdiyi kimi, bəşəriyyətin indiki inkişaf mərhələsində dünya tarixinin və mədəniyyətinin tərəqqisi müasir cəmiyyətin qlobal problemlərinin həlli zamanı yaranan fəlsəfi-kulturoloji inteqrativ konsepsiyadır. Belə bir vəziyyətdə aydın olur ki, ayrı-ayrı sivilizasiyaların – qərb, islam, hind, afrika, çin, latınamerikası sivilizasiyalarının unikallığına və bu sivilizasiyaların müxtəlifliyinin arada qaldırılmasının mümkün olmamasına, onların mədəni, etnik, sosial plüralizminə baxmayaraq, dünya sivilizasiyasının vəhdəti haqqında tezis artıq yanlış konsepsiya deyildir. Sadəcə müasir dünyanı avropasentrizm, rasional, qərb prizmasından nəzərdən keçirmək zamanın ruhuna və qlobal planetar təfəkkürə cavab vermir.[1]

Problemə aydınlıq gətirmək məqsədilə bir daha xatırlayaq ki, hər bir sivilizasiya hansısa ilkin mənəvi şərtə, böyük ideyaya, sakral dəyərə, yaxud ilkin simvola əsaslanır ki, bunların da ətrafında mürəkkəb mənəvi subyektlər formalaşır. Məsələn, N.Danilevskinin "mədəni-tarixi tiplər",[2] A.Toynbinin "lokal sivilizasiyalar",[3] Q.Şpenqlerin "yüksək mədəniyyətlər",[4] P.Sorokinin "mədəni supersislər",[5] A.Kreberin "mədəniyyət modelləri"[6] konsepsiyaları yuxarıda xatırlatdığımız dəyərlər sisteminə əsaslanır.

---

[1] Колесников А.С. Философская компаративистика и диалог культур // Всб: Россия и Грузия: диалог и родство культур. СПб, 2003, с.202-203
[2] Н.Данилевский. Россие и Европа. М., Книга, 1991, 576 с.
[3] А.Тойнби. Постижение истории. М., Прогресс. 1991, 736 с.
[4] О.Шпенглер. Закон Европы. Новосибирск. «Наука», Сибирская издательская фирма, 1993, 593 с.
[5] П.Сорокин. Социальная и культурная динамика, В 4-х томах, СПБ,. М., Астреясь, 2006, 1176 с.
[6] Белик А. Культурология. Антропологические теории культур. Раздел: Атропология А. Крёбера – целостная теория культуры

Lakin bu gün düşünən bəşəriyyətin qəbul etdiyi həqiqət budur ki, bu gün sivilizasiyanın inkişafında dönüş epoxası baş verir və intellektuallar sivilizasiyanın inkişafının yeni yollarının axtarışındadırlar.

Bu kontekstdə aktual məsələ yeni inkişaf yolunun mahiyyətinin dərk edilməsidir. Müasir sivilizasiya çoxlu qlobal böhranlar yaratdığından onun inkişafı strategiyası, onun dəyərlər sistemi problemlər yaradır. Ona görə də dialoq prosesində aparıcı arqument olan dəyərlər sisteminin müasir anlamı müstəsna əhəmiyyət kəsb edir. Burada sivilizasiya inkişafı tiplərinə toxunmaq lazım gəlir. Lakin biz bu məsələdə geniş təfərrüata varmadan qeyd etmək istıyirik, mövcud sivilizasiya, konsepsiyalarının təhlilindən nəticə alaraq belə bir ümumi mövqeyi əks etdirmək istərdik: ənənəvi sivilizasiya tipi və bir qayda olaraq, regionda yarandığına görə qərb sivilizasiyası. Lakin qərb sivilizasiyası deyilən anlam bu gün təkcə bu regionda deyil, dünya miqyasında təzahür etməkdədir. Bu fenomeni texnogen sivilizasiya adlandırmaq daha düzgün olardı, çünki onun inkişafında yeni texnologiyaların axtarışı və tətbiqi aparıcı rol oynayır. Mühüm cəhət budur ki, ən yeni texnologiyaların tətbiqi yalnız iqtisadi artımı təmin etmir, o həm də sosial idarəetmə və sosial kommunikasiya texnologiyalarının inkişafını stimullaşdırır.

Biz texnogen sivilizasiyanın genezisi probleminə toxunmaq istəməzdik, bu problem tədqiqatlarda xeyli işıqlandırılmışdır. Yalnız bunu qeyd etmək istərdik ki, texnogen inkişaf üçün səciyyəvi olan dəyərlər və həyati mənalar sistemi özündə həmişə insanın dünyada yeri məsələsini xüsusilə başa düşmək problemini ehtiva edir.

Sivilizasiyalararası dialoqun aparıcı etik idealı fəal, suveren şəxsiyyətin başlıca dəyər kimi təmsil olunmasıdır. Əgər ənənəvi mədəniyyətlərdə şəxsiyyəti ailəvi-klan, kasta və təbəqə münasibətləri sistemində ciddi kanonlara tabe olan bir varlıq kimi təsəvvür edirdilərsə, texnogen sivilizasiyada isə fərd ideal azad fərdiliyin, avtonom şəxsiyyətin obrazı kimi təmsil olunur. Bu şəxsiyyət innovasiya və tərəqqi dəyərləri ilə yaşayır.

Qədim Çin mənbələrindən birində deyilir: “ən ağır tale dəyişikliklər dövründə yaşamaqdır”. Etiraf edim ki, bu fikri iqtibas gətirməkdə çətinlik çəkirəm, buna mən hansısa ədəbiyyatda rast gəlmişəm. Lakin fikir aktual səsləndiyi üçün bu statdan istifadə etməyi lazım bildim.

Dünya hadisələrinə müasir dəəyərlər mövqeyindən yanaşılsa, demək mümkündür ki, bizim sivilizasiya üçün dəyişikliklər və tərəqqi öz dəyərdir. İnnovasiyalar müasir sivilizasiyada başlıca dəyərdir, halbuki ənənəvi mədəniyyətlər üçün bu hal xarakterik olmamışdır. İnsan üçün pozitiv nəticələrə və sosial tərəqqiyə gətirib çıxaran dəyişdirici fəaliyyət texnogen mədəniyyətdə obyektlərin dəyişməsi qanunlarının dərk edilməsilə şərtlənən amil kimi nəzərdən keçirilir. Bu cür dərk edilmə üzvü şəkildə həmin qanunlar haqqında bilik verən elmin prioritet dəyərlə əlaqədə əlaqələndirilir. Elmi rasionallıq bu mədəniyyət tipində insan birliyi sistemində dominant amil kimi çıxış edir, onun bütün digər formalarına fəal təsir göstərir.

Texnogen cəmiyyətlər yarandıqları gündən ənənəvi sivilizasiyalara təsir göstərərək onları dəyişməyə vadar edirlər. Bu dəyişikliklər bəzən hərbi hücumun nəticəsi olur, bəzən müstəmləkəyə çevrilmə ilə nəticələnir, lakin daha çox qatılası modernləşmə proseslərinin nəticəsi olur ki, ənənəvi cəmiyyətlər texnogen sivilizasiyanın təsiri ilə bunu etməyə məcbur olurlar.

Bu gün bizim qloballaşma adlandırdığımız fenom məhz texnogen sivilizasiyanın hücumlarının məhsuludur. Texnogen sivilizasiya dünyanın müxtəlif regionlarında texniki-texnoloji müdaxilə yolu ilə müdaxilə edərək ənənəvi cəmiyyətlərin modernləşməsi dövrü-

nü yaradaraq, onları texnogen inkişaf məcrasına salırlar.

Son nəticədə elə bir texnogen vəziyyət formalaşır ki, dəyərlər sistemini dəyişməyə ehtiyac yaranır, qlobal böhranların aradan qaldırılması insan fəaliyyətinin məqsədlərini və onun etik tənzimlənmə mexanizmlərini dəyişməyi tələb edir. Biz sivilizasiyalar arası dialoqda çox zaman təbiət qarşısında, insanların məsuliyyəti məsələsinə toxunulur. Bunu bir Roma klubunun tədqiqatlarının nümunəsində daha çox görürük. Ekoloji etika çərçivəsində irəli sürülən alternativ ideala görə insanlar heyvanlara və bitkilər üzərində hakim qüvvə kimi yanaşmamalıdırlar, bunda bizim həyatımızı təmin edən vasitəni görməlidirlər.

Lakin sivilizasiyanın yaşaması və çiçəklənməsi baxımından belə bir məsələ ortaya çıxır: bu yeni dünyagörüşü obrazlarının və etim tənzimləyicilər sisteminin kütləvi şüurda kök salması imkanları hansılardır. Məlum olduğu kimi kütləvi şüurun daşıyıcıları ənənəvi cəmiyyətin etik qanunlarına uyğun olaraq təbiətə seyirçi münasibət bəsləyirlər.

Gələcək ekoloji fəlakətdən yaranan qorxu hissi yeni etikada xüsusi aktuallıqla qeyd olunur. Həqiqətən də yeni etikanın ideyaları elmi-texniki inkişafın meyillərində arxa tapmasalar bunu kənardan inkişafı məhdudlaşdırmaq kimi başa düşülə bilər. Belə bir maraqlı mənzərə yaranır: yeni etikanın ideyalarını müdafiə edən tədqiqatçıların və intellektualların əksəriyyəti ənənəvi şərq cəmiyyətlərində təbiətə qayğı ilə yanaşmanı tez-tez pozitiv hal kimi qeyd edir, buna riayət olunmasını məsləhət görürlər. Lakin ənənəvi inkişaf tipinə qayıtmaq mümkün deyil.

Texnogen sivilizasiyanın start götürdüyü Renesans (intibah) dövürndə Yer üzündə 500 milyon insan yaşayırdı, hazırda isə Planetimizdə 6 milliard insan yaşayır. Ona görə də müasir texnologiyasız planetin əhalisinin həyatını minimum belə təmin etmək mümkün deyil. Bundan əlavə, unudulmamalıdır ki, təbiətə qayğı ilə yanaşma, onun qarşısında ehtiram göstərmək insana müəyyən dərəcədə laqeydliklə müşayiət olunurdu, insan bir növ ikinci dərəcəli məxluq sayılırdı.

Ona görə də biz Şərq mədəniyyətlərinin mümkün potensialından danışarkən bu fenomenə seçimlə yanaşmalıyıq, qərb sivilizasiyasına xas olan insan dəyərdir" anlamına nəinki prioritet dəyər kimi yanaşmalı, hətta onu yeni ölçülərdə dərk etməliyik. Bu prosesdə mühüm cəhət nəinki bu və ya digər lokal ekosistemlərin qorunmasına yönəlmiş təbiəti qorumaq tədbirlər, həmçinin biosferin davamlılığını şərt kimi yeni biogeosenozların yaradılması vacibliyi ortaya çıxır.

Texnogen (qərb) mədəniyyətinin dəyərlər və dünyagörüşü obrazları sistemində insan təbiətə qarşı duran, onun fəallığı daxilə, dünyanı dəyişdirməyə yönəlmişdir. Şərq ənənəvi dəyərlər sistemi insanı təbiətin orqanizminə daxil olmuş, bir növ onda əriyən məxluq kimi nəzərdən keçirilir. Belə düşünmək olar ki, bu iki əks təsəvvürlərin sintezi bu iki istiqamətin qarşılıqlı asılılığı sayəsində mümkün ola bilər. Bu nə qərb, nə də Şərq dəyərlər sistemi deyil, akademik V.S.Stepinin sözləri ilə desək nəsə üçüncü, sintez edən müasir texnogen mədəniyyətin nailiyyətlərilə ənənəvi mədəniyyətlərin bəzi ideyalarının sintezi kimi qəbul edilə bilər.[7]

Belə bir sintezin ilkin şərtlərinin meydana gəlməsi yalnız qlobal ekoloji və antropoloji fəlakətin qorxusunun dərk edilməsi deyil, həmçinin yeni dəyərlər və fəaliyyətin yeni etik tənzimləyicilərinin axtarışını stimullaşdıran amillər sayəsində mümkündür. Tədqiqatçı V.S.Stepin hesab edir ki, yeni etikanın dəyərlərini inkar etmədən bun-

[7] Степин В.С. Глобализация, динамика культур и поиск новых ценностей. // «Философия и синергетика»

lara başqa bucaq altında baxmaq olar. Belə ki, texnogen inkişafın daxilində elmi rasional tipli dəyişiliklər və texnoloji fəaliyyətin strategiyaları ilə həmin dəyərlərin uzlaşdırılmasını təmin etmək mümkündür. Bu strategiyalar mürəkkəb özüinkişaf edən sistemlərdən ibarət olan prinsipcə yeni tip obyektlərin mənimsənilməsi ilə bağlıdır.

Özüinkişaf edən sistemlərlə strateji fəaliyyət gözlənilmədən qərb sivilizasiyası mədəniyyətilə qədim Şərq mədəniyyətləri arasında səsləşmə yaradır. Əgər mədəniyyətləri dialoqu problemini yeni dəyərlərin və sivilizasiyalı inkişafın yeni strategiyalarını işləyib hazırlayan faktor kimi qəbul etsək, bu çox mühüm məsələdir. Biz bunu perspektivli yanaşma kimi qəbul edirik.

Uzun müddət Yeni Avropa mədəniyyəti ənənəssində elm və texnologiya yalnız qərb dəyərlər sistemi məcrasında inkişaf etmişdir. İndi aydın olur ki, müasir elmi-texnoloji inkişaf tipini alternativ, sanki qərb dəyərlərinə zidd olan qərb mədəniyyətlərinin dünyagörüşü ideyaları ilə razılaşdırmaq, uzlaşdırmaq mümkündür.

İki sivilizasiyanın elementlərindən sintezyaratma ideyası tədqiqatçı üçün maraqlı ideyadır. Təəssüflə demək lazımdır ki, tolerantlıq probleminin Planet üzrə hələ reallaşmadığı bir şəraitdə belə sintezyaratma prosesinin pozitiv nəticə verəcəyinə inanmaq çətindir, hər halda bu çox çətin əldə oluna bilən nəticə verə bilər.

Lakin ümidverici hal budur ki, bu gün elmdə və mürəkkəb özüinkişaf edən texnoloji fəaliyyətdə yeni tipli rasionallığın təsdiq olunması bu gün həqiqətlə əxlaqın əlaqəsi barədə qədimşərq təsəvvürlərilə səsləşir. Əlbəttə, bu heç də həmişə qərb mədəniyyətində prioritet statusa malik rasionallığı məziyyətdən salmır.

Elmi rasionallıq tipi bu gün dəyişir, lakin rasionallığın özü müxtəlif mədəniyyətlərin başa düşülməsi və dialoqu üçün zərurət kimi qalmaqdadır, çünki dialoq mədəniyyətlərin bariz dəyərlərinə refleksiz münasibətsiz mümkün deyildir. Rasional başadüşmə bütün baza dəyərlərinin bərabərliyini mümkün edir və müxtəlif mədəniyyət aləmlərinin dialoqa açıqlığına təmin edir. Bu mənada demək mümkündür ki, qərb mədəniyyəti müstəvisində inkişaf etmiş elmi rasionallığın xüsusi dəyər olması haqqında təsəvvürlər yeni dünyagörüşü oriyentirlərinin axtarılmasında ən mühüm dayaqdır, baxmayaraq ki, rasionallığın özü müasir inkişafda yeni modifikasiyalar məruz qalır.

Bu gün rasionallığın ənənəvi mədəniyyətlərin bir çox ideyalara qarşı şərt qoyulması öz mənasını itirir. Yeni artım nöqtələri qərb mədəniyyətinin digər mədəniyyətlərlə dialoqu üçün əvvəlkindən fərqli əsas yaradır. Qlobal böhranlardan çıxmaq üçün bəşəriyyətin şansı vardır, lakin bundan ötrü mənəvi reformasiya dövrünü keçmək və yeni dəyərlər sistemini yaratmaq lazımdır.

Etiraf edək ki, bu ssenarinin reallaşması sivilizasiyanın inkişafı üçün olduqca çətin yoldur. Çox ola bilsin ki, ən yaxın vaxtlaarda qloballaşma prosesləri mədəniyyətlərin qeyri-bərabər dialoqu kimi cərəyan etsin, müasir qərb dəyərlərinin və istehlak cəmiyyıti ideallarının başqa mədəniyyətlərə fəal təsiri üstünlük təşkil etsin. Qərb dünyasının lider ölkələrinin dünya bazarı məkanında dominant vəziyyətini saxlamaq cəhdi mövcud şəraiti, durumu saxlanmasını stimullaşdıra bilər, təbiətə fəaliyyət üçün resurs kimi baxan qərb sivilizasiyasının ənənəvi dəyərləri fəal dəstəklənə bilər.[8]

Belə bir şəraitdə yeni dünyagörüşü oriyentasiyalarının formalaşdırılması meyilləri iqtisadi və siyasi, hakimiyyət strukturlarının təsiri altında dayandıra bilər. Planet miqyasında istehlakçı cəmiyyətin ideologiyası və kütləvi mədəniyyət ekoloji antropoloji

[8] http: // spkurdyumov.ru/category/philosophy/

və digər qlobal böhranların artmasına səbəb olacaqdır.

Dünya iqtisadi, siyasi və mədəni sistemlərin formalaşması prosesi, dünya iqtisadiyyatının vahid təsərrüfat mexanizmi kimi təşəkkülü məhz bu fonda baş verir. Dünya birliyinin inkişafında ən maraqlı və birmənalı qəbul edilməyən fenomen antiqlobalizmdir. Bu fenomenin obyektiv dərk edilməsi olduqca mühümdür, çünki "qlobalizm-antiqlobalizm" dilemması bu gün ümumdünya proseslərinin siyasi və kulturoloji aspektdə əks olunması ən prinsipial problem kimi çıxış edir.

Dünya birliyinin inkişaf strategiyasını və taktikasının işlənib hazırlanması üçün antiqlobalizmin özündə dünya birliyinin inkişafı üçün hansı perspektivini daşıdığını dərk etmək üçün bu fenomenin elmi səviyyədə öyrənilməsinə ehtiyac vardır. Digər tərəfdən alterqlobalizm kimi dünya miqyasında səs salmış bir fenomenin öyrənilməsinə məhz antiqlobalizm faktorunun tədqiqi mühüm kulturoloji əhəmiyyət kəsb edir.

Antiqlobalizm problemindən bəhs edərkən deyilməlidir ki, elmi baxımdan onun öyrənilməsi ilkin dərk olunma mərhələsindədir. Qlobalizm haqqında çoxlu ədəbiyyatın olduğu halda antiqlobalizm barədə yalnız ayrı-ayrı məqalələrə rast gəlmək mümkündür.

Antiqlobalizm fenomeninin nəzəri dərkinin başlanğıcını XX əsrin 90-cu illərinə aid etmək olar. Bu əsərlər içərisində meksikalı İ.Markosun "Başsındırma şəklində neoliberalizm", amerikalı N.Xomskinin "Yeni dünya nizamı", Nobel mükafatı laureatı C.Stiqlisin "Qloballaşma və narazılıq" və sairə əsərlərini göstərmək olar.

Lakin antiqlobalizmin tədqiqində yeni mərhələ 2001-ci ildə çağrılmış Ümumdünya sosial forumu ilə bağlıdır. Bu forum bütün beynəlxalq antiqlobalist qüvvələrin neoliberal qloballaşmaya alternativ birlik kimi qiymətləndirilir. Antiqlobalizmin yeni ideya-nəzəri və praktik səviyyəyə qalması dünya miqyasında bu yeni sosial-mədəni hərəkatın əsaslı şəkildə öyrənilməsini daha da aktuallaşdırmışdır. Antiqlobalizmin nəzəri təhlili sivilizasiyalararası dialoqun insani ölçülərdə öyrənilməsi üçün də mühüm aktuallıq kəsb edir.

Hər halda Ümumdünya sosial forumunun fəaliyyətinin tədqiqi-görəcəyimiz kimi – deməyə əsas verir ki, beynəlxalq antiqlobalist hərəkatında antiqlobalist qüvvələrin ideya-siyasi və təşkilati cəhətdən birləşdirməyə çalışan real qüvvə meydana gəlmişdir ki, bu da antiqlobalist hərəkatın daxilində siyasi-ideoloji proseslərin keyfiyyətcə yeni mərhələsindən xəbər verir.

Bir qədər irəli gedərək qeyd etmək istərdik ki, müasir sivilizasiyanın ziddiyyətlərinin həlli yalnız qeyri-xətti ictimai təşkilin daha yüksək səviyyəsinə keçməsi yolu ilə mümkündür. Məhz bu səviyyədə avropa sivilizasiyasının nailiyyətlərinin (texniki tərəqqi, elm) saxlamaq və onların bütün bəşəriyyətin sosial və əxlaqi dəyərlərlə üzvi əlaqəsi vasitələrini axtarıb tapmaq mümkündür.

Problemin tədqiqinə məntiqi aydınlıq gətirmək üçün sivilizasiyanın inkişafına nəzərən neqativ hal sayılan neoliberal qloballaşma anlayışından bəhs etməyi lazım sayırıq. Neoliberal qloballaşma dövlətlərin sosial, mədəni, sivilizasion və təbii xüsusiyyətlərini inkar etmək şəraitində elmi-texniki tərəqqinin nailiyyətlərindən, bazar mexanizmlərindən və azad rəqabətdən maksimum istifadə etməklə bəşəriyyətin təsərrüfat, siyasi və mədəni həyatının qlobal inteqrasiyasının sürətləndirilmiş variantı.[9]

Neoliberalizmin başlıca tələbi fərdi azadlıqları genişləndirmək, təsərrüfat həyatına dövlətin müdaxiləsini məhdudlaşdırmaq və bazar iqtisadiyyatına yönüm götürməkdir.

---

[9] Сметанина Д. Антиглобализм как социальное движение современного мира. Нижний Новогород, 2010, с.9

Neoliberal qloballaşmanı əsas həyata keçirən fiqurantlar inkişaf etmiş Qərb ölkələri və onların nəzarət etdiri Beynəlxalq iqtisadi təşkilatları BVF, ÜTT və UB yəni neoliberal qloballaşmanın institut-hüquqi mərkəzləridir. M.Kastelsin fikrincə, neoliberal qloballaşma prosesinin "həyata keçirilmə" mexanizmi belədir: hökumətlərin birbaşa hərəkətləri ilə, yaxud DNT, yaxud ÜTT-nın fəaliyyətilə milli iqtisadiyyatlara "struktur adaptasiyasının" sərt şərtləri ilə zorla qəbul etdirilir. Əsl neqativ məqam budur ki, milli iqtisadiyyatların spesifikası nəzərə alınmır.

Bu prosesdə transmilli korporasiyaların rolu müstəsnadır. Transmilli korporasiyaların böyük iqqtisadi potensialı və mobilliyi milli dövlətlərin effektivliyini dağıdaraq yeni hakimiyyət, hökmranlıq mərkəzlərinin yaradılması üçün perspektivlər açır, qlobal səviyyədə bazar oyun qaydalarını formalaşdırmaq imkanı əldə edirlər. Qloballaşma prosesləri güclə ndikcə hökumətlər daha çox xarici ailənin tələblərinə riayət etməli olurlar.

Beləliklə, tarixən obyektiv, idarə olunmaz prosesdən qloballaşma, neoliberal qloballaşma institut kimi formalaşmış və şüurlu şəkildə istiqamətlənən prosesə çevrilir. Neoliberal qloballaşma özünün indiki vəziyyətində gücü sayəsində iqtisadi inteprasiyanın təbii inkişaf prosesini pozmuş, ənənəvi dünya nizamının prinsipial əsaslarını pozmuşdur. əslində bu vəziyyətdə udan "varlı" ölkələrdir, çünki konvergensiya baş vermir, gəlirlərdə qütbləşmə yaranır, yoxsullar daha da yaxşılaşırlar.

Bir sözlə, XXI əsrdə neoliberal qloballaşma dünya geosiyasi məkanın iqtisadi və siyasi bölünməsi uğrunda mübarizənin əksidir. Qloballaşma prosesində inkişaf etmiş ölkələrin dünyanın yerdə qalan hissəsinə həmrəy qarşıdurması baş verir. Böyük dövlətlərin bu siyasi-iqtisadi ambisiyaları digər dövlətlər üçün həlli son dərəcə çətin olan sosial problemlər yaradır. Qloballaşma insanların mentalitetinə, sosial davranışına, mədəni həyatlarına böyük təsir göstərir, onların motivlərində və dəyər yönümlərində dəyişikliklər yaradır.

Şəxsiyyətin müəyyən sosiomədəni mühitlə, yaxud qrupla əlaqələrinin kəskin şəkildə zəiflədiyi bir şəraitdə qloballaşmanın təsiri nəticəsində müasir cəmiyyətlərin fərdiləşməsi prosesi baş verir ki, bu zaman şəxsiyyət dəqiq və aydın normalar, dəyərlər sistemindən, davranış standartlarından məhrum olur. Şəxsiyyətin sosial-davranış xüsusiyyətlərinin, onun cəmiyyətlə münasibətlərinin dəyişməsi isə son nəticədə sivilizasiyaların tarixi inkişafına neqativ təsir göstərir. qlobal informasiya cəmiyyətinin artmaqda olan formalaşma prosesi elmi-texniki sivilizasiyanın aktual hadisəsi kimi ona gətirib çıxarır ki, mədəni differensiasiyanın elementləri yuyulub gedir.

Bizcə, hazırki şəraitdə daha düşündürücü hal budur ki, ictimai, sosiomədəni proseslərin idarəolunması qabiliyyəti kəskin şəkildə aşağı düşür. Ona görə də, ictimai, sosiomədəni proseslərin idarə olunması sisteminin və institutların modifikasiyası son dərəcə aktual məsələdir, bu qloballaşma proseslərinə daha məhsuldar şəkildə müdaxilə etməyə imkan verir. Təbii ki, indiki halda həmin proseslərin obyektiv məntiqi ilə qarşıdurmadan, hadisələrin məntiqi ilə mübarizədən deyil, həmin proseslərin qüsurları və az sayda dövlətlərin, dar sosial qrupların bu proseslərdən ədalətsiz istifadə etməsinə qarşı mübarizədən gedir.

Vaxt keçdikcə aydın olur ki, neoliberal qloballaşma böhranından "mnilli" çıxış yolu yoxdur, yalnız "transmilli" çıxış yolunu axtarmaq lazım gəlir.

Birqütblü dünya qurmağın neoliberal nəzəriyyəsi və praktikasına qarşı çıxaraq antiqlobalistlər başqa bir müasir dünyanın sosiomədəni və siyasi-iqtisadi inkişaf modelini təklif edirlər. Antiqlobalizmin sosial-reformist variantı ən azı iqtisadiyyatda kifayət qədər

inkişaf etmiş demokratiya, insan hüquqlarına və demokratik prosedurlara hörmət şəraitində sosial-bazar təsərrüfatlar prinsipini, yəni nəzəri olaraq isveç modelini bütün dünya təsərrüfatına şamil etməyi nəzərdə tutur.

Bunu da qeyd etmək vacibdir ki, antiqlobalist hərəkatın mahiyyəti bundadır ki, o, prinsipial olaraq neoralist və çoxaspektlidir. Onun üçün iyerarxik, üfiqilik, iştirakçıların kooperasiyası,strukturların dəqiqliyi, yaranması və dağılmasının tezliyi, "daxil olmaq" və "çıxmağın" açıqlığı, resursların əlçatarlığı (hər şeydən əvvəl, informasiya resurslarının) iştirakçıların rolundan, miqyasından, resurslardan asılı olmayaraq bərabərliyi, fəaliyyətin məzmununa nəzərən forma və strukturların ikinciliyi, şəbəkə yaxud konsensus demokratiyası, yəni iştirak demokratiyası səciyyəvidir. Antiqlobalizmin bir mühüm aspekti də intersiniflikdir.

Antiqlobal hərətaın sosial tərkibi olduqca genişdir. Antiqlobalizmin şüarları altında müxtəlif ideoloji yönümlü müxtəlif təbəqələr çıxış edirlər: fermerlə, kiçik biznes nümayəndələri, hippi tələbələr, həmkarlar ittifaqları nümayəndələri, neonasistlər, "yaşıllar", dini təşkilatların nümayəndələri, işsizlər, təminatlı ailədən olan gənclər və b.

Belə nəticəyə gəlmək olar ki, antiqlobalizm sosiomədəni fenomen kimi qlobalizmin törəməsi və onun özünəməxsus əksidir.

Bu kontekstdə antiqlobalist hərəkatın neqativ obrazını yaradan antiqlobalizmin öz təbiətindən irəli gələn qüsurları da göstərmək yerinə düşərdi. Birincisi, qlobalizmin tərəfdarları antiqlobalizm qəbul edənlərdən daha mütəşəkkildirlər. İkincisi, qlobalistlərin sərəncamında hakimiyyət, çoxlu resurslar vardır, bu isə onlara nəinki dünyada öz mövqelərini müdafiə etməyə, həmçinin öz təsir dairələrini genişləndirməyə imkan verir. Üçüncüsü, qlobalistlərin dəqiq və aydın məqsədləri, dərk olunmuş prioritetləri var, halbuki qlobalistlər antiqlobalistlərə qarşı çıxarkən özlərinin bütün məsələlər üzrə pozitiv proqramlarının olmadığını üzə çıxarmış olurlar.

Üstəlik, onlar təşkilati cəhətcə zəifdirlər, hakimiyyət strukturlarında təmsil olunmurlar, tərəfdarları da yoxdur. Antiqlobalizm çox zaman ümumi konstruktiv əsasda deyil, qloballaşma prosesinin özü ilə gətirdiyi çoxlu sayda təhlükəli məqamların dərk olunması əsasında formalaşırlar.

Ümumi antiqlobalist hərəkatı təmsil edən "Qlobal müqavimət", "Xalqların azad ticarətə və ÜTT qarşı qlobal aksiyaları", "Planetin dostları" və . təşkilatlar arasında qarşılıqlı əlaqələr güclü deyil. Bu təşkilatlarla müasir sivilizasiya transformasiyalarından "narazı qalan" digər hərəkatlar da əməkdaşlıq edirlər. Bunlara nümunə kimi insan hüquqları uğrunda mübarizləri, anarxistləri, marksistləri, feministləri və s. göstərmək olar. Təbii ki, belə müxtəlif cinzli dünyagörüşün daşıyıcıları arasında müxtəlif məsələlər üzrə fikir və əqidə ayrılığı da mümkündür.

Qeyd edilən qüsurlara baxmayaraq antiqlobalistlərin öz dünyagörüşü sistemi mövcuddur. Onların əksəriyyətinin dünyagörüşü əsası ekletik elementlərin daşıyıcısı olan və vahid bütövdə müxtəlif cinsli subyektləri və hadisələri birləşdirmək qabiliyyəti olan postmodernizm fəlsəfəsidir. Bu müstəvidə antiqlobalistlərin dünyagörüşündə mühüm ele-ment qərb dünyasının dəyərlərini imperiya metodları ilə başqa ölkələrə və xalqlara zorla qəbul etdirilməsinə qarşı mübarizədir. Onların ideologiyasında öz mədəniyyətlərinin özünəməxsusluğunun, unikallığını qorumaq, öz müstəqil inkişaf yolunu seçmək imkanlarına nail olmaq mühüm yer tutur. Antiqlobalistlərin ideoloqları C.Markos, Y.Bove, C.Tobin, L.Laruş və b. əsərlərində və çıxışlarında inkişaf etmiş ölkələrdə müasir təhsil formalarının, yüksək texnologiyaların, fundamental və tətbiqi elmlərin, milli mədə-

niyyətin inkişafına təmənnasız yardım göstərilməsini tələb edirlər. onlar ümid bəsləyirlər ki, bu sahədə əldə edilən nailiyyətlərdən bütün xalqlar, o cümlədən inkişaf etmiş ölkələrin vətəndaşları istifadə edə bilərlər. Bu isə, nəticə etibarilə, mədəniyyətlərin, ənənələrin, dəyərlərin çoxcəhətliliyinin dəstəklənməsinə geniş imkanlar yarada bilər.

Antiqlobalistlər hesab edirlər ki, xalqların mədəniyyətlərin inkişafına, sivilizasiyaların dialoqunun real gedişinə mane olan faktorlardan biri "mədəni imperalizm" siyasətidir. Mədəni imperalizm deyərkən onlar müəyyən bir millətin milli mədəniyyətinin təbliğindən dünyada başqa xalqların mədəniyyətlərinə təsiri mexanizmi başa düşülür. Bu zaman antiqlobalizmin ideoloqlar açıq-aşkar amerika imperalizm siyasətini nəzərdə tuturlar.[10]

Tədqiqatçı N.A.Svetkova hesab edir ki, mədəni imperalizmi "Birləşmiş Ştatların öz iqtisadi və siyasi maraqlarını reallaşdırmaq üçün öz təsir sahəsini genişləndirmək aqressiv metodu, xarici cəmiyyət üzərində sosial nəzarət metodu, tam ya da qismən amerikanlaşdırma, qloballaşmanın obyektiv prosesi və köklü əhalinin tətbiq edilən mədəniyyət qəbul etməməsi kimi nəzərdən keçirmək olar.[11]

Amerika sosioloqu Kristofer Leş mədəni imperializm anlayışını "ABŞ-ın başqa dövlətlərin mədəni sferasına müdaxiləsi" prosesi kimi təqdim edir.[12]

Amerikanlaşma anlayışını, bir tərəfdən, miqrantların (mühacirlərin) ABŞ-ın dəyərlərinə və həyat tərzinə adaptasiyası prosesi kimi, digər tərəfdən isə amerikalıların başqa ölkələrin imkanlarından istifadə edərək onlara öz həyat baxışlarını zorla qəbul etdirmək prosesi kimi nəzərdən keçirmək olar. Bu proses ABŞ-ın dünyada tutduğu dominant mövqeyi ilə izah etmək olar...Fövqəldövlət mövqeyi Amerika üçün yalnız öz iradəsi ilə məhdudlaşan siyasətin həyata keçirilməsi üçün stimul yaratmışdır.[13]

Amerikanlaşma prosesinin nəticəsi təsirə məruz qalmış cəmiyyətə xas olan dəyərlərin, ənənələrin, həyat tərzinin transformasiya və onların amerika həyat üslubu, dəyərlərilə, maddi simvolları ilə əvəzlənməsidir. Nəticədə amerika dəyərləri əsasında vahid homogen mədəniyyət yaranır.

Bəzən amerikanlaşmanı, vesternizasiya (qərbləşmə) ilə eyniləşdirirlər. lakin vesternizasiya anlayışı da çox zaman ədalətli müstəvisini tapmır. K.K.Delakarov düzgün qeyd edir ki, "qloballaşma vesternizasiya kimi dünya birliyi, o cümlədən gənc ölkələri üçün təhlükəlidir, ona görə ki, qloballaşmanın bu cür şərhində təkcə neoliberal varlıq modelinə, həm də dünyada sənaye sivilizasiyasının hökmranlığı dövründə aktuallıq kəsb edən qlobal problemlərə universal xarakter verməyə cəhd edilir.

Lakin qeyd etmək lazımdır ki, müxtəlif mədəniyyətlərin elementlərinin qarşılıqlı nüfuz etməsi heç də həmişə amerikanlaşma çərçivəsində ümumi standartlaşmaya gətirib çıxarmır. Başqa sözlə, mütləq amerikanlaşma mümkün deyildir. Jak Elyul yazır ki, mədəniyyət universal ola bilməz, çünki insanın özü universal deyil. O, tarixi, təkamül, etnik spesifika ilə xarakterizə olunan müəyyən yerdə və zamanda yaşayır.[14]

---

[10] Концепция культурного империализма в американской политической мысли . // Образование. Наука. Научные кадры, №1, 2012, с.181-184

[11] Цветкова Н.А.Cultural imperialism. Международная образовательная политика США в годы «холодной войны» СПб. Изд-во Санкт-Петербурского Уни-та. 2013, с.213

[12] Lash Ch. The Agony of American Left. New York, 1969

[13] Шахлина Т.В. В чем «призвание» Америки? //жур. «Международные процессы» URL http: // www.intertrends.ru/five/003.htm

[14] Ellul Y. Pent. il exister uue culture technicenie? // Latexhinigue. Cahies Jacques-Ellul, 2, Bordequx, 2004. P.3

Deməli söhbət mədəni müxtəliflikdən, bu müxtəlifliyi müəyyənləşdirən mədəni dəyərlərdən gedə bilər. Üçdə iki hissəsi qeyri-qərbdən ibarət olan bəşəriyyət heç zaman razılaşmaz ki, insan mədəniyyətinin bəzəyi olan çoxsimalı, mozaik fenomenə "bir simada təmsil olunsun. Hər halda demək mümkündür ki, bəşəriyyətin ümumi sivilizasiyalı, ümumi mədəniyyətli gələcəyi olmalıdır, çox mədəniyyətlik təsdiq olunacaqdır.

Real məsələ mədəniyyətin düzgün başa düşülməsindədir. əgər söhbət mədəni identiklikdən gedirsə, bu faktor xüsusilə nəzərə alınmalıdır. Hər bir konkret mədəniyyət tipi, hər bir milli mədəniyyət yalnız, ən azı onun dəyərlərinin, dəyər münasibətlərinin dərk olunması vasitəsilə başa düşülə bilər.

Problemin milli-mədəni aspektindən çıxış edərək, demək mümkündür ki, mədəniyyət xalqın məkan-zaman həyatı və dəyərlər yönümüdür, onun üstünlük verdiyi dəyərlərdir. Bu dəyərlər hər bir milli mədəniyyətdə xüsusi şəkildə onun baza – mental özülləri ilə təşəkkül tapmış, xalqın tarixi və mədəniyyəti ilə eyni vaxtda yaranmış fenomenlərdir.

Ayrı-ayrı milli mədəniyyətlərin xüsusiyyətlərinə gəldikdə isə onlar hər bir xalqın həyatının spesifikliyindədir, onun inkişaf etdiyi zaman və məkandadır, xüsusi iyerarsiyadadır, hər bir mədəniyyətin daxilində oxşar dəyərlərin strukturundakı məzmun və psixoloji əlaqəsində və milli mentalitetin fərqli cəhətlərinə və gücündədir. Bu, heç də bəşəriyyətin ümumi mədəniyyətinin təşəkkül tapması ilə ziddiyyət təşkil etmir, çünki o, məhz çoxşimalı mədəniyyət kimi təşəkkül tapır. Mədəniyyətin təbiəti belədir.

## Ədəbiyyat

1. Колесников А.С. Философская компаративистика и диалог культур // Всб: Россия и Грузия: диалог и родство культур. СПб, 2003
2. Н.Данилевский. Россия и Европа. М., Книга, 1991, 576 с.
3. А.Тойнби. Постижение истории. М., Пргрусс. 1991, 736 с.
4. О.Шпенглер. Закон Европы. Новосибирск. «Наука», Сибирская издательская фирма, 1993, 593 с.
5. П.Сорокин. Социальная и культурная динамика, В 4-х томах, СПБ., М., Астреясь, 2006, 1176 с.
6. Белик А. Культурология. Антропологические теории культур. Раздел: Антропология А. Крёбера – целостная теория культуры
7. Степин В.С. Глобализация, динамика культур и поиск новых ценностей. // «Философия и синергетика»
8. http: // spkurdyumov.ru/category/philosophy
9. Сметанина Д. Антиглобализм как социальное движение современного мира. Нижний Новогород, 2010
10. Концепция культурного империализма в американской политической мысли. // Образование. Наука. Научные кадры, №1, 2012, с.181-184
11. Цветкова Н.А. Cultural imperialism. Международная образовательная политика США в годы «холодной войны». СПб., Изд-во Санкт-Петербургского Уни-та, 2013
12. Lash Ch. The Agony of American Left. New York, 1969
13. Шахлина Т.В. В чем «призвание» Америки? // жур. «Международные процессы». www.intertrends.ru/five/003.htm;
14. Ellul Y. Peut-il exister une culture technicienne? // Latexhinigue. Cahies Jacques-Ellul, 2, Bordeaux, 2004.

## ALTER-GLOBALISM AND CIVILIZATIONAL IDENTITY

**Z.Z.Habibova**

**SUMMARY**

This work considers the problems of alter-globalism and civilizational identity within the framework of intercultural and intercivilizational dialogue. The issues of the relationship between the societies with different cultural and philosophical values in the era of globalization are studied.

## АЛЬТЕРГЛОБАЛИЗМ И ЦИВИЛИЗАЦИОННАЯ САМОБЫТНОСТЬ

**З.З.Габибова**

**РЕЗЮМЕ**

В статье рассматриваются вопросы альтерглобализма и цивилизационной самобытности в рамках межкультурного и межцивилизационного диалога. Изучаются проблемы взаимосвязи обществ с разными культурно-философскими ценностями в эпоху глобализации.

2016 - № 44

# AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA QEYRİ-NEFT SEKTORUNUN YERİ VƏ MÖVCUD TENDENSİYALAR

**Ə.S.Sərkarlı**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Bakı, Azadlıq prospekti 20
e-mail: serkaroglu@mail.ru

***Açar sözlər:*** qeyri-neft sektoru, iqtisadi tədqiqatlar, ixrac potensialı, yerli məhsulların rəqabətqabiliyyətliliyi, inkişaf tendensiyaları, xarici ticarət
***Keywords:*** non-oil sector, economic researches, export potential, competitiveness of local products, development trends, foreign trade
***Ключевые слова:*** ненефтяной сектор, экономические исследования, экспортный потенциал, конкурентоспособность местных продуктов, тенденции развития, внешняя торговля

İqtisadi inkişafın ən mühüm faktorlarından biri iqtisadi artım göstəriciləridir. İqtisadi artım insanların gəlirlərinin artırılması və inkişaf etməkdə olan ölkədə yoxsulluğun azaldılması istiqamətində ən mühüm vasitədir. İqtisadi artım vasitəsilə insanlar maddi dəstək əldə etməklə daha sabit gələcək qurmaq və yeni iş yerləri əldə etmək imkanı qazanırlar. Bu halda sosial vəziyyət yaxşılaşır və iqtisadi irəliləyiş əldə edilir. Lakin iqtisadi artıma nail olmağı məqsəd kimi qarşıya qoyarkən onun qısamüddətli yox, daha uzun dövr üçün perspektivə hesablanması məqsəd kimi reallaşdırılmalıdır. Ümumilikdə inkişaf amili artım faktorundan ön planda olmalıdır. Tək kəmiyyət deyil, sahələrin qarşılıqlı əlaqələndirilməsi baxımından iqtisadi inkişafın dayanıqlı və artımlı olması əsas məqsəd kimi müəyyənləşdirilməlidir.

Azərbaycan əsasən iqtisadiyyatı neftə bağlı olan neft sənaye ölkəsidir. Son dövrlərdə dünya enerji bazarlarında təbii resursların qiymətinin kəskin enməsi Azərbaycan iqtisadiyyatında iqtisadi artım tempinin azalmasına səbəb olmuşdur. Dünya bankının məlumatlarına əsaslanaraq demək olar ki, ölkə iqtisadiyyatında 2015-ci ildə 1.1 faiz artım əldə edilmişdir. Bu isə 2014-cu illə müqayisədə 2.8 faiz azalma deməkdir. Neft qiymətlərinin enməsi iqtisadiyyatda gərginlik yaradır. 2015-ci ildə dövlət tərəfindən ayrılan kapital qoyuluşları hesabına qeyri-neft sektorunda irəliləyiş əldə olunsa da, daha sonra xərclərin təxirə salınması qeyri-neft sektorunun aparıcı sahəsi olan tikinti sektorunda inkişaf proseslərinin ləngiməsinə səbəb olmuşdur (1). Azərbaycanla yanaşı digər ölkələrdə də geriləmələr müşahidə edilmişdir. Tədqiqatlar göstərir ki, istehsal sahələrinin bir-biri ilə qarşılıqlı inteqrasiya edilmiş əlaqəsi özünü iqtisadiyyatın ümumilikdə geriləməsində büruzə verir. Neftin qiymətinin aşağı düşməsi onu ixrac edən ölkələrin iqtisadiyyatına mənfi təsir göstərməklə və həmin dövlətlərin bir çoxunun artan büdcə kəsirini və cari hesablar balansında yarana biləcək problemləri aradan qaldırmaq üçün milli valyutalarını devalvasiya etmək məcburiyyətini yaradır. Bu da inflyasiya riskini artırmaqla iqtisadi artım tempini azaldan ən mühüm amildir. İqtisadi artım tempi üzrə proqnozun Beynəlxalq Valyuta Fondu tərəfindən azaldılması beynəlxalq səviyyədə maliyyə sektorunda mürəkkəblik olduğunu açıq-aydın göstərir. Bununla yanaşı, proqnoz artım tempinin əks etdirilməsi zamanı iqtisadi problemlər nəzərə alınır.




İqtisadi artımın tək bir sahədən asılı olması iqtisadi inkişafı ləngidən və ona maneə yaradan ən mühüm faktordur. Azərbaycanın misalında neft sektorunun ölkə iqtisadiyyatının bütün sahələrinə nüfuz etməsi, əksər iqtisadi proseslərin neft vəsaitlərinə bağlanması maliyyə sferasından başlayaraq ölkənin ərzaq, nəqliyyat, xidmət sektorlarında müəyyən çətinliklər yaratmasına səbəb olmuşdur. Lakin hökümətin vaxtında iqtisadi islahatlar aparmaqla vəziyyətdən çıxmağa çalışması mütərəqqi hal kimi qeyd edilməlidir.

Ölkədə daxili istehsalı dəstəkləmək, rəqabətqabiliyyətini artırmaq və istehlakçıların yeri istehsal məhsullarına marağını artırmaq üçün atılan addımlar yaxın gələcəkdə ölkədə qeyri-neft sektoru məhsullarının daxili tələbatı ödəməyə qadir olacağını deməyə əsas verir. Bu baxımdan nazirlər kabinetinin Azərbaycana idxal edilən qida məhsulu olan toyuq əti və toyuq yumurtalarına, bir sıra meyvə və tərəvəz məhsullarına, meyvə şirələrinə, spirtli içkilərə yeni və daha yüksək gömrük idxal rüsumlarının tətbiq edilməsi barədə qərarı yerli istehsala dəstək məqsədilə atılmış addımdır (2). Baxmayaraq ki, ölkədə quş əti və digər məhsulların istehsalı nəzərəçarpacaq dərəcədə yüksəkdir, aşağıdakı mənfi və müsbət proseslərin müşahidə edilməsi gözlənilәndir:

- *Qısamüddətli dövrdə bu sahə məhsullarında müvəqqəti bahalaşma olacaq ki, buna da psixoloji aspekt, vəziyyətdən sui-istifadə edən işbazların fəaliyyəti, məlumatsızlıq, bəzi müəssisələrdə xammalın idxalı hesabına yerli istehsal adı altında məhsul hazırlanması təsir edir.*
- *Bu sahədə fəaliyyət göstərən müəssisələrin xərclərə qənaət məqsədilə işçilərin ixtisarına getməsi və ya əmək haqqını azaltması olacaq ki, əhalinin alıcılıq qabiliyyətinin azalmasının proqnoz edilməsi, maya dəyərinin artması ehtimalı və.s kimi məsələlər qərarın qəbul edilməsi ilə naticələnəcək.*
- *Azərbaycanın Ümumdünya ticarət təşkilatına üzvlük məsələsi ilə bağlı çətinliyin yaranması müşahidə ediləcək. Çünki ÜTT-yə üzv olan dövlətlər arasında rüsumlar aradan qaldırılmış olur. Azərbaycan da ÜTT-yə üzvlük haqqında danışıqlara 1997-ci ildən başlayıb və davam edir (3).*
- *Yerli istehsalın möhkəmlənməsi və istehlakın ödənilmə qabiliyyətini tam əldə etməsi müəyyən zaman tələb edəcəkdir. Bu da hökümətdən və aidiyyatı qurumlarda, o cümlədən müəssisə və şirkətlərdən operativ və səmərəli idarəetmə tələb edir.*
- *Bu qərarın qüvvədə olduğu iki il müddətində demək olar ki, yerli istehsalın səviyyəsini qaldırmaqla daxili tələbatı ödəyəcək səviyyəyə çatdırılacaq.*
- *Sahələrarası əlaqəni dərinləşdirməklə ümumilikdə digər qeyri neft sektoru sahələrinin*

*də intensiv inkişafına nail olunacaq.*



*- Xarici məhsuldan asılılığı aradan qaldırmaqla bərabər ölkədən valyuta axınının qarşısını almaq mümkünkləşəcək.*

*- Yerli məhsul brendlərinin möhkəmlənməsi daxili istehlakçıların marağını cəlb etməklə yanaşı, onlarda inam yaradacaq və bu da məhsullarımızın rəqabətqabiliyyətinin artması deməkdir.*

Yuxarıda haqqında bəhs edilən və qısa analizi aparılan qərar ölkənin valyuta bazarına və manatın məzənnəsinə ciddi təzyiqlərin yaranması ilə bağlı alınan iqtisadi qərarlardan biridir və yerli təsərrüfatların, biznes sahələrinin inkişafına yönəlib. Təsərrüfat subyektlərinin malik olduğu imkanların düzgün idarə olunması və kapitalı fəaliyyətin fasiləsizliyini, hazır məhsul ehtiyatlarının sabit satış səviyyəsinə uyğunlaşdırılması, müəssisə və firmaların məhsulu alıcılara kredit şəklində vermək imkanlarına kifayət etməlidir (8).

Milli iqtisadiyyatın qeyri-neft sektoru məhsullarının beynəlxalq rəqabət qabiliyyətinin təmin olunmasına da bu qərar təsir edəcək. Çünki iqtisadi sahələr bir-birilə qarşılıqlı asılı əlaqədədir. Əsas məqsəd isə ixrac istiqamətli daxili istehsalın qurulmasıdır.

2015-ci ildə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında əldə olunan yekun nəticələr göstərir ki, regional və həmçinin də qlobal səviyyədə mürəkkəb siyasi və iqtisadi hadisələrin negativ təsirlərinə baxmayaraq, ölkənin qeyri-neft sektorunda 2016-cı ildə də müəyyən müsbət tendensiyalar hiss edilməkdədir. Kənd təsərrüfatı qeyri-neft sektorunun ən böyük potensiala və ənənələrə malik sahəsi kimi 3 faizdən bir qədər çox artmışdır (7). Əlbəttə, bütün iqtisadi amilləri təhlil etdikdə bu artımın potensial imkanlardan az olduğunu görmək olur. Uğurlu nəticənin əldə edilməsi üçün kompleks tədbirlər həyata keçirilməklə yanaşı səmərəli idarəetmə təşkil edilməlidir.

***Qeyri-neft sektoru makroiqtisadi sabitliyin əsasıdır. Müasir iqtisadi proseslər və tendensiyalar onu sübut edir ki, iqtisadiyyatın diversifikasiyasının, neft amilindən asılılığın azaldılmasının, biznes mühitinin təkmilləşdirilməsinin, sahibkarlığın inkişaf etdirilməsinin nəticəsi kimi iqtisadi stabillik və inkişaf əldə etmək olar.***

Müasir dövrdə həyata keçirilən diversifikasiya siyasətinin nəticəsi kimi qeyd etmək olar ki, ÜDM-də qeyri-neft sektoru sahələrində yaradılan əlavə dəyərin payı 69 faizə qədər olmuşdur (6). Ümumiyyətlə əsas strategiya kimi ixraca hesablanmış iqtisadiyyatın qurulması istiqamətində sürətli iş aparılmalıdır. Bütün qərarlar və islahatlar daxili tələbatı ödəməkdən əlavə ixrac qabiliyyətinin artırılmasına yönəlir, məhsulların keyfiyyətinə müsbət təsir göstərməklə ölkənin müəssisə və firmalarının rentabelliyinin artması ilə nəticələnir. İqtisadi islahatın səmərəliliyi ÜDM-in artımında hiss edilir. ÜDM-in artımı dövlət iqtisadiyyatında inkişaf tendensiyasına, sosial rifaha və işsizliyin azalmasına səbəb olur.

İqtisadi inkişafda qeyri neft-sektoru məhsullarının rəqabətə davamlı olması üçün atılan addımlar bazarda onların yerinin xüsusi olaraq möhkəmləndirir. Ticarət və sosial xidmət sahələrinin müasir dövrün tələblərinə uyğun olaraq, əhalinin müxtəlif növ məhsullara (əmtəə və xidmətlərə) tələbinin artması və onların ödənilməsi nəticəsində sürətli inkişafı tendensiyası müşahidə edilir. Həmçinin nəqliyyat sektorunda müxtəlif infrastruktur layihələrinin reallaşdırılması, informasiya-kommunikasiya texnologiyaları-nın (İKT) və ondan səmərəli istifadənin inkişaf etdirilməsi sahəsində intensiv iş və islahatlar aparılır. Kənd təsərrüfatı qeyri-neft sektorunun prioritet sahəsi kimi ölkədə istehlak tələbinin əsas komponenti olan ərzaq məhsullarının bilavasitə və dolayı olaraq təklifini




http://www.maliyye.gov.az/sites/default/files/2016_budce_teqdimati.pdf (4)

təmin edir. Nəhayət, qeyd etmək lazımdır ki, xarici ticarətdə qeyri-neft sektoru yüksək ixracat potensialına sahibdir və bu sahənin real imkanları digər sahələrdən nəzərəçarpacaq dərəcədə yüksəkdir.

Azərbaycanda qeyri-neft sektorunun aparıcı istiqamətlərindən biri də turizmdir. Qeyd edilən sahə gəlir gətirmək baxımından xüsusilə seçilir. Elə buna görədir ki, son illər ölkəmizin mövcud turizm potensialının tam hərəkətə gətirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bakıda və eləcə də regionlarda müasir turizm obyektləri tikilib istifadəyə verilir, bu sahədə xidmətlərin səviyyəsi getdikcə yaxşılaşdırılır. Ölkənin turizm imkanlarından tam istifadə ümumi daxili məhsulda qeyri-neft neft sektorunun payının artmasına gətirib çıxaracaq. Belə ki, Azərbaycanın zəngin turizm potensialına malik olması və ölkədə turizm infrastrukturunun son illər sürətli inkişafı qeyri-neft sektorunun bu istiqaməti üzrə ölkəyə böyük gəlirlər vəd edir. Bu gəlirlər dövlət büdcəsinin formalaşmasında vergi amili kimi mühüm əhəmiyyətə malikdir. Büdcə gəlirlərinin davamlılığının təmin olunması dövlət proqramlarının yerinə yetirilməsində ləngimənin qarşısını alır (9). Beynəlxalq səviyyədə iqtisadi proseslərin müəyyən ləngimələrlə müşahidə olunmasına baxmayaraq, Azərbaycanda qeyri-neft sektorunun mövcud resurslarından və potensialından səmərəli istifadə etmək istiqamətində siyasət həyata keçirilir. Xüsusilə regionların sosial-iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olmuşdur. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" regionların inkişafına bütün mənbələr hesabına kifayət qədər vəsait yönəldilmişdir. 2015-ci ildə Sumqayıt şəhərində illik istehsal gücü 100 min dəst müxtəlif işçi geyimləri, gödəkçələr, kombinizonlar, kostyum və dəstlər olan tikiş fabrikinin, həmçinin illik istehsal qabiliyyəti 140 min metr müxtəlif diametrli beton boru və 500 min kv.metr beton döşəmə daşı olan beton məmulatları zavodunun, həmin ildə Cəlilabadda 1300 ha sahədə yaradılan böyük kəndli-fermer təsərrüfatının, Ucar rayonunda illik istehsal gücü 9.5 min ton olan quşçuluq təsərrüfatının istifadəyə verilməsi qeyri-neft sektorunun neftdən asılı iqtisadiyyatın alternativ gəlir mənbəyinə çevrilməsi və Azərbaycanın qeyri-neft sənayesi ölkəsi kimi dünya ölkələri arasında qabaqcıl yerlərdə dayanmasına səbəb olacaq (5).

Azərbaycanın gələcək iqtisadi tərəqqisi, xüsusən də qeyri-neft sektorunun inkişafı özəl bölmənin fəaliyyətindən və onların rəqaəbtqabiliyyətinin artırılmasından çox asılıdır.

Son illər Azərbaycanda yaradılmış əlverişli biznes mühiti, özəl sektora dövlət dəstəyinin getdikcə artırılması ölkədə sahibkarlığın sürətli inkişaf edəcəyini deməyə əsas verir. Ölkə-



də biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, o cümlədən prosedurların sadələşdirilməsi, elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, əsassız müdaxilələrin qarşısının alınması və digər istiqamətlər üzrə işlər görülür. Bundan əlavə ölkədə çoxsaylı iri istehsal, emal və infrastruktur müəssisələri istifadəyə verilməsi tendensiyası hiss edilir və bu da gələcəkdə ölkəyə qeyri-neft sektorundan da valyuta axınının olacağının və ölkə iqtisadiyyatının dayanıqlılığının artırılmasının göstəricisidir.

**Ədəbiyyat**


1. http://documents.worldbank.org/curated/en/136351467990956476/pdf/104605-REVISED-ECA-2016.pdf
2. "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə http://www.cabmin.gov.az/?/az/pressreliz/view/2038
3. https://www.wto.org/english/news_e/news16_e/acc_aze_22jul16_e.htm
4. http://www.maliyye.gov.az/sites/default/files/2016_budce_teqdimati.pdf
5. http://anfes.gov.az/az/pages/0f3b25bb-d0ed-102d-90d7-0bda273183fc/MAL%C4%B0YY%C6%8FL%C6%8F%C5%9ED%C4%B0R%C4%B0LM%C4%B0%C5%9E%20%C4%B0NVEST%C4%B0S%C4%B0YA%20LAY%C4%B0H%C6%8FL%C6%8FR%C4%B0.html
6. http://anfes.gov.az/files/Hes_2015.pdf
7. http://www.president.az/articles/20549
8. Qənimət Səfərov, Nicat Əliyev, Sima Cəlilova. Maliyyə Menecmenti: əsas anlayışlar, məsələlər, işgüzar situasiyalar və testlər. Bakı, 2012
9. Akif Musayev, Aslan Qəhrəmanov. Vergi Mədəniyyəti. İkinci nəşr. Bakı, 2010


## ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN'S NON-OIL SECTOR AND THE EXISTING TRENDS

**A.S.Serkarli**

**SUMMARY**

This article studies non-oil sector as the most important income source for economy. Economic processes in Azerbaijan and their management are also discussed. The author makes suggestions to increase the competitiveness of national economy.

## ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ НЕНЕФТЯНОГО СЕКТОРА АЗЕРБАЙДЖАНА И СУЩЕСТВУЮЩИЕ ТЕНДЕНЦИИ

**А.С.Серкарлы**

**РЕЗЮМЕ**

В статье изучается ненефтяной сектор как наиболее важный источник дохода экономики. Также анализируются экономические процессы в Азербайджане и управление ими. Автор выдвигает предложения по повышению конкурентоспособности национальной экономики.

# M Ü N D Ə R İ C A T

**K.K.Suleyman, N.K.Bilal, T.S.Abdullayev, U.I.Bayram.** Enterprise information systems and motivation Increasıng offers in enterprise systems........................................ 4
**N.A.Umarova.** Creation of terminological dictionary of intermediate language in bilingual education with using of fuzzy logic………………………………………. 20
**M.A.Altunkaynak.** İstedadlı uşaqları üstün qabiliyyətlilərdən fərqləndirən xüsusiyyətlər........................................................................................................ 35
**İ.İ.Arslan.** Azərbaycanda Türkiyə-Rusiya qarşıdurması. Berlin danışıqlarında Bakı məsələsi........................................................................................................ 40
**Л.М.Зейналова.** Принятие решений в процессе нефтедобычи в условиях неопределенности........................................................................................................ 50
**Л.М.Зейналова.** Принятие решений на основе метода нечеткой кластеризации…… 66
**Q.H.Zeynəb.** "Qloballaşma şəraitində əlverişli investisiya mühitinin yaradilması mexanizmi"........................................................................................................ 78
**A.İ.Cabbarova.** İnvestisiya məsələsində interval ehtimallarla qərar qəbuletmə................ 84
**B.M.Mübariz, B.M.Orxan.** Azərbaycan Respublikasının bank sistemində tətbiq edilmiş anti-böhran mexanizmləri........................................................................................................ 89
**Ə.M.Şəhla.** Müəssisənin maliyə dayanıqlığının təkmilləşdirilməsi.................................. 94
**M.M.Əhmədov.** Azərbaycanda mənzil bazarının dövlət tənzimlənməsinin bəzi məsələləri........................................................................................................ 106
**M.B.Əmrahova.** Qarabağ-Gəncə şivələrinin öyrənilməsi tarixi.................................... 112
**Эмин Гарибли.** Сравнительный анализ некоторых теорий экономического развития........................................................................................................ 117
**Г.Д. Гамбаров.** Современные вызовы в функционировании институциональной системы оон в контексте противодействия преступности в финансовой сфере.......... 122
**Y.İ.Gedik.** Bioloji anlayışların öyrədilməsinin səmərəli yolları..................................... 129
**T.H.Şentürk.** Tədrisdə İKT texnologiyalarindan istifadənin şagirdlərin elmi dünya görüşlərinin formalaşmasına təsiri........................................................................ 136
**Ф.Р.Джаббаров.** Полицейские рапорты о событиях февральской резни 1905 г. в Баку........................................................................................................ 143
**K.K.Suleyman, U.I.Bayram.** Şirkətlərdəki təhlükəsizlik səviyyəsini artırmaq üçün dec-pomdp algoritmi tətbiq edilmiş pua modeli.......................................................... 149
**M.O.Kadifeci.** Türkiyə Respublikasının milli təhsil nazirliyi və liseylərin idarə edilmə siyasəti........................................................................................................ 161
**Zafiq Xəlilov.** Kosmik məkanda aparılan mədən işlərinin beynəlxalq-hüquqi aspektləri.... 167
**С.А.Алиев.** Дистанционное обучение в образовательном процессе ........................ 176
**Vüqar Bayramov.** İqtisad diversifikasiya nəqliyyat sektorunun yeni imkanları aspektindən........................................................................................................ 180
**Г.Ф.БАГИРОВА.** Проблема языковой личности в современной ингвистике. 190
**İ.Erdoğan, M.H.Əliyev.** Ağız suyu və diş ərpinin mikrobioloji xüsusiyyətlərinin müəyyən edilməsi........................................................................................................ 197
**E.M Məmmədzadə.** Azərbaycan-Misir iqtisadi-ticarət əlaqələri (1991-2008)................. 205
**Q.N.Nəsirova.** Yuxari sinif şagirdlərində mənəvi dəyərlərin formalaşmasında sinifdənxaric tədbirlərin rolu........................................................................ 215
**К.Иманов, Р.Акперов, З.Асланов.** Нечеткий анализ инновационного развития Азербайджана........................................................................................................ 220

**X.F.Abdullayeva.** Azərbaycanla Türkiyə arasinda ticarət dövriyyəsinin determinantları........................................................................................................... 228
**K.İ.CABBAROVA, N.İ.HƏSƏNOVA.** Z-Ədədli xətti proqramlaşdırmanın benzin çıxımının optimal planlaşdırılmasına tətbiqi...................................................................... 235
**S.O. Əliyev.** Bank fəaliyyəti əleyhinə cinayətləri törədənin şəxsiyyəti............................ 245
**M.Ü.Əliyev.** Aqrar-sənaye müəssisələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri........................................................................................ 251
**Eldar Orucov.** Dövlət müəssisəsinin hüquqi vəziyyətinin əsasları.................................. 260
**N.R.Rustamova.** Income and consumption inequalities during recession……………….. 272
**Günay Axundova.** Daşınmaz əmlaka hüquqların məhkəmə müdafiəsi ilə bağlı işlərə baxılmasının prosessual xüsusiyyətləri............................................................................ 278
**A.M.Mustafayev, T.M.Qurbanov**. Sahələr üzrə qiymətəmələgəlmənin mövcud problemləri........................................................................................................................ 290
**Q.E.Arslan.** Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin pedaqoji-psixoloji əsasları.............................................................................................................................. 297
**S.A.Süleymanlı.** Mədəni irsin qorunması sferasında hüquqi məsuliyyət............................ 304
**Z.Z.Həbibova.** Alterqlobalizm və sivilizasiya identikliyi......................................... 311
**Ə.S.Sərkarlı.** Azərbaycanın iqtisadi inkişafında qeyri-neft sektorunun yeri və mövcud tendensiyalar....................................................................................................................... 321

## “ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ” JURNALINA TƏQDİM OLUNAN MƏQALƏLƏRİN TƏRTİBAT QAYDALARI

1. Elmlər doktorları və professorlar istisna olmaqla, hər məqalə üçün müvafiq elm sahəsi üzrə elmlər doktorunun rəyi və məqaləni çapa tövsiyə etmiş qurumun (tarix və protokol nömrəsi göstərilməklə) müvafiq iclasından çıxarış təqdim edilməlidir.

2. Jurnala təqdim olunan məqalənin strukturu ümumdünya miqyasında elmi məqalələrə şamil edilən tələblərə cavab verməlidir. Yəni, məqalədə toxunulan problem ümumi şəkildə müəyyənləşdirilməli, onun mühüm elmi və praktiki məsələlərlə olan əlaqəsi göstərilməli, müəllifin bu problem üzrə istinad etdiyi ən son işlərin təhlili verilməli, məqalənin həsr olunduğu problemin həll olunmamış hissələri, habelə alınan nəticələr və onların perspektivləri göstərilməlidir.

3. Mövzusunun səthi və tezissayağı olduğu, elmi baxımdan kifayət qədər əsaslandırılmadığı məqalələr qəbul edilmir.

4. Məqalənin başlığı qısa olmalı, məzmunu əks etdirməli və 100 işarədən artıq olmamalıdır. Məqaləyə üç dildə (Azərbaycan, ingilis və rus dillərində) açar sözlər və UOT indeksi əlavə olunmalıdır. Azərbaycan dilində təqdim olunan məqalənin sonunda ingilis və rus dillərində, ingilis dilində təqdim olunan məqalənin sonunda Azərbaycan və rus dillərində, rus dilində təqdim olunan məqalənin sonunda Azərbaycan və ingilis dillərində eyni məzmunlu xülasələr verilməlidir.

5. Məqalə jurnalın redaksiyasına bir nüsxədə printerdən çıxarılmış şəkildə (A4 formatda) və elektron variantda (kompakt diskdə) təqdim olunmalı, nüsxə müəllif tərəfindən imzalanmalıdır.

6. Məqalənun mətni Microsoft Word 2003 proqramında Times New Roman şrifti ilə yığılmalıdır. Şriftin ölçüsü 12, sətirlərarası interval 1 olmalıdır. Sol və sağ tərəfdən məsafə 2,8 sm, yuxarı və aşağıdan isə 3 sm olmalıdır. Birinci sətirdəki boşluq 1,25 sm, düstur, rəsm və cədvəllərdə interval məsafələri (yuxarı və aşağıdan) 6 punkt olmalıdır. Şəkillər (rəsmlər) 11 ölçülü rəsmaltı yazılarla müşayiət olunmalı və mətnə skan edilmiş şəkildə (yəni skannerdən keçirilmiş şəkildə) daxil edilməlidir. Cədvəllərdə şriftin ölçüsü 11 olmalıdır. Düsturlar Word Equation redaktorunda yığılmalıdır.

7. Təqdim olunun məqalə 5-15 səhifə həcmində olmalıdır (9000-27000 işarə). Həcmi 15 səhifəni aşan məqalə yalnız redaksiya heyətinin razılığı ilə qəbul olunur. Mətnin qrammatik cəhətdən düzgünlüyü müəllif tərəfindən yoxlanılmalıdır.

8. Qoşma səhifədə müəllifin adı, soyadı, atasının adı, elmi dərəcəsi (varsa), iş yeri, iş yerinin ünvanı, müəllifin e-mail ünvanı və əlaqə telefonları göstərilməli, habelə əlyazmanın əvvəllər heç bir elmi nəşrdə dərc olunmadığı qeyd olunmalıdır.

*əlaqə telefonu: (050) 645-13-58*
*email: fuadhud@yahoo.com*
*ünvan: Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13, Odlar Yurdu Universiteti, otaq №384*
*http://www.oyu.edu.az/index.php?newsid=39*

## GUIDE FOR AUTHORS

1. All the submitted articles must be peer-reviewed. The peer-reviewers name and affiliation must be included as part of the article to be located at the end after the References. It should be on a separate line 2 lines below the last reference and start with the words "Reviewed by…".
2. The contents of an article must meet generally accepted international scientific norms. The aim and the purpose of the article as well as its feasibility must be clearly indicated. It should deal with innovative ideas, developments, directions, misdirections, areas which need to be explored, future outlook, prior errors, problems, personnel, funding, or trends in the chosen field.
3. The manuscript with incomplete coverage of the subject will not be accepted.
4. The title of the article must be concise not to exceed 100 characters and be in full conformity with the contents. The article should include keywords and subject index (UDC). Also, an abstract is required consisting of: 1. 50-100 words; 2. author affiliations; and 3. date of submission.
5. Overseas authors are expected to submit their articles electronically to fuadhud@yahoo.com. Local contributors should submit a hard copy (in A4 format) and electronic version of their articles (in a compact disk) directly to the editorial office (see contact addresses at the bottom of this page).
6. Microsoft Word 2003 is the only preferred input program. The font used should be Times New Roman of 12 points. Text must be single spaced with 2.8 cm left/right margins and 3 cm top/bottom margins. Figures must be scanned and captioned in 11-points Times New Roman. Formulae should be input using Word Equation. And tabular data should be input using 11-points Times New Roman.
7. Authors are encouraged to submit articles ranging from 5-15 pages (including appendixes, references, figures and tables). Sanction of editorial board is required for the acceptance of manuscripts exceeding 15 pages. The author should check the text for grammar.
8. Each article should include title, name, patronymic, current affiliation, postal address, e-mail and phone numbers of the author who should also provide a written evidence that the presented manuscript has been never published before.

*Tel.: (+994 50) 645 13 58*
*email: fuadhud@yahoo.com*
*Postal address: Room 384, Odlar Yurdu University, 13 K.Rahimov St., Baku AZ1072, Azerbaijan*
*http://www.oyu.edu.az/eng/index.php?newsid=96*

# ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. За исключением докторов наук и профессоров, каждая статья должна иметь рецензию доктора наук в соответствующей области науки или же утвердительную выписку из заседания ученого совета соответствующей организации с указанием даты заседания и номера протокола.

2. Структура представляемой в журнал статьи должна отвечать общемировым требованиям к научным статьям. То есть, статья должна включать определение проблемы в общем виде, её связь с важными научными и практическими задачами; анализ последних достижений и публикаций по данной проблеме, на которые опирается автор; выделение нерешённых частей проблемы, которым посвящается данная статья; формирование целей статьи (постановка задачи); содержание основного исследования с полным обоснованием полученных научных результатов; выводы из проведенного исследования и перспективы в данном направлении.

3. Рукопись, в которой материал изложен поверхностно, тезисно, без достаточного научного обоснования - не принимается.

4. Заголовок должен быть кратким, отражать содержание статьи и не превышать 100 знаков. Статья должна содержать ключевые слова на трёх языках (азербайджанском, английском и русском) и индекс УДК. Если язык статьи – азербайджанский, в конце приводятся идентичные по содержанию резюме на английском и русском языках. Аналогично, англоязычная статья сопровождается азербайджанским и русским, а русскоязычная – азербайджанским и английским резюме (идентичного содержания).

5. Рукопись представляется в редакцию журнала в одном экземпляре хорошего качества формата А4 вместе с электронным вариантом (на компактном диске). Экземпляр подписывается автором.

6. Текст статьи должен быть набран в программе Microsoft Word 2003 шрифтом Times New Roman 12 размера с одиночным междустрочным интервалом. Верхние и нижние поля – 3 см, левые и правые – 2.8 см. Отступы: первой строки (абзац) – 1,25 см, интервалы (выше и ниже) от формул, рисунков, таблиц – 6 п.т. Рисунки и фото сопровождаются подрисуночными текстами в шрифте Times New Roman 11 размера и вставляются в текст в отсканированном виде. Формулы набираются в редакторе Word Equation с полуторным междустрочным интервалом.

7. Объём представляемой статьи должен быть в пределах 5 - 15 страниц (9000 – 27000 знаков без пропусков). Статьи большего объема принимаются только по согласованию с редколлегией журнала. Текст должен быть проверен на грамматические ошибки, вычитан и просмотрен автором.

8. На отдельной странице указываются фамилии, инициалы автора, учёная степень (если имеется), место работы, почтовый адрес места работы, а также электронный адрес и контактные телефоны автора. В сопроводительном письме следует указать, что рукопись ранее нигде не публиковалась.

*контактный телефон редакции: (+994 50) 645 13 58*
*email: fuadhud@yahoo.com*
*адрес: Баку AZ1072, ул.Кёроглу Рахимова 13, Университет Одлар Юрду, комната №384*
*http://www.oyu.edu.az/ru/index.php?newsid=48*

Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyində qeydiyyatdan keçmişdir

This Journal is registered at the Ministry of Press
and Information of the Republic of Azerbaijan

Lisenziya №138
10 fevral 1999-cu il
********
License No. 138
February 10, 1999

Yığılmağa verilmişdir: 25.10.2016. Çapa imzalanmışdır: 31.10.2016
Formatı: 60x84 1/8. Həcmi: 42 ç.v. Ofset çap üsulu. Tiraj: 500

Sent for print: 25.10.2016. Authorized for printing: 31.10.2016
Format: 60x84 1/8. Volume: 42 p.l. Offset printing. 500 copies.